# MÜASİR AZƏRBAYCAN
## *dövrün baxışında*

**II cild**

**BAKI – 2011**

Kitab «Azərbaycan»
qəzetinin redaksiyası
tərəfindən hazırlanmışdır

**Buraxılışa məsul:**
Bəxtiyar SADIQOV,
«Azərbaycan» qəzetinin Baş redaktoru,
Milli Məclisin deputatı

ISBN 5-86874-472-1

© «Azərbaycan» qəzeti

**Kitab müasir Azərbaycanın dövlət müstəqilliyinin banisi ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf edilir**



*Biz bundan sonra da Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli varisləri olacağıq, xalqımızın milli azadlığını qoruyacağıq, saxlayacağıq. Biz Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyacağıq və günü-gündən möhkəmləndirəcəyik, daha da yüksəklərə qaldıracağıq!*

**Heydər ƏLİYEV**



*Biz müstəqilliyimizin 20 illiyini qeyd edirik. 20 il böyük tarixi mərhələdir. Mən hesab edirəm ki, birinci iki ili çıxmaq şərti ilə Azərbaycan 20 il ərzində çox uğurla və inamla inkişaf edib, ölkə qarşısında duran bütün vəzifələr icra edilib, ölkəmiz güclənib və dünya xəritəsində öz layiqli yerini tuta bilibdir.*

**İlham ƏLİYEV**

## I FƏSİL

# Azərbaycanı modern dövlətə çevirən islahatlar

# Milli maraqlara söykənən qətiyyətli mövqe

*«Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç zaman razılaşmayacağıq. Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik. Erməni tərəfi nəhayət başa düşməlidir ki, onun başladığı münaqişə Azərbaycan xalqını çox böyük fəlakətlərə və iztirabara məruz qoyduğu kimi, erməni xalqını da ağır vəziyyətə salmışdır».*

Heydər ƏLİYEV

**Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyi təhdid edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 20 illik müstəqillik tariximizin ən ciddi problemi olaraq qalır. Ermənistan və Azərbaycan arasında 1994-cü ilin 12 mayında atəşkəs rejiminin tətbiqini nəzərdə tutan Bişkek müqaviləsinin imzalanmasından 17 il ötsə də, İrəvanın qeyri-konstruktiv, təcavüzkar siyasəti üzündən beynəlxalq birliyin münaqişəni dinc yolla tənzimləmək cəhdləri hələ ki fayda vermir. Ötən illərdə ATƏT-in Minsk Qrupu həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) fəal vasitəçiliyi ilə aparılan üzücü və gərgin danışıqlar prosesi bir neçə dəfə problemin real həll müstəvisinə yönəlsə də, Ermənistan rəhbərliyinin aşkar siyasi cığallığı və siyasi qətiyyətsizliyi üzündən sülhə gəlmək mümkün olmamışdır.**

## Qarabağ münaqişəsi: tarixi faktlar nə deyir?

Erməni millətçilərinin azərbaycanlılara və türklərə qarşı iki yüz ildən artıq müddətdə həyata keçirdikləri mənfur siyasətin məntiqi nəticəsi olan bu münaqişənin əsas məqsədi ilk gündən azərbaycanlıları tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu «Böyük Ermənistan» dövlətini yaratmaq olmuşdur. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün müntəzəm surətdə ideoloji, hərbi və təşkilati xarakterli iş aparılmış, ən çirkin üsul və vasitələrdən istifadə edilmişdir. Azərbaycan xalqının tarixi kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələri, toponimləri erməni tarixçiləri və «ideoloqlarının» təcavüzünə məruz qalmışdır.

Tarixən başqa dövlətlərin ərazilərinə göz dikən ermənilər millətçiliyi və şovinizmi, qonşu xalqlara nifrət ideologiyasını rəhbər tutaraq son iki əsrdə «milli-mədəni», siyasi və hətta terrorçu təşkilatlar yaratmış, erməni diasporunun və lobbisinin imkanlarını bu məqsədlərə səfərbər etmişlər. 1813-cü və 1828-ci illərdə Rusiya ilə İran arasında imzalanmış «Gülüstan» və «Türkmənçay» müqavilələrı Azərbaycan xalqının parçalanmasının, tarixı torpaqlarının bölünməsinin əsasını qoymuşdur. 1849-cu ildə Rusiya ərazisində İrəvan quberniyası yaradılmış, ermənilərin İrandan və Türkiyədən kütləvi surətdə Azərbaycan torpaqlarına, Dağlıq Qarabağa köçürülməsi prosesinə başlanılmışdır. Beləliklə, soyqırımı və terror Azərbaycan torpaqlarının işğalı üçün istifadə edilən əsas vasitələrdən birinə çevrilmiş, İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər, orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında «erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail olmuşlar.

Belə süni ərazi bölgüsü ilə azərbaycanlıların öz tarixi torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyulmuşdur. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil etmişdir. «Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişlər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etmişdir. Yüzlərlə yaşayış məntəqəsi dağıdılaraq yerlə yeksan edilmiş, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir.

Birinci dünya müharibəsindən, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail olmuşlar. 1918-ci ilin 18 martında əzəli Azərbaycan torpaqlarında Ararat Respublikası, sonra isə Ermənistan dövləti yaradılmışdır.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin birinci forumunda möhtərəm Prezident İlham Əliyev bununla bağlı demişdir: «Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazı qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətlərində dəyişiklik etməlidirlər, Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlarından əl çəkməlidirlər».

1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanılmışdır.

Həmin günlərdə ermənilər 30 mindən artıq dinc azərbaycanlı əhalini yalnız milli mənsubiyyətinə görə məhv etmiş, evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

1920-ci ildən sonra Zaqafqaziyanın sovetləşməsindən çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın torpaqlarının bir hissəsini Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ «muxtar vilayət» elan olunmuşdur. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atmışlar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusı qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olmuşlar.

Erməni millətçiləri ötən əsrin 50-ci illərindən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvı təcavüz kampaniyasına başlamışlar. Ermənistanda yaşayan azərbaycanlı əhalinin hüquqları ermənilər tərəfindən kobudcasına pozulmuş, ana dilində təhsil almalarına əngəllər törədilmiş, onlara qarşı repressiyalar həyata keçirilmişdir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş vermişdir. Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Azərbaycan xalqının mənəviyyatına, milli qürununa və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaratmaq məqsədinə yönəlmişdir. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata

keçirdikləri antiazərbaycan təbliğatı ötən əsrin 80-ci illərinin sonunda daha da güclənmişdir.

Hələ respublikaya rəhbərliyinin birinci dövründə ermənilərin məkrli planlarının qarşısını qətiyyətlə alan ulu öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından dərhal sonra erməni separatizmi ilk hücumuna – informasiya savaşına başlamışdır. A.Aqanbekyan 1987-ci il noyabr ayının 18-də Fransanın «Humanite» qəzetinə verdiyi müsahibəsində cəfəng iddia ilə çıxış edərək demişdir ki, «mən iqtisadçı kimi əmin edirəm ki, DQMV-nin coğrafi cəhətdən daha çox bağlı olduğu Ermənistana birləşdirilməsi düzgün olardı. Bu barədə mənim xüsusi təklifim var və onu artıq təqdim etmişəm. İnanıram ki, yenidənqurma və demokratiya şəraitində bu problem öz həllini tapacaq». Bu müsahibə separatizm meyillərinin aşkar büruzə verilməsi üçün siqnal rolunu oynamışdır.

1988-ci ilin yanvar ayınadək Dağlıq Qarabağ münaqişəsinin yeni mərhələsinin startı üçün bütün hazırlıq yekunlaşmış, Heydər Əliyevin İttifaq rəhbərliyindən uzaqlaşdırılması ilə mərkəzdə ermənilərin xeyrinə dəyişən balans problemin həllində Moskvanın birbaşa olaraq ermənipərəst mövqe tutacağını şərtləndirmişdir. Sonrakı mərhələdə isə Ermənistandan xalq deputatları qismində vilayətə gələn emissarların təşkilatçılığı ilə fevralın 13-də Xankəndidə ilk nümayiş keçirilmişdir. Fevralın 20-də çağırılan vilayətin Xalq Deputatları Sovetinin fövqəladə iclasında gündəliyə yalnız bir məsələ – DQMV-nin Ermənistana birləşdirilməsi ilə bağlı təklif müzakirəyə çıxarılmış və antikonstitusion qərar qəbul edilmişdir. Belə bir qeyri-konstitusion qərarın verilməsi, eləcə də SSRİ rəhbərliyinin bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmağa çalışması ilə Azərbaycan zorən hərbi münaqişəyə cəlb edilmişdir.

1988-ci ilin yanvarından başlayaraq Ermənistandan azərbaycanlıların kütləvi şəkildə qovulması prosesinə start verilmiş, buna etiraz olaraq Bakıda və Sumqayıtda «Dağlıq Qara-

bağ Azərbaycanın ayrılmaz hissəsidir» şüarları ilə kütləvi aksiyalar başlanmışdır. Ermənilərin tərxibatçı fəaliyyəti nəticəsində münaqişə sürətlə qloballaşmış, əvvəlcə Əskəranda iki azərbaycanlı soydaşımız erməni terrorçuları tərəfindən qətlə yetirilmiş, daha sonra Xankəndidə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxması tələbi ilə mitinqlər başlanmışdır. Azərbaycanın proseslərə aktiv müdaxilə məqsədi ilə erməni terrorçuları Sumqayıtda xüsusi plan əsasında öz soydaşlarına qarşı qarət və qətllər həyata keçirdilər. Erməni lobbisinin xeyir-duası ilə təşkil edilən Sumqayıt qırğınlarından Azərbaycana qarşı informasiya müharibəsində uğurla istifadə olundu. Qarət və qətllərdə iştirak edən bir neçə erməninin tutulmasına baxmayaraq, bədnam qonşularımız bu günə qədər də Sumqayıt hadisələri ilə spekulyasiya etməyə, beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar.

Ümumiyyətlə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin birinci mərhələsi erməni separatçılarının Dağlıq Qarabağ və ətraf rayonlarda nəzarəti təmin etməsi və aktiv hərbi əməliyyatlarla xarakterizə olunur. Bu dövrü səciyyələndirən əsas xüsusiyyətlərdən biri də Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanda hakimiyyət uğrunda qarşıdurma fonunda inkişafıdır. 1988-ci ildən 1993-cü ilin ortalarına kimi Azərbaycanın ali hakimiyyət strukturlarına altı şəxs – Kamran Bağırov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Yaqub Məmmədov, İsa Qəmbər, Əbülfəz Elçibəy rəhbərlik etmiş, lakin bu şəxslərin heç biri münaqişənin alovlanmasının qarşısını ala bilməmişdir.

1988-1993-cü illərdə Azərbaycanda baş verən hakimiyyət dəyişiklikləri işğalın əhatə dairəsinin Dağlıq Qarabağ hüdudlarından kənara çıxmasına rəvac vermişdir. Münaqişənin birinci dövrü təkcə hakimiyyət uğrunda siyasi çəkişmələrlə xarakterik deyildir. İşğalın real nəticələri də məhz bu dövrdə formalaşmışdır. Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş,

Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən bir milyon nəfərə yaxın insan ev-eşiyindən didərgin düşmüş, işğal zonasında separatçı strukturların formalaşması prosesi başlanmışdır.

Bu mərhələdə münaqişənin həlli prosesinə beynəlxalq təşkilatların cəlb olunması da nisbi xarakter daşımışdır. SSRİ süquta uğrayan dövrə kimi münaqişənin «həlli» missiyasını Moskva həyata keçirmiş, müstəqilliyin ilk illəri isə beynəlxalq təşkilatların prosesə son dərəcə zəif müdaxiləsi ilə yadda qalmışdır. Münaqişənin həlli prosesinə kənar qüvvələrin cəlb olunması formal baxımdan ilk dəfə 1991-ci il sentyabrın 23-də baş vermişdir. Azərbaycan və Ermənistan rəhbərləri Rusiya və Qazaxıstandan olan həmkarlarının təşəbbüsü ilə Jeleznovodskda görüş keçirərək münaqişənin sülh yolu ilə həlli barədə ilkin razılığa gəlsələr də, Ermənistan tərəfi bu razılaşmaya əməl etmədi.

**Beynəlxalq təşkilatların uğursuz vasitəçilik səyləri**

Münaqişənin ilkin mərhələsində beynəlxalq təşkilatların problemin həllinə cəlb olunması heç bir effekt verməmiş, əksinə, problemin həllinə xarici müdaxilə daha çox münaqişənin dərinləşməsinə gətirib çıxarmışdır. 1992-ci ilin sentyabrında imzalanan Jeleznovodsk sazişindən cəmi bir həftə sonra Azərbaycanın Martuni və Hadrut rayonları (Xocavənd) işğal edildi, noyabrın 20-də isə Qarakənd səması üzərində «Mİ-8» vertolyotunun vurulması nəticəsində Azərbaycanın bir sıra rəhbər şəxsləri həlak oldular. Və yaxud, Xocalı soyqırımı məhz ATƏT məruzəçisinin münaqişə zonasına bir həftəlik səfərindən sonra baş vermiş, Ermənistan və Azərbaycan rəhbərlərinin Tehran görüşü isə Şuşa və Laçının işğalı ilə nəticələnmişdi. Atəşkəs haqqında Soçi razılaşması isə Ermənistan Silahlı Qüvvələrinin Zəngilan rayonunun səkkiz kəndini işğal etməsi

ilə əhəmiyyətsiz bir sənədə çevrilmiş oldu. Münaqişənin beynəlxalq təşkilatların vasitəçiliyi ilə həllinə dair Cenevrə toplantısı isə Kəlbəcərin işğalı ilə fiaskoya uğradı.

Beynəlxalq birliyin münaqişənin həlli prosesinə aktiv müdaxiləsi isə 1992-ci ilin yanvarında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Şurasının toplantısında baş verdi. Məhz həmin toplantıda Azərbaycan və Ermənistan quruma tamhüquqlu üzv qəbul olundu, təşkilat rəhbərliyi münaqişə bölgəsinə məruzəçi göndərmək barədə qərar çıxardı. Avropalı məruzəçinin regiona ilk səfəri 12-18 fevral tarixinə təsadüf edir. Qurumun martın 24-də Helsinkidə keçirilən növbədənkənar toplantısında Dağlıq Qarabağ münaqişəsinin həllinə dair beynəlxalq konfrans keçirilməsi barədə qərar qəbul olunmuş, münaqişənin həlli ATƏT-in Minsk Qrupuna həvalə edilmiş, Mario Rafaelli Minsk Qrupunun sədri seçilmişdir.

Danışıqların yeni formatı çərçivəsində növbəti görüş 1993-cü ilin martına təsadüf etdi. Aprelin əvvəllərində Ermənistanın Kəlbəcər rayonunu işğal etməsinə etiraz əlaməti olaraq ABŞ təmsilçisi Cenevrə danışıqlarında iştirakdan rəsmən boyun qaçırdı. Nəhayət, Dağlıq Qarabağ münaqişəsinin birinci mərhələsi BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi ilə yekunlaşmış oldu. 822 saylı qətnamədə beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyi bir daha təsdiq olundu. Ermənistanla Azərbaycan arasında münasibətlərin pisləşməsindən narahatlıq ifadə edən  qətnamədə bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət ifadə edildi. Bundan başqa, bütün işğalçı qüvvələrin Kəlbəcərdən və Azərbaycanın işğal edilmiş digər rayonlarından dərhal çıxarılması tələb olundu. Qətnamədə bölgədə sabitliyin və əmin-amanlığın təhlükə altında olduğu qeyd edildi, məcburi köçkünlərin sayının artması narahatlıqla önə çəkildi. Kəlbəcər rayonunda yaranmış fövqəladə vəziyyətin doğurduğu problemlərin aradan qaldı-

rılmasının zəruriliyi bildirildi. Sonrakı dövrdə isə Ermənistan Silahlı Qüvvələrinin 822 saylı qətnamənin şərtlərinə məhəl qoymaması BMT Təhlükəsizlik Şurasının əlavə qətnamələr qəbul etməsi ilə nəticələndi.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il iyulun 29-da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 853 saylı daha bir qətnamə qəbul etməsinə əsas səbəb isə Ermənistan Silahlı Qüvvələrinin Ağdam rayonunu işğal etməsi idi. Elə bu səbəbdən qətnamədə Ağdam rayonunun işğalı və hərbi əməliyyatların genişlənməsi pislənirdi. Qətnamədə Azərbaycan vətəndaşlarının böyük qisminin məcburi köçkün kimi yaşamasından aşkar narahatlıq ifadə edilir, tərəflərin münaqişəni dayandırmaq üçün atəşkəsə nail olmalarının zəruriliyi bildirilirdi. Təhlükəsizlik Şurası növbəti dəfə dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığının təmin olunmasının vacibliyini bəyan edərək Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinin (ATƏM) sülh prosesini sürətləndirmək cəhdlərini müsbət məqam kimi diqqətə çəkirdi.

853 saylı qətnamə məzmununa görə əvvəlki qətnamədən xeyli fərqlənirdi. Məsələ bundadır ki, 822 saylı qətnamədə Azərbaycan ərazilərinə daha çox yerli erməni qüvvələrinin təcavüz etməsinə diqqət yetirilirdi. Yeni qətnamədə isə işğalçı kimi heç də «yerli erməni qüvvələri»ndən bəhs edilmir, ermənilər münaqişədə iştirak edən tərəf kimi təqdim olunurdu. Bu, əslində, Ermənistanın bir dövlət kimi işğal prosesində fəal iştirak etməsinə açıq işarə idi. Məhz həmin işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan və işğal olunmuş digər ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. 853 saylı qətnamənin 9 və 10-cu bəndlərində səslənən fikirlər Ermənistanın BMT tərəfindən işğalçı dövlət kimi qəbul edildiyinin göstəricisi idi. Qətnamənin 9-cu bəndində Təhlükəsizlik Şurası Ermənistanı təkidli şəkildə Dağlıq Qarabağ ermənilərinə təsir göstər-

məyə, əvvəlki qətnamənin şərtlərinə uyğun olaraq işğal altında olan ərazilərdən çıxarmağa çağırırdı. Əslində, bununla BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ ermənilərinin məhz Ermənistandan idarə olunduğunu diqqətə çatdırırdı. 853 saylı qətnamənin 10-cu bəndində isə konkret ad çəkilməsə də, burada yer alan fikirlərin bilavasitə Ermənistana ünvanlandığı aşkar görünür. Həmin bənddə qeyd olunur ki, BMT Təhlükəsizlik Şurası dövlətləri münaqişənin güclənməsinə və ya ərazinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və ləvazimat göndərməkdən çəkinməyə təkidlə çağırır. Xatırladaq ki, həmin dövrdə Dağlıq Qarabağ ermənilərinin əsas silah təchizatı məhz Ermənistandan gəlirdi.

853 saylı qətnamədə digər mühüm cəhət bu idi ki, sənəddə mülki şəxslərə hücumlar edilməsi, yaşayış rayonlarının bombalanması və top atəşlərinə tutulması kəskin şəkildə pislənirdi. Bütün bunlar yeni qətnamənin Ermənistan üçün əvvəlkindən daha sərt xarakter daşıdığını əyani şəkildə nümayiş etdirirdi. Lakin hər iki qətnamənin kağız üzərində qalması son nəticədə Ermənistan Silahlı Qüvvələrinin xarici havadarlarının köməyilə Azərbaycan ərazilərinin işğalını davam etdirməsi ilə nəticələndi. 1993-cü ilin avqustunda Ermənistan Füzuli rayonunu işğal etmək məqsədi ilə hərbi əməliyyatları gücləndirdi ki, bu da sonda BMT Təhlükəsizlik Şurasının sədri adından yeni bəyanatın yayılmasına səbəb oldu. Təhlükəsizlik Şurası sədrinin bəyanatında bir daha Azərbaycan ərazilərinin işğalı faktı təsdiq edilir, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu vurğulanırdı.

Həmin dövrdə qəbul edilən bu bəyanatın və bundan əvvəlki iki qətnamənin icra olunmaması BMT Təhlükəsizlik Şurasının 1993-cü il oktyabrın 14-də sayca üçüncü olan 874 saylı qətnaməsinin qəbulu ilə nəticələndi. Bu qətnamədə 822 və 853 saylı qətnamələrdə yer almış tələblər bir daha təsdiqlənir, xüsusi vurğulanırdı ki, Ermənistan və Azərbaycan

arasındakı münasibətlərdəki gərginlik bölgədə sülh və təhlükəsizliyə potensial təhdiddir. BMT Təhlükəsizlik Şurası qətnamədə həmçinin Azərbaycanda böyük sayda mülki şəxsin məcburi köçkün vəziyyətə düşməsi ilə əlaqədar narahatlığını da ifadə edirdi.

Bütün bunlar diplomatiyada üstünlüyün tədricən Azərbaycan tərəfinə keçdiyini göstərirdi. Lakin ümummili lider Heydər Əliyevin hakimiyyətə qayıdışınadək iqtidarda olan qüvvələrin yaratdığı hərcmərcliyin doğurduğu fəsadlar, habelə Ermənistana xaricdən verilən ciddi dəstək bu ölkənin işğalçı qüvvələrinin 1993-cü ilin oktyabrında Zəngilan rayonunu tutması ilə nəticələndi. 1993-cü il noyabrın 11-də isə BMT Təhlükəsizlik Şurası Azərbaycanın növbəti müraciətinə baxaraq sayca dördüncü olan 884 saylı qətnaməni qəbul etdi. Yeni qətnamədə Horadiz qəsəbəsinin və Zəngilan rayonunun işğalı faktından narahatlıq ifadə edilir, bir daha işğalçı qüvvələrin bu və digər ərazilərdən çıxarılması tələb olunurdu. Qətnamədə bir daha Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsi, Ermənistan və Azərbaycan arasında münasibətlərin gərgin olaraq qalması region üçün ciddi təhlükə mənbəyi kimi dəyərləndirilirdi.

Təəssüflə vurğulamaq lazımdır ki, sonrakı dövrdə Ermənistan BMT Təhlükəsizlik Şurasının bu qətnamələrinin şərtlərini yerinə yetirmədi və bu gün də işğalçılıq siyasətini davam etdirir. Lakin sözügedən qətnamələrin qəbulundan sonra beynəlxalq aləmdə mövqeləri güclənən Azərbaycan ermənilərin işğalçı siyasətinin dünya miqyasında ifşasına nail oldu. BMT qətnamələrinin yerinə yetirilməsi digər beynəlxalq təşkilatların da Ermənistanın qarşısında irəli sürdüyü əsas tələblərdən biridir.

1994-cü ildə BMT Baş Assambleyasının sessiyalarında ilk dəfə olaraq ulu öndər Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir. Ümummilli lider ilk dəfə Azərbaycan Respublikasının Prezidenti kimi həmin tribunadan

istifadə edərək Azərbaycanın haqq səsini dünyaya çatdırmış, Ermənistanın ölkəmizə qarşı təcavüzünü və onun ağır nəticələrini beynəlxalq aləmə bəyan etmişdi.

1996-cı ildən başlayaraq BMT Baş Assambleyası «BMT və ATƏT arasında əməkdaşlıq haqqında» qətnaməsində Azərbaycan Respublikasının ərazi bütövlüyünü (Azərbaycan Respublikasının Dağlıq Qarabağ və onun ətrafında olan münaqişə) təsdiqləmişdir.

Bununla yanaşı, BMT Baş Assambleyasının prinsipial mövqeyi sayəsində 2004-cü il 23 noyabrda BA-nın 59-cu sessiyasının gündəliyinə «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı 163 nömrəli bənd daxil edilmişdir. Azərbaycan Respublikasının təşəbbüsü ilə BA-nın gündəliyinə salınmış bu bənd Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın həyata keçirdiyi məskunlaşdırma fəaliyyətinin qarşısının alınması istiqamətində səmərəli və ədalətli addımlar atılması üçün münbit şərait yaratmışdır.

Azərbaycanın diplomatik səyləri nəticəsində 2008-ci il martın 14-də BMT Baş Assambleyasının 62-ci sessiyasında «Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət haqqında» qətnamə qəbul olundu. Burada Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət və dəstək təsdiqlənir, Ermənistan Silahlı Qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz çıxarılması tələb edilir, işğal olunmuş ərazilərdən qovulmuş əhalinin öz torpaqlarına qayıtması və normal şəraitlə təmin olunması hüququ təkrarlanır, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları üçün normal, bərabər yaşayış şəraitinin yaradılmasının zəruriliyi vurğulanır, Minsk Qrupunun münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə yönəlmiş vasitəçiliyinə dəstək ifadə olunur. Sənəddə deyilir ki, heç bir dövlət Azərbaycan ərazilərinin işğalı ilə nəticələnən vəziyyəti qanuni vəziyyət kimi tanımamalıdır.

Son 19 ildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan əsas beynəlxalq təşkilat isə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) olmuşdur. Azərbaycanın Avropanın mühüm təşkilatlarından olan ATƏM-ə (1 yanvar 1995-ci ildən ATƏT adlanır) üzvlüyü 1992-ci ilin 30 yanvarında reallaşmışdır. 1992-ci il fevralın 27-28-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclasında ilk dəfə olaraq Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı müzakirələr aparılmışdır. Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsubluğunu təsdiq edən sənəddə sərhədlərin dəyişdirilməməsi şərtilə münaqişənin sülh yolu ilə həllinə çağırış da əksini tapmışdır.

1992-ci il mart ayının 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olunmuş və görüşdə ATƏM-in Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilmişdir.

1992-ci ilin 1 iyununda Romada Minsk Qrupunun vasitəçiliyi ilə danışıqlar prosesinin ilkin mərhələsinə start verilmişdir. Lakin bundan sonrakı dövrdə də ATƏT çərçivəsində görülən tədbirlər heç bir müsbət nəticə vermədi. Bununla belə, Azərbaycan tərəfinin apardığı məqsədyönlü işlər sayəsində sözügedən təşkilat səviyyəsində də Ermənistan işğalçı dövlət kimi qəbul olunmağa başlamışdı. Bunun nəticəsi idi ki, 1993-cü ilin noyabrında ATƏM-ə üzv dövlətlərin Vyanada keçirilən görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qəbul edilən bəyanatda Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktının beynəlxalq hüququn prinsiplərinə zidd addım olduğu vurğulanır, işğalçı qüvvələrin Horadizdən və Zəngilan rayonundan çıxarılmasının zəruriliyi qeyd olunurdu. Bəyanatda ATƏM-in Minsk konfransının çağırılması və buna qədər işğal edilmiş ərazilərdən hərbi qüvvələrin çıxarılması, atəşin dayandırılması məsələləri də öz əksini tapmışdı.

1994-cü ildə ATƏM-in Budapeşt Zirvə Toplantısının nəticəsinə əsasən, ATƏM 1 yanvar 1995-ci ildən yeni Avropanın sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyən edən, sülhün, demokratiyanın və insan hüquqlarının qorunmasını təmin edən, üzv ölkələrin təhlükəsizliyini və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini həyata keçirən, özünüidarə mexanizmləri olan Ümumavropa təşkilatına – ATƏT-ə çevrilmişdir. Budapeşt sammitində ilk dəfə olaraq ATƏT çərçivəsində Avropa təhlükəsizlik tədbirlərində iştirak edə biləcək sülhməramlı qüvvələrin yaradılması və münaqişəli ərazilərə göndərilməsi qərara alınmışdır. İştirakçı dövlətlər ATƏT rəhbərliyi altında olan ilk sülhməramlı çoxmillətli hərbi hissənin Dağlıq Qarabağ bölgəsinə göndərilməsi haqqında razılıq əldə etmişlər. Bundan başqa, Budapeştdə Minsk prosesi çərçivəsində həmsədrlik institutu təsis olunmuşdur. Ermənistan–Azərbaycan münaqişəsinə dair Budapeşt sammitinin işinin konkret yekunu olaraq «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» adlı qətnamənin qəbulunu təşkil etmişdir.

Budapeşt sammitinin nəticələrinə əsasən, 20 dekabr 1994-cü ildə Vyanada Ermənistan–Azərbaycan münaqişəsi üzrə ATƏT-in üzv ölkələrinin təyin etdiyi hərbi nümayəndələrdən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) təsis olunmuşdur. Sonrakı dövrlərdə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq ictimaiyyətin daim diqqət mərkəzində qalmasında ATƏT mühüm rol oynamışdır. Azərbaycanın ATƏT çərçivəsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qazandığı növbəti ciddi uğur isə özünü 1996-cı ildə keçirilən Lissabon sammitində, ümummili lider Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində göstərdi. Həmin vaxt ATƏT-in fəaliyyətdə olan sədri adından verilən bəyanatda Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının tərkib hissəsi kimi formalaşdırılan üç prinsipin tövsiyə edildiyi bir daha vur-

ğulanırdı. Bəyanatda qeyd olunurdu ki, bu prinsipləri Minsk Qrupunun bütün üzv dövlətləri dəstəkləyir:

*– Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;*

*– Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək səviyyəli özünüidarə verən, öz müqəddəratını təyin etməyə əsaslanmış sazişdə müəyyən edilmiş Dağlıq Qarabağın hüquqi statusu;*

*– bütün tərəflərin nizamlama müddəalarına riayət olunmasının təmin edilməsinə dair qarşılıqlı öhdəliklər də daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təhlükəsizliyinin təmini.*

Dövlət başçısı Heydər Əliyev sammitdəki çıxışı zamanı Azərbaycanın mövqeyini qəti şəkildə ortaya qoymuşdur: «Münaqişənin nizama salınması üçün təklif etdiyimiz kompromis üsulu aşağıdakı tərkib hissələrdən ibarətdir: Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın yüksək muxtariyyat statusu, Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik təminatı. Bu üsul beynəlxalq vasitəçilər tərəfindən dəstəklənir, ATƏT-in indiki sədrinin 1996-cı ilin fevral ayında münaqişə regionunda olarkən təklif etdiyi prinsiplərə bir çox cəhətdən uyğun gəlir. Lakin çox təəssüf ki, Ermənistan Respublikası BMT Nizamnaməsinə, ATƏT-in prinsiplərinə, beynəlxalq hüquqa əsaslanan hər hansı bir qərarın qəbul edilməsindən boyun qaçırmaqda davam edir».

1997-ci ilin iyununda həmsədrlər münaqişənin həllinə dair ilk konsepsiyalarını – «Dağlıq Qarabağ münaqişəsinin həllinə dair hərtərəfli saziş» adlanan sənəd layihəsini hazırladılar və onu tərəflərə təqdim etdilər. Həmin vaxt ATƏT-in Minsk Qrupunun irəli sürdüyü bu təkliflər daha çox «Paket həll variantı» kimi məşhurlaşmışdı. Təklif bir paketdə ehtiva olunan iki anlaşmadan ibarət idi. Birinci anlaşma silahlı münaqişənin

dayandırılmasını, ikinci isə Dağlıq Qarabağın statusunun müəyyən edilməsini nəzərdə tuturdu.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini nəzərdə tutan «Paket həll variantı»nın şərtlərinə görə, silahlı qüvvələri iki mərhələdə çıxarmaq tövsiyə olunurdu. Birinci mərhələdə Dağlıq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkilir. Bu zaman ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsinin hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirilməsi təmin olunmalı, həmçinin tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədi ilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri lazımınca nəzərə alınmalı idi.

İkinci mərhələdə erməni qüvvələri Ermənistan Respublikasının sərhədləri daxilinə aparılır, «Dağlıq Qarabağ qüvvələri» Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-ci ildəki hüdudları daxilinə qaytarılır, Azərbaycan qüvvələri yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında razılaşdırılmış xətlərə çəkilir.

Status adlanan ikinci sazişdə isə Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının tanınması əsas prinsip kimi göstərilirdi. Bu sənədə görə, Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət və ərazi qurumudur və onun öz müqəddəratını təyin etməsi Azərbaycan Respublikası ilə Dağlıq Qarabağın hakimiyyət orqanları arasında sazişdə rəsmiləşdiriləndən, Minsk konfransı tərəfindən bəyəniləndən, Azərbaycanın və Dağlıq Qarabağın konstitusiyalarında inkorporasiya olunandan sonra mümkündür. Belə bir razılaşma olduğu halda isə Dağlıq Qarabağ və Naxçıvan Ermənistan və Azərbaycanla sərbəst, maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququna malik ola bilərdilər. Bundan başqa, Dağlıq

Qarabağın inzibati sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri üzrə müəyyən edilməli idi.

Bir sıra çatışmazlıqlarına baxmayaraq, Azərbaycan tərəfi təklifi qəbul etdiyini bildirdi. Lakin Ermənistan tərəfi «Paket həll variantı»nda göstərilən müddəaları qəbul etmədiyini bildirərək problemin sülh yolu ilə çözümündə maraqlı olmadığını göstərdi. Məhz bunu əsas götürən Azərbaycan Ermənistanın işğalçı siyasətindən əl çəkmək niyyətində olmadığının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində fəal təbliğata başladı.

Azərbaycanın haqlı mövqeyi və diplomatik fəaliyyətini gücləndirməsi nəticəsində 1997-ci ildə ATƏT-in Minsk Qrupu «Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında» adlı yeni saziş layihəsini tərəflərə təqdim etdi. Yeni təkliflər münaqişənin mərhələli şəkildə həllini nəzərdə tutduğundan daha çox «Mərhələli həll variantı» kimi tanınırdı.

«Paket həll variantı» ilə müqayisədə «Mərhələli həll variantı» Azərbaycan üçün daha əlverişli idi. Elə bu səbəbdən rəsmi Bakı «Mərhələli həll variantı»nı danışıqlara başlamaq üçün əsas kimi qəbul etdiyini və bu kontekstdə danışıqlara başlamağın mümkün olduğunu bildirdi. Sözügedən təkliflərdə də münaqişənin iki mərhələdə həlli nəzərdə tutulurdu. Birinci mərhələdə münaqişənin dayandırılması və onun nəticələrinin aradan qaldırılması haqqında müddəalar öz əksini tapmışdısa, ikinci mərhələdə ATƏT-in Minsk konfransına qədər Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi nəzərdə tutulurdu.

«Mərhələli həll variantı»nın digər üstünlüyü ondan ibarət idi ki, burada Azərbaycanın Dağlıq Qarabağdan başqa işğal olunmuş digər 7 rayonundan 6-nın azad edilməsi göstərilmişdi. Bu rayonlar Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan idi. Laçın rayonunun taleyi sonrakı mərhələdə həll edilməli idi. Digər tərəfdən, saziş layihəsinin bir üstünlüyü də

müvafiq müddəalara əməl etməyən tərəfə qarşı sanksiya tətbiqinin mümkünlüyünün göstərilməsində idi.

Həmin dövrdə Ermənistan prezidenti olan Levon Ter-Petrosyan «Mərhələli həll variantı» ilə münaqişənin həllinə razılıq versə də, Robert Koçaryanın, Serj Sarkisyanın rəhbərlik etdiyi separatçı qüvvələr, xaricdəki erməni diasporu və bir sıra xarici qüvvələr buna imkan vermədi. Az sonra isə Levon Ter-Petrosyan hakimiyyətdən istefa verməyə məcbur edildi. Lakin həmin dövrdə onun işlətdiyi «Belə getsə, bir neçə ildən sonra Dağlıq Qarabağla birlikdə Ermənistanı da itirə bilərik» ifadəsi artıq reallığa çevrilməkdədir.

1997-ci il dekabrın 2-də isə həmsədrlər «Mərhələli həll variantı» layihəsinin Dağlıq Qarabağdakı separatçı rejimin tərəf kimi danışıqlarda iştirakını nəzərdə tutan yeni variantını təqdim etsələr də, bu, Azərbaycan tərəfindən qəbuledilməz olduğundan ümummilli lider Heydər Əliyevin kəskin etirazı ilə qarşılandı.

Bunun ardınca 1998-ci ilin noyabrında həmsədrlərin irəli sürdüyü «Ümumi dövlət» həll modeli də Azərbaycan üçün qətiyyən qəbuledilməz oldu. İşğal olunmuş ərazilərdə yaradılan separatçı rejimə müstəqil dövlət səlahiyyətlərinin verilməsini nəzərdə tutan belə bir təklif Azərbaycan tərəfindən qəbul edilə bilməzdi. Elə buna görə də Prezident Heydər Əliyev buna qəti etirazını bildirdi və layihə qəbul olunmadı.

1999-cu ilin aprelindən etibarən ABŞ-ın təşəbbüsü ilə prezidentlərin birbaşa dialoqu keçirilməyə başladı, ATƏT-in Minsk Qrupu bu formatı bəyəndiyini və dövlət başçılarının dialoqunun davam etdirilməsinin zəruriliyini dəfələrlə bəyan etdi. 2001-ci ilin fevralında Prezident Heydər Əliyevin təşəbbüsü ilə ATƏT-in Minsk Qrupunun münaqişənin həlli ilə bağlı təklif etdiyi üç saziş layihəsi Azərbaycanın rəsmi mətbuatında çap olundu.

Sonrakı danışıqlar prosesində isə Azərbaycanın mövqeləri bir qədər də gücləndi. Bunun nəticəsi kimi 2004-cü ilin

aprelində keçirilən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü sonradan çoxraundlu danışıqlar mərhələsinə çevrilməklə «Praqa prosesi» adlanmağa başladı. Sonradan bu prosesə digər elementlər də əlavə olundu.

Praqa prosesinin ilk mərhələsi 2006-cı ilin fevralında Paris yaxınlığındakı Rambuye qəsrində keçirilən və geniş beynəlxalq rezonansa rəğmən, yenə də Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən nəticəsiz qalan danışıqlarla yekunlaşdı. 2007-ci ilin noyabrında həmsədrlər Praqa prosesinin ilkin nəticəsi kimi Madriddə Azərbaycan və Ermənistan XİN başçıları ilə görüşdə tərəflərə nizamlamanın baza prinsiplərinə dair layihə təqdim etdilər. Ümumiyyətlə isə 2004-cü ildən bəri danışıqlar məhz Praqa prosesi əsasında gedir və bu proses Azərbaycanın ərazi bütövlüyünün bərpasını nəzərdə tutur.

ATƏT-lə yanaşı, digər nüfuzlu beynəlxalq təşkilatlar da münaqişənin həlli istiqamətində fəaliyyət göstərmiş, bu məsələyə diqqət yetirmişlər. Belə təşkilatlardan biri olan Avropa İttifaqı hələ 1993-cü ilin aprelində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatla çıxış etmişdir. Həmin ilin sentyabr ayında Ermənistanın işğalçı qüvvələrinin cəbhə bölgəsində yeni əməliyyatlar keçirməsi qurumun daha bir bəyanatla çıxış etməsinə səbəb oldu. Bu sənəddə ermənilərin Azərbaycana qarşı hərbi hücumları pislənilir, qaçqınların sayının həddən artıq çoxalmasından narahatlıq ifadə olunurdu. Təşkilat BMT qətnamələrinə hörmət göstərilməsini hər iki tərəfdən tələb edir, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarından qoşunların çıxarılmasının zəruriliyini qeyd edirdi. Bundan başqa, bəyanatda Ermənistandan Azərbaycan ərazilərinə hücum edən yerli erməni qüvvələrinə yardım göstərməmək də tələb olunurdu.

1993-cü ilin noyabrında Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinə dair növbəti bəyanatını qəbul etdi. ATƏM-in

prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə xüsusi diqqət yetirilirdi. 2004-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya işgüzar səfəri zamanı Avropa Komissiyasının sədri Roman Prodi ilə görüşündə təşkilatın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə təkan verməsinin mümkünlüyü ilə bağlı müzakirələr aparması Avropa İttifaqının münaqişəyə diqqətinin daha da artmasına səbəb oldu. Təşkilat bəyan etdi ki, Ermənistanla Azərbaycan arasında beynəlxalq hüququn bütün prinsiplərini nəzərə alan sülh əldə edilməsində maraqlıdır və bunun üçün konkret addımlar atmağa hazırdır.

Sonrakı dövrdə Azərbaycanla daha sıx işbirliyinə gedən Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsi və regionda olan digər konfliktlərin onun da təhlükəsizliyinə hədə yaratdığını, belə problemlərin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini dəfələrlə bəyan etdi.

Beynəlxalq birliyə sürətli inteqrasiya edən Azərbaycanın təmsil olunduğu təşkilatlar sırasında Avropa Şurasının adı xüsusi qeyd olunmalıdır. 1992-ci il yanvarın 24-də Azərbaycan Respublikasının parlamenti «xüsusi dəvət edilmiş qonaq» statusu almaq üçün Avropa Şurasına müraciət etmişdi. Avropa Şurası hələ Azərbaycanın bu quruma üzv olmasından əvvəl Dağlıq Qarabağ münaqişəsini diqqət mərkəzində saxlamışdır. Belə ki, 1992-ci ilin fevralında Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) quruma üzv olmayan Avropa ölkələri ilə Əlaqələr Komitəsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk bəyanatı qəbul etmişdir. Sənəddə Dağlıq Qarabağda vəziyyətin pisləşməsindən narahatlıq ifadə edilir və tərəflərə atəşi dayandırmaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq tövsiyə olunurdu. Ancaq həmin sənəd münaqişə ilə bağlı vəziyyətə tam obyektiv qiymət vermirdi.

Bundan sonra Avropa Şurası Nazirlər Komitəsində münaqişə ilə bağlı qəbul edilən bir sıra bəyanatlarda da Azərbaycanın

mənafeləri baxımından müəyyən çatışmazlıqlar özünü göstərmişdir. Bir qədər sonra, 1994-cü ilin noyabrında AŞ PA Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk qətnaməsini qəbul etdi. Burada münaqişə nəticəsində 20 mindən çox insanın həlak olması və bir milyon insanın qaçqın düşməsi faktı öz əksini tapmışdır.

11 sentyabr 1996-cı ildə Avropa Şurası Nazirlər Komitəsinin 573-cü iclasında Azərbaycanın Avropa Şurasına daxil olması, Azərbaycanda demokratiyaya keçid prosesinin sürətləndirilməsi məqsədi ilə Azərbaycan hakimiyyət dairələri ilə danışıqların intensivləşdirilməsi, əməkdaşlıq proqramları formasında yardım edilməsini nəzərdə tutan 32 saylı qətnamə qəbul edilmişdir.

1997-ci ilin aprelində Dağlıq Qarabağ münaqişəsinə dair daha bir qətnamə qəbul edilmişdir. «Zaqafqaziyada münaqişələrə dair» adlanan qətnamə Abxaziya və Dağlıq Qarabağdakı münaqişələrin həllinə təşkilatın kömək göstərməsinin zəruriliyini vurğulayırdı. Sənəddə münaqişələrin həllinin sərhədlərin toxunulmazlığı, region xalqları üçün çoxmillətli sülhməramlı qüvvələr tərəfindən dəstəklənən təminatlı təhlükəsizlik, Abxaziyaya və Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsi, qaçqın və məcburi köçkünlərin geri qaytarılması prinsipləri əsasında mümkünlüyü nəzərdə tutulurdu. Sənədin Dağlıq Qarabağ münaqişəsinə dair bölməsində işğal olunmuş ərazilərin azad edilməsi, münaqişənin sülh yolu ilə nizamlanması Avropa Şurasının tövsiyəsi kimi öz əksini tapmışdı.

2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi təşkilatın münaqişənin həlli ilə bağlı fəallığını daha da artırmışdır. 25 yanvar 2001-ci ildə Strasburqda Azərbaycan

Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasim keçirilmiş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə geniş nitq söyləmişdir.

**Ermənistan AŞ PA-da tam ifşa olundu**

Azərbaycanın Avropa Şurasında Dağlıq Qarabağ həqiqətləri ilə bağlı daha genişmiqyaslı diplomatik uğuru da məhz bu mərhələdən sonra başlanmışdır. 2001-ci ilin yanvarında Azərbaycan və Ermənistanın quruma tamhüquqlu üzv kimi qəbul olunduğu sessiyada İngiltərədən olan deputat Corc Teylor Azərbaycanda – Dağlıq Qarabağda ermənilərin törətdiyi vəhşiliklərdən danışdı. O, burada insan hüquqlarının kobud şəkildə tapdalandığını, ermənilərin Azərbaycana qarşı təcavüzkar siyasət apardıqlarını bəyan etdi. C.Teylor qaçqınların və məcburi köçkünlərin ağır vəziyyətdə yaşadığına diqqəti çəkərək Avropa Şurasının bu sahədə ciddi addımlar atmasının zəruriliyini bildirdi. O, ermənilərin işğal olunmuş ərazilərdə dağıdıcılıqla məşğul olduqlarını, buradakı mədəniyyət abidələrini, xidməti binaları, məktəbləri, xəstəxanaları məhv etdiklərini söylədi: «Dağlıq Qarabağda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş genosidə siyasi qiymət verilməlidir».

Beləliklə, ölkəmizin quruma üzvlüyündən sonra AŞ PA-da Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təşəbbüskarlığı və diplomatik fəallığı nəticəsində elə ilk sessiyadan etibarən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətləri özündə əks etdirən sənədlər yayılmağa başladı. Məhz cənab İlham Əliyevin rəhbərliyi altında qurumda ölkəmizi təmsil edən deputatlar AŞ PA-nın müxtəlif dövlətlərdən olan üzvləri ilə yaxın münasibətlər qurur, ölkəmizin qarşılaşdığı problemlər, torpaqlarımızın 20 faizinin

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan çox insanın qaçqın və məcburi köçkün kimi yaşaması barəsində ətraflı məlumatlar verirdilər. Bunun nəticəsi olaraq Avropa Şurası Nazirlər Komitəsinin 108-ci sessiyasının rəsmi məlumatında Ermənistanın təcavüzkar siyasəti pislənilirdi. Həmin sənəddə aydın şəkildə qeyd olunurdu ki, Avropa Şurası ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığını dəstəkləyir.

2001-ci ilin aprelində AŞ PA-nın yaz sessiyasında isə Azərbaycanın işğal olunmuş ərazilərində narkoticarətin genişlənməsi, terrorizmin inkişafına dair avropalı deputatlara lazımi məlumatlar çatdırıldı. Bununla bağlı sessiyada daha çox diqqət cəlb edən məqam Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin çıxışı oldu. Avropada mütəşəkkil cinayətkarlığın mərkəzlərindən birinin Azərbaycanın işğal edilmiş ərazilərində olduğunu diqqətə çatdıran cənab İlham Əliyev bildirirdi: «*Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəinki bir milyon azərbaycanlı qaçqın evsiz-eşiksiz qalıb, çoxsaylı şəhərlərimiz, kəndlərimiz, mədəniyyət abidələrimiz, əcdadlarımızın qəbirləri büsbütün dağıdılıb, bir sözlə, erməni işğalçılarının zəbt etdikləri ərazidə bütün infrastruktur məhv edilib, həm də ermənilərin işğal etdikləri ərazidə mütəşəkkil cinayətkarlığın inkişafı üçün çox əlverişli şərait yaranmışdır. «Dağlıq Qarabağ respublikası» deyilən ərazidən narkotik bitkilərin yetişdirilməsi və daşınması üçün istifadə edilir. Narkotiklərlə məşğul olan işbazlar və tiryək alverçiləri orada özlərini təhlükəsiz və çox rahat hiss edirlər*».

Bundan başqa, cənab İlham Əliyev ona da diqqət çəkirdi ki, Dağlıq Qarabağda mövcud olan qanunsuz iqtisadi fəaliyyət buradakı qondarma respublikanı «çirkli pullar»ın yuyulması» əməliyyatları sahəsində məşhurlaşdırıb. Cənab İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinə ədalətli münasibət bil-

dirilməsinin zəruriliyinə də xüsusi diqqət çəkirdi: «Nə vaxta kimi Avropa belə bir fakta göz yumacaq ki, Avropa Şurasının bir üzvü olan Ermənistan başqa bir üzvün – Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayır?».

Məhz belə qətiyyətli mövqedən sonra AŞ PA-da Dağlıq Qarabağ münaqişəsinə münasibətdə daha ciddi dönüş yarandı. Sessiyada britaniyalı deputat Terri Devis AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi təyin edildi. Ermənistan AŞ PA-nın Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisinin təyin olunmasına qarşı çıxsa da, Azərbaycan nümayəndə heyətinin prinsipial mövqeyi ermənilərin etirazına hər hansı əhəmiyyət verilməməsi ilə nəticələndi.

Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qurumda növbəti uğuru isə 2002-ci ilin payız sessiyasına təsadüf etdi. Sessiyada ermənilərin ciddi müqavimətinə baxmayaraq, Azərbaycanın təkidi ilə Ermənistan barədə qətnaməyə Azərbaycan torpaqlarının işğal olunması, qaçqınlar və məcburi köçkünlərin bu işğal nəticəsində öz torpaqlarından didərgin düşməsi və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə düzəlişlər edildi. Bu məsələlər Azərbaycana aid qətnamədə də öz əksini tapdı.

2003-cü ilin yanvarında Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞ PA-nın sədr müavini və büro üzvü vəzifələrinə seçilməsi ilə ölkəmizin bu qurumla əlaqələri bir qədər də yüksək səviyyəyə çatdı. Bundan sonra Azərbaycanın qurumda yeni bir uğuru 2003-cü ilin yay sessiyasında qeydə alındı. Həmin sessiyada «Avropada muxtar vilayətlərin müsbət təcrübəsi» məsələsi ətrafında müzakirələr aparılırdı. Burada məhz cənab İlham Əliyevin təklifi ilə muxtar vilayətlərin ərazi bütövlüyünü pozmaq səlahiyyətlərinə malik olmadığı barədə müddəa sənədə əlavə edildi. Yenə də ermənilərin ciddi müqavimətinə baxmayaraq, cənab İlham Əliyevin qətiyyətli mövqeyi onların geri çəkilməsinə səbəb oldu.

Beləliklə, sözügedən sənədə «Muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır» cümləsi əlavə edildi. Bu, faktiki olaraq Dağlıq Qarabağdakı separatçı rejimin müstəqillik tələblərinin qarşısına sədd çəkən çox mühüm bir addım idi. Sənədin Azərbaycanın istədiyi şəkildə qəbul edilməsi həm də muxtariyyətin ərazi bütövlüyü prinsipindən sonra gəldiyini göstərirdi. Ermənilərin buna qarşı çıxması isə heç bir nəticə vermədi və Azərbaycan qurumda növbəti uğurunu qazanmış oldu.

Ümumiyyətlə, cənab İlham Əliyevin qurumda ölkəmizi təmsil edən nümayəndə heyətinə rəhbərlik etdiyi dövrdə AŞ PA-da Azərbaycan həqiqətlərini özündə əks etdirən 30-a yaxın sənəd hazırlanmış və təşkilatın rəsmi sənədləri kimi yayılmışdır. Sonrakı dövrdə də Azərbaycan Avropa Şurasında ermənilərin mövqelərinə bir-birinin ardınca diplomatik zərbələr endirməkdə davam edir və təşkilatda Ermənistanın işğalçılıq siyasətinə qarşı yeni-yeni sənədlərin qəbul edilməsinə nail olurdular. Belə mühüm sənədlərdən biri də AŞ PA-nın 2005-ci ilin yanvarında qəbul etdiyi 1416 saylı yeni qətnamə oldu. Bu qətnamə AŞ PA tərəfindən Ermənistanın işğalçılıq siyasətinə daha bir ciddi zərbə idi. Belə ki, burada yer alan müddəalar bir daha Ermənistanın işğalçı dövlət olduğunu təsdiq edir, Dağlıq Qarabağ regionunun separatçı qüvvələrin nəzarəti altında olduğu xatırlanırdı. Bununla bağlı qətnamənin xülasə hissəsində qeyd olunurdu: «*Azərbaycan ərazisinin böyük bir hissəsi hələ də Ermənistan qoşunlarının işğalı altındadır. Hərbi əməliyyatlar və bu əməliyyatlardan qabaq geniş surətdə yayılmış etnik düşmənçilik etnik mənsubiyyətinə görə insanların geniş miqyasda yerlərindən qovulmasına və dəhşətli etnik təmizləmə konsepsiyasını xatırladan monoetnik ərazilərin yaradılmasına gətirib çıxarmışdır. Dağlıq Qarabağ regionu hələ də separatçı qüvvələrin nəzarəti altındadır.*

*Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğal edilməsinin bu dövlətin Avropa Şurasının üzvü kimi öhdəliyinin ciddi pozulması olduğunu bir daha təkrar edir və münaqişə ərazisindən olan məcburi köçkünlərin təhlükəsizlik şəraitində və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarının olduğunu bir daha təsdiqləyir».*

Bu qətnamənin ən mühüm cəhəti Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin Avropada fəaliyyət göstərən beynəlxalq təşkilat səviyyəsində ilk dəfə belə açıq etiraf edilməsi və bunun presedent yaratması oldu. Ermənilərin etnik təmizləmə siyasətinin də tənqid olunduğu qətnamə Ermənistanın beynəlxalq aləmdə mövqeyini daha da sarsıtdı. Kifayət qədər obyektiv xarakter daşıyan bu qətnamənin ardınca AŞ PA-nın qəbul etdiyi 1690 saylı tövsiyə Ermənistana daha bir zərbə oldu. Çünki Avropa Şurasının Nazirlər Komitəsinə ünvanlanan tövsiyələrində bilavasitə 1416 saylı qətnamənin şərtlərinə istinad edilirdi. Qətnaməyə istinadən Nazirlər Komitəsinə ünvanlanan tövsiyələrin birinci bəndində qeyd olunurdu: *«Müvafiq tərəfləri təkidlə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə əməl etməyə, xüsusilə istənilən hərbi əməliyyatlardan çəkinməyə və silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarmağa çağırmaq».*

Həmçinin tövsiyələrdə 1416 saylı qətnamənin milli, ikitərəfli və beynəlxalq səviyyələrdə dəstəklənməsi üçün üzv dövlətlərin hökumətlərinə göndərilməsinə də diqqət yetirilirdi. Beləliklə, Azərbaycanın yürütdüyü siyasət nəticəsində AŞ PA-dan kifayət qədər ciddi zərbə alan Ermənistan sonrakı dövrdə də bu qurumda uğursuzluğa düçar oldu. Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət, tarixi-mədəni abidələrin məhv edilməsi və bu qəbildən olan digər məsələlərə görə də Ermənistan təşkilatda daim əsas tənqid hədəfləri sırasında yer alır.

## Ermənistanın işğalçılıq siyasəti dünyada pislənilir

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ilk gündən obyektiv, prinsipial mövqeyi ilə seçilən təşkilatlardan biri də məhz İslam Konfransı Təşkilatı (İKT) olmuşdur. İKT hələ 1993-cü ildə Pakistanın Kəraçi şəhərində keçirilmiş xarici işlər nazirlərinin 21-ci konfransında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk qətnaməsini qəbul etmişdir. Burada Ermənistanın Azərbaycana qarşı hücumları və respublikamızın torpaqlarını işğal etməsi qətiyyətlə pislənilir, Ermənistanın təcavüzkar hərbi əməliyyatlara rəvac verməsi nəticəsində Azərbaycanda humanitar vəziyyətin dözülməz həddə çatması, Ermənistanın davranışının beynəlxalq sülh üçün təhlükə yaratması, bu dövlətin silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının zəruriliyi bildirilirdi. Bundan başqa, qətnamədə münaqişənin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında, tanınmış sərhədlərin dəyişdirilməməsi şərtilə və sülh yolu ilə həlli tövsiyə olunurdu. Qətnamədə daha sonra qeyd edilirdi: *«İKT Bəyannaməsinin prinsipləri və məqsədlərindən çıxış edərək, Qarabağ məsələsi barəsində Ermənistanla Azərbaycan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar dərindən narahat olaraq, Ermənistanın Azərbaycana qarşı son hücumunu və Azərbaycan ərazisinin işğalını qətiyyətlə pisləyərək, Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzü nəticəsində humanitar problemlərin dözülməz vəziyyətindən təsirlənərək, ermənilərin son təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə yaratdığını dərk edərək, Baş katibin bu məsələ üzrə məruzəsini yüksək qiymətləndirərək:*

*1. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;*

*2. Erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasını, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi Ermənistandan ciddi surətdə tələb edir;*

*3. Qarabağ məsələsini dövlətlərin ərazi bütövlüyünün və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır».*

Təşkilatın sonrakı zirvə görüşlərində və İKT çərçivəsində keçirilən digər toplantılarda da Dağlıq Qarabağ problemi daim diqqət mərkəzində saxlanılmış və Ermənistanın işğalçılıq siyasəti pislənilmişdir. 1994-cü ildə Kasablankada (Mərakeş) İKT ölkələrinin dövlət və hökumət başçılarının 7-ci zirvə görüşündə də Dağlıq Qarabağa dair daha bir qətnamə qəbul edilərək burada Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması faktı yenidən kəskin şəkildə pislənilmiş, respublikamızda 1 milyona qədər məcburi köçkün ordusunun yaranmasından narahatlıq ifadə edilmişdir. Qətnamədə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində mülki şəxslərə qarşı edilən hərəkətlər bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilir, erməni hərbi birləşmələrinin işğal olunmuş ərazilərdən təcili çıxarılması, Ermənistandan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmaq tələb olunurdu. 1996-cı ildə İndoneziyada İKT Xarici İşlər Nazirlərinin növbəti konfransında daha bir qətnamə qəbul edildi. Bu qətnaməni əvvəlkilərdən fərqləndirən əsas cəhət onun adı oldu: «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında». Halbuki əvvəlki qətnamələr sadəcə olaraq «Ermənistan və Azərbaycan arasında münaqişə üzrə» adlanırdı. Qətnamədə yenidən Ermənistanın işğalçı siyasəti pislənilir və işğal edilmiş ərazilərin boşaldılması tələb olunurdu. Həmçinin qətnamədə Ermənistanın təcavüzkar addımlarının sülh prosesinə mane olduğu da vurğulanırdı.

2003-cü il oktyabrın 16-18-də Malayziyanın Putracaya şəhərində İKT-nin 10-cu zirvə konfransında növbəti dəfə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycana iqtisadi yardım göstərilməsi və Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam tarixi və mədəni abidələrinin məhvi barədə məsələlərə baxılmış və bu məsələlər üzrə İKT zirvə konfransının 3 müvafiq qətnaməsi qəbul olunmuşdur. Ermənistanın Azərbaycana qarşı təcavüzünün pislənilməsi İKT 10-cu zirvə konfransının Yekun Bəyanatında da öz əksini tapmışdır. Bəyanatda İKT ölkələri Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarılması çağırışı ilə çıxış etmişlər.

2006-cı ilin iyununda İKT Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən 33-cü sessiyasında bir daha İslam Konfransı Təşkilatının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyi bəyan edilmişdir. 2009-cu ilin martında Seneqalın paytaxtı Dakarda İKT-nin «İslam dünyası XXI əsrdə» devizi altında keçirilən 11-ci zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü pisləyən daha bir qətnamə qəbul olunmuşdur. Qətnamədə İKT BMT-nin Təhlükəsizlik Şurasını Ermənistana qarşı zəruri addımlar atmağa çağıraraq, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etməsindən dərin narahatlığını bildirmiş və ermənilərin bu ərazilərə qeyri-qanuni köçürülməsini pisləmişdir. Sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsi istənilmiş, işğal olunmuş ərazilərdə tarixi, mədəni və dini abidələrin vəhşicəsinə dağıdılması pislənilmişdir, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələrinin tezliklə icrası tələb edilmişdir. Eləcə də İKT-yə üzv ölkələrdən Ermənistanı silah və digər hərbi sursatla təmin etməkdən çəkinmək, beynəlxalq ictimaiyyətdən isə təcavüzə son qoymaq üçün Ermənistana qarşı təsirli siyasi və iqtisadi tədbirlər görməsi tələb olunmuş-

dur. Bundan başqa, BMT-də Azərbaycanı hər cür dəstəkləməyi qərara alan İKT ölkələri ATƏT-in Minsk Qrupunun səylərini və xarici işlər nazirləri səviyyəsində aparılan sülh danışıqlarını dəstəklədiklərini bildirmişlər.

Ulu öndər Heydər Əliyevin İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII və 1997-ci ildə Tehranda keçirilmiş VIII zirvə konfranslarında şəxsi iştirakı, oradakı nitqi və keçirdiyi görüşləri isə o vaxtdan etibarən İslam aləmində böyük rezonansa səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzzəddin İraqi dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab buna əyani sübutdur: *«Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik... Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağla malik olduğuna dəlalət edir»*.

Təşkilata üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının 2006-cı ildə Azərbaycanda keçirilməsi də bu əməkdaşlığın bariz nümunəsi kimi diqqəti çəkir. Respublikamızda ilk dəfə keçirilən bu mötəbər tədbirdə müsəlman dünyasının bir sıra aktual problemləri, o cümlədən terrorizmə qarşı mütəşəkkil mübarizə, qlobal münaqişə ocaqlarının həlli yolları və digər vacib məsələlər ətrafında müzakirələr aparılmışdır.

Tədbirdə dərin məzmunlu məruzə ilə çıxış edən Azərbaycan Prezidenti cənab İlham Əliyev təşkilatın beynəlxalq münasibətlər sistemində mövqelərinin getdikcə möhkəmlənməsini, baş verən proseslərə təsir imkanlarının artmasını xüsusi razılıqla vurğulamış, müsəlman dövlətləri arasında dini, siyasi, tarixi-mədəni əlaqələrin gücləndirilməsi zərurətindən söz açmışdır. Dövlət başçısı İKT ölkələri arasında bütün sahələrdə, o cümlədən ticarət sferasında əməkdaşlığın genişləndirilməsi və əmtəə dövriyyəsinin artırılması vacibliyini önə çəkmişdir: *«İslam Konfransı Təşkilatı öz mövqelərini möhkəmləndirir, dünyada gedən proseslərə təşkilatın təsir imkanları artır və əlbəttə ki, bu, bizi çox sevindirir. Aramızda olan qardaşlıq, dostluq əlaqələri, həmrəylik bizi daha da gücləndirir. Siyasi müstəvidə bizim əlaqələrimiz çox yüksək səviyyədədir. İkitərəfli əlaqələrlə yanaşı, biz çoxtərəfli formatda müxtəlif beynəlxalq tədbirlərdə, müxtəlif regional əməkdaşlıq layihələrində uğurla iştirak edirik. Əlbəttə, çox istərdik ki, bizim aramızda bütün sahələrdə əlaqələr möhkəmlənsin. İlk növbədə iqtisadi sahədə. Çünki müasir dünyada iqtisadi imkanlar, iqtisadi potensial, əlbəttə ki, ölkənin gücünü müəyyən edir, təsir imkanlarını genişləndirir. Biz öz fəaliyyətimizlə çalışmalıyıq ki, bir-birimizin iqtisadiyyatına dəstək verək, onu gücləndirək. Bunu etmək üçün, şübhəsiz, qarşılıqlı ticarət əlaqələri daha da genişlənməlidir. Mən ümid edirəm ki, bugünkü görüş bu sahədə gələcəkdə görüləcək işlərə çox mühüm təkan verəcək və təşkilatın üzvü olan dövlətlər arasında bütün sahələrdə əməkdaşlıq daha da möhkəmlənəcəkdir».*

Konfransda bəşəriyyətin başı üstünü almış dəhşətli kabus kimi təzahür edən beynəlxalq terrorizmə qarşı birgə və mütəşəkkil mübarizənin vacibliyi ilə bağlı müxtəlif təkliflər də səslənmişdir. Mütəşəkkil cinayətkar fəaliyyət, xüsusilə onun təzahür formalarından olmaqla artıq milli dövlət

sərhədlərini adlamış terrorizm bütün ölkələrin maraqlarına toxunan qlobal təhlükəyə çevrilmişdir. Dünya ictimaiyyəti, xüsusilə İslam dünyası bu təhlükədən daha çox əziyyət çəkir, sivilizasiyalararası toqquşmanın təzahürü kimi İslam dininin gerçək mahiyyətinin təhrif olunmasına, onun terrorizmlə əlaqələndirilməsinə uğursuz cəhdlər edilir. Erməni terrorizmi ilə üzləşmiş Azərbaycan bu ümumbəşəri bəla ilə mübarizədə beynəlxalq birliyin səylərini tam müdafiə etməklə siyasi, iqtisadi, dini və digər motivlərindən asılı olmayaraq terrorizmin bütün forma və təzahürlərinə qarşı birmənalı mövqe tutur. Terrorizmin getdikcə qlobal xarakter alması, öz növbəsində, bu təhlükəyə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi zəruriliyini artırır. Azərbaycan hakimiyyəti hesab edir ki, uzunmüddətli planda beynəlxalq terrorizmlə mübarizənin məqsədi yalnız ayrı-ayrı terrorçu təşkilat, qrup, yaxud şəxslər deyil, həm də onu doğuran səbəb və mənbələrin aradan qaldırılması olmalıdır. Konfransdakı çıxışında bu məsələyə xüsusi toxunan Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada İslam dininin qərəzli olaraq terrorizmlə əlaqələndirilməsinin yolverilməzliyini diqqətə çəkmişdir: *«Dünyada gedən proseslər bəzi hallarda bizi narahat edir. İlk növbədə bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən siyasi dairələr tərəfindən İslamı terrorizmlə eyniləşdirmək cəhdləri bizi çox üzür, narahat edir və hiddətləndirir. Biz buna heç cür imkan verə bilmərik. İslamı terrorizmlə eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terrorist təşkilatları bizə qarşı 30-dan çox terror aktı törətmişlər. Bu terror aktları nəticəsində 2 mindən artıq azərbaycanlı həlak olmuşdur. Ancaq biz bu terrorist təşkilatları hər hansı bir dinə bağlamırıq. Bu, düzgün deyildir. Terrorizmin nə dini var, nə də milliyyəti. Ona görə biz bu məsələlərə öz etirazımızı daha da inamla bildirməliyik, öz sözümüzü deməliyik»* deyən

Azərbaycan Prezidenti sessiya iştirakçılarına ölkəmizdə gedən demokratikləşmə və iqtisadi inkişaf prosesləri barədə dolğun məlumat vermiş, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində bir çox müsəlman dövlətlərinin nümayiş etdirdiyi ədalətli və obyektiv mövqeyi təqdir etmişdir.

## Danışıqlarda Azərbaycanın ərazi bütövlüyü prioritetdir

Son illər ölkəmizin beynəlxalq nüfuzunun və iqtisadi qüdrətinin artması Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin müzakirələrində də onun mövqelərinin güclənməsinə imkan yaradır. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipini qətiyyətlə müdafiə edir və ölkəmizin hərbi büdcəsini və ordunun maddi-texniki bazasını ildən-ilə daha da möhkəmləndirməklə bu məsələdə güzəştə getmək niyyətimizin olmadığını nümayiş etdirir. Rəsmi Bakı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlarda psixoloji-siyasi üstünlüyə malik olmaq, bədnam erməni lobbisinə qarşı effektiv əks-hücumu təşkil etmək istiqamətində də ciddi nailiyyətlərə imza atmışdır.

Son illərdə rəsmi Bakının diplomatik fəallığının güclənməsi ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində ardıcıl və sistemli fəaliyyətin həyata keçirilməsi ilə müşayiət olunur. Nəticədə Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə əməl etməyən təcavüzkar dövlət olması faktı indi bir çox dünya dövlətləri tərəfindən tanınır. Azərbaycan gerçəkliklərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlər rəsmi Yerevanın diplomatik mövqelərinin zəifləməsi ilə nəticələnir.

Respublikamızın beynəlxalq əməkdaşlıq mərkəzinə çevrilməsi, iqtisadi potensialının güclənməsi, hərbi büdcəsinin ildən-ilə artması fonunda danışıqlar prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ehtimalı güclənir. ATƏT-in

Minsk Qrupunun son illərdə öz fəaliyyətini xeyli dərəcədə gücləndirməsi, dünyanın ən aparıcı beynəlxalq təşkilatlarının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə daha çox diqqət ayırması faktı göz önündədir. Avropa Şurası, Avropa Birliyi, İKT kimi nüfuzlu beynəlxalq qurumlar, habelə münaqişə ilə bağlı 4 qətnamə qəbul etmiş BMT problemin həllində ərazi toxunulmazlığı prinsipini önə çəkmişdir. ATƏT-in Minsk Qrupunun həmsədrlərindən isə ABŞ münaqişənin bu prinsip əsasında həllinə tərəfdar olduğunu bəyan etmişdir. Ermənistanın münaqişənin Praqa prosesi, yəni «mərhələli həll» modeli ilə razılaşmaq məcburiyyətində qalması da rəsmi Bakının son illərdəki mühüm diplomatik nailiyyətlərindən biri kimi vurğulanmalıdır.

2008-ci ilin payızında Moskvada keçirilən görüş çərçivəsində Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin son 14 ildə ilk dəfə birgə bəyannamə imzalaması isə danışıqlar prosesini intensivləşdirmək, problemi qarşılıqlı güzəştlər əsasında həll etməklə bağlı siyasi iradə nümayişi kimi yadda qalmışdır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə imzalanmış bəyannamədə münaqişənin beynəlxalq hüququn prinsip və normaları, bu çərçivələrdə qəbul olunmuş qərarlar və sənədlər əsasında siyasi yolla həlli, Cənubi Qafqazda vəziyyətin sağlamlaşması, regionda sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi, iqtisadi inkişaf və hərtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradılması məsələləri əksini tapmışdır. Tərəflər Moskva görüşündə razılaşmışlar ki, münaqişənin sülh yolu ilə həllinə nail olunmasının bütün aspektləri və mərhələləri hüquqi öhdəliklər yaradan beynəlxalq təminatlarla müşayiət edilməlidir. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin münaqişənin həlli ilə bağlı imzaladıqları rəsmi sənəddə məsələnin yalnız və yalnız beynəlxalq hüquq norma və prinsipləri əsasında həlli vacibliyi xüsusilə önə çəkilmişdir.

Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyi, qlobal enerji-kommunikasiya layihələrini ciddi şəkildə təhdid edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına və xalqın mənafeyinə uyğun həlli 2010-cu ildə də rəsmi Bakının xarici siyasətində prioritet istiqamətlərdən biri olmuşdur. Münaqişənin həllində daim beynəlxalq hüquq normalarına əsaslanan dövlət başçısı İlham Əliyev il ərzində keçirdiyi bütün xarici görüşlərində ölkəmizin haqlı mövqeyini bəyan etmiş, aparılan danışıqların mahiyyəti barədə ətraflı məlumat vermişdir.

2010-cu ildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar davam etdirilmişdir. İl ərzində davam etmiş danışıqlar 2009-cu ilin dekabrında ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən təqdim edilmiş yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır. Danışıqlarda rəsmi Bakı ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası, işğalçı qüvvələrin işğal olunmuş bütün ərazilərdən çıxarılması, yurdundan didərgin düşmüş məcburi köçkünlərin öz evlərinə qayıtması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının sülh şəraitində birgə yaşamasının təmin edilməsi, kommunikasiyaların bərpası və sonrakı mərhələdə hər iki icmanın iştirakı ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyənləşdirilməsi mövqeyindən çıxış etmişdir.

Ötən il Rusiya Prezidenti Dmitri Medvedevin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyan arasında yanvarın 25-də Soçidə, iyunun 17-də Sankt-Peterburqda və oktyabrın 27-də Həştərxanda üç görüş keçirilmişdir. Son görüşün nəticəsində tərəflər ATƏT-in Minsk Qrupu və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin vasitəçiliyi ilə hərbi əsir və girovların, həmçinin atəşkəs rejiminin pozulması

nəticəsində həlak olmuş şəxslərin cəsədlərinin qaytarılmasına dair birgə bəyanat qəbul etmişlər. Bunun nəticəsində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov və şəhid Fərid Əhmədovun cəsədlərinin vətənə qaytarılması ilə torpağa tapşırılması mümkün olmuşdur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının başlıca prinsiplərinin razılaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərin başçılarının keçən il iyunun 26-da Kanadanın Muskoka şəhərində verdikləri birgə bəyanat olmuşdur. Bəyanatda dövlət başçıları tərəfindən münaqişənin işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması və digər prinsipləri nəzərdə tutan mərhələli həllinin zəruriliyi vurğulanmışdır.

Azərbaycan Prezidentinin 2010-cu ilin dekabrında ATƏT-in Astana şəhərində keçirilən zirvə toplantısındakı çıxışı bir daha təsdiqlədi ki, Ermənistanın qeyri-konstruktiv mövqeyinə rəğmən danışıqlar prosesi məhz Azərbaycanın milli maraqlarına cavab verən prinsiplər çərçivəsində aparılır. Bununla belə, ölkəmizin danışıqlar prosesindəki siyasi üstünlüyü və təşəbbüsü ələ alması, haqlı mövqeyini qətiyyətlə ortaya qoyması təcavüzkar Ermənistanı qətiyyən razı salmır. Görünür elə bu səbəbdəndir ki, rəsmi Yerevan 2011-ci ilin əvvəllərindən başlayaraq danışıqlar prosesində əldə olunmuş irəliləyişlərə şübhə toxumu səpməyə, prosesi geriyə döndərərək praktik olaraq razılaşdırılmış məsələləri yenidən müzakirə predmetinə çevirməyə, «dialoqa maraqlı tərəf» imitasiyası yaratmağa çalışır.

Aşkar görünür ki, tənzimləmə prosesində beynəlxalq hüquq normalarına istinad imkanları tamamilə daralan, ideoloji, siyasi, hüquqi və iqtisadi müstəvilərdə Azərbaycana uduzan təcavüzkar tərəfin bütün səyləri hazırda mövcud «status-

kvo»nun qorunub saxlanılmasına, münaqişənin «baş vermiş fakt» əsasında həllinə hesablanmışdır. Etiraf etmək lazımdır ki, təcavüzkarı belə destruktiv mövqedən çıxış etməyə şirnikləndirən başlıca səbəblərdən biri də məhz danışıqlarda vasitəçilik edən ATƏT-in Minsk Qrupu həmsədrlərinin siyasi prinsipsizliyi, qətiyyətsizliyi, münaqişənin həllinə hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarından yanaşmamasıdır. Ərazi və milli-etnik separatizm zəminində baş qaldıran münaqişələrin həlli ilə bağlı beynəlxalq hüquqda konkret normalar və sivil tənzimləmə presedentləri mövcud olsa da, nədənsə həmsədrlər 16 ildən çox müddətdə «Ermənistan və Azərbaycanın öz aralarında razılığa gəlməsi» kimi gülünc mövqeyi önə çəkir, işğalçıya və işğala məruz qalan tərəfə eyni mövqedən yanaşırlar. Belə süni balans siyasəti isə son nəticədə beynəlxalq hüquq normalarının praktik təsir gücünə əsaslı şübhə yaradır. Dünya nizamını müəyyənləşdirən fövqəlgüclərin işğal faktına liberal yanaşması, dolayısı ilə təcavüzkarlığa göz yumması bu qənaəti gücləndirir ki, hazırda dünyada etnik-milli konfliktlərin həllində hüquqi deyil, məhz siyasi vasitə və maraqlar önə çəkilir. Prezident İlham Əliyev 2010-cu ilin martında Qəbələ rayonunda məskunlaşmış məcburi köçkünlərlə görüşdə bununla bağlı demişdir: *«Dünyada gedən proseslər onu göstərir ki, kim güclüdürsə, o da haqlıdır. Əfsuslar olsun ki, belədir. Amma bu, həqiqətdir və biz bu real dünyada yaşayırıq, biz virtual dünyada yaşamırıq. Hamı istəyər ki, qanunlar, beynəlxalq hüquq normaları işləsin, ədalət olsun. Ancaq biz bunu görmürük. Biz bu münaqişənin timsalında görürük ki, ədalətsizlik 20 ilə yaxındır davam edir və nə qədər də davam edəcək. Ona görə güclü olmaq üçün biz bütün imkanlarımızı səfərbər etməliyik».*

Danışıqlar prosesini qeyri-konstruktiv mövqe nümayişi ilə uzatmaq cəhdləri indiki şəraitdə Ermənistan üçün o qədər də

məqbul görünməsə belə, işğalçı dövlətin rəhbərliyi bunu ən pis variantlar sırasında «ən optimal gediş» kimi dəyərləndirir. Köhnə təkliflərin zaman-zaman yenidən gündəmə gətirilməsi də nizamlama prosesinin uzadılmasına, Ermənistanın əlavə vaxt udmasına hesablanıb. Belə ki, bir tərəfdən həmsədrlərin təkidi ilə nizamlama prosesinə razılaşan Ermənistan hakimiyyəti digər tərəfdən erməni diasporunun və müxalifətin təzyiqləri ilə üz-üzə qalıb. Serj Sarkisyan hökuməti üçün hər iki tərəfdən edilən təzyiqləri balanslaşdırmaq üçün yeganə çıxış yolu nizamlama prosesini uzatmaq, vaxt udmaqdır. «Nə hərb, nə sülh» vəziyyəti onsuz da xarici dəstək hesabına yaşayan Ermənistana milyonlar bahasına başa gəlsə də, Sarkisyan rejimi hələlik hakimiyyətinin ömrünü uzatmaq üçün bundan «yaxşı» variant görmür.

Prezident İlham Əliyev ATƏT-in Astana sammitində Ermənistanın işğalçılıq siyasətindən əl çəkmək istəmədiyini də açıq vurğulamışdır: *«Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə aparılan qeyri-qanuni fəaliyyət ATƏT-in faktaraşdırıcı missiyasının 2005-ci ildə regiona etdiyi səfərdən sonra hazırlanmış məruzədə əks olunub. Ermənistanın danışıqlar prosesindəki davranışı bizi belə qənaətə gətirir ki, Ermənistan sülh istəmir, işğal edilmiş əraziləri azad etmək fikrində deyil, sadəcə, bacardığı qədər status-kvonu saxlamaq və danışıqlar prosesini müddətsiz etməyi arzulayır. ATƏT-in Minsk Qrupu 1992-ci ildə yaradılmışdır, danışıqlar təxminən 20 ildir ki, aparılır, lakin heç bir nəticə yoxdur».*

Münaqişənin dinc yolla tənzimlənməsi prosesində konstruktiv mövqe nümayiş etdirən Azərbaycan son illərdə Ermənistanı hüquqi, siyasi və hərbi müstəvilərdə, o cümlədən informasiya cəbhəsində əhəmiyyətli dərəcədə üstələmişdir. Ermənistan rəsmilərinin ictimai rəyə hesablanmış ənənəvi və populist bəyanatlarına rəğmən, təcavüzkar dövlətin mövqeyində 2011-ci ildə də ciddi diplomatik geriləmələr müşahidə edilir.

Əvvəla, rəsmi Yerevan 2011-ci ildə Rusiyanın vasitəçiliyi ilə baş tutan Soçi görüşündə münaqişənin mərhələli həlliylə bağlı müzakirələrə qatılmağa məcbur olmuşdur: təcavüzkar dövlətin Praqa prosesi, yəni «mərhələli həll» modeli ətrafında danışıqları davam etdirməsi rəsmi Bakının mühüm diplomatik nailiyyətlərindən biri kimi vurğulanmalıdır.

Azərbaycanın diplomatik mövqelərinin güclənməsi təkcə beynəlxalq təşkilatların təcavüzkar tərəfə təsir göstərmək səylərinin intensivləşməsi ilə şərtlənmir. Artıq fövqəldövlətlər də münaqişənin həllinin uzanmasına görə narahatlıqlarını açıq ifadə edirlər. Münaqişənin həllinə beynəlxalq səviyyədə yönəlmiş səylərin nəzərəçarpacaq dərəcədə güclənməsi, ATƏT-in Minsk Qrupu səviyyəsində aparılan danışıqların xaotik məcradan çıxarılaraq konkret həll formatına salınması da rəsmi Bakının mühüm siyasi üstünlüyü kimi vurğulana bilər.

Zaman keçdikcə proseslərin gedişi Azərbaycanı artıq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin keyfiyyətcə yeni mərhələyə transformasiyasına və siyasi-hərbi yolla həllini hər an gündəmə gətirməyə imkan yaradır. Bu mərhələdə Azərbaycanın diplomatik səyləri təkcə Ermənistan rəhbərliyinin ifşasına deyil, həm də hərb yolunun nə vaxtsa qaçılmaz variant olacağını «sülh və tərəqqipərvər» dövlətlərə sübut etmək istiqamətində qurulmuşdur. Bu bir reallıqdır ki, Azərbaycanın münaqişənin hərb yolu ilə həlli barədə verdiyi bəyanatlar həm regionun, həm də Qərbin aparıcı dövlətlərini ciddi şəkildə narahat edir. İndiyə qədər regionda belə bir münaqişənin mövcudluğu ilə geosiyasi maraqlarını gerçəkləşdirmək imkanı qazanmağa çalışan fövqəlgüc dövlətləri hazırda Cənubi Qafqazda müharibənin yenidən alovlanmasından, qlobal layihələr üçün potensial təhdidlərin artacağından bərk narahatdırlar. Münaqişə tərəflərinə təsir və təzyiq cəhdlərinin artması da bu narahatlığın bariz təcəssümü kimi diqqəti çəkir.

Azərbaycanın iqtisadi cəhətdən qüdrətlənməsi, hərbi büdcəsinin əhəmiyyətli dərəcədə artması fonunda danışıqlar

prosesində dönüşün baş verməsi qaçılmazdır. Hazırkı situasiyada problemin sülh danışıqları ilə həlli variantı Azərbaycanın maraqlarına daha uyğundur. Ən azı ona görə ki, problemin həllinin uzanması Ermənistanın sosial-iqtisadi, hərbi və siyasi kontekstdə daha da zəifləməsi ilə müşayiət olunur. Rəsmi İrəvan ictimai rəyə hesablanmış populist vədlərinə rəğmən, münaqişənin beynəlxalq hüquq normaları əsasında həllinə imzaladığı rəsmi sənədlərlə razılıq verir.

ATƏT-in Astana sammitində həmsədr ölkələrin nümayəndə heyətləri başçılarının, habelə Azərbaycan və Ermənistan prezidentlərinin verdikləri birgə bəyanat bunu bir daha təsdiqləyir: *«Ermənistan və Azərbaycan prezidentləri Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüququn prinsipləri və normaları, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, eləcə də prezidentlər D.Medvedev, N.Sarkozi və B.Obamanın 2009-cu il iyulun 10-da Akvilldə və 2010-cu il iyunun 26-da Muskokada verdikləri bəyanatlar əsasında qəti tənzimləməyə çalışmaq öhdəliklərini təsdiq etdilər.*

*Üç həmsədr ölkə dinc tənzimləməyə nail olmaq üçün zəruri qərarlar qəbul edən Azərbaycan və Ermənistan prezidentlərini dəstəklədiklərini bildirdilər. Onlar Ermənistan və Azərbaycan rəhbərlərini səylərini Əsas Prinsiplərdə hələ qalan mübahisəli məsələlərin həlli üzərində yeni qüvvə ilə cəmləşdirməyə çağırdılar və öz həmsədrlərinə münaqişə tərəflərinin bu səylərini həyata keçirmələrinə kömək etmək üçün onlarla işi davam etdirməyi tapşırdılar. Onlar danışıqların keçdiyi atmosferi yaxşılaşdırmaq üçün tərəflərə müraciətlə onları atəşkəs rejiminin möhkəmlənməsinə və bütün sahələrdə etimad tədbirlərinin həyata keçirilməsinə yönəlmiş əlavə addımlar atmağa çağırdılar».*

Göründüyü kimi, burada söhbət münaqişənin beynəlxalq hüquq normaları əsasında, yəni ərazi bütövlüyü çərçivəsində həllindən gedir və bu, Azərbaycanın da maraqlarına tamamilə

uyğurdur. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllini mümkün sayır və sülh danışıqlarını da məhz bu formatda aparır. Ölkə başçısı Azərbaycanın ərazi itkisi ilə barışmayacağını hər zaman qətiyyətlə bildirir və münaqişənin həllində məhz beynəlxalq hüquq normalarına istinad edir.

Hələ bir neçə il əvvəl *«Nə 5 ildən sonra, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Mən nə qədər Prezidentəm, buna yol verməyəcəyəm»* deyən ölkə başçısı Azərbaycandan güzəşt umanlara sərt mesaj ünvanlamışdır. Bütün bunlar isə əminliklə deməyə əsas verir ki, Azərbaycan iqtidarı indiyə qədər olduğu kimi, münaqişənin həllində bundan sonra da prinsipial mövqe tutacaq və milli mənafelərin qorunması üçün ardıcıl diplomatik səylər göstərəcəkdir.

# Güclü dövlətin qüdrətli ordusu

*«Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır. Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Biz bu hərbi üstünlüyü əldə etmişik və gərək bunu möhkəmləndirək. Bu üstünlük daha da böyük olmalıdır və biz buna da nail olacağıq. Bu münaqişəni həll etmək üçün, işğala son qoymaq üçün həm siyasi-diplomatik səylər göstərilməlidir, həm də düşmən bilməlidir ki, Azərbaycan Ordusu istənilən vaxtda öz doğma torpaqlarını azad edə bilər və lazım olan vaxtda bütün gücümüzü səfərbər edərək biz buna nail olacağıq».*

İlham ƏLİYEV

**Hər bir xalqı dünyada tanıdan, məşhurlaşdıran, aparıcı söz sahibinə çevirən həm də onun ordusu, Silahlı Qüvvələridir. Tarixən hər bir millət ordusuna güvənmiş, onu milli qürur və fəxarət ünvanı saymışdır. Qüdrətli ordusu olan dövlət nəinki maraq və mənafeyini layiqincə qoruya bilmiş, eyni zamanda dünya siyasətinə əsaslı təsir imkanları əldə etmişdir. Əsrlər boyu qonşu dövlətlərlə dinc yanaşı yaşamağın, sülh və barışın, sabitliyin tərəfdarı olan Azərbaycan xalqının da özünümüdafiə əzmi, döyüş rəşadəti, qəsbkarlara**

**qarşı mübarizə ruhu daim yüksək olmuşdur. Xalqımız öz taleyini hər zaman güvəndiyi nizami orduya, cəsur, mübariz sərkərdələrə, vətənpərvər döyüşçülərə etibar etmişdir. Nizami ordu bu gün də Azərbaycan dövlətinin mövcudluğunun əsas təminatlarından birinə çevrilməklə, ona dünya miqyasında maraq və mənafeyini, milli təhlükəsizliyini lazımi səviyyədə qorumaq, müstəqil siyasət yeritmək imkanı yaradır.**

## Nizami ordu quruculuğu yolunda qətiyyətli addımlar

Azərbaycanın güclü hərb ənənələri olsa da, müstəqillik qazandıqdan sonra ölkəmiz bu sahədə ciddi böhranla üzləşmişdi. Ölkədəki naşı və yarıtmaz hakimiyyətlərin üzündən ordu quruculuğu yönümündə heç bir ciddi addım atılmamış, silahlı qüvvələr ayrı-ayrı siyasi qrupların əlində hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdi. Nizami orduya malik olmayan Azərbaycan hərcmərclik və xaos burulğanında ərazisinin 20 faizini itirmək məcburiyyətində qalmışdı.

1993-cü ilin iyununda – son dərəcə mürəkkəb bir dövrdə xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin etməklə, vətəndaş qarşıdurmasını aradan qaldırmaqla, respublikanı parçalanmaq təhlükəsindən hifz etməklə sözün əsl mənasında milli qurtuluşu təmin etmişdir. Ulu öndərin Ali Sovetin Sədri seçildiyi 15 iyun tarixinin sonradan Milli Qurtuluş Günü elan edilməsi və hər il əlamətdar gün kimi qeyd olunması da məhz bu reallığa əsaslanır. Böyük strateq Heydər Əliyev Azərbaycanın perspektiv inkişaf prioritetlərini ilk gündən düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik dəyərlərin daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına hər zaman xüsusi diqqətlə yanaşmışdır.

Belə mürəkkəb şəraitdə Heydər Əliyevin qarşısında eyni zamanda dövlətçiliyin qorunub saxlanması ilə yanaşı, cəbhə bölgəsində üzləşdiyimiz hərbi uğursuzluqları aradan qaldırmaq, düşmənə qarşı mütəşəkkil müqaviməti təşkil etmək, iqtisadi, siyasi, mənəvi və psixoloji cəhətdən ağır durumda olan bir ölkədə ordu quruculuğuna başlamaq kimi çətin vəzifə dayanırdı. Daxili sabitlik üçün potensial təhlükə mənbəyi sayılan qanunsuz silahlı qruplaşmaların – hərbi müxalifətin zərərsizləşdirilməsi ümummilli liderin üzərinə düşən məsuliyyət yükünü bir qədər də artırır, onun kifayət qədər riskli və qətiyyətli addımlar atmasını zəruri edirdi. Yaranmış acınacaqlı durumda bu taleyüklü problemlərin həllinə paralel yanaşmaya, bütün sahələrdə köklü islahatların aparılmasına ehtiyac yaranmışdı. Cəhbə bölgəsində vəziyyətin stabilləşməsinə nail olmadan xarici investorları ölkəyə cəlb etmək, iri neft şirkətlərilə müqavilələr imzalamaq, iqtisadi böhran və tənəzzül mərhələsini adlamaq mümkün deyildi. Belə bir şəraitdə vəzifə səlahiyyətlərinin icrasına başlayan Heydər Əliyev qısa müddətdə həlledici uğurlara imza atmaqla peşəkar idarəçi və xarizmatik lider olduğunu bir daha təsdiqlədi.

1993-cü il noyabrın 2-də Azərbaycan dövlət televiziyası və radiosu ilə xalqa müraciət edən Heydər Əliyev ictimai ruh düşkünlüyünün qarşısını almış, hamını bir nəfər kimi düşmənə qarşı mübarizədə fəal iştirak etməyə çağırmışdı. Ulu öndər Heydər Əliyev müraciətində təkcə hərbi uğursuzluqların səbəblərini deyil, həm də vəziyyətdən çıxış yollarını göstərmişdi. Eyni zamanda, keçmiş hakimiyyətin dövründə Qarabağ məsələsindən çirkin siyasi məqsədlər üçün istifadə edildiyini, ordunun hakimiyyət uğrunda qeyri-qanuni mübarizəyə qoşulduğunu təəssüflə vurğulamışdı: *«Ordunu bir gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki-üç il müddətində ordu yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək olardı. Təəssüf ki, bu fürsətlər əldən verilib».*

Ümummilli lider Heydər Əliyevin xalqa müraciətindən sonra qəlbində vətən sevgisi olan, respublikamızdan kənarda hərbi xidmət keçən peşəkar zabitlərin, kadrların Azərbaycana axını başlanmışdı. Bu müraciət ictimaiyyətin ayrı-ayrı kateqoriyaları tərəfindən dəstəklənmiş, vətəndaşlar, eləcə də ayrı-ayrı təşkilat və müəssisələr ictimai müdafiə prosesinə fəal şəkildə qoşulmuş, ordudan yayınma hallarının, cəbhədə geriləmələrin qarşısı alınmışdı. Hərbi uğursuzluqlarla üzləşdiyini görən təcavüzkar Ermənistan 1994-cü ilin mayında danışıqlar masası arxasında oturmağa, cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan Bişkek Protokolunu imzalamağa məcbur olmuşdu. Atəşkəs Azərbaycanın iqtisadi inkişafının təmin edilməsi və ordu quruculuğu prosesinin uğurla aparılması baxımından da mühüm bir mərhələ olmuşdu.

Atəşkəs mərhələsindən sonra ölkədə ordu quruculuğu istiqamətində ciddi addımlar atılmışdır. Azərbaycan Silahlı Qüvvələrinin kəmiyyət və keyfiyyət baxımından komplektləşdirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi, hərbçilərin maddi rifah halının ildən-ilə yaxşılaşdırılması, ordu hissələrinin ən müasir texnika və avadanlıqlarla təchiz edilməsi, eləcə də bu sahədə beynəlxalq təcrübənin mənimsənilməsi dövlət siyasətinin ən mühüm qollarından birinə çevrilmişdir. Nizami ordu quruculuğu spesifik bir sahə, uzun sürən və gərgin səy göstərilməsini tələb edən mürəkkəb proses olsa da, müstəqil Azərbaycanın son 17 ildə bu sahədə qazandığı nailiyyətlər dövlətimizin etibarlı müdafiə sisteminin formalaşdığından xəbər verir. Ümummilli lider Heydər Əliyevin səyləri ilə bu sahədə tamamilə yeni mərhələ başlanmış, ordunun elmi əsasda qurulması, peşəkar kadr potensialının hazırlanması, nizam-intizamın gücləndirilməsi, maddi-texniki təchizatının yüksəldilməsi baxımından bir sıra vacib işlər həyata keçirilmişdir.

Azərbaycan Ordusunun beynəlxalq əməkdaşlığı məsələsi də dövlətin xarici siyasətində xüsusilə aktuallıq kəsb edir. Dövlət

müstəqilliyini qazandıqdan sonra çoxqütblü inkişaf modelləri sırasından Qərb dəyərlərini seçən Azərbaycan hərbi-siyasi təhlükəsizliyinə təminatı gücləndirmək, beynəlxalq birliyin tamhüquqlu subyektinə çevrilmək üçün aparıcı beynəlxalq təşkilatlarla, o cümlədən NATO ilə əməkdaşlığa mühüm önəm vermişdir. Ümummilli lider Heydər Əliyev Şimali Atlantika Alyansı ilə hərbi-siyasi əlaqələrin dərinləşdirilməsini balanslaşdırılmış xarici siyasət doktrinasının prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirərək bu istiqamətdə praktik addımların atılmasını təmin etmişdir. Alyansın beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alan ulu öndər respublikanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulması barədə qətiyyətli qərar verərək, 1994-cü il mayın 4-də Brüsseldə təşkilatın çərçivə sazişini imzalamış, bununla da Azərbaycan MDB məkanında Ukrayna, Moldova və Gürcüstandan sonra bu proqrama qoşulan dördüncü respublika olmuşdur.

«Sülh naminə tərəfdaşlıq» Proqramının imzalanması ilə əlaqədar ümummilli lider Heydər Əliyev NATO iclasında çıxış edərək həmin günün Azərbaycan Respublikası üçün mühüm hadisə olduğunu qeyd etmiş, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycan ərazisinin 20 faizə qədərinin erməni silahlı birləşmələri tərəfindən işğal olunması, bir milyondan çox adamın yaşayış yerlərini itirməsi, Dağlıq Qarabağ və onun ətrafında Azərbaycanın daha yeddi rayonunun erməni silahlı birləşmələrinin işğalı altında olması haqqında məlumat vermişdir: *«Biz NATO-nun Şərqi Avropa ölkələrini və keçmiş Sovet İttifaqına daxil olan yeni müstəqil dövlətləri «Sülh naminə tərəfdaşlıq» sənədinə qoşulmağa çağıran dəvətini böyük razılıqla qarşılamışıq və buraya da bu fikirlər və ümidlərlə gəlmişik və bu gün «Sülh naminə tərəfdaşlıq» Proqramını imzalamağa hazırıq».*

Həmin dövrdən başlayaraq NATO–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün şərait yaranmışdır. Heydər Əliyev 26 aprel 1999-cu ildə NATO-nun 50 illik yubileyinə həsr olunmuş zirvə görüşündəki çıxışında bildirmişdi ki, Azərbaycan Şimali Atlantika Müqaviləsi Təşkilatı ilə münasibətlərinin daha da dərinləşdirilməsinə öz tərəfindən hər cür kömək göstərəcək. 1999-cu ilin may ayında NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında Azərbaycana həmin qurumda müşahidəçi statusu verilmiş, 2001-ci il noyabrın 19-da isə Azərbaycan Respublikası NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edilmişdir.

## NATO – Azərbaycan üçün etibarlı «təhlükəsizlik çətiri»

Azərbaycan–NATO əlaqələrinin inkişafı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövründə daha da sürətlənmişdir. Cənab İlham Əliyevin 2004-cü ilin may ayında Brüsselə səfəri zamanı NATO-nun Baş katibi ilə ikitərəfli əməkdaşlığın inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi, maraq doğuran regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmış, eyni zamanda, Azərbaycan Prezidenti ölkəmizin hazırladığı «Fərdi tərəfdaşlıq üzrə Əməliyyat Planı»nı NATO-nun Baş katibinə təqdim etmişdir. Bu plana görə, Azərbaycan Şimali Atlantika Blokunun 300-ə yaxın proqramında iştirak etmək hüququ əldə etmişdir və fərdi tərəfdaşlıq planında iştirak Azərbaycanın NATO ilə əməkdaşlığı sahəsində dönüş nöqtəsi olmuşdur.

Azərbaycanın NATO ilə əməkdaşlığının mahiyyəti ondan ibarətdir ki, Azərbaycan bu qurumun imkanlarından istifadə edərək beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya edə bilər. Hazırda Azərbaycan–NATO əlaqələri getdikcə daha da intensivləşir, Azərbaycan ordusunun NATO standartlarına uyğun formalaşdırılması prosesi gedir.

2004-cü il noyabrın əvvəllərində NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer Cənubi Qafqaz ölkələrinə səfər çərçivəsində Bakıda olmuş, respublika rəhbərliyi ilə aparılan danışıqlarda Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramında iştirakı, Azərbaycan–NATO fərdi tərəfdaşlıq planının gerçəkləşdirilməsi, beynəlxalq terrorizmlə mübarizə üzrə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdir.

Azərbaycanın NATO ilə 2005-ci ilin aprelində imzaladığı Fərdi Tərəfdaşlığa dair Fəaliyyət Planı (IPAP – Individual Partnership Action Plan) ölkəmizin müdafiə, siyasi, iqtisadi və hüquqi sahələrində Qərb standartlarına uyğun islahatlar aparmasına təkan vermişdir. IPAP sənədi NATO-nun 2002-ci ilin noyabrında Praqada keçirilən sammiti zamanı tərəfdaş dövlətlər üçün açıq elan edilmiş, 2005-ci il aprelin 28-də isə Brüsseldə «NATO+Azərbaycan» formatında keçirilmiş görüşdə tərəflər planın müddəalarını müzakirə edərək təsdiqləmişlər. 2005-ci il mayın 27-də IPAP Azərbaycan üçün yekun olaraq qəbul edilmişdir. IPAP hər bir dövlətin xüsusiyyətlərini və istəklərini nəzərə alır və Cənubi Qafqazda IPAP çərçivəsində islahatlar prosesinin 2015-ci ilə qədər başa çatdırılması planlaşdırılır.

Azərbaycanın NATO ilə Fərdi Tərəfdaşlığa dair Fəaliyyət Planı əsasən 4 sahədə problemlərin həlli yollarını əhatə etmişdir:

– *siyasi məsələlər və ümumi təhlükəsizlik problemləri;*
– *hərbi, təhlükəsizlik və müdafiə sahəsindəki problemlər;*
– *ekologiya, elm problemləri və ictimai məsələlər;*
– *informasiya mübadiləsi və inzibati məsələlər.*

Bununla yanaşı, IPAP Azərbaycan kimi tərəfdaş dövlətlərin təhlükəsizlik sektorunun NATO-ya inteqrasiya istiqamətində konkret tədbirləri əks etdirmiş, eyni zamanda, NATO-nun müttəfiq dövlətlərinin tərəfdaş ölkələrə yardım edə biləcəyi sahələri, təlim və tədris imkanlarının artırılması yollarını müəyyənləşdirmişdir.

Azərbaycanın IPAP-a qoşulmasının əsas məqsədi XXI əsrə uyğun təhlükəsizlik sisteminin formalaşdırılması, eləcə də NATO ilə regional təhlükəsizlik, bu təhlükəsizliyin strategiyasının, Azərbaycanın hərbi doktrinasının hazırlanması, müdafiə və büdcə planlaşdırılması prosesinin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı daimi olaraq NATO ilə məsləhətləşmələr aparılmasıdır.

Azərbaycan, həmçinin NATO-ya daha da yaxın olmaq üçün alyansla işgüzar və siyasi əməkdaşlığı fəallaşdırmaq istiqamətində fəal addımlar atmışdır. Bununla bağlı Müdafiə Təsisatlarının Qurulması üzrə Tərəfdaşlıq Əməliyyat Proqramı (PAP DIB), Planlaşdırma və Analiz Prosesi (PARP) və eləcə də müttəfiqlərlə məsləhətləşmələr vacib vasitələr hesab edilir.

IPAP-da isə o da qeyd edilir ki, Azərbaycan Qafqazda regional təhlükəsizliyə və sabitliyə yardım etməyə səy göstərir və bütün qonşularla konstruktiv münasibətlərin inkişafının və yaxşılaşmasının qəti tərəfdarıdır. Azərbaycanın demokratik təsisatlarda inkişafının təmin olunması, insan hüquqlarının müdafiəsi, qanunun aliliyi, şəffaflıq və korrupsiya ilə mübarizə kursuna sadiq olacağı da IPAP-da bildirilir.

Burada Azərbaycanın müdafiə sahəsində planlaşdırma aparılması istiqamətində çox aydın şəkildə müəyyən edilmiş məqsədlər də mövcuddur və NATO-ya üzv olmağa çalışan və alyansla əməkdaşlıq edən dövlətlərin Silahlı Qüvvələrində həyata keçiriləcək islahatların mahiyyəti, bu istiqamətdə lazımi əlaqələrin və planlaşdırmanın hazırlanması və bütün bunlar üçün ən optimal büdcə variantının seçilməsi öz əksini tapmışdır.

NATO ilə həyata keçirilən əməkdaşlığa əsasən, Müdafiə Təsisatlarının Qurulması üzrə Tərəfdaşlığın Əməliyyat Planı (PAP DIB – Partnership Action Plan on Defence Institution Building) və Proseslərin Planlaşdırılması və Analizi Proqramı (PARP – Planning and Reviec Process) kimi sənədlər

də hazırlanmışdır. PARP sənədi tərəfdaş dövlətlərlə Şimali Atlantika İttifaqı arasında əlaqələrin inkişafına kömək edəcək bir sıra hədəflərə nail olmaq üçün nəzərdə tutulmuş prosesdir. PARP çərçivəsində fəaliyyətin əsas istiqaməti qarşılıqlı fəaliyyət tədbirlərinin, yeni hərbi təlim, sülhyaratma əməliyyatlarının planlaşdırılmasına yönəldilmişdir. Azərbaycan 1996-cı ildə PARP-a qoşulmuşdur.

PAP DIB isə NATO ilə əlaqələrini dərinləşdirmək istəyində olan tərəfdaş ölkələr üçün bir vasitədir. Bu sənəd «Sülh naminə tərəfdaşlıq» Proqramına üzv ölkələrdə konkret müdafiə islahatlarının irəli sürülməsi vasitəsi kimi çıxış edir.

IPAP çərçivəsində həyata keçirilən əməkdaşlığa əsasən, Azərbaycan Müdafiə Nazirliyi kadrlarının (hərbi və mülki heyət) idarəedilməsi sistemində mütəmadi olaraq islahatlar aparır, hərbi birləşmələrdə NATO standartlarının tətbiq olunmasını həyata keçirir, Silahlı Qüvvələrin demokratik cəmiyyətin dəyərlərinə maksimal şəkildə cavab verməsinə nail olmaq istiqamətində əməli addımlar atır. Eləcə də hərbi təhsil sistemini daim təkmilləşdirmək, Silahlı Qüvvələrin «Sülh naminə tərəfdaşlıq» Təlim Mərkəzini genişləndirmək, Silahlı Qüvvələrin nizamnamələrini, təlimatlarını, əsasnamələrini və digər rəhbər sənədlərini NATO standartlarına uyğun hazırlamaq, ordunun maddi-texniki təminatı sahəsində islahatlar həyata keçirmək, NATO qüvvələri ilə əməliyyat səviyyəsində qarşılıqlı münasibətləri təmin etmək, onları inkişaf etdirmək, Silahlı Qüvvələrə demokratik nəzarət mexanizmlərini təkmilləşdirmək, hərbi qulluqçuların NATO-nun sülhməramlı əməliyyatlarında birgə iştirak vərdişlərini təkmilləşdirmək, islahatların davamlılığını təmin etmək istiqamətində konkret addımlar atmışdır.

Azərbaycanın beynəlxalq əməkdaşlığında NATO-nun yeri və rolu getdikcə güclənir və bu, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafında da öz təsdiqini tapır. Bu əməkdaşlıq

qlobal planda sülh və sabitliyə xidmət etməklə regionun nəhəng enerji layihələrinin təhlükəsiz gerçəkləşdirilməsinə əsaslı təminat yaratmışdır. Xəzərin enerji resurslarının dinc şəraitdə mənimsənilməsi, habelə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təhlükəsizliyinin təmin edilməsi baxımından Azərbaycan–NATO əməkdaşlığının mühüm əhəmiyyəti vardır. Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırılması istiqamətində atılan addımlar sistemli xarakter daşımaqla bu gün də davam etdirilir.

Dünyanın bir sıra qaynar nöqtələrində sabitliyi və təhlükəsizliyi pozan beynəlxalq terrorizm, təcavüzkar separatizm, narkotik qaçaqmalçılığı və digər qlobal təhdidlərlə mübarizədə NATO-ya üzv olan, habelə bu hərbi-siyasi blokla sıx əməkdaşlıq edən ölkələrin koalisiyasının formalaşdırılması da məhz bu zərurətlə şərtlənmişdir. Azərbaycan Respublikası da tarixən erməni terrorizmindən əziyyət çəkmiş dövlət kimi Kosovo, Əfqanıstan və İraqda həyata keçirilən antiterror əməliyyatlarına ilk gündən hərbi-siyasi dəstək vermiş, Silahlı Qüvvələrimizin mətin hərbçiləri NATO qoşunlarının tərkibində sülhməramlı əməliyyatlarda fəal iştirak etmişlər.

Azərbaycan sülhməramlıları son 10 ildə üzərlərinə düşən sülhməramlı missiyanı daim yüksək məsuliyyətlə, şərəflə həyata keçirərək dövləti və xalqı layiqincə təmsil etmişlər. Qlobal miqyasda sülh və sabitliyə töhfə vermək, sülhməramlı əməliyyatlara qoşulmaq respublikamızın beynəlxalq aləmdə nüfuzunun daha da artmasına, dünya birliyində öz yerini möhkəmlətməsinə, bəşəriyyəti narahat edən problemlərin həllində yaxından iştirakına əlverişli zəmin yaranmışdır.

Ulu öndər Heydər Əliyev 11 sentyabr hadisələrini dərhal kəskin şəkildə pisləməklə yanaşı, müdrik rəhbər kimi Azərbaycanın antiterror koalisiyasında fəal iştirakını da təmin etmişdir. Ümummilli liderin müraciəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi 15 noyabr 2002-ci il tarixdə

«Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri taburunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında» qərar qəbul etmişdir. Eyni zamanda, Əfqanıstandakı əməliyyatlara rəhbərlik edən NATO-nun koalisiya üzvü olan dövlətlərə öz hərbçilərinin sayını artırmaq barədə xahişinə ilk müsbət reaksiya verən dövlətlərdən biri məhz Azərbaycan olmuş, Kabildəki sülhməramlı kontingentimiz iki dəfə artırılmışdır.

Beynəlxalq sülh və təhlükəsizliyə böyük töhfə verən Azərbaycan Respublikası eyni zamanda İraqda həyata keçirilən sülhməramlı missiyanı da ilk gündən dəstəkləmiş, «İraqın Azadlığı Əməliyyatı»nda (Operation Iraqi Freedom) fəal iştirak etmişdir. 32 dövlətin iştirakı ilə yaradılmış beynəlxalq koalisiyanın üzvü olan respublikamızın bu beynəlxalq sülhməramlı aksiyada iştirakı da məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü ilin mayında ümummilli lider Heydər Əliyevin təşəbbüsü əsasında Milli Məclis «Azərbaycan Respublikası Silahlı Qüvvələri bölüyünün beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi haqqında» qərar qəbul etmişdir. 2003-cü il avqust ayının 15-dən 2008-ci il dekabrın 15-dək çoxmillətli Qüvvələrin Qərbi İraq Qrupunda (Multinational Forces West Iraq) – ABŞ dəniz piyadaları taburunun tərkibində fəaliyyət göstərən Azərbaycan sülhməramlı bölüyü nəzarət etdiyi ərazidə asayişin qorunmasını, humanitar yüklərin müşayiət edilməsini, hərbi və inzibati obyektlərin mühafizəsinin təşkilini həyata keçirmişdir.

2008-ci ildə Kosovoda və İraqda humanitar missiyanı şərəflə başa vuran Azərbaycan hərbçiləri hazırda Əfqanıstanda sülhün və sabitliyin təmini prosesinə öz töhfələrini verirlər. Xatırladaq ki, 2002-ci il noyabrın 18-də Əfqanıstanın Kabil şəhərinə

yola düşən Azərbaycan taqımı Türkiyə Respublikası Silahlı Qüvvələri taburunun tərkibində – Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) strukturunda fəaliyyət göstərir. ABŞ-dakı məlum 11 sentyabr hadisələrindən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 2001-ci il dekabr ayının 20-də Əfqanıstanda terrorizmə qarşı mübarizə aparılması ilə bağlı xüsusi qərar qəbul etmiş, dünyanın 35 dövləti terrorun bəşəriyyət üçün böyük təhlükə olduğunu nəzərə alaraq bu mübarizəyə qoşulmuşdur.

Bu gün inkişaf tempi ilə dünyanın ən modern ölkələrindən birinə çevrilməyi bacarmış Azərbaycan qarşısına qoyduğu hədəflərə uğurla çatır, bu istiqamətdə meydana çıxan problemləri müvəffəqiyyətlə həll edir. Sözügedən kontekstdə Azərbaycanın tezliklə öz ərazi bütövlüyünü də bərpa edəcəyi, üzləşdiyi təcavüzkarlığa birdəfəlik son qoyacağı heç bir şübhə doğurmur. Münaqişənin həllinin hərbi müstəviyə keçəcəyi təqdirdə təcavüzkarı hər an acı məğlubiyyətə düçar etməyə hazır olan qüdrətli Azərbaycan Ordusu formalaşmışdır. Müstəqil siyasət yeridən Azərbaycan hərbi hüququndan diplomatik səylər nəticə verməyəcəyi təqdirdə, istədiyi vaxt istifadə edəcəyinə dair beynəlxalq ictimaiyyətə mövqeyini aydın və qəti şəkildə çatdırmışdır. Ali Baş Komandan, Prezident İlham Əliyevin də dünyaya və düşmənə mesajı qətidir: *«Biz uzun illərdir ki, işğaldan əziyyət çəkirik, torpaqlarımız işğal altındadır. Hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Bunu etmək üçün siyasi və diplomatik səylərlə bərabər, biz güclü orduya malik olmalıyıq və bu proses uğurla gedir. Bu gün Azərbaycan Ordusunun səviyyəsi çox yüksək zirvədədir».*

Azərbaycanın qüdrətli Silahlı Qüvvələrinin mövcudluğunu işğalçı tərəf, eləcə də dünya ictimaiyyəti hələ 2008-ci ildə keçirilən möhtəşəm hərbi paradda bir daha gördü, buna növbəti dəfə əmin oldu. Həmin il iyunun 26-da Azər-

baycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 90-cı ildönümü münasibətilə Bakının bayram libası geymiş Azadlıq meydanında keçirilən parad ölkəmizin müzəffər silahlı birləşmələrə malik olduğunu yenidən bariz şəkildə hamıya nümayiş etdirdi. Silahlı Qüvvələrin bütün qoşun növlərinin, hərbi birlik və birləşmələrin, hərbi tədris müəssisələrinin, həmçinin qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrin 4510 nəfərlik şəxsi heyətinin, 210 modernləşdirilmiş hərbi texnikanın, döyüş vertolyotlarının, təyyarələrin, gəmilərin və qayıqların iştirak etdiyi hərbi parad hər bir azərbaycanlıda qürur hissi doğurdu. Çünki bu, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətindən, onun yenilməzliyindən, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün istənilən an zəfər yürüşünə hazır olmasından xəbər verən möhtəşəm tədbir idi.

Hərbi paradda yenə də hər bir azərbaycanlının qürurunu oxşayan daha bir önəmli məqam tədbirə qatılmış şəxsi heyətin sıralarında Azərbaycan hərb məktəbinin yetirmələrinin, kursantlarının olması idi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 39 il öncə yaratdığı və Azərbaycanın hərb tarixində xüsusi yeri olan Cəmşid Naxçıvanski adına Hərbi liseyin kursantlarının, quru qoşunlarının, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Ali Hərbi Dənizçilik, Ali Hərbi Təyyarəçilik məktəblərinin kursantlarının təntənəli mərasimlə Azadlıq meydanında Ali Baş Komandanın dayandığı tribunanın önündən keçmələri həm də ölkəmizin gələcək təhlükəsizliyinin də əmin əllərdə olacağından xəbər verirdi. Azərbaycanın mətin, qorxmaz, igid övladları – beynəlxalq təhlükəsizliyin qorunmasında fəal iştirak edən Silahlı Qüvvələrimizin sülhməramlıları, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyası, Milli Təhlükəsizlik Nazirliyinin, Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Qoşunlarının bölmələri, Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının hərbçiləri, Silahlı Qüvvələrin dəniz piyadaları, Daxili İşlər Nazirliyi Daxili

Qoşunlarının bölməsi, Müdafiə Nazirliyinin xüsusi təyinatlıları da bu paradda ölkəmizin yenilməz silahlı birləşmələrə malik olduğunu göstərdi. Paradda nümayiş etdirilən hərbi texnika isə Azərbaycan Ordusunun, digər növ Silahlı Qüvvələrin maddi-texniki təminatının yüksək səviyyədə olmasının bariz nümunəsinə çevrildi.

2009-cu il iyunun 24-də keçirilən daha bir mühüm tədbir Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətinə malik olduğunu real fakt əsasında nümayiş etdirdi. Həmin gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 91-ci ildönümü münasibətilə keçirilən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təliminin əsas mərhələsini Ali Baş Komandan şəxsən izlədi, nümayiş etdirilən hərbi texnika nümunələri ilə tanış oldu. Təlimin gedişi ordumuzun qarşıya qoyulan istənilən vəzifəni uğurla yerinə yetirməyə hazır olduğunu bir daha təsdiqlədi, onun peşəkarlıq səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldiyini göstərdi. Belə ki, təlimin gedişi zamanı artilleriya bölmələrinin şəxsi heyəti təlim sahəsindəki hədəflərə sərrast atəş açmaqla peşəkarlıq nümayiş etdirdi. Döyüş təyyarə və vertolyotları yüksək pilotajla yanaşı, hədəflərə dəqiq aviasiya zərbələrinin endirilməsində məharət göstərdilər. Tank və piyadanın döyüş maşını heyətləri idarə etdikləri texnikanın manevr və atəş gücündən tam istifadə edərək qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirdilər. Xüsusi təyinatlı bölmələrin taktiki hava desantı tərkibində paraşütlə atılması və qarşıya qoyulan tapşırığın dəqiq yerinə yetirilməsi onların əsl peşəkarlığını göstərdi. Ümumiyyətlə, təlimə cəlb olunan bütün şəxsi heyət yüksək döyüş hazırlığı nümayiş etdirdi. Təlimdə qarşıya qoyulan bütün məqsədlərə nail olundu.

Bütün bunlar həm də onu göstərdi ki, ordu quruculuğu ilə bağlı Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq

qalan strateji xətt öz yüksək nəticələrini verir. 2010-cu il aprelin 23-də Prezident İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirədə səslənən fikirlər də bunun növbəti sübutu kimi çıxış etdi. Məlum oldu ki, Silahlı Qüvvələrin inkişafı və təkmilləşdirilməsi istiqamətində yeni keyfiyyət yüksəlişinə nail olunub. Qoşunların döyüş qabiliyyəti daha yüksək səviyyəyə çatdırılıb, maddi-texniki təchizat istiqamətində olduqca mühüm uğurlara imza atılıb. Belə ki, həm yerli istehsal, həm də xaricdən alınan hərbi texnika hesabına ordumuzun arsenalında müasir döyüş sursatları cəmləşib. Bu döyüş sursatları isə Azərbaycan Ordusuna hətta işğalçı Ermənistan ərazisində belə istənilən hədəfi məhv etməyə imkan verir.

**Silahlı Qüvvələrin peşəkarlığı ildən-ilə yüksəlir**

Yüksək döyüş ruhuna malik Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin digər növlərinin peşəkarlığını nümayiş etdirən daha bir möhtəşəm təlim isə 2010-cu il iyunun 24-də baş tutdu. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimini yenə də Ali Baş Komandan, Prezident İlham Əliyev şəxsən izlədi. Xatırldaq ki, həmin vaxt ölkəmizə qarşı yönələn silahlı təcavüzün dəf edilməsi məqsədi ilə müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılması və təşkili, birinci müdafiə həddində müdafiə əməliyyatının aparılması, müasir silah sistemləri və aviasiyanın tətbiqi ilə düşmənə böyük dərəcədə zərər yetirilməsi, müxtəlif güc strukturlarının birləşmə və hissələrinin birgə hücum əməliyyatı aparmaqla müdafiəyə soxulan düşmən qruplaşmasının darmadağın edilməsi, əməliyyat ehtiyatlarının döyüşə yeridilməsi ilə hücumun

dərinliyə inkişafı və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi mövzusu üzrə irimiqyaslı birgə əməliyyat-taktiki təliminə ümumilikdə 4 min nəfərdən çox şəxsi heyət, 100 tank, 77 zirehli döyüş maşını, 125 artilleriya sistemi, 17 döyüş təyyarəsi, 12 döyüş vertolyotu və 4 nəqliyyat-döyüş vertolyotu cəlb edilmişdi. Bu dəfə də təlimin gedişində artilleriya bölmələrinin şəxsi heyəti təlim sahəsindəki hədəflərə sərrast atəş açmaqla peşəkarlıq nümayiş etdirdi. Döyüş təyyarələri və vertolyotları yüksək pilotajla yanaşı, hədəflərə dəqiq aviasiya zərbələrinin endirilməsində məharətlərini göstərdilər. Tank və piyadanın döyüş maşını heyətləri idarə etdikləri texnikanın manevr və atəş gücündən tam istifadə edərək qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirdilər. Xüsusi təyinatlı bölmələrin taktiki hava desantı tərkibində paraşütlə tullanması və qarşıya qoyulan tapşırığın dəqiq yerinə yetirilməsi onların əsl peşəkarlığını göstərdi. Ümumiyyətlə, təlimə cəlb olunan bütün şəxsi heyət yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Yüksək döyüş qabiliyyətinə malik olan Azərbaycan ordusunun maddi-texniki bazasının möhkəmlənməsi də prioritet istiqamətlər sırasında yer alır. Sadəcə onu demək kifayətdir ki, son 7 il ərzində Azərbaycanın hərbi xərcləri 13 dəfədən çox artmışdır. Təkcə 2010-cu ilin bütün hərbi xərcləri 2 milyard 150 milyon dollara bərabər olmuşdur ki, bu da Ermənistanın bütün dövlət büdcəsindən çoxdur. 2011-ci ildə Azərbaycanın hərbi xərcləri 3 milyard 100 milyon dollara çatdırılmışdır. Azərbaycanda hərbi təyinatlı məhsulların istehsalı istiqamətində mühüm addımlar atılır.

Dinamik inkişaf göstəricilərinə malik Azərbaycan müdafiə potensialının davamlı olaraq gücləndirilməsi istiqamətində də böyük nailiyyətlərə imza atmışdır. Bunun nəticəsidir ki, hazırda Cənubi Qafqazda ən güclü və peşəkar ordu məhz Azərbaycana məxsusdur. Proseslərin inkişaf axarı zaman keçdikcə Azərbaycan Ordusunun, eləcə də Silahlı Qüvvələrin

digər növlərinin döyüş hazırlığının, maddi-texniki təminatının, eləcə də digər mühüm parametrlərinin daha güclü hala gələcəyini, peşəkarlıq səviyyəsinin bir qədər də yüksələcəyini göstərir. Bunu şərtləndirən əsas amillər ordu quruculuğuna yetirilən xüsusi diqqət, Azərbaycanın zaman keçdikcə iqtisadi cəhətdən daha qüdrətli dövlətə çevrilməsi, ölkəmizə demoqrafik artım göstəricilərinin arzuedilən səviyyədə olması və sözügedən qəbildən olan digər məqamlardır.

Müdafiə məqsədi ilə ayrılan hərbi xərclərin ildən-ilə artması, eləcə də ölkəmizdə hərbi təyinatlı məhsulların istehsalını həyata keçirən sənaye müəssisələrinin yaradılması bu istiqamətdə mühüm rol oynayır. Belə ki, Azərbaycan müxtəlif xarici ölkələrdən müasir hərbi texnikalar alır, ordunun arsenalında olan bir sıra texnikaların modernləşdirilməsini həyata keçirir. Eyni zamanda, əvvəllər xaricdən alınan bəzi hərbi texnika və döyüş sursatları artıq Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan müəssisələrdə istehsal olunur.

Azərbaycanın yerli istehsal hesabına ordusunun müxtəlif hərbi ləvazimatlara və döyüş sursatlarına olan ehtiyacını ödəməsi ölkəmizin Ermənistan qarşısında üstünlüyünü daha da artırır. Hərbi təyinatlı məhsullar istehsal edən Azərbaycan sənayesinin qurulması prosesi elə böyük zaman kəsiyini əhatə etməsə də, burada ərsəyə gətirilən məmulatlar həm çeşidinə, həm də keyfiyyətinə görə müasir standartlara cavab verir. Digər tərəfdən, ildən-ilə ölkə daxilində istehsal olunan əsgəri məhsulların kəmiyyətində də ciddi artım yaşanır.

21-25 sentyabr 2010-cu il tarixində Cənubi Afrika Respublikasının (CAR) Keyptaun şəhərində keçirilən «AAD – Afrika Aerospace Defence–2010» sərgisi bunu növbəti dəfə nümayiş etdirdi. Afrika qitəsində indiyədək nümayiş olunan sərgilər arasında ən böyük hərbi sərgi hesab olunan bu sərgidə ölkəmiz Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan 67 adda müdafiə təyinatlı məmulatla təmsil

olunmuşdur. Buraya yüngül atıcı silahlar, onların müxtəlif kalibrli döyüş sursatları, minaatanlar, onlar üçün müxtəlif kalibrli minalar, reaktiv mərmilər, elektronika sənayesində istifadə olunan müxtəlif laylı çap lövhələri və digər məmulatlar daxil idi. Sərgidə, eyni zamanda, Azərbaycan ilə Cənubi Afrika Respublikasının birgə istehsalı olan «Matador» və «Marauder» tipli zirehli maşınlar da nümayiş etdirilib.

ABŞ, Çin, Türkiyə və CAR kimi ən məşhur silah istehsalçıları hesab olunan ölkələr də daxil olmaqla, dünyanın 36 ölkəsindən 323 qabaqcıl şirkətin qatıldığı sərgidə nümayiş olunan Azərbaycan istehsalı olan məmulatlar böyük marağa səbəb olub. Xüsusilə 12,7 və 14,5 mm-lik «İstiqlal» snayper tüfəngləri sərgidə iştirak edən xarici ölkə nümayəndələrinin diqqətini çəkib. Xatırladaq ki, 14,5 mm-lik «İstiqlal» snayper tüfəngi 2009-cu ildə Türkiyədə keçirilən «IDEF–2009» və cari ildə İordaniyada geçirilən «SOFEX–2010» sərgisində də xüsusi marağa səbəb olmuşdu. 12,7 mm-lik «İstiqlal» snayper tüfəngi isə ilk dəfə məhz «AAD – Afrika Aerospace Defence–2010» sərgisində nümayiş olunmuşdur.

Təqdirəlayiq haldır ki, Azərbaycan bu sahədə dünyanın bir çox ölkələri, qabaqcıl şirkətləri ilə əməkdaşlıq münasibətlərinin yaradılmasına xüsusi önəm verir və artıq xeyli uğurlu nəticələrə də imza atmışdır. Hazırda Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 20-dən çox dövlətinin 50-dən çox firma və şirkəti ilə sıx əməkdaşlıq edir. Həmin ölkələrin sırasına İtaliya, İsveçrə, ABŞ, Pakistan, Rumıniya, İsrail, Belarus, CAR, Ukrayna, Rusiya, Belçika, İran, Türkiyə, Polşa, Böyük Britaniya, Macarıstan və digərləri daxildir. Ümumilikdə isə Müdafiə Sənayesi Nazirliyinin əməkdaşlıq etdiyi dünya dövlətlərinin sayı 60-ı keçir.

Bu gün dünyanın inkişaf etmiş ölkələrində müxtəlif mülki məhsulların istehsalına da xüsusi önəm verilir. Ölkəmizdə

müdafiə sənayesində yaradılan müəssisə və zavodlar təkcə hərbi təyinatlı məmulatların istehsalına yox, eyni zamanda xalq təsərrüfatının bütün sahələri üçün müxtəlif mülki məhsulların istehsalını həyata keçirməyə imkan verir. Bunun nəticəsidir ki, neft-qaz sənayesində istifadə olunan fontan armaturları, fontan siyirtmələri, terminalda qazın qəbulu sistemi, tənzimləmə və ölçü qovşaqlarının avtomatlaşdırılmış məlumat-nəzarət sistemləri, neft quyularının, dağ-mədən işlərinin perforasiyası üçün müxtəlif ölçülü perforatorlar, traktorlar üçün tırtıllar, biryaruslu və ikiyaruslu çarpayılar, səyyar yemək termosları, smart-kartla işləyən qaz sayğacları, rəqəmsal işıqforlar, müxtəlif güclü akkumulyator batareyaları və sair artıq ölkəmizdə müdafiə sənayesində yaradılan müəssisə və zavodlarda istehsal edilir. Bununla yanaşı, ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində elmi-tədqiqat, təcrübi-konstruktor işlərinin aparılması sahəsində də ciddi addımlar atılır və bu, yeni növ müdafiə təyinatlı məmulatların istehsalının mənimsənilməsinə imkan verir. Eyni zamanda, dünyada tətbiq olunan yeni texnologiyaların, elmin hərbi-texniki sahəsində olan yeniliklərin əldə edilərək müəssisələrdə tətbiqi də prioritet istiqamətlər sırasında yer alır. Bütün bunlar Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin digər növlərinin hərbi texnika ilə təchizatının daha yüksək səviyyəyə çatdırılmasını təmin etməklə yanaşı, onların döyüş qüdrətinin davamlı olaraq artmasına da mühüm töhfələr verir.

Ötən illərdə Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının yaradılması istiqamətində də mühüm addımlar atılmışdır. Yeni minilliyin başlanğıcında planetin siyasi mənzərəsinin geniş vüsət almış qloballaşma proseslərinə nəzərən müəyyənləşməsi, «üçüncü demokratikləşmə dalğası»nın inkişaf etmiş ölkələri öz təsiri altına alması, dünya iqtisadiyyatının sürətlə transmilliləşməsi bəzi pozitiv cəhətləri ilə yanaşı, dövlətlərin milli maraq və təhlükəsizliyi məsələlərinə xüsusi diqqətlə

yanaşılmasını vacib məsələ kimi gündəmə gətirir. Yeni dünya düzəninin diktə etdiyi bu qaçılmaz gerçəkliklər fonunda hər bir dövlətin milli təhlükəsizlik konsepsiyası onun iqtisadi və elmi-intellektual potensialından, dünya siyasətindəki yeri və rolundan asılı olaraq müxtəlif məqsədlər üzərində qurulur. Hər bir dövlət özünəməxsus prinsip və xüsusiyyətləri ilə fərqlənən, müxtəlif istiqamətli daxili və xarici siyasət yeritməklə, milli maraq və mənafeyinin, milli təhlükəsizliyinin etibarlı təminatı məqsədini ön plana çəkir. Milli təhlükəsizlik problemi özlüyündə mürəkkəb struktura və quruluşa malik olmaqla, hər bir halda dövlətin, xalqın, ictimai quruluşun, insan hüquq və azadlıqlarının qorunması məsələlərini özündə ehtiva edir.

Beynəlxalq hüququn müstəqil subyekti olaraq Azərbaycanın da dünyada baş verən sürətli dəyişikliklər, xüsusən terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi, digər belə təhlükələrin mövcudluğu fonunda analoji sənəd və konsepsiyalara malik olması zəruri şərt kimi çıxış edir. Digər tərəfdən, məlum faktdır ki, 1990-cı illərdə yenidən dövlət müstəqilliyini qazanan Azərbaycan elə həmin vaxtdan indiyədək qonşu Ermənistanın təcavüz siyasətinə məruz qalmış, bununla ərazi bütövlüyünə xələl gəlmiş, təhlükəsizliyinə işğalçı ölkə tərəfindən o dövrdə ciddi hədə yaranmışdır. Bundan başqa, müstəqilliyin ilk dövründə daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə üzləşən Azərbaycan yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra üzləşdiyi bütün maneələri dəf edə bilmiş, ulu öndərin rəhbərliyi altında həqiqi dövlət müstəqilliyinə qovuşmaqla bərabər, düzgün strateji inkişaf yolunu da müəyyən edə bilmişdir.

1993-cü ilin ikinci yarısından etibarən yeni inkişaf dönəminə qədəm qoyan Azərbaycan siyasi, iqtisadi və digər sahələrdə

mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirərək bölgədə lider dövlətə çevrilmişdir. Azərbaycan Xəzər–Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici ölkə olaraq enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində müstəsna rola malik tərəflərdən biri kimi çıxış etməkdədir. Dinamik inkişafına görə dünya dövlətləri arasında seçilənlər sırasında yer alan Azərbaycanın ümummilli lider tərəfindən müəyyənləşdirilmiş tərəqqi strategiyası ölkəmizi beynəlxalq hüququn güclü, layiqli müstəqil subyektinə çevirməklə bərabər, əhalinin ümumi rifah halının yüksəlməsinə, qabaqcıl demokratik dəyərlərin bərqərar olaraq genişlənməsinə, bütün bunların davamlı xarakter daşımasına xidmət etməklə yanaşı, ölkədə, eləcə də regionda, təhlükəsizlik və sabitliyin təmin olunmasına özünəməxsus töhfə verməkdədir. Ulu öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, konstitusion quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsində həlledici əhəmiyyətə malik addımlar atmışdır.

Bu sahədə dövlət başçısının 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli sərəncamı xüsusi qeyd olunmalıdır. Məhz həmin sərəncama əsasən, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsi, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsi zərurəti ilə bağlı olaraq ölkənin milli təhlükəsizlik siyasətinin hazırlanması sahəsində işçi qrupu yaradılmışdır. Bu sahədə görülən müvafiq işlərdən sonra ölkənin milli təhlükəsizlik konsepsiyası ərsəyə gəlmiş və Prezident İlham Əliyevin sərəncamı ilə 2007-ci ilin may ayında təsdiq olunmuşdur.

Ölkənin milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyanı, bununla

yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliyini əks etdirən, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur. Məhz milli təhlükəsizlik konsepsiyasından irəli gələrək ölkənin hərbi doktrinasının, eləcə də sözügedən sənəddə nəzərdə tutulmuş xarici siyasət strategiyası, müdafiə icmalı, iqtisadi konsepsiya, mədəniyyət, elm, təhsil, səhiyyə, nəqliyyat konsepsiyalarının hazırlanması zəruri şərt kimi çıxış etmişdir. Prezident İlham Əliyevin 2007-ci il 23 may tarixli sərəncamında işçi qrupu qarşısında qoyulan əsas vəzifələrdən biri məhz hərbi doktrina layihəsinin hazırlanması ilə bağlı olmuşdur.

**Etibarlı təhlükəsizlik strategiyası**

Dövlətin, cəmiyyətin, bütün vətəndaşların maraqlarını özündə ehtiva edən Hərbi doktrina milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi olaraq hərbi siyasətin əsaslarını müəyyən edən çox vacib sənəd hesab edilir. Bu mənada, Prezident İlham Əliyev tərəfindən cari il mayın 18-də təsdiq olunmaq üçün Milli Məclisə təqdim olunan, iyunun 8-də ölkə parlamentinin təsdiq etdiyi müstəqil Azərbaycanın ilk Hərbi doktrinası mükəmməl bir sənəd olaraq ölkənin sözügedən sahədə təhlükəsizlik prioritetlərinin müəyyənləşdirilməsində xüsusi bir çəkiyə malikdir. Azərbaycanın Hərbi doktrinası ümummilli lider Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş ölkənin milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq insanın, cəmiyyətin, dövlətin hüquq və mənafelərinin daxili, xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir. Hərbi doktrina hərbi təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması, təhlil

edilməsi, qiymətləndirilməsi, qarşısının alınması, onlara yetərli müqavimətin göstərilməsi, dövlətin, əhalinin və ərazinin müdafiəyə hazırlanması, səmərəli hərbi təhlükəsizlik sisteminin yaradılması, müharibə və silahlı münaqişələrin qarşısının alınması, silahlı təcavüzün dəf edilməsi ilə bağlı məsələlərə dair Azərbaycanın mövqeyini əks etdirir. Ölkənin təhlükəsizlik mühitinin yaradılmasına və milli maraqlarının həyata keçirilməsinə mane olan, yaxud onlara təhlükə yaradan şərait, proses və amilləri təhlil edən Hərbi doktrina həm də milli təhlükəsizliklə bağlı olaraq hərbi-strateji, hərbi-siyasi, hərbi-iqtisadi, hərbi-texniki və təşkilati əsasları, ölkənin Silahlı Qüvvələrinin, həmçinin qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin vəzifələrini, onların hazırkı mərhələdə və ortamüddətli perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq proseslərini də müəyyənləşdirir.

Qeyd edilənlər bir daha təsdiq edir ki, Azərbaycanın Hərbi doktrinası müdafiə xarakterli sənəddir və bu da onun ölkənin milli maraqlarının qətiyyətli şəkildə müdafiə olunmasını özündə ehtiva etməklə sülh prinsiplərinə sadiqliyini göstərir. Digər tərəfdən o da aydın görünür ki, ölkənin hərbi təhlükəsizliyinin təmini dövlət siyasətinin, fəaliyyətinin ən vacib istiqamətlərindən birini təşkil edir. O da vacib məqamlardan biridir ki, Azərbaycan hərbi sahədə təhlükəsizliyinin təmin olunmasına demokratik hüquqi dövlət quruculuğu, sosial-iqtisadi islahatların həyata keçirilməsi, beynəlxalq münasibətlərdə qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq, mehriban qonşuluq, bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinin təsdiqi, sülhün qorunması və möhkəmlənməsi kontekstindən yanaşır. Bununla əlaqədar qeyd edilməlidir ki, Hərbi doktrinanın hüquqi əsasını ölkəmizin Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları, milli təhlükəsizlik konsepsiyası, milli təhlükəsizlik sahəsində digər konseptual sənədlər, eləcə də Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

Sözügedən sənəddə ən mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, hərbi təhlükəsizliyin təmin olunması naminə ölkənin bütün qüvvə, vasitə və resurslarından istifadə olunur. Bu məqam Hərbi doktrinanın müddəalarının həyata keçirilməsi prosesində də öz əksini tapmışdır. Məlumat üçün bildirək ki, Hərbi doktrinanın müddəaları Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş hərbi, siyasi, iqtisadi, sosial, informasiya, hüquqi və digər tədbirlərin əlaqələndirilməsi vasitəsilə dövlət və yerli özünüidarəetmə orqanları, Silahlı Qüvvələr və başqa silahlı birləşmələr tərəfindən həyata keçirilir. Zərurət olduqda bu müddəaların həyata keçirilməsinə vətəndaş cəmiyyətinin təsisatları və ayrı-ayrı təmsilçiləri cəlb oluna bilər. Əlbəttə, bütün bunlar qanunvericilik səviyyəsində həyata keçirilir. Lakin bu məqamın özü Hərbi doktrinanın həm də demokratikliyini, zərurət yarandıqda vətəndaş cəmiyyətinin burada iştirakına şərait yaradılmasına imkan verilməsini də özündə ehtiva etdiyini aydın göstərir. Bu isə bir daha qeyd olunan sənədin hazırlanma prosesində qabaqcıl dünya təcrübəsinə müvafiq olan əsas cəhətlərin nəzərə alındığını, daha mütərəqqi məqamların sənəddə əks olunduğunu göstərir.

Məlum həqiqətdir ki, Azərbaycan ərazilərinin bir hissəsini işğal altında saxlayan Ermənistan ölkəmizin milli, hərbi təhlükəsizliyinə mənfi istiqamətdə təsir göstərən əsas faktor kimi çıxış edir. O da nəzərə alınmalıdır ki, Ermənistanın həyata keçirdiyi işğal zamanı düşmən tərəfinin etnik zəmində həyata keçirdiyi təmizləmə siyasəti ilə yanaşı, Dağlıq Qarabağda və onun ətrafında yerləşən 7 rayonda iqtisadi və sosial infrastruktur da dağıdılıb, ekosistemə ciddi xələl gətirilib. İndi də ermənilər işğal altında saxladığı ərazilərdə təbii sərvətləri talan etməkdə, nadir fauna və flora növlərinin kökünü kəsməkdə davam edirlər. Burada yerləşən, ümumdünya tarixi və mədəni irsinin tərkib hissəsi olan maddi mədəniyyət abidələrimiz ya məhv

edilmiş, ya da tamamilə yararsız bir vəziyyətə salınmışdır. Bu, tarixən Azərbaycana məxsus olan ərazilərdə yaradılmış indiki Ermənistanda 1988-ci ilə qədər yaşamış soydaşlarımızın məskunlaşdığı ərazilərdə yerləşən mədəniyyət abidələrinə də şamil olunur. Hazırda işğal altında saxlanan ərazilər həm Azərbaycan mərkəzi hakimiyyətinin, həm də beynəlxalq rəsmi təşkilatlar və dünya ictimaiyyətinin nəzarətindən tamamilə kənar bir vəziyyətdədir. Bunun nəticəsi olaraq həmin ərazilərdə separatçılığın, terrorçuluğun, narkoticarətin və digər qanunsuz halların genişlənməsinə münbit şərait yaradılmışdır. O da danılmaz faktdır ki, burada insan alverindən tutmuş narkotik və psixotrop maddələrin qeyri-qanuni istehsalı, daşınması, ticarəti, dövriyyəsi, silah alveri üçün tranzit marşrutların yaradılması Ermənistanın bilavasitə dəstəyi və iştirakı ilə baş verir.

Aparılan təhqiqatlar, toplanan kəşfiyyat materialları göstərir ki, Ermənistan «Avropada adi silahlı qüvvələr haqqında» 1990-cı ildə imzalanan müqavilənin müddəalarını da kobud şəkildə pozaraq malik olduğu əlavə hərbi texnikanın bir hissəsini işğal olunmuş ərazilərdə yerləşdirmişdir. Düşmən dövlətə onun bəzi himayədarları tərəfindən əvəzsiz verilmiş və ya olduqca cüzi qiymətə satılmış belə ağır əsgəri texnikanın beynəlxalq təşkilatlara açıq olan hər hansı uçotu aparılmır. Digər tərəfdən, de-yure ölkəmizə məxsus olan, lakin mövcud şəraitdə Ermənistanın nəzarətində olan ərazilərə hərbi texnika cəmləşdirməklə qarşı tərəf 1999-cu il Vyana Sənədinin tələblərini də pozmuş olur. Sözügedən ərazilərə cəmləşdirilən, lakin beynəlxalq hüquq və müvafiq müqavilələrin inspeksiya fəaliyyəti ilə əhatə olunmayan, uçota alınmayan, nəzarət edilməyən silah-sursatın, hərbi texnikanın təkcə işğal siyasətinin davam etdirilməsinə yönəlmiş məqsədlərə xidmət etmədiyi də məlum həqiqətdir. Belə ki, əldə etdikləri həmin silahlara rəğmən, müharibə başlanacağı təqdirdə onsuz da Azərbaycan Ordusunun qüdrəti qarşısında tab gətirə bilmələrinin mümkünsüzlüyünü yaxşı

başa düşən ermənilər Dağlıq Qarabağda və ətraf rayonlarda cəmləşdirilən əsgəri sursatın, hərbi texnikanın bir hissəsinin qanunsuz satışını və paylanmasını da həyata keçirməkdədirlər. Bu zaman isə Ermənistanın, Dağlıq Qarabağdakı separatçı rejimin əsas tərəf-müqabili müxtəlif terrorçu təşkilatlar olur. Artıq konkret faktlarla sübuta yetirilmişdir ki, dünyanın rəsmən terrorçu təşkilat kimi tanıdığı bir sıra qruplaşmalara, məsələn, qardaş Türkiyəyə qarşı fəaliyyət göstərən PKK-ya silah satan tərəflərdən biri məhz Ermənistandır.

Yeri gəlmişkən qeyd edək ki, zəbt olunmuş Azərbaycan ərazilərində təkcə ermənilərdən yox, digər millətlərdən olan terrorçuların məskunlaşmasına, onların lazımi vasitələrlə təchizatına Ermənistan həmişə xüsusi diqqət yetirir. Yenə də Ermənistanın iştirakı ilə burada terrorçu düşərgələr yaradılıb və indi də onlar fəaliyyətlərini davam etdirməkdədirlər. Elə beynəlxalq terrorizmin maliyyə mənbələrindən biri də burada qanunsuz becərilən narkotik və psixotrop maddələrin satışı və dövriyyəsi ilə bağlıdır. Belə bir vəziyyət isə aydın şəkildə nümayiş etdirir ki, Ermənistanın həyata keçirdiyi işğal siyasəti, müvəqqəti olsa belə ərazilərimizin bir hissəsinin bu dövlətin silahlı qüvvələrinin nəzarətində olması təkcə Azərbaycanın milli, hərbi təhlükəsizliyinə yox, eyni zamanda, regional, hətta qlobal təhlükəsizliyə də ciddi hədə yaradır. Təəssüflə qeyd olunmalıdır ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində dünya ictimaiyyətinin, beynəlxalq birliyin göstərdiyi səylərin qənaətbəxş səviyyədə olmaması, işğalçı tərəfə qarşı effektiv təzyiq metodlarından istifadə olunmaması vəziyyətin daha da ağırlaşmasına öz təsirini göstərir.

Konkret olaraq Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və bundan irəli gələrək ölkəmizin məruz qaldığı digər fəsadlar fonunda Ermənistanın Hərbi doktrinada milli təhlükəsizliyə neqativ təsir göstərən əsas amil kimi qeyd edilməsi

tamamilə təbii xarakter daşıyır. Ərazilərimizin bir hissəsinin Ermənistan tərəfindən işğal altında saxlanması nəticəsində yaranan təhdid fonunda hərbi fəaliyyətin təzələnməsinin mümkün variantları da Hərbi doktrinada düzgün formada təsbit olunmuşdur.

Azərbaycanın milli təhlükəsizliyinə təsir göstərən və təsir göstərə biləcək digər xarici amillər kompleksinin mövcudluğu da məlum həqiqətdir. Söhbət daha çox beynəlxalq təhlükəsizliyin özünün bəzi hallarda ciddi təhdidə məruz qalmasında və belə bir vəziyyətin yaranmasında bu təhlükəsizliyə cavabdeh olan beynəlxalq təşkilatların səmərəsiz fəaliyyətindən gedir. Çünki belə səmərəsiz fəaliyyət nəticəsində beynəlxalq münasibətlərdə hərbi güc faktoru ön plana çıxmış, siyasi və iqtisadi maraqların təmini naminə hərbi gücdən istifadə olunması halları, buna meyillərin çoxalması baş vermişdir. Təkcə son on ildə dünya miqyasında baş verən proseslərə diqqət yetirməklə də bunun əyani təsdiqinə dair xeyli sayda misala rast gəlmək mümkündür.

Daha bir önəmli fakt ondan ibarətdir ki, Azərbaycan geosiyasi cəhətdən mühüm hesab edilən strateji bir nöqtədə yerləşir, Avropadan Mərkəzi Asiyaya açılan əsas qapı, Şərq və Qərbin qovşağı sayılır. Şimal–Cənub, Şərq–Qərb nəqliyyat və digər kommunikasiya xətlərinin keçdiyi mühüm ərazilərdən biri olması ilə bərabər, ölkənin zəngin neft-qaz ehtiyatlarına malikliyi, qlobal enerji təhlükəsizliyinin təminatında getdikcə artan rolu, beynəlxalq terrorizmə qarşı aparılan mübarizədə ön sıralarda yer alması istər-istəməz Azərbaycanı xüsusi diqqət mərkəzinə çevirmişdir. Bu isə təhlükəsizlik mühitinə də təsir edə biləcək əsas amillərdən biri kimi çıxış edir. Belə təhlükələrin vaxtında aşkar edilməsi, qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi zəruri əhəmiyyətə malik olub, ziddiyyətlərin ilkin mərhələdə dinc yolla tənzimlənməsində olduqca vacibdir. Əlbəttə, milli təhlükəsizliyə təkcə xarici

yox, həm də daxili faktorlar müəyyən təhdidlər yarada bilər. Bu kontekstdə isə milli təhlükəsizliyə xələl gətirə biləcək hərbi və siyasi təhdidlər xarici və daxili olmaqla iki hissəyə ayrılır.

Azərbaycan Respublikası Milli Məclisinin təsdiq etdiyi Hərbi doktrinada mövcud və ehtimal edilən xarici hərbi, siyasi təhdidlərin hansılardan ibarət ola biləcəyinə aydınlıq gətirilmişdir. Ölkəmizin ərazisinin bir hissəsinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunması, qeyd edildiyi kimi, konkret mövcud olan kənar hərbi, siyasi təhdiddir. Bu təhdidin aradan qaldırılması, onun doğurduğu fəsadların ləğvi üçün Azərbaycan beynəlxalq hüquq normalarına müvafiq olaraq güc tətbiq etmək hüququnu özündə saxlayır, belə bir addımın atılmasına zərurət yarana biləcəyini əvvəlcədən nəzərə alaraq ordu və digər Silahlı Qüvvələrin möhkəmləndirilməsi, maddi-texniki bazasının yeniləşdirilməsi, gücləndirilməsi siyasətini həyata keçirir.

Ehtimal edilən xarici hərbi, siyasi təhdidlərə gəlincə, bunların sırasında Azərbaycanın daxili işlərinə hər hansı mümkün hərbi müdaxiləni, ölkəmizə qarşı qonşu ölkələr tərəfindən ərazi iddialarının irəli sürülməsini, daxili siyasi və sosial-iqtisadi vəziyyətin gərginləşməsinə, sabitliyin pozulmasına yönəldilmiş hər hansı fəaliyyət növlərinin, o cümlədən separatçı və dini-ekstremist hərəkətlərin dəstəklənməsi, digər dövlətlər tərəfindən ərazimizə göndərilməsi üçün qanunsuz silahlı qüvvələrin və terrorçuların hazırlanmasını göstərmək olar. Qonşu ölkələrin dövlətlərarası münaqişələrdə iştirakı və ya həmin ölkələrdə daxili münaqişələrin, hərbi əməliyyatların, silahlı qiyamların, yaxud hərbi və ya hərbi-siyasi qeyri-sabitliyin digər formalarının mövcudluğu da kənar hesab edilən hərbi-siyasi xarakterli təhdidlər sırasında yer alır. Bundan başqa, regionda, həmçinin ölkəmizin dövlət sərhədlərinin və ərazi sularının bilavasitə yaxınlığında hərbi bazaların yaradılması, qoşun qruplaşmalarının cəmləşdirilməsi, silahların və digər

hərbi iştirakın artırılması, regional hərbi tarazlığın pozulması da qeyd olunan qəbildən sayılan təhdidlər sırasına aiddir. Dövlət sərhədlərinin hərbi müdaxilə ilə pozulması, sərhəd münaqişələrinin və mübahisələrinin dərinləşməsi, ayrı-ayrı dövlətlərin, təşkilatların və terrorçu qrupların hərbi-siyasi iddiaları kontekstində nüvə və digər kütləvi qırğın silahlarının, onların çatdırılma vasitələrinin və ən yeni hərbi istehsal texnologiyalarının yayılması da əsas xarici hərbi, siyasi təhdidlərdən hesab olunur.

Qeyd olunduğu kimi, xarici ilə yanaşı, daxili xarakterli əsas təhdidlər də mövcuddur və bunların Hərbi doktrinada göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Bu qəbildən olan təhdidlər isə aşağıdakı şəkildə qruplaşdırılır: daxili sabitliyin və ölkənin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş terrorçu, dini-ekstremist, millətçi-separatçı təşkilat və strukturların güc tətbiq etməklə həyata keçirdikləri qanunazidd fəaliyyət; konstitusion quruluş əleyhinə qəsdlər, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkilati strukturunun dağıdılması və ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş cəhdlər; Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılması cəhdləri; təxribat, terror aktları və digər qanunazidd əməlləri həyata keçirmək üçün istifadə oluna bilən silah-sursatın, partlayıcı maddələrin və digər vasitələrin Azərbaycan Respublikasının ərazisində qanunsuz toplanması və dövriyyəsi; Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdid edən miqyasda mütəşəkkil cinayətkarlıq və digər qanunazidd fəaliyyət; hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, kommunikasiya qurğularına və informasiya infrastrukturuna qarşı silahlı əməllər.

Göründüyü kimi, daxili xarakterli hərbi və siyasi təhdidlərin miqyası heç də az olmayıb, kifayət qədər geniş sayıla bilər və onların növlərinin, xarakteristikasının Hərbi doktrina kimi mühüm bir sənəddə öz əksini tapması böyük əhəmiyyətə

malikdir. İlk növbədə ona görə ki, bu, göstərilən qəbildən olan təhdidlərin vaxtında aşkarlanaraq ona qarşı səmərəli mübarizə aparılmasına təsirsiz ötüşmür. Milli, hərbi təhlükəsizliyə daxili və kənar hədələrdən başqa bilavasitə insan faktoru ilə bağlı olmayan təhdidlər də mövcuddur. Belə təhdidlərə konkret misal olaraq təbii fəlakətləri və texnogen qəzaları göstərmək olar. Bununla yanaşı, müasir dünya reallığında kütləvi şəkildə qeyri-qanuni miqrasiya, radioaktiv, kimyəvi və bioloji materialların dövriyyəsi də ciddi təhdidlər sırasında yer alır.

Strateji əhəmiyyətə malik hərbi doktrina kifayət qədər dəqiqliklə təhlükələri müəyyən edir. Hərbi təhlükəsizliyin təmin olunmasında Azərbaycanın həyata keçirdiyi siyasət müdafiə xarakterli olsa da, yuxarıda göstərilən hərbi təhdidlərin aradan qaldırılması zamanı ehtiyac yarandıqda Silahlı Qüvvələrdən, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən istifadəyə, güc tətbiqinə yol verilir. Təbii xarakterli, hüquq normalarının tələblərinə cavab verən bu addımın atılması, şübhəsiz ki, dövlət müstəqilliyinə yarana biləcək hər hansı təhdidin aradan qaldırılmasında nəinki vacib hesab olunur, eyni zamanda, əsas şərt kimi çıxış edir.

O da xüsusi qeyd olunmalıdır ki, doktrina hərbi təhlükəsizliyin hərbi-strateji əsaslarını, sülh, real təhlükə və müharibə dövrlərində Silahlı Qüvvələrin əsas vəzifələrini, hərbi quruculuğun istiqamət və perspektivlərini də müəyyənləşdirən mühüm sənəd kimi çıxış edir. Doktrinaya müvafiq olaraq hərbi təhlükəsizliyin təmin edilməsi üzrə vəzifələr Silahlı Qüvvələr və başqa silahlı birləşmələr tərəfindən bu sənədə, eləcə də digər qanunvericiliyə uyğun olaraq sıx qarşılıqlı şəraitdə yerinə yetirilir. Daha bir mühüm məqam həm dinc, həm də müharibə dövründə Silahlı Qüvvələr və başqa silahlı birləşmələrin əsas vəzifələrinin doktrinada konkret şəkildə müəyyən olunmasıdır. Mövcud və potensial təhlükəsizlik problemlərinin ən səmərəli həlli üçün tələb olunan qabiliyyətlər qorunub saxlanmaqla

yanaşı, ölkənin mövcud insan, maliyyə və digər resurslarına uyğun olaraq inkişaf etdirilir və onların daim inkişaf etdirilməsi əsas vəzifələrdən biri kimi qarşıya qoyulur.

Reallıqlara əsaslanan və gələcəyə istiqamətlənmiş bir sənəd olaraq Hərbi doktrina Silahlı Qüvvələrin və digər hərbi birləşmələrin komanda və idarəetmə strukturlarının effektivliyinin artırılmasını, onların əməliyyat qabiliyyətinin və xüsusi informasiya əldə etmək bacarığının, eləcə də vahid idarəetmə, nəzarət, rabitə və avtomatlaşdırılmış idarəetmə sistemlərinin inkişaf etdirilməsini, Silahlı Qüvvələr və digər hərbi birləşmələr arasında koordinasiya işinin effektivliyinin artırılmasını, peşəkar əsaslarda digər hərbi birləşmələrin komplektləşdirilməsinə tədrici keçidi, həmçinin bu qəbildən olan digər məsələləri nəzərdə tutur. Bütün bunlar yalnız Silahlı Qüvvələrin inkişaf perspektivlərinin az bir hissəsini əhatə edir və Hərbi doktrinada bu perspektivlər kifayət qədər geniş, aydın şəkildə göstərilmişdir.

Doktrinada hərbi təhlükəsizliyin səmərəli təmin edilməsi məqsədi ilə Silahlı Qüvvələrin və digər hərbi birləşmələrin, eləcə də ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsində iştirak edən dövlət orqanlarının hərbi-iqtisadi, hərbi-texniki və digər ehtiyaclarının ödənilməsi üçün təchizat siyasətinin konkret istiqamətləri də aydın şəkildə öz əksini tapmışdır. Digər bir vacib məqam isə ondan ibarətdir ki, doktrina tərəfdaş ölkələrlə ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığı nəzərdə tutaraq vahid təhlükəsizlik prinsipini və ölkəmizin yerləşdiyi regionun Avratlantik məkanın tərkib hissəsi olduğunu nəzərə alaraq Azərbaycanın bu məkanda təhlükəsizlik sisteminin yaradılmasına cəhdlərinin dəstəklənməsini də özündə ehtiva edir. Doktrina NATO ilə ölkəmizin «Sülh naminə tərəfdaşlıq» (SNT), eləcə də Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından (FTƏP) istifadə edilməklə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın davam etdirilməsini də nəzərdə tutur. Doktrinaya

əsasən, Azərbaycanın qoşulduğu beynəlxalq sazişlərdə nəzərdə tutulmuş hallar istisna olmaqla, ölkəmizin ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol verilmir. Bununla belə, hərbi-siyasi vəziyyətdə köklü dəyişiklik baş verən hallarda Azərbaycan öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə və ya başqa formada xarici hərbi iştiraka müvəqqəti icazə vermək hüququnu özündə saxlayır.

Bütün bunlar göstərir ki, Azərbaycanın bu gün ictimai-siyasi cəhətdən sabit, iqtisadi cəhətdən sürətlə inkişaf edən, eyni zamanda beynəlxalq miqyasda maraq və mənafeyini layiqincə təmin edən ölkəyə çevrilməsində Prezident İlham Əliyevin uğurlu milli təhlükəsizlik konsepsiyası mühüm əhəmiyyət daşıyır. Bu konsepsiyanın başlıca mahiyyəti milli maraqların nəzərə alınması yolu ilə sabitliyin və təhlükəsizliyin hərtərəfli təmin edilməsi, ölkə həyatının bütün sahələrində, xüsusilə iqtisadiyyatda dinamik inkişafa nail olunmasına əlverişli şərait yaratmaqdır. Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin etibarlı qorunması, ərazi bütövlüyünün bərpası, təhlükələrin, təhdidlərin qarşısının vaxtında alınması, vətəndaşların və cəmiyyətin maraqlarının tam təmini ilə onun demokratik, sivil, dünyəvi dövlət kimi tanınması xətti ardıcıl və sistemli səciyyə daşıyır.

# Uğurlu xarici siyasət strategiyası

*«Ümumiyyətlə, xarici siyasətdə bizim prioritetlərimiz kifayət qədər dəqiq ifadə edilmişdir. Biz istəyirik, çalışırıq ki, bütün ölkələrlə çox səmimi, rəvan, proqnozlaşdırıla bilən münasibətlərimiz olsun və hesab edirəm ki, buna nail olmuşuq. Biz etibarlı tərəfdaşlarıq. Biz özümüzü təmin edən ölkəyik və buna görə də hansısa beynəlxalq maliyyə mərkəzlərindən, yaxud siyasi mərkəzlərdən asılı deyilik».*

İlham ƏLİYEV

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətin həyata keçirdiyi ümumi kurs kimi dəyərləndirilən xarici siyasət həm də inkişaf prosesinə təsir göstərən əsas faktorlar sırasında yer alır. Bu mənada konkret halda götürülmüş ölkənin beynəlxalq mövqelərinin mütəmadi şəkildə möhkəmlənməsi, eləcə də yaradılmış iki və çoxtərəli münasibətlərin inkişaf prosesinə mühüm töhfələr verilməsini təmin etmək hər bir dövlətin qarşısında duran əsas vəzifələrdən biridir. Lakin qeyd edilən fonda o da xüsusi olaraq vurğulanmalıdır ki, xarici siyasət daxili dövlət siyasəti ilə üzvi surətdə bağlıdır və onların hər ikisi bir-birini tamamlamalıdır. Əks təqdirdə inkişaf prosesində müəyyən çatışmazlıqların üzə çıxması qaçılmaz olur və hətta bu, ciddi fəsadlar, o cümlədən silahlı qarşıdurmalar yarada bilir. Dünyanın müasir siyasi mənzərəsinə diqqət yetirməklə buna dair kifayət qədər çoxsaylı misallara rast gəlmək mümkündür.**

## Geosiyasətin çəkişmə obyektindən onun subyektinə doğru

Xarici siyasətin əsas vasitəsi kimi çıxış edən diplomatiyanın davamlı tərəqqisi, çevik xarakter daşıması, mütəmadi olaraq zənginləşdirilməsi də beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutmağa çalışan hər bir dövlət üçün əsas vəzifələr sırasında yer alır. Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müxtəlif forma və metodları özündə ehtiva edən diplomatiya, ümumiyyətlə, müasir dünyada formalaşmış münasibətlər sistemində ən effektiv vasitələrdən biri olaraq dəyərləndirilir. Uğurlu diplomatiyanın gətirdiyi möhtəşəm dividendlər, ölkənin beynəlxalq imicinin yüksəlməsində oynadığı mühüm rola dair konkret misal kimi XX əsrdə ikinci dövlət müstəqilliyini qazanmış Azərbaycanı göstərmək olar. Ötən əsrin son onilliyində totalitar bir rejimdən xilas olaraq müstəqillik əldə etmiş Azərbaycan 1993-cü ildən etibarən xarici siyasət sferasında çevik və proseslərin gedişinə adekvat reaksiya nümayiş etdirən, mövqelərinin güclənməsinə xidmət edən xarici siyasi kurs həyata keçirir.

Ancaq 1993-cü ilin ortalarına qədər yenicə müstəqilliyini qazanmış Azərbaycanın həyata keçirdiyi xarici siyasət kifayət qədər qüsurlu olub, ölkəni yeni problemlər məngənəsinə yuvarlamışdı. Hakimiyyətə insanların kortəbii inam dalğası üzərində gəlmiş qüvvələrin həyata keçirdiyi xarici siyasət strategiyası SSRİ-nin dağılması ilə yeni yaranmış şəraitin tələblərinə cavab verməyərək Azərbaycana qarşı yönəlmiş müxtəlif təzyiqlərin yüksələn xətt üzrə inkişafına səbəb oldu. Bu kontekstdə yeni beynəlxalq nizamın yaranması, nüfuz sahələrinin dünya siyasətinin əsas aktorları arasında yenidən bölünməsi, ikiqütblü dünyanın mövcudluğuna son qoyulmasına rəğmən, Azərbaycanın xarici siyasəti baş verənlərə adekvat xarakter daşımırdı. Əksinə, ölkənin inkişafını və xarici münasibətlərini pisləşdirə biləcək addımlar

atılırdı ki, bu da son nəticədə mövcud olduğu regionda, eləcə də onun sərhədlərindən kənarda Azərbaycanın mövqe və nüfuzunu əhəmiyyətli dərəcədə zəiflədirdi. Bu hal AXC–Müsavat cütlüyünün hakimiyyəti dövründə tədricən özünün zirvə nöqtəsinə çatdı. Məsələn, məhz bu qüvvələrin həyata keçirdiyi yanlış siyasət son nəticədə Azərbaycanın iki böyük qonşu dövlətləri olan Rusiya və İranla münasibətlərini əhəmiyyətli dərəcədə pisləşdirdi. Xüsusən də o dövrkü hakimiyyət təmsilçilərinin reallıqdan daha çox populizmə söykənən çıxışları, Cənubi və Şimali Azərbaycanın təcili birləşdirilməsinə dair çağırışlar, Rusiya ilə haqq-hesab çəkiləcəyinin bildirilməsi, Ermənistanı atom bombası ilə dağıtmaq və bu qəbildən olan fikirlər Azərbaycan haqqında beynəlxalq sferada mənfi rəy yaranmasında az rol oynamadı. Bu vəziyyətin ən acınacaqlı tərəflərindən biri Azərbaycanın regionda və beynəlxalq aləmdə təklənməsinə münbit şərait yaratması, geosiyasətin çəkişmə obyektinə çevrilməsinə yeni təkan verməsi idi.

Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu və özünün getdikcə daha gərgin bir mərhələyə daxil olması fonunda belə xarici siyasət işğalçı Ermənistanın lehinə işləməyə başladı. Bu vəziyyətdə güclü erməni lobbisinin təşkil etdiyi hücumların da qarşısının alınması üçün effektiv müdafiə və əks-hücum strategiyasının yoxluğu Azərbaycan üçün əlavə problemlər yaradırdı. Elə bunun nəticəsində Azərbaycan işğala məruz qalan bir dövlət olsa da, ABŞ Konqresi ölkəmizin mənafeyinin əleyhinə olaraq «Azadlığı Müdafiə Aktı»na 907-ci düzəliş əlavə etdi. Ümumiyyətlə, Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini qazandıqdan sonra hakimiyyətdə olan müxtəlif qüvvələrin regional və beynəlxalq münasibətlərin xarakterini, əsas tendensiyasını və axarını düzgün müəyyən edə bilməməsi, ayrı-ayrı region dövlətlərinin Azərbaycanda kəsişən və toqquşan təsir və nüfuz dairələrini düzgün qiymətləndirməkdə acizlik çəkməsi, bunun nəticəsində adekvat siyasət yeritməməsi

yol verilən ciddi səhvlər olaraq dəyərləndirilirdi. Halbuki Azərbaycan öz milli maraqlarının gerçəkləşdirilməsi, habelə regional və qlobal mövqelərinin möhkəmləndirilməsi üçün özünün iqtisadi və siyasi imkanlarından məharətlə istifadə edəcəyi təqdirdə üzləşdiyi problemlərin həllində böyük uğurlara imza ata bilərdi. Lakin iqtidarda olan qüvvələr bu uğurlara nail olunmasında sadəcə aciz və qabiliyyətsiz olduqlarını aydın şəkildə nümayiş etdirirdilər.

Yalnız müstəqil Azərbaycanın memarı və qurucusu olan ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsinə, xalqın firavanlığı və ölkənin davamlı inkişafına xidmət edən bir siyasi kurs həyata keçirilməyə başlandı. Bu fonda dövlət institutları təkmilləşdirildi, ölkənin xarici əlaqələri genişləndirildi, yeni neft strategiyasının reallaşdırılması isə ölkənin uzunmüddətli inkişafının təməlini qoymaqla bərabər xarici siyasət sahəsində Azərbaycana böyük dividendlər qazandırdı. Xalqın iradəsi əsasında müstəqil Azərbaycanın Prezidenti seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında ulu öndər xarici siyasət məsələlərinə toxunarkən bildirirdi: *«Respublika qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublika iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir».*

Geosiyasi çəkişmələrdə artıq obyekt yox, subyekt kimi çıxış edən, Avratlantik məkana fəal inteqrasiya kursu seçən Azərbaycan xarici siyasət kursunu müəyyənləşdirərkən malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadə etməklə Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu ki, bu da son nəticədə təkcə ölkəmizin Qərbə yox, eyni zamanda Qərbin də Azərbaycana yaxınlaşmasını şərtləndirdi. Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin keçdiyi əhəmiyyətli və olduqca vacib geostrateji məkanda yerləşən Azərbaycan artıq dünyaya fərqli prizmadan təqdim olunmağa başlandı. Həyata keçirilən balanslı diplomatiya Azərbaycanın regionda fövqəlgüc mərkəzləri tərəfindən reallaşdırılan proseslərdə obyekt yox, subyekt olması ilə nəticələndi. Milli maraqların qorunması fonunda ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması, formalaşan münasibətlərdə ölkəmizin bərabərhüquqlu tərəfdaşa çevrilməsi xarici siyasətin əsas cizgiləri sırasında yer alırdı.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyev özündən əvvəl hakimiyyətdə olan qüvvələrin xarici siyasətdə yol verdikləri kobud səhvlərin aradan qaldırılması istiqamətində də ciddi addımlar atdı. Qonşu dövlətlər olan Rusiya və İranla münasibətlər normallaşdırıldı, ölkənin təhlükəsizlik problemi, onun təmin edilməsi yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının məharətlə uzlaşdırılması təmin edildi, geostrateji və geoiqtisadi üstünlüklərdən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək xarici siyasətin strateji vəzifələrindən birinə çevrildi. Ölkə daxilində sarsılmaz bir sabitliyin əsası qoyulduqdan sonra xarici siyasət sahəsində atılan mühüm addımlardan biri Ermənistanla gedən müharibədə atəşkəsə nail olunması oldu. 1994-cü ilin mayında əldə edilən razılaşma yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli

şərait yaradılmasında müstəsna bir əhəmiyyətə malik idi. Bu fonda Heydər Əliyev ölkəmiz əleyhinə beynəlxalq aləmdə yaradılmış fikir cəbhəsini darmadağın edərək əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə olduğu kimi çatdırırılmasına və beləliklə, Azərbaycan ətrafındakı informasiya blokadasının yarılmasına da nail oldu.

Bununla yanaşı, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Şərq–Qərb və Şimal–Cənub nəqliyyat və enerji dəhlizi üzərində böyük ticarət yollarının kəsişməsində yerləşməsi ölkənin enerji və infrastruktur mərkəzinə çevrilməsində mühüm rol oynadı. Artıq xarici siyasətdə Azərbaycanın coğrafi yerləşməsi kimi üstünlükdən istifadə edilməsi prosesinə başlandı. Eyni zamanda, ölkənin zəngin təbii sərvətlərə malik olması nəinki Azərbaycanın çiçəklənməsinə və xalqın rifahına xidmət etdi, həmçinin bu fakt respublikanın milli təhlükəsizliyinin, siyasi müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsində mühüm amil kimi çıxış etməyə başladı. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəqli strategiyası Azərbaycanın xarici siyasətinin təməl daşında yer alan mühüm elementlərdən birinə çevrildi.

Ulu öndər ölkə daxilində də düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, milli, sosial təbəqələrin, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsinə nail oldu. Eyni zamanda, bütün xarici siyasət resursları, diplomatik və siyasi imkanlardan istifadə etməklə Azərbaycanın müstəqil dövlətçiliyinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, erməni separatçıları və Ermənistan qoşunlarının ölkənin ərazilərini işğal etməsinin qarşısının alınması, bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması, əleyhdarların bitərəfləşdirilməsi istiqamətində konkret addımlar atıldı.

Artıq illüziyalardan xilas olaraq real və praqmatik məzmun kəsb etməyə başlayan xarici siyasət dövlət müstəqilliyinin möhkəmləndirilməsi və onun təhlükəsizliyinin təmin edilməsi kimi vəzifələrin həllində də mühüm rol oynamağa başladı. Xarici siyasətin hüquqi əsasının yaradılması istiqamətində mühüm işlər görüldü və bu kontekstdə Heydər Əliyevin müəllifi olduğu Konstitusiya xüsusi qeyd olunmalıdır. Belə ki, Azərbaycanın müstəqil bir ölkə olaraq həyata keçirdiyi xarici siyasətin məqsəd və prinsipləri, əsas xüsusiyyətləri Baş Qanunda öz əksini tapdı. Konstitusiyanın 10-cu maddəsində göstərilir ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur. Dövlət başçısı Konstitusiya tələblərindən çıxış edərək hər bir konkret zaman, məkan və şərait çərçivəsində xarici siyasət prioritetlərini müəyyənləşdirir, onun həyata keçirilməsini təmin edir. Qanunvericiliklə yanaşı, xarici siyasət sferasında digər mühüm müstəvilərdə praktiki olaraq Azərbaycanın nüfuzunun artmasına, mövqelərinin güclənməsinə xidmət edən addımlar atılırdı.

Bütün bunlar onun göstəricisi kimi çıxış edirdi ki, Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakının yeni mərhələsi başlanıb və ölkəmiz bu sistemdə özünəməxsus mövqelər qazanan müstəqil tərəflərdən biridir.

## Beynəlxalq təşkilatlarla çoxtərəfli əməkdaşlıq

Birmənalı şəkildə qəbul olunan həqiqətdir ki, Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması və prioritet vəzifələrin müəyyənləşməsi də Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər xarici siyasət sahəsində Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə, beynəlxalq təşki-

latların diqqət mərkəzinə çatdırılması və problemin çözümünə dünyanın diqqətinin artırılmasına da hər zaman mühüm önəm verir və bu məsələni beynəlxalq təşkilatlar səviyyəsində qaldırırdı. Bu fonda ölkənin pozulmuş ərazi bütövlüyünün bərpası, işğalçıların Azərbaycan torpaqlarından çıxarılması kimi önəmli məsələ BMT səviyyəsində daha çox diqqət mərkəzinə gətirilməyə başlandı. Həmçinin BMT-nin bütün dünya ölkələrini bir araya gətirmək, sivilizasiyalar və millətlər arasında dialoq qurmaq və hər bir xalqın milli və mədəni ənənələrinə hörmətlə yanaşmaq məramını əldə rəhbər tutan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistan silahlı birləşmələrinin müstəqil Azərbaycan dövlətinə təcavüz edərək ərazilərini zor gücünə tutmasının yolverilməzliyinin daha ciddi şəkildə bu təşkilat qarşısında qaldırılmasına nail oldu. Ölkəmiz BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan–Azərbaycan münaqişəsinə cəlb etməyə və BMT-nin potensial imkanlarından istifadə etməklə sülh sazişinin əldə olunmasına da xüsusi diqqət yetirirdi.

1993-cü il ərzində BMT-nin Təhlükəsizlik Şurası Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874, 884 saylı qətnamələr qəbul etdi. Bu qətnamələrdən hər biri Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalı nəticəsində qəbul olundu. Bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını yenidən təsdiq edərək, dərhal atəşkəs elan olunması, hərbi əməliyyatlara son qoyulması və işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması tələblərini irəli sürür. Təəssüf ki, məlum qətnamələrin müddəaları indiyə kimi yerinə yetirilməyib.

Bununla yanaşı, 1996-cı ildən başlayaraq BMT Baş Assambleyası «BMT və ATƏT arasında əməkdaşlıq haqqında» qətnaməsində Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyir. Ümumiyyətlə, Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından

sonra Azərbaycan BMT-nin müxtəlif orqanlarında, o cümlədən Baş Assambleyanın işi çərçivəsində fəal iştirak edir. 1994 və 1995-ci illərdə BMT BA-nın 49-cu və 50-ci sessiyalarında Heydər Əliyev Azərbaycan Respublikasının nümayəndə heyətinə başçılıq edib. O, həmçinin 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısına qatılıb. Burada ulu öndər çıxışında qloballaşma mövzusuna toxunmuş və qloballaşmanın müsbət inkişafı, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd etmişdi. Azərbaycan BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlıq edir. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMT İP), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və digərlərini qeyd etmək olar.

Azərbaycan və BMT-nin Uşaq Fondu (UNICEF) arasında olan əməkdaşlıq məcburi köçkün və qaçqın uşaq və yeniyetmələr arasında vəziyyətin yaxşılaşdırılması məqsədi ilə bərqərar olub. Azərbaycan UNICEF-in İcra Heyətinin 1995-1997, 1998-2000-ci illər ərzində üzvü sıralarında yer alıb. Bununla yanaşı, ölkəmiz BMT-nin xüsusi qurum və orqanları ilə fəal əməkdaşlıq edir. Ölkəmiz BMT-nin xüsusi qurumları qismində BMT-nin İnkişaf Proqramı və BMT-nin Sənaye İnkişaf Təşkilatı (SIN) ilə xüsusi əlaqələrə malikdir. Müxtəlif layihə və proqramlar yaşayış standartlarının yüksəldilməsinə, iqtisadiyyatın struktur tənzimlənməsinin həyata keçirilməsinə xidmət edir. Xüsusilə də BMT-nin İnkişaf Proqramı Azərbaycanın Bərpa və Yenidənqurma Agentliyinin (ARRA) və ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) imkanlarının inki-

şaf etdirilməsi və onların maliyyələşdirilməsi yolu ilə münaqişədən sonrakı bərpa prosesinə böyük yardım göstərib. BMT-nin İnkişaf Proqramı ARRA-nı dəstəkləməklə Dünya Bankı, BMT İP, BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı (UNHCR), Avropa İttifaqının (Aİ) Müstəqil Dövlətlər Birliyinə Texniki Yardımı (TACIS) proqramı və sair həyata keçirir. O da xüsusi qeyd olunmalıdır ki, Azərbaycan beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşdirmə prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Ölkəmiz  BMT-nin XXI əsrdə olacaq təhdid və problemlərə qarşı mübarizə apara bilməsi üçün BMT çərçivəsində islahatlar aparılması ideyasını dəstəkləyir. İnsan hüquqları sahəsində Azərbaycan və BMT arasında sıx əməkdaşlıq mövcuddur.

Beynəlxalq təşkilatlar sırasında Azərbaycan Avropa İttifaqı ilə də sıx əməkdaşlıq edir. Ölkəmizlə Avropa İttifaqı (Aİ) arasında münasibətlərin hüquqi əsasını Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) qoyub. Bu sənəd 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanıb və onu imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1 iyul 1999-cu il tarixində qüvvəyə minib. Bu saziş siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur. Onun əsas məqsədlərindən birini Azərbaycan qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması təşkil edir. TƏS-ə əsasən, Azərbaycanla Aİ arasında ikitərəfli mütəmadi dialoqun aparılması məqsədi ilə Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi, Parlamentlərarası Əməkdaşlıq Komitəsi, Ticarət, iqtisadiyyat və əlaqədar hüquqi məsələlər üzrə Alt-komitə və Enerji, nəqliyyat və ətraf mühit məsələləri üzrə Alt-komitə kimi strukturlar yaradılıb.

Ölkəmizi Avropa Qonşuluq Siyasətinə (AQS) daxil etmək haqqında Aİ Şurasının 14 iyun 2004-cü il tarixli qərarı ikitərəfli

əməkdaşlıqda irəliyə doğru mühüm addım sayılır. Aİ ilə əlaqələrdə daha yüksək səviyyəli siyasi və iqtisadi inteqrasiya vəd edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ olub. Ümumiyyətlə, AQS ölkəmiz üçün aşağıdakı imkanlar yaradıb: siyasi, iqtisadi və inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəliləyişə nail olunması müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahibolma imkanı; vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədi ilə gələcək inteqrasiya və liberallaşdırma proseslərində iştirak; Aİ üzv ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi və s. Həmçinin AQS tərəfdaş ölkələr, o cümlədən Azərbaycan Respublikası üçün mədəni, təhsil və ətraf mühit kimi sahələr üzrə əlaqələri təşviq edən müəyyən Aİ proqramlarında daha çox iştirak və texniki yardım imkanları təqdim edib. Bu kontekstdə, xüsusilə Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) çərçivəsində Tvinninq, Texniki yardım və Məlumat mübadiləsi (TAIEX), Büdcəyə dəstək, «Tempus», «Erasmus Mundus» kimi proqramlar qeyd oluna bilər.

AQS-in mərkəzi elementi isə Aİ ilə hər bir tərəfdaş ölkə arasında razılaşdırılmış və ölkə üzrə bir sıra qısa və orta müddətli prioritetlərin əks olunduğu Fəaliyyət planlarıdır. Ölkəmizlə Avropa İttifaqının Fəaliyyət Planı 14 noyabr 2006-cı ilin tarixində Brüsseldə AR–Aİ Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilib. Bununla yanaşı, Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq geniş vüsət alıb. Bu çərçivədə 7 noyabr 2006-cı il tarixində Azərbaycan Respublikası

Prezidentinin Brüsselə səfəri zamanı imzalanmış «Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu» Azərbaycan və Aİ arasında enerji dialoqunun genişləndirilməsi istiqamətində yeni imkanlar yaradıb. Bu memorandumun əsas məqsədləri Aİ-nin enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrinin istifadəsidir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Aİ Azərbaycan iqtisadiyyatına yardım göstərən əsas donorlardan biri olub. Bu müddət ərzində Aİ ilə münasibətlər «MDB ölkələrinə texniki yardım» (TACIS), «Avropa–Qafqaz–Asiya Nəqliyyat Dəhlizi» (TRASECA), «Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram» (INOGATE), «Humanitar yardım» (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilib. 1 yanvar 2007-ci il tarixindən etibarən TACIS proqramı Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) ilə əvəz olunub. Digər bir sıra mühüm proqramlarla yanaşı, Azərbaycan Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsündə də fəal iştirak edir.

Azərbaycanın 1992-ci ildən üzv olduğu Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Avropa qitəsinin bütün ölkələrini əhatə edən yeganə təşkilatdır. Azərbaycan Respublikası təşkilatın əsas sənədləri olan Helsinki Yekun Aktına, Paris Xartiyasına və Avropa Təhlükəsizlik Xartiyasına qoşulub. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsindəki roluna görə ATƏT çərçivəsində əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətində xüsusi yer tutur. Azərbaycan ATƏT-lə həmçinin demokratikləşdirmə sahəsində də əməkdaşlıq edir və bu sahəyə seçkilərin müşahidəsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun xəttilə həyata keçirilən layihələr və digərləri daxildir.

**Avropa Şurasına üzvlük Avratlantik məkana inteqrasiya siyasətinə yeni töhfələr verir**

İnkişaf strategiyasının əsas xətlərindən birini sürətli demokratik tərəqqi təşkil edən Azərbaycan Avratlantik məkana inteqrasiya yolunda uğurla irəliləyir. Bu mənada xalqın iradəsini ifadə edən hakimiyyətin mövcudluğu, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazanılmış nailiyyətlər, insan hüquq və azadlıqlarının təmini, eləcə də bu qəbildən olan digər hallar Azərbaycanı dünya miqyasında xarakterizə edən əsas xüsusiyyətlər sırasında yer alır. Artıq sosial-iqtisadi inkişaf dinamikasına görə uğurlu bir modelin əsasını yarada bilmiş Azərbaycan beynəlxalq səviyyədə həm də siyasi və demokratik tərəqqi yolunda möhtəşəm nailiyyətlərə imza atan dövlət kimi çıxış edir. Bu gün ölkəmizdə iqtisadi, siyasi və demokratik inkişaf paralel şəkildə möhtəşəm nəticələrin əldə olunması ilə inkişaf edir, bir-birlərini tamamlayan proses olaraq Azərbaycanın ümumi tərəqqisini daha sürətli hala gətirir.

Ölkəmizdə demokratik dəyərlərin daha möhkəm özüllər üzərində qurularaq inkişaf etməsinə prioritet məsələ kimi yanaşılmasını göstərən daha bir mühüm amil bu sahədə dövrün tələblərinə cavab verən islahatların aparılması, dünya standartlarına uyğun qanunvericilik bazasının formalaşmasıdır. Bununla yanaşı, Azərbaycan demokratik tərəqqi fonunda aparıcı Avropa təsisatları ilə yüksək səviyyəli əməkdaşlığın qurulması, Qərb təcrübəsinin üstün cəhətlərinin uğurla mənimsənilməsi və bu qəbildən olan digər məqamlara da hər zaman xüsusi önəm verir. Çünki sözügedən proses ölkəmizdə demokratiyanın inkişafına zəruri töhfələr verib və verməkdədir.

O da tarixi həqiqətdir ki, Azərbaycanın sürətli demokratik inkişafına gedən yolu elə də asan olmayıb və müəyyən mürəkkəb mərhələlərdən keçib. Ötən əsrin son onilliyində kifayət qədər mürəkkəb tarixi bir şəraitdə dövlət müstəqilliyini

əldə edən Azərbaycan ilk illərdə hakimiyyətdə olan səriştəsiz qüvvələrin yarıtmaz siyasəti üzündən öz siyasi, demokratik inkişafında da ciddi problemlərlə üzləşməli oldu. Ölkənin demokratikləşmə xəttinin yalnız populist çıxışlarda özünü göstərməsi, reallıqda isə buna xidmət edən heç bir addımın atılmaması Azərbaycanın totalitarizmdən demokratiyaya transformasiyasını olduqca çətinləşdirirdi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın istək və tələbinə uyğun olaraq yenidən hakimiyyətə qayıtması ilə bu sahədə tamamailə yeni bir mərhələ başlandı. İctimai-siyasi sabitliyin, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının qorunmasında real addımların atılması, islahatlar prosesinə start verilməsi və digər bu kimi hallar müstəqil Azərbaycanın inkişaf yolunun əsas cizgiləri sırasında yer aldı.

Bununla yanaşı, artıq yeni vəziyyət dünyanın nüfuzlu beynəlxalq təşkilatları, demokratik institutları ilə ölkəmiz arasında əməkdaşlıq prosesinin başlanmasına ciddi təkan verdi. Belə təşkilatlardan biri qismində isə məhz Avropa Şurası çıxış edirdi. Sözügedən təşkilatla əməkdaşlıq istiqamətində atılan konkret addımlar həm də Azərbaycanın öz inkişafında qanunun aliliyini qəbul edən və öz yurisdiksiyasında hər kəs üçün insan hüquqları və əsas azadlıqlarını təmin edən bir dövlət olaraq çıxış etdiyini göstərirdi. Bununla yanaşı, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzvlükdə əsas məqsədi ölkənin milli maraq və mənafelərinin bu geosiyasi məkanda etibarlı qorunmasından, eləcə də Ermənistanın təcavüzkar siyasətinin ifşası və ona qarşı ciddi sanksiyaların qəbulundan ibarət idi. Çünki Ermənistanın işğalçılıq siyasətini, ermənilərin məkrli məqsədini dünyaya açıb göstərmək üçün bu nüfuzlu təşkilatın tribunası əvəzsiz imkanlar əldə olunması demək idi.

Görülən işlər sayəsində 1995-ci ilin fevralında Avropa Şurası Parlament Assambleyası Bürosu 1994-cü ildə qəbul edilmiş və üç Cənubi Qafqaz dövlətinin Avropa Şurasına

üzv qəbul edilmək üçün müraciət hüququnu nəzərdə tutan 1247 saylı tövsiyəyə uyğun olaraq Azərbaycanın «xüsusi dəvət edilmiş qonaq» statusu almaq barədə müraciətinin nəzərdən keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Növbəti müddət ərzində Azərbaycan demokratik inkişaf sahəsində əldə etdiyi nailiyyətlərlə Avropa məkanına bir qədər də yaxınlaşdı. Bu müstəvidə ölkəmizdə hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi siyasi-hüquqi sistemin kökündən demokratikləşməsi istiqamətində əsaslı addımlar atıldı. Bu proses mahiyyət etibarı ilə dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə etdi. Bütün bunların əsasında Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası əsas rol oynadı. Məhz Konstitusiya ölkədəki köklü dəyişikliklərə müsbət təsir göstərdi, hüquqi dövlət quruculuğu prosesinin əsas istiqamətlərini müəyyənləşdirdi.

Atılan digər addımlar 1996-cı ilin martında Avropa Şurasının Demokratiya uğrunda Venesiya Komissiyasının iclasında Azərbaycanın bu komissiyaya üzv qəbul edilməsilə nəticələndi. Bunun ardınca elə həmin ilin iyulunda Prezident Heydər Əliyev Avropa Şurası Baş katibinin adına məktub göndərərək Azərbaycanın quruma tamhüquqlu üzv qəbul olunmaq və digər üzv dövlətlər kimi İnsan hüquqları və azadlıqları haqda Avropa Konvensiyasına qoşulmaq arzusunda olduğunu bildirdi. Ulu öndərin 8 iyun 1996-cı il tarixli «Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında», 20 yanvar 1998-ci il tarixli «Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında», 14 may 1999-cu il tarixli «Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin təmin edilməsi haq-

qında» sərəncamları ölkəmizin Avropa Şurasına üzvlüyünə real zəmin formalaşdırdı.

Ölkəmizdə ölüm hökmünün ləğvi, mətbuat üzərindən senzuranın qaldırılması, Azərbaycanın insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulması və digər addımlar Avropa Şurasına üzvlük prosesinin sürətlənməsinə gətirib çıxarırdı. Bütün bunların nəticəsi idi ki, 2000-ci ilin mayında Avropa Şurası Siyasi Komitəsinin Dublində keçirilmiş iclasında Azərbaycan üzrə məruzəçi J.Bomelin hesabatı dinlənildikdən sonra Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı müsbət rəy verildi. Həmin ilin iyununda Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası keçirildi. 126 nəfər deputatın iştirak etdiyi səsvermədə 120 nəfər lehinə, 1 nəfər əleyhinə, 5 nəfər isə bitərəf qalmaqla Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verildi. Noyabrda isə Avropa Şurası Nazirlər Komitəsinin 107-ci sessiyasında Azərbaycanın Avropa Şurasına üzv olmağa dəvət edilməsinə dair qətnamə qəbul olundu.

Təşkilata tamhüquqlu üzvlük üçün milli qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəldilməsi, qarşıya qoyulan tələblərin yerinə yetirilməsi, atılan digər addımların nəticəsi olaraq Azərbaycan 2001-ci il yanvarın 17-də qurumun Nazirlər Komitəsinin qərarı ilə Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edildi. 2001-ci il yanvarın 25-də Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasimdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə geniştərkibli nümayəndə heyəti iştirak etdi. Ölkəmizin quruma üzvlüyündən sonra AŞ PA-da Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təşəbbüskarlığı və diplomatik fəallığı nəticəsində elə ilk sessiyadan etibarən Ermənistan–

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətləri özündə əks etdirən sənədlər yayılmağa başladı. Bunun nəticəsi olaraq Avropa Şurası Nazirlər Komitəsinin 108-ci sessiyasının rəsmi məlumatında Ermənistanın təcavüzkar siyasəti pislənildi. Həmin sənəddə aydın şəkildə qeyd olunurdu ki, Avropa Şurası ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığını dəstəkləyir.

2001-ci ilin aprelində AŞ PA-nın yaz sessiyasında isə Azərbaycan işğal olunmuş ərazilərində narkoticarətin genişlənməsi, terrorizmin inkişafına dair avropalı deputatlara lazımi bilgiləri çatdırdı. Bununla bağlı sessiyada daha çox diqqəti cəlb edən məqam Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin çıxışı oldu. Avropada mütəşəkkil cinayətkarlığın mərkəzlərindən birinin Azərbaycanın işğal edilmiş ərazilərində olduğunu diqqətə çatdıran cənab İlham Əliyev bildirirdi: *«Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəinki bir milyon azərbaycanlı qaçqın evsiz-eşiksiz qalıb, çoxsaylı şəhərlərimiz, kəndlərimiz, mədəniyyət abidələrimiz, əcdadlarımızın qəbirləri büsbütün dağıdılıb, bir sözlə, erməni işğalçılarının zəbt etdikləri ərazidə bütün infrastruktur məhv edilib, həm də ermənilərin işğal etdikləri ərazidə mütəşəkkil cinayətkarlığın inkişafı üçün çox əlverişli şərait yaranmışdır. «Dağlıq Qarabağ respublikası» deyilən ərazidən narkotik bitkilərin yetişdirilməsi və daşınması üçün istifadə edilir. Narkotiklərlə məşğul olan işbazlar və tiryək alverçiləri orada özlərini təhlükəsiz və çox rahat hiss edirlər».*

Bundan başqa, cənab İlham Əliyev ona da diqqət çəkirdi ki, Dağlıq Qarabağda mövcud olan qanunsuz iqtisadi fəaliyyət buradakı qondarma respublikanı «çirkli pullar»ın yuyulması» əməliyyatları sahəsində məşhurlaşdırıb. Cənab İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinə ədalətli münasibət

bildirilməsinin zəruriliyinə də xüsusi diqqət çəkirdi: «Nə vaxta kimi Avropa belə bir fakta göz yumacaq ki, Avropa Şurasının bir üzvü olan Ermənistan başqa bir üzvün – Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayır?».

Məhz belə qətiyyətli mövqedən sonra AŞ PA-da Dağlıq Qarabağ münaqişəsinə münasibətdə daha ciddi dönüş yarandı.  Sessiyada britaniyalı deputat Terri Devis AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi təyin edildi. Ermənistan AŞ PA-nın Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisinin təyin olunmasına qarşı çıxsa da, cənab İlham Əliyevin, Azərbaycan nümayəndə heyətinin prinsipial mövqeyi ermənilərin etirazına hər hansı əhəmiyyət verilməməsilə nəticələndi.

Azərbaycanın Dağlıq Qarabağ münaqişəsilə bağlı qurumda növbəti uğuru isə 2002-ci ilin payız sessiyasına təsadüf etdi. Sessiyada ermənilərin ciddi müqavimətinə baxmayaraq, Azərbaycanın təkidi ilə Ermənistan barədə qətnaməyə Azərbaycan torpaqlarının işğal olunması, qaçqınlar və məcburi köçkünlərin bu işğal nəticəsində öz torpaqlarından didərgin düşməsi və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə düzəlişlər edildi. Bu məsələlər Azərbaycana aid qətnamədə də öz əksini tapdı.

2003-cü ilin yanvarında Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞ PA-nın sədr müavini və büro üzvü vəzifələrinə seçilməsilə ölkəmizin bu qurumla əlaqələri bir qədər də yüksək səviyyəyə çatdı. Bundan sonra Azərbaycanın qurumda yeni bir uğuru 2003-cü ilin yay sessiyasında qeydə alındı. Həmin sessiyada «Avropada muxtar vilayətlərin müsbət təcrübəsi» məsələsi ətrafında müzakirələr aparılırdı. Burada məhz cənab İlham Əliyevin təklifi ilə muxtar vilayətlərin ərazi bütövlüyünü pozmaq səlahiyyətlərinə malik olmadığı barədə müddəa sənədə əlavə edildi. Yenə də ermənilərin ciddi müqavimtinə baxmayaraq, cənab İlham Əliyevin qətiyyətli mövqeyi onların geri çəkilməsinə səbəb oldu. Beləliklə,

sözügedən sənədə «Muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır» cümləsi əlavə edildi. Bu, faktiki olaraq, Dağlıq Qarabağdakı separatçı rejimin müstəqillik tələblərinin qarşısına sədd çəkən çox mühüm bir addım idi. Sənədin Azərbaycanın istədiyi şəkildə qəbul edilməsi həm də muxtariyyətin ərazi bütövlüyü prinsipindən sonra gəldiyini göstərirdi. Ermənilərin buna qarşı çıxması isə heç bir nəticə vermədi və Azərbaycan qurumda növbəti uğurunu qazanmış oldu.

Ümumiyyətlə, cənab İlham Əliyevin qurumda ölkəmizi təmsil edən nümayəndə heyətinə rəhbərlik etdiyi dövrdə AŞ PA-da Azərbaycan həqiqətlərini özündə əks etdirən 30-a yaxın sənəd hazırlanıb və təşkilatın rəsmi sənədləri kimi yayılıb. Sonrakı dövrdə də Azərbaycan Avropa Şurasında ermənilərin mövqelərinə bir-birinin ardınca diplomatik zərbələr endirməkdə davam edir və təşkilatda Ermənistanın işğalçılıq siyasətinə qarşı yeni-yeni sənədlərin qəbul edilməsinə nail olurdu. Belə mühüm sənədlərdən biri də AŞ PA-nın 2005-ci ilin yanvarında qəbul etdiyi 1416 saylı yeni qətnamə oldu. Bu qətnamə AŞ PA tərəfindən Ermənistanın işğalçılıq siyasətinə qarşı daha bir ciddi zərbə idi. Belə ki, burada yer alan müddəalar bir daha Ermənistanın işğalçı dövlət olduğunu təsdiq edir, Dağlıq Qarabağ regionunun separatçı qüvvələrin nəzarəti altında olduğu xatırladılırdı. Bu qətnamənin ən mühüm cəhəti Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin Avropada fəaliyyət göstərən beynəlxalq təşkilat səviyyəsində ilk dəfə belə açıq etiraf edilməsi və bunun presedent yaratması oldu. Ermənilərin etnik təmizləmə siyasətinin də tənqid olunduğu qətnamə Ermənistanın beynəlxalq aləmdə mövqeyini daha da sarsıtdı. Kifayət qədər obyektiv xarakter daşıyan bu qətnamənin ardınca  AŞ PA-nın qəbul etdiyi 1690 saylı Tövsiyə Ermənistana daha bir zərbə oldu. Çünki Avropa Şurasının Nazirlər Komitəsinə ünvanlanan tövsiyələrdə bila-

vaistə 1416 saylı qətnamənin şərtlərinə istinad edilirdi. Beləliklə, Azərbaycanın yürütdüyü siyasət nəticəsində AŞ PA-dan kifayət qədər ciddi zərbə alan Ermənistan sonrakı dövrdə də bu qurumda uğursuzluğa düçar oldu.

Bununla yanaşı, Azərbaycan Avropa Şurasına daxil olmaqla həm Avratlantik məkana inteqrasiya sahəsində növbəti ciddi addım atmış oldu, həm də demokratik inkişafında yeni bir mərhələ açdı. Ümumiyyətlə, Avropa institutlarına inteqrasiya Azərbaycanın xarici siyasətinin başlıca prioritetlərindən biridir. Bu səbəbdən ölkəmiz Avropa Şurası ilə əməkdaşlıqda öz milli qanunvericiliyinin yüksək beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər görür. Belə ki, Azərbaycan milli qanunvericiliklərin demokratikləşdirilməsinə kömək göstərən AŞ-nin Venesiya Komissiyası ilə sıx əlaqələr qurub, Avropa Şurasının başlıca sənədi sayılan İnsan Hüquqları və Əsas Azadlıqlarının Qorunması üzrə Konvensiyası və onun Protokollarını 25 yanvar 2001-ci il tarixində imzalayıb, 15 aprel 2002-ci ildə isə onları ratifikasiya edib. Ötən müddət ərzində Avropa Şurası ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edib və etməkdədir. Bu isə Azərbaycanın sürətli inkişafına öxünəməxsus töhfələr verir, eyni zamanda Avropa Şurası üçün ölkəmiz də mühüm əhəmiyyətə malik dövlət kimi çıxış edir.

## Azərbaycan digər aparıcı beynəlxalq təşkilatlarda

Beynəlxalq təşkilatlar sırasında Azərbaycanın İslam Konfransı Təşkilatı (İKT) ilə əməkdaşlıq münasibətlərinin inkişafı da ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət kəsb edir. Postsovet respublikaları arasında ilk olaraq məhz Azərbaycan İKT-yə üzv olmaq barədə müraciət edib və bu qurumun üzvü seçilib. 1994-cü ilin may ayından etibarən Heydər Əliyevin

müvafiq sərəncamına əsasən Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyi yanında daimi nümayəndə səlahiyyətləri verildikdən sonra ölkəmizin Ər-Riyaddakı səfirliyi vasitəsilə mənzil-qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən İKT Baş Katibliyi və onun müxtəlif qurumları, o cümlədən İslam İnkişaf Bankı ilə səmərəli iş aparılmağa başlanıb. Ulu öndərin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına səfəri Azərbaycan və İKT əməkdaşlığının gələcək inkişafı üçün zəmin yaratmaqla yanaşı, səfər əsnasında onun müqəddəs Kəbədə ümrə ziyarəti, keçirdiyi məhsuldar görüşlər bütün İslam dövlətlərinin ölkəmizə maraq və diqqətini artırdı. Ümummilli liderin İKT Baş katibi ilə 1994-cü ilin noyabrında Bakıda keçirdiyi görüşlər, həmin ilin dekabrında İKT dövlət və hökumət başçılarının Kasablankada keçirilmiş 7-ci Zirvə Konfransında iştirakı və İKT Baş katibi, həmçinin bir sıra üzv dövlətlərin xahişilə Asiya ölkələri qrupu adından çıxışı Azərbaycanın mövqeyini təşkilat daxilində daha da möhkəmlətdi və üzv dövlətlər tərəfindən dəstəklənməsi imkanlarını artırdı. Bunun nəticəsində İKT zirvə görüşləri tarixində ilk dəfə Kasablankada «Ermənistan–Azərbaycan münaqişəsi haqqında» siyasi qətnamə qəbul edildi, həmin ildən etibarən İKT-nin  BMT ilə əməkdaşlığı üzrə müzakirə edilən problemlər siyahısına «Ermənistan–Azərbaycan münaqişəsi» mövzusunun mütəmadi salınmasına nail olundu.

1996-cı ildə İndoneziyada İKT Xarici İşlər Nazirlərinin növbəti konfransında daha bir qətnamə qəbul edildi. Bu qətnaməni əvvəlkilərdən fərqləndirən əsas cəhət onun adı oldu: «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında». Halbuki əvvəlki qətnamələr sadəcə olaraq «Ermənistan və Azərbaycan arasında münaqişə üzrə» adlanırdı. Qətnamədə yenidən Ermənistanın işğalçı siyasəti pislənilir və işğal edilmiş ərazilərin boşaldılması tələb olunurdu. Həmçinin qətnamədə Ermənistanın təcavüzkar addımlarının sülh prosesinə mane olduğu da vurğulanırdı.

Bundan sonrakı dövrlərdə İKT Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də prinsipial mövqeyini davam etdirib. 2003-cü il oktyabrın 16-18-də Malayziyanın Putracaya şəhərində İKT-nin X Zirvə Konfransında növbəti dəfə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycana iqtisadi yardım göstərilməsi və Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında islam tarixi və mədəni abidələrinin məhvi barədə məsələlərə baxılıb və bu məsələlər üzrə İKT zirvə konfransının 3 müvafiq qətnaməsi qəbul olunub. Ermənistanın Azərbaycana qarşı təcavüzünün pislənilməsi İKT X Zirvə Konfransının Yekun Bəyanatında da öz əksini tapıb. Bəyanatda İKT ölkələri Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarılması çağırışı ilə çıxış edib.

2006-cı ilin iyununda İKT Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən 33-cü sessiyasında bir daha İslam Konfransı Təşkilatının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyi bəyan edilib. Ötən ilin martında Seneqalın paytaxtı Dakarda İKT-nin «İslam dünyası XXI əsrdə» devizi altında keçirilən XI Zirvə Görüşündə Ermənistanın Azərbaycana təcavüzünü pisləyən daha bir qətnamə qəbul olunub. Qətnamədə İKT BMT-nin Təhlükəsizlik Şurasını Ermənistana qarşı zəruri addımlar atmağa çağıraraq, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etməsindən dərin narahatlığını bildirib və ermənilərin bu ərazilərə qeyri-qanuni köçürülməsini pisləyib. Sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsi istənilib, işğal olunmuş ərazilərdə tarixi, mədəni və dini abidələrin vəhşicəsinə dağıdılması pislənilib, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələrinin tezliklə icrası tələb edilib. Eləcə də İKT-yə üzv ölkələrdən Ermənistanı silah və digər hərbi sursatla təmin etməkdən çəkinmək, beynəlxalq ictimaiyyətdən isə

təcavüzə son qoymaq üçün Ermənistana qarşı təsirli siyasi və iqtisadi tədbirlər görməsi tələb olunub. Bundan başqa, BMT-də Azərbaycanı hər cür dəstəkləməyi qərara alan İKT ölkələri ATƏT-in Minsk Qrupunun səylərini və xarici işlər nazirləri səviyyəsində aparılan sülh danışıqlarını dəstəklədiklərini bildiriblər.

Bununla yanaşı, Azərbaycan–İKT münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin 2005-ci ilin dekabrında İKT-nin Məkkədə keçirilmiş III Fövqəladə zirvə görüşündə iştirakı, onun təşəbbüsü ilə 2006-cı ilin 19-21 iyun tarixlərində Bakıda İKT Xarici İşlər Nazirlərinin növbəti 33-cü Konfransının keçirilməsi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci il 10-11 iyun tarixlərində Bakıda «Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi» mövzusunda beynəlxalq forum, İKT Turizm Nazirlərinin Bakı Konfransı, dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu, digər konfrans və tədbirlərə Azərbaycanın ev sahibliyi etməsi yuxarıda qeyd olunan siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər. 2009-cu ildə isə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi təşkilatla qarşılıqlı münasibətlərin inkişafının daha bir yüksək göstəricisi oldu. Hazırda sözügedən təşkilatla Azərbaycan arasında münasibətlər getdikcə sıxlaşır və daha geniş məzmun alır.

Ölkəmiz dünyannın ən güclü hərbi təşkilatı sayılan NATO ilə də sıx əməkdaşlıq edir. Ümumiyyətlə, Azərbaycan MDB dövlətləri arasında NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulan ilk tərəfdaş dövlətlərdəndir. Ulu öndər Heydər Əliyev 4 may 1994-cü ildə NATO-nun mənzil qərargahına səfəri zamanı SNT-yə qoşulmaq haqqında SNT Çərçivə Sənədini imzalayıb. NATO ilə gələcək əməkdaşlıq

sahələrini müəyyən etmək məqsədi ilə Azərbaycan SNT Təqdimat Sənədini hazırlayaraq 1996-cı ilin aprelində Alyansa təqdim edib. İkitərəfli əməkdaşlığa hərbi əməkdaşlıq, hərbi modernizasiya, Silahlı Qüvvələr üzərində demokratik nəzarət, təhlükəsizlik məsələləri üzrə siyasi məsləhətləşmələr, sülhməramlı əməliyyatlar, təhlükəsizlik sektorunun islahatı, mülki-fövqəladə planlaşdırma, təhlükəsizliklə əlaqədar elmi, iqtisadi və ətraf mühit üzrə əməkdaşlıq kimi sahələr daxil olunub.

1996-cı ildən etibarən Azərbaycanın təqdimat sənədi və NATO-nun Tərəfdaşlıq İşçi Proqramı əsasında ölkənin mülki və hərbi nümayəndələrinin qatıldığı bütün birgə fəaliyyət və tədbirlərin daxil olduğu illik Fərdi Tərəfdaşlıq Proqramı (FTP) tərtib olunub. Bununla yanaşı, Azərbaycan NATO-nun müxtəlif proqramlarında da fəal iştirak edir. Ölkəmiz NATO ilə tərəfdaşlığın gələcək inkişafını diqqətlə izləyir və ona öz töhfəsini verməyə çalışır.

1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması ilə xeyli dərəcədə zəifləməsinə baxmayaraq, nəhəng hərbi potensiala malik Rusiyanın regional proseslərə təsir imkanı danılmaz bir fakt idi. Lakin təəssüf ki, bu reallıq AXC–Müsavat cütlüyünün hakimiyyəti dövründə nəzərə alınmırdı. Heydər Əliyev isə hakimiyyətə qayıtdıqdan sonra Rusiya ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin qaydaya salınması istiqamətində aktiv fəaliyyətə başladı. Elə bunun nəticəsində iki ölkə arasındakı münasibətləri normallaşdırmaq üçün bütün xırda detallar nəzərə alınmaqla hər iki tərəfin mənafeyinə cavab verən iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı üçün mühüm işlər görüldü. 1993-cü il sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya Prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması məsələlərini müzakirə etdi, bundan cəmi 18 gün sonra Azərbaycan MDB-yə daxil oldu. AXC–Müsavat cütlüyü isə iqtidarda olarkən Azərbaycanın MDB-

yə üzv olmasını qəbuledilməz sayır, bu qurumu SSRİ-nin başqa variantı kimi qəbul edirdi. Heydər Əliyev isə Azərbaycanın bu quruma qəbul edilməsinin vacibliyini görərək ona üzvlüyün yalnız Azərbaycanın maraqlarına cavab verəcəyini yaxşı bilirdi. O da mühüm fakt idi ki, Azərbaycan bir şərtlə birliyə üzv olmağa razılıq vermişdi: MDB-nin nizamnaməsinə belə bir müddəa salınsın ki, bu qurum hökumətlərarası təşkilatdır, üzv ölkələrin daxili və xarici siyasətinə müdaxilə etmək səlahiyyətinə malik deyil və sair. Bu şərtin qəbul edilməsindən sonra Azərbaycan MDB-yə üzv oldu və SSRİ-nin çökməsindən sonra dağılmış iqtisadi əlaqələrin bərpası nəticəsində ölkəmiz iqtisadi dirçəliş imkanı əldə etdi.

Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət 1997-ci ildə GUAM şəklində yaranmış, 1999-cu ildə Özbəkistanın daxil olması ilə isə GUÖAM-a çevrilmiş bu transregional qurumun təsisçilərindən biri olaraq Azərbaycan həmin qurumun vasitəsilə həm özü, həm də digər iştirakçı dövlətlər üçün vacib əhəmiyyət kəsb edən məsələlərdə səylərin birləşdirilməsi məqsədi güdür. Bu, siyasi məsələlər, münaqişələrin sülh yolu ilə həll edilməsində və separatizmlə mübarizədə qarşılıqlı fəaliyyət, sülhü təminetmə sahəsində əməkdaşlıq, səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin inkişafında əməkdaşlıq, Avropa və Transatlantika qurumları ilə əməkdaşlıq və qarşılıqlı fəaliyyət, iqtisadi əməkdaşlıq kimi istiqamətləri əhatə edərək üzv ölkələrin və bütövlükdə bölgənin tərəqqisinə öz töhfəsini verir. Həm nisbətən yaxın olmayan tarixdə, həm də müasir dövrdə qarşılaşdığı erməni terrorçuluğu timsalında bu bəlanın nə olduğunu tam dərk edən Azərbaycan 2001-ci il sentyabr ayının 11-dən ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq antiterror koalisiyasının fəal üzvü olaraq terrorçuluğun qlobal təhdidlərinə qarşı mübarizəyə öz töhfəsini verməkdədir.

## Xarici siyasətdə beynəlxalq iqtisadi əlaqələr faktoru

Ölkəmizin müstəqillik dövründə beynəlxalq iqtisadi təşkilatlarla münasibətlərinin qurulması tarixinə diqqət yetirdikdə isə ilk növbədə dünyanın ən böyük maliyyə qurumlarından biri kimi xarakterizə olunan Dünya Bankı ilə əlaqələrə nəzər salmaq lazım gəlir. Azərbaycanın Dünya Bankının tərkibində yer alan qurumlara üzvlük tarixi fərqli dövrlərə təsadüf edir. Belə ki, Azərbaycan Dünya Bankına daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına, Çoxtərəfli İnvestisiya Zəmanətləri Agentliyinə, Beynəlxalq İnvestisiya Mübahisələrinin Tənzimlənməsi Mərkəzinə 1992-ci ildə üzv qəbul olunub.

Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyasına üzvlük tarixi 1995-ci ilin 31 martına, Beynəlxalq Maliyyə Korporasiyasına qəbul edilmə prosesinin başa çatması isə 1995-ci ilin 11 oktyabr tarixinə təsadüf edir. Dünya Bankının əsas məqsədi ölkənin keçid dövründə onun iqtisadi-sosial inkişafı siyasətilə əlaqədar, həm investisiya axını, həm də dövlət büdcəsinin maliyyələşdirilməsi üzrə tövsiyələr vermək və bu cür yardımın koordinasiyasını aparmaqdan ibarət olub. Xüsusilə Dünya Bankının neft ehtiyatlarını idarə etmək üçün, dövlətin təşkilati bacarığını gücləndirmək və siyasi xətdəki dəyişiklikləri qısa və dürüst ifadə etməklə islahatı tezləşdirmək məqsədi ilə hökumətlə sıx işbirliyinin əsasını qoyub və bu sahədə əməkdaşlıq indi də davam etdirilməkdədir.

Dünyanın aparıcı maliyyə qurumlarından olan Beynəlxalq Valyuta Fondu isə 2009-cu ildə Azərbaycandakı Daimi Nümayəndəliyini bağlamaq barəsində qərar qəbul edib. Azərbaycan BVF-ə 1992-ci ilin sentyabrında daxil olub. Əməkdaşlıq müddətində fonddan 363 milyon dollar vəsait, o cümlədən 248 milyon dollar güzəştli kredit alınıb. Kredit tranş yolu ilə, iqtisadi islahatlar aparılması öhdəliyi ilə müxtəlif

proqramlar çərçivəsində verilib. Onlardan sonuncusunun verilməsi 2005-ci ildə yekunlaşıb. Həmin vaxtdan fondun təkidinə baxmayaraq, Azərbaycan maliyyə cəhətdən möhkəmləndiyini vurğulayaraq kreditdən imtina edib, yalnız fondun texniki yardımını qəbul edib.

Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərindən bəhs edərkən BMT-nin nəzdində olan Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı (BMSİT) ilə də münasibətlərin inkişafı qeyd edilməlidir. Ölkəmiz 1993-cü ildə BMSİT-ə üzv qəbul edilib. 1995-ci ildən Azərbaycan Respublikasının Avstriyadakı səfirliyi BMSİT nəzdində Daimi Nümayəndəlik funksiyalarını da həyata keçirir. Beynəlxalq iqtisadi sferada əlaqələrinin genişlənməsinə daim xüsusi diqqət yetirən Azərbaycan təşkilatlardan biri kimi də Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv qəbul edilməsi üçün 23 iyun 1997-ci ildə bu quruma ərizə ilə müraciət edib. Bundan sonra ÜTT Katibliyində Azərbaycan üzrə İşçi Qrupunun yaradılması barədə qərar qəbul olunub. Qeyd edək ki, ölkəmizin sözügedən təşkilata üzv olmaqda əsas məqsədləri aşağıdakılardan ibarətdir: dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək; ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq; Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək; ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq; ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox həcmdə birbaşa xarici investisiyaları cəlb etmək; ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək.

Adıçəkilən beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlarla da sıx inteqrasiyanın, hərtərəfli münasibətlər qurulmasının yeni yollarını və vasitələrini müəy-

yənləşdirib və həyata keçirib. Bu proses indi uğurla davam etməkdədir. Bu da Azərbaycana xarici siyasət sferasında yeni imkanlar qazandırır, onun manevr imkanlarını genişləndirir və ölkənin beynəlxalq dayaqlarını gücləndirir.

**İkitərəfli münasibətlərin inkişafı xarici siyasətdə prioritetdir**

Beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıtmasından sonra ikitərəfli münasibətlərin inkişafında da böyük nailiyyətlərə imza atan tərəf kimi çıxış edir. Belə dövlətlər sırasında Ermənistan istisna olmaqla, qonşu ölkələr, eləcə də uzaq xaricdə yerləşənlər çıxış edir. Qonşu dövlətlərlə münasibətlərin yaxşılaşdırılması Azərbaycanın ilk növbədə regional mövqeyinin güclənməsinə xidmət edir. Yürüdülən məqsədyönlü siyasət nəticəsində qonşu ölkələr sırasında qardaş Türkiyə ilə münasibətlərinin normal, sivil, qarşılıqlı faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq müstəvisi üzərinə keçirilməsi istiqamətində də böyük nəticələr əldə olunub. Təsadüfi deyil ki, Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi ilk səfərlərindən birini Türkiyəyə edib. Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə 1994-cü il fevral ayının 8-11-də qardaş ölkədə rəsmi səfərdə olan ulu öndər keçirdiyi görüşlərdə bildirmişdi ki, Türkiyə ilə Azərbaycan arasında yaranmış əlaqələr yeni mərhələyə qədəm qoyur. Heydər Əliyev hər zaman Azərbaycanla Türkiyə arasında dərin kökləri olan dostluq münasibətlərinə diqqətlə yanaşmış, məhz onun sayəsində əlaqələrin inkişafında yeni mərhələnin əsası qoyulmuşdu. Ulu öndərin Türkiyə parlamentində etdiyi çıxışında iki ölkənin strateji tərəfdaşlığının ən mükəmməl formulu da səsləndirilmişdi: «Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir». Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlişi ilə Türkiyə ilə münasibətlər gerçək tərəfdaşlıq, qarşılıqlı fayda və səmimi anlaşma üzərində

qurulmağa, intensiv təmaslar, daimi məsləhətləşmələr fonunda iki ölkənin xarici siyasəti, beynəlxalq müstəvidəki addımları daha əlaqəli və bir-birini tamamlamağa başladı.

Bununla yanaşı, SSRİ dönəmində postsovet ölkələri arasında qurulmuş münasibətlərin, ilk növbədə isə iqtisadi əlaqələrin yenidən bərpa edilməsi istiqamətində ulu öndər tərəfindən müvafiq addımlar atıldı. Mərkəzi Asiya dövlətləri, eləcə də Ukrayna, Belarus, Gürcüstan, Moldova və digərləri ilə münasibətlərin yenidən qurulması üçün yeni zəruri işlər görüldü.

Ölkənin xarici siyasət prioritetləri sırasında Qərb ölkələrinə iqtisadi, siyasi, sosial, mədəni və digər mühüm sahələrdə də inteqrasiya ulu öndərin hakimiyyətə qayıdışından sonra mühüm yer tuturdu. Qərbə inteqrasiya Azərbaycanın özünün mövcud resurslarının daha səmərəli istifadəyə imkan verməklə yanaşı, qabaqcıl dünya texnologiyalarının və xarici kapitalın ölkəyə gəlişində mühüm rol oynayırdı. Bu gün bunları aydın görən ulu öndərin həyata keçirdiyi uğurlu siyasət sonda Qərb dövlətləri ilə münasibətləri keyfiyyətcə yeni mərhələyə daxil etdi. Aparıcı Qərb ölkəsi hesab edilən ABŞ-la qurulan yeni əməkdaşlıq erməni lobbisinin Amerika qanunverici orqanında Azərbaycan əleyhinə yeni sənədlərin qəbul edilməsi istiqamətində gərgin fəaliyyətinin qarşısını alan əsas səbəblərdən birinə çevrildi. Bununla yanaşı, atılan addımlar onunla nəticələndi ki, 907-ci düzəliş 2002-ci ildən etibarən hər il ABŞ Prezidenti tərəfindən müvəqqəti olsa da dayandırılır və onun birdəfəlik ləğvi yaxın perspektivdə istisna olunmur.

1993-cü ildən etibarən Azərbaycanın Qərbyönümlü siyasi kurs yeridəcəyinin ən mühüm göstəricilərindən biri də ulu öndərin dövlət başçısı kimi ilk xarici səfərini Avropanın ən nüfuzlu ölkələrindən sayılan Fransaya etməsi idi. Fransalı həmkarı Fransua Mitteranın dəvəti ilə bu ölkəyə gedən ulu öndər səfər çərçivəsində Azərbaycanın inkişafına müəyyən

töhfələr verəcək bir sıra mühüm sənədlər imzaladı. Analoji və başqa mühüm sənədlər daha sonra digər Avropa dövlətləri ilə də razılaşdırıldı. Beləliklə, ümummilli lider son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi xarici siyasət sferasında da özünü göstərən çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Bu, Azərbaycana beynəlxalq aləmdə nüfuz və şöhrət qazandırdı, Heydər Əliyevin müəyyən etdiyi yeni xarici siyasət xəttinə və mövqeyinə inam yaratdı. Çoxvektorlu, balanslı siyasət yeridən Azərbaycan SSRİ-nin dağılmasından sonra yaranan yeni dünya düzənində regional və qlobal inteqrasiyanın strateji xəttini milli inkişafın prioritet istiqamətlərindən biri kimi önə çəkir, onu ardıcıl olaraq həyata keçirir və müstəqilliyin möhkəmləndirilməsi, ölkəmizin dünyada özünütəsdiqinə nail olması üçün də mühüm addımlar atırdı.

Qərblə yanaşı, Azərbaycan Uzaq Şərqin qabaqcıl dövlətləri olan Çin və Yaponiya ilə də qarşılıqlı faydalı əməkdaşlığın inkişafı istiqamətində yenə Heydər Əliyev dövründə mühüm addımlar atdı. Nəticədə Yaponiyanın Azərbaycandakı iqtisadi layihələrə fəal qoşulması, eləcə də ikitərəfli əməkdaşlığın daha da dərinləşməsi prosesinə start verildi. Çinlə qarşılıqlı münasibətlərin inkişafı yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Pakistan və Hindistan kimi ölkələrlə qarşılıqlı əməkdaşlıq daha da sıxlaşdırıldı. Latın Amerikası, Afrika və digər uzaq dövlətlərlə münasibətlər intensiv inkişaf dövrünə keçdi.

Bütün bunlar beynəlxalq hüququn müstəqil subyekti olaraq Azərbaycanın öz mövqelərini davamlı şəkildə gücləndirməsinə gətirib çxarırdı ki, bu uğurların təməlində məhz Heydər Əliyev faktoru dayanırdı. Ulu öndərin müəllifi olduğu xarici siyasət strategiyası bu gün ölkəmizin beynəlxalq nüfuzunun yüksəlişində, dünyada yaşanan siyasi proseslərdə layiqli yerin sahibi kimi çıxış etməsində vacib rol oynayır. Azərbaycan

Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, həqiqi dövlət müşaviri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Ramiz Mehdiyev «Azərbaycan: qloballaşmanın tələbləri» əsərində bununla bağlı yazır: *«Heydər Əliyevin ölkənin mənafeyinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli düşünülmüş, özünün vəzifə və prinsipləri ilə seçilən bitkin, ardıcıl siyasəti bütün istiqamətlərdə bu gün də özünü doğrultmaqdadır. Azərbaycanın dünya birliyinə inteqrasiyası üçün apardığı çoxşaxəli fəal xarici siyasətin nəticəsidir ki, indi ölkəmiz dünyada gedən siyasi proseslərdə özünə layiqli yer tutmuş, nüfuzlu mövqe qazanmış, bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa nail olmuşdur. Qloballaşma dövründə biz inteqrasiyanın əlverişli meyillərindən istifadə etməli, ardıcıl siyasət yeritməliyik. Dövlətlərarası inteqrasiya məkanına, ölkəmizin inkişafına, iqtisadiyyatın modernləşməsinə, cəmiyyətimizin mənəvi-əxlaqi əsaslarının təkmilləşməsinə kömək edən bütün qüvvələri səfərbər etməklə daxil olmalıyıq. Bu gün Azərbaycanın uğurları dünyanın ən qüdrətli dövlətlərinin və nüfuzlu beynəlxalq qurumlarının diqqətini bizə yönəltmişdir».*

## Uğurlu xarici siyasət strategiyası yeni mərhələdə

Ümummilli liderin müəyyən etdiyi inkişaf strategiyasını böyük müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət bu gün müstəqil Azərbaycanın dünya miqyasında mövqelərinin daha da güclənməsinə gətirib çıxarıb. Birmənalı həqiqətdir ki, xalqın iradəsi əsasında Azərbaycan Prezidenti seçildikdən sonra cənab İlham Əliyev bir siyasətçi olaraq dünyada böyük hörmət və nüfuz sahibinə çevrilib. İki və çoxtərəfli görüşlərdə, eləcə də müxtəlif beynəlxalq tribunalardan etdiyi çıxışlarda

Azərbaycanın milli maraqlarını bütün sahələrdə uğurla müdafiə və təmin edən dövlət başçısının həyata keçirdiyi xarici siyasət ölkəmizin regional, beynəlxalq mövqelərini davamlı olaraq daha güclü hala gətirir. Onun qətiyyətli mövqeyi Cənubi Qafqazda hər hansı taleyüklü məsələnin həllində, transmilli layihənin reallaşmasında Azərbaycanın iştirak və razılığı olmadan konkret nəticə əldə olunmasını mümkünsüz edir. Azərbaycan təkcə mövcud olduğu yox, MDB, Şərqi Avropa kimi böyük bir coğrafi ərazidə də əsas nüfuz sahiblərindən biri kimi çıxış edir.

Mövcud beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutan, qlobal təhdid və çağırışlara adekvat cavab vermək iqtidarında olan Azərbaycan ərazisindən, nüfuzundan, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq ən müxtəlif dünya dövlətləri ilə münasibətdə bərabərhüquqlu əməkdaşlıq qurur, müstəqil xarici siyasət həyata keçirir. Eyni zamanda, geostrateji və geoiqtisadi üstünlüklərindən, malik olduğu təbii sərvətlərindən böyük səmərəlik əmsalı ilə faydalanaraq milli maraqlarının təmin edilməsi ilə xarici siyasətində yeni uğurlara imza atan tərəf kimi özünü təsdiqləyir.

O da mühüm faktdır ki, ölkə daxilində möhkəm ictimai-siyasi sabitliyə, qanunun aliliyinə, zamanın tələblərinə cavab verən islahatların keçirilməsinə və bu qəbildən olan digər addımlar xarici siyasət sahəsində qazanılan uğurları kəmiyyət və keyfiyyət etibarı ilə daha da artırır. Öz xarici siyasətində bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmamaq kimi prinsipləri hər zaman rəhbər tutan Azərbaycan xarici siyasətində beynəlxalq əməkdaşlığın daha da dərinləşməsinə böyük önəm verir. Bütün bunlar həm də onun göstəricisidir ki, müasir Azərbaycan sürətlə cərəyan edən qlobal proseslər axarında öz sabit inkişaf istiqaməti olan, qlobal çağırışlara milli maraqlar çərçivəsində cavab vermək

qüdrətində olan bir dövlətə çevrilərək beynəlxalq münasibətlər sistemində layiqli yerini tutmağı bacarıb.

Bu gün cənab İlham Əliyev dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, inkişaf etdirmək, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqelərini gücləndirmək istiqamətində böyük səy və əzmkarlıq göstərir. Balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan beynəlxalq mövqelərini və milli təhlükəsizliyini əhəmiyyətli dərəcədə möhkəmləndirib və qlobal məkanda cərəyan edən proseslərin istiqamətverici subyektlərindən birinə çevrilib. Ölkəmizin müxtəlif beynəlxalq təşkilatlarla, eləcə də ayrı-ayrı dövlətlərlə qurduğu əməkdaşlıq dərinləşməkdə, yeni və Azərbaycanın milli maraqlarına cavab verən çalarlar qazanmaqdadır. Burada daha bir önəmli faktor ondan ibarətdir ki, Azərbaycan uzun illərin sınağından çıxmış etibarlı tərəfdaş kimi dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən qəbul olunur.

Xarici siyasət sahəsində çoxqütblü inteqrasiya və əməkdaşlıq modelinə üstünlük verən, bunu uğurla reallaşdıran Azərbaycan iqtisadi, siyasi baxımdan mövcud olduğu regionda xüsusi çəkisini davamlı olaraq yüksəldir. Avratlantik məkana inteqrasiya istiqamətində həyata keçirilən siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın siyasi, iqtisadi, sosial, hüquqi və digər sahələr üzrə həm qanunvericilik bazasını, həm də onların icra mexanizmlərini milli dəyərlərin qorunması ilə Avropa standartlarına çatdırıb və onların təkmilləşdirilməsi prosesi indi də daim davam edir. Xarici siyasətdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanın əldə etdiyi daha bir uğur beynəlxalq miqyasda Ermənistanın işğalçı dövlət siyasətinin tam ifşa edilməsi və bu işğal faktını pisləyən yeni qətnamələrin, sənədlərin meydana çıxmasıdır. Artıq dünyanın ən nüfuzlu rəsmi qurumlarının sənədlərində Ermənistan işğalçı

dövlət olaraq qəbul edilir, bu ölkədən Azərbaycan ərazilərini tərk etmək tələb edilir.

Real şəraitdə Azərbaycanın həyata keçirdiyi xarici siyasət təhlil edilərək aşağıdakı prioritetlər üzrə qruplaşdırılır: bazar iqtisadiyyatı və qanunun aliliyinə əsaslanan plüralist demokratiyanı inkişaf etdirmək; Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi məqsədi ilə müstəqil xarici siyasət yeritmək; Azərbaycanın təhlükəsizliyi, siyasi müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması; ATƏT-in Lissabon sammiti prinsipləri əsasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar yolu ilə həll edilməsi; Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması; qonşu ölkələrlə mehriban qonşuluq və qarşılıqlı fayda kəsb edən münasibətlərin inkişaf etdirilməsi; regionda təhlükəsizliyin və sabitliyin gücləndirilməsi; regionda qanunsuz silah və digər daşımaların qarşısının alınması; nüvə silahlarının yayılmasının qarşısının alınmasına dair mövcud olan qlobal rejimlərə sadiqlik və Cənubi Qafqazda nüvə silahlarından azad zonanın yaradılması; Xəzər dənizi hövzəsinin demilitarizasiyası (hərbsizləşdirilməsi); NATO, Avropa İttifaqı, Qərbi Avropa İttifaqı və Avropa Şurası da daxil olmaqla Avropa və Transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya; Azərbaycanın Qərb və Şərqin qovşağında yerləşməklə mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını sürətləndirmək; Azərbaycanın iştirakçısı olduğu Avrasiya nəqliyyat dəhlizini inkişaf etdirmək.

Xarici siyasətin qeyd edilən ilk prioriteti kimi Avratlantik məkana inteqrasiya yolunda uğurla irəliləyən Azərbaycanda demokratik dəyərlərin daha möhkəm özüllər üzərində bərqərar olaraq mütəhərrik inkişafı daim xüsusi diqqət yetirilən ən mühüm məqamlar sırasında yer alır. Bunun nəticəsidir ki,

ölkəmizdə müasir dünya tələblərinə cavab verən demokratiya mühiti formalaşıb və bu mühitin daha zəngin xarakter alması istiqamətində görülən işlərin miqyası daim genişlənir. Çünki demokratiya və onu xarakterizə edən əsas göstəricilər özü də mütəmadi inkişafda olan prosesdir. O da danılmaz həqiqətdir ki, yeni müstəqillik tariximizdə Azərbaycanın demokratiya yolunda qət etdiyi məsafəni dünyanın belə inkişaf formasını seçən əksər ölkələri daha uzun müddətə keçiblər. Beynəlxalq səviyyədə də açıq etiraf edilir ki, sosial-iqtisadi inkişaf dinamikasına görə uğurlu bir modelin əsasını yarada bilmiş Azərbaycan dünya miqyasında həm də siyasi və demokratik tərəqqi yolunda möhtəşəm nailiyyətlərə imza atan dövlət kimi xarakterizə olunur. Bu gün ölkəmizdə söz və fikir azadlığının, siyasi plüralizmin, çoxpartiyalı sistemin mövcudluğu, vətəndaşların azad seçiminə yüksək şərait yaradılması, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm nailiyyətlər əldə edilməsi Azərbaycanda demokratik mühitin vacib göstəriciləri sırasında yer alır. Hakimiyyət bölgüsü prinsipinin ən qabaqcıl dünya standartına uyğun olması, demokratik dəyərlərin inkişafı istiqamətində islahatların sürətli xarakter daşıması, aparıcı Avropa təsisatları ilə yüksək səviyyəli əməkdaşlıq qurulması, Qərb təcrübəsinin üstün cəhətlərinin uğurla mənimsənilməsi və bu qəbildən olan digər hallar ölkəmizdə demokratiyanın inkişafına zəruri töhfələr verib və verməkdədir. Bütün bunlar, öz növbəsində, Azərbaycanın mövcud tərəqqi yolunun nə dərəcədə düzgün olduğunu, eyni zamanda inkişafın kompleks xarakter daşıdığını göstərir.

Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi məqsədi ilə müstəqil xarici siyasət yeritməsinə gəlincə, məlumdur ki, hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi

və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkəmizin təhlükəsizlik mühitinin əsas təyinedici amili olaraq qalır və bu da, öz növbəsində, Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynayır. Bu kontekstdə ATƏT-in Lissabon sammiti prinsipləri əsasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar yolu ilə həll edilməsinə və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılmasına Azərbaycan xüsusi önəm verir. Münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi danışıqların ilk günlərindən dəyişməz olaraq qalır. Münaqişənin həlli üçün erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan ərazisindən çıxarılması, bu ərazilərdə Azərbaycanın pozulmuş suveren hüquqlarının bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, Azərbaycanın Dağlıq Qarabağ regionunda ölkənin hərtərəfli iqtisadi inkişafı çərçivəsində kommunikasiyaların bərpası və sosial-iqtisadi inkişaf üçün şərtlərin müəyyən olunması, qanuni və demokratik proses çərçivəsində Dağlıq Qarabağ regionunda Azərbaycan və erməni icmalarının dinc yanaşı yaşamasını və Azərbaycan Respublikasının tərkibində muxtariyyətini təmin edəcək statusun müəyyənləşdirilməsindən başqa ölkəmiz digər bir yol görmür və qəbul etmir.

Müasir dünya reallığı göstərir ki, beynəlxalq arenada qeyri-dövlət aktorları olan beynəlxalq terrorçu qruplaşmalar, hərbi separatçı hərəkatlar, etnik və dini ekstremizm, mütəşəkkil cinayətkarlıq şəbəkələri, habelə qeyri-qanuni miqrasiya, narkotik maddələr və insan alveri, kütləvi qırğın silahlarının yayılması, vacib enerji və nəqliyyat infrastrukturunda sabotaj riski və son illərin fenomeni olan kiberhücumlar qlobal və regional təhlükəsizlik mühitinə ciddi təsir göstərən amillərdir. Qeyd edilənlərə qarşı mübarizədə Azərbaycan daim öndə gələn

dövlətlər sırasında yer alır və xarici siyasətində də buna xüsusi önəm verir. Ölkəmiz beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə bağlı çoxtərəfli və ikitərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunub. Terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulan Azərbaycan bu sahəyə dair daim məlumat mübadiləsi həyata keçirir və müvafiq məruzələr hazırlayır. Bununla yanaşı, Azərbaycan kütləvi qırğın silahlarının yayılmaması ilə bağlı beynəlxalq rejimin gücləndirilməsinə tərəfdardır və müvafiq nəzarətin həyata keçirilməsi üçün dünya birliyi və müvafiq təşkilatlarla əməkdaşlığı davam etdirir.

Regional əməkdaşlığı regionda sülhün və sabitliyin qorunub saxlanılması üçün mühüm amil hesab edən Azərbaycan məlum səbəblərə görə Ermənistan istisna olmaqla, bütün yaxın qonşuları ilə qarşılıqlı faydalı dostluq münasibətləri qurub. Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində yerləşən Azərbaycan Avropa ölkələrindən mal və xidmətlərin böyüyən Asiya bazarlarına və əksinə daşınması üçün təbii keçid imkanını təmin edir. Bu mənada Orta Şərq və Asiya ölkələri ilə əlaqələr Azərbaycanın xarici siyasətində vacib yer tutur. Yaranmaqda olan siyasi güc mərkəzləri və sürətlə artan iqtisadiyyatlara malik bu regionlar iqtisadi, telekommunikasiya və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün perspektivlər açır. Bununla yanaşı, ölkəmiz Avropa və Avratlantik birliyin dəyərlərini bölüşür, çoxtərəfli Transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir.

Qeyd edilənlər belə bir nəticəyə gəlməyə əsas verir ki, ikinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonra, 1993-cü ildən başlayaraq Azərbaycan kifayət qədər uğurlu xarici siyasət strategiyası həyata keçirib. Ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, eyni zamanda regional liderə çevrilməyə nail olaraq milli maraqların həyata

keçirilməsi, müstəqilliyin və suverenliyin gücləndirilməsi, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət yürüdüb və yürütməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi altında isə ölkə daxili ilə yanaşı, xarici siyasət sahəsində də bundan sonra qazanılan uğurların miqyasının davamlı şəkildə genişlənəcəyi və Azərbaycanın yeni müvəffəqiyyətlərə imza atan dövlət kimi çıxış edəcəyi heç bir şübhə doğurmur. Gələcək inkişaf perspektivi daha işıqlı olan Azərbaycan bununla beynəlxalq miqyasda malik olduğu nüfuz və mövqeyi daha da gücləndirəcək.

# Demokratik hüquqi islahatlara sadiqlik nümunəsi

*«Biz Azərbaycanda demokratik respublika, vətəndaş cəmiyyəti quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır».*

Heydər ƏLİYEV

**Yarandığı dövrdən etibarən hər bir cəmiyyətin normal fəaliyyətinin hüquqi çərçivəyə salınması obyektiv zərurət kimi çıxış etmiş, hüquqi nizamasalmanın mövcudluğu vacib xarakter daşıyaraq ictimai həyatın davamlı inkişafında özünəməxsus rol oynamışdır. Cəmiyyət və dövlətlərin, vətəndaş-dövlət əlaqələrinin inkişafı qarşılıqlı münasibətlərin hüquqi xarakterindən birbaşa asılı olmaqla yanaşı, daim hüquqi tənzimlənməyə ehtiyac duymuş və zaman keçdikcə bu tənzimlənmə prosesi müxtəlif hüquqi aspektlərin tətbiqi baxımından daha da geniş miqyas almışdır. Lakin hüquq həm də**

**cəmiyyətlər, dövlətlərarası münasibətləri tənzimləyən əsas mexanizmlərdən biri kimi çıxış etmiş, müasir qloballaşma şəraitində isə bu kontekstdə öz rolunu daha da artırmışdır.**

Ötən əsrin sonlarında yenidən dövlət müstəqilliyini əldə edən Azərbaycan da beynəlxalq hüququn norma və prinsiplərinin qəbul edilməsi, tətbiqi və bu zaman hüququn aliliyinin gözlənilməsinə xüsusi diqqət yetirmiş, bu sahədə daxili qanunvericiliyi beynəlxalq hüquqa uyğun şəkildə qurmuşdur. Artıq beynəlxalq hüququn ümumqəbul olunmuş prinsip və normaları ölkəmizin hüquq sisteminin tərkib hissəsi kimi çıxış edir. Beynəlxalq hüququn müstəqil subyekti olaraq respublikmız dünya ictimaiyyəti ilə münasibətləri qarşılıqlı hörmət, etimad və əməkdaşlıq əsasında qurur, bərabərhüquqlu tərəfdaşlığı təmin edir, uğurlu hüquqi fəaliyyətini həyata keçirir. Bu istiqamətdə ilkin konstitusion addımlar isə müstəqilliyin ilk illərindən etibarən atılmağa başlamışdır. Belə ki, ulu öndər Heydər Əliyevin hələ respublikaya birinci rəhbərliyi dövründə formalaşmış güclü iqtisadi potensialdan səmərəli şəkildə yararlanaraq ötən əsrin 90-cı illərində müstəqilliyinə qovuşmuş respublikamızın hüquqi müstəvidə ilk əsas addımlarından biri 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nın qəbulu olmuşdur.

Burada respublikamız rəsmi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisi və müstəqil respublika elan edilməklə yanaşı, eyni zamanda, Azərbaycan xalqının idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək hüququ təsbit olunmuşdur.

«Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nın 12-ci maddəsində Azərbaycan xalqının

müstəqil, dünyəvi, demokratik dövlət qurmaq hüququnu reallaşdırması isə müstəqilliyin ilk illərində ölkədə yaşanan hərcmərclik üzündən mümkün olmamışdır. 1992-ci ilin mayında hakimiyyətə silahlı yolla gələn AXC–Müsavat cütlüyünün bir illik iqtidarı dövründə ölkədəki vəziyyət daha da gərginləşmiş, vətəndaşların təhlükəsiz yaşamaq kimi təbii hüququnun təminatında ciddi problemlər yaranmışdı. Qanunçuluğun kövrək xarakter daşıması, hüquq-mühafizə orqanlarının üzərinə düşən vəzifələri həyata keçirə bilməməsi son nəticədə ictimai həyatın müxtəlif sahələrində vəziyyətin daha da pisləşməsinə, cinayətkar ünsürlərin mütəşəkkil fəaliyyətinə, qanunsuz silahlı qruplaşmaların sərbəst hərəkət etməsinə münbit şərait formalaşdırmış, daxildə qeyri-sabit və təhlükəli vəziyyətə səbəb olmuşdu. Respublikada qanunçuluğun, hüquq qaydalarının son dərəcə zəif olması, dövlət idarəçiliyinin iflic vəziyyətə düşməsi, ayrı-ayrı siyasətçilərin «könüllü döyüşçü» adı altında qanunsuz silahlı dəstələr yaratması isə nəticə etibarı ilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi. Bir tərəfdən ayrı-ayrı məmurların dövlətin o zamankı rəhbərinə tabe olmaması nəticəsində hakimiyyət böhranının dərinləşməsi, digər tərəfdən isə ölkənin cənubunda və şimalında separatçıların məkrli niyyətlərlə baş qaldırması ölkədəki vəziyyəti dalana gətirib çıxarmışdı. Belə bir şəraitdə AXC–Müsavat cütlüyü hakimiyyətini qoruyub saxlamaq üçün yeni parlament seçkilərinin keçirilməsinə hər vəchlə mane olur, yeni konstitusiyanın qəbuluna tələsmirdi. Əsas Qanunun qəbulunun süni şəkildə gecikdirilməsi həm də o zamankı hakimiyyətin səbatsızlığı – ölkənin gələcək iqtisadi, siyasi, hüquqi inkişaf hədəfləri ilə bağlı konkret təsəvvürlərə malik olmaması ilə bağlı idi. Bütün bunlar Azərbaycanın beynəlxalq hüquqa inteqrasiyasına da ciddi mane olur, ölkənin müstəqil subyekt kimi mövcudluğunu davam etdirə bilməsini sual altına alırdı.

Hakimiyyətə gəldikdən sonra Azərbaycanın milli inkişaf strategiyasını müəyyənləşdirən ulu öndər Heydər Əliyev nəzarətsiz silahlı dəstələri, dövlətçiliyə təhlükə yaradan digər qüvvələri zərərsizləşdirərək, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində qətiyyətli mövqeyi ilə Azərbaycanı ağır faciələrdən xilas edə bilmişdir. İctimai və hüquqi sferada özbaşınalığa, qanunsuzluğa son qoymuş Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda atdığı addımlar, milli dövlətçilik ənənələrinə, beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları insan hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb olmuş, Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirmiş, sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik meyarların möhkəmlənməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına zəmin yaratmışdır.

Bütün bunların reallaşdırılmasında önəmli rol oynayan addımlardan biri də Heydər Əliyevin «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında» 9 avqust 1994-cü il tarixli fərmanı olmuşdur. Bu fərmanla cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyən olunmuş, onların işinin səmərəlik göstəricisi əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Fərmanın preambulasında qeyd olunurdu ki, son vaxtlar dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi kimi,

narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin çoxalması müşahidə olunur. Cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi cinayətlərin geniş yayılması xüsusi narahatlıq doğurur və bir sıra vətəndaşlar, o cümlədən vəzifəli şəxslər bu faktları adi bir hal hesab edirlər.

Bir çox hallarda cinayətlərin üstünün açılması üçün zəruri hərəkətləri hüquq-mühafizə orqanlarının lazımi çevikliklə, qanunla müəyyən edilmiş formalarda və vaxtında yerinə yetirməməsi, qanunun nəzərdə tutduğu məcburiyyət tədbirlərinin tətbiqində səhvlərə yol verməsi, öz səlahiyyətlərindən təsirli istifadə etməməsi əhalinin haqlı narazılığına və cəmiyyətdə gərginliyin artmasına səbəb olmuşdur. Respublikada cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi zəruriliyi ilə əsaslandırılan fərmanda aidiyyəti hüquq-mühafizə orqanlarının, o cümlədən, dövlət qurumlarının qarşısına bir sıra mühüm vəzifələr qoyulurdu.

Bu fərman hüquqi dövlətin yaradılması, qanunçuluğun bərpası istiqamətində ilk mühüm addımlardan biri idi. Cinayətkarlığa qarşı mübarizənin güclənməsi, kriminal ünsürlərin zərərsizləşdirilməsi ictimai asayişin daha etibarlı qorunmasına və cəmiyyətin təhlükəsiz yaşamasına, beləliklə də ölkədə demokratik, dünyəvi dəyərlərin bərqərar olmasına yol açırdı.

Ümumbəşəri dəyərlər əsasında cəmiyyət qurulması üçün başlanan islahatlar artıq Azərbaycanda qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin edən yeni milli konstitusiyanın qəbulunu da gündəmə gətirmişdi. Bunu düzgün qiymətləndirən Heydər Əliyev dövlətin təməlinin möhkəm siyasi-hüquqi əsaslar üzərində qurulması üçün ilk növbədə müstəqil Azərbaycanın ilk milli konstitusiyasının hazırlanaraq qəbulunu vacib saymışdı.

Bu konstitusiya yeni dövrün tələblərinə cavab verməli, inkişaf etmiş dövlətlərin təcrübəsini və milli maraqları, ölkənin özünəməxsus xüsusiyyətlərini, milli-mənəvi dəyərləri unikal formada özündə əks etdirən hüquqi sənəd olmalı idi.

Azərbaycanın yeni konstitusiyasının hazırlanması üçün hələ 1991-ci il fevralın 9-da keçmiş Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 74 nəfərdən ibarət komissiya yaradılsa da, bu istiqamətdə faktiki olaraq uzun müddət heç bir iş görülməmişdi. İctimai-siyasi sabitliyi bərpa etdikdən sonra 1995-ci il mayın 2-də Milli Məclisin iclasında Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Komissiyanın tərkibi sədr müavinindən və 32 üzvdən ibarət müəyyənləşdirildi. Görüləcək tarixi işin həcmi, əhəmiyyəti nəzərə alınmaqla, o cümlədən, ayrı-ayrı vətəndaşlar, təşkilatlar və dövlət orqanları tərəfindən daxil olan təkliflərin dərindən öyrənilməsi məqsədi ilə komissiyanın 1995-ci il 5 iyun tarixli qərarı ilə işçi qrupu yaradıldı və elə həmin gün Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyasının ilk iclası keçirildi.

Həmin iclasda çıxış edən ümummilli lider Heydər Əliyev konstitusiyanın xalqın və dövlətin taleyində müstəsna əhəmiyyətini nəzərə alaraq bildirirdi: *«Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır».*

Əsas Qanunun baza müddəaları, daha sonra isə onun layihə mətni ictimai müzakirəyə çıxarıldı, bir neçə ay ərzində mətbuatda bu mövzuda diskussiyalar getdi, ayrı-ayrı məsələlər, o cümlədən, Konstitusiyada dövlət dilinin adının (Azərbaycan dili) necə təsbit olunması ilə bağlı geniş mütəxəssis auditoriyasının

iştirakı ilə toplantılar keçirildi. Nüfuzlu hüquqşünasların, eləcə də cəmiyyətin görkəmli ictimai-siyasi və elm xadimlərinin daxil olduğu komissiya ulu öndərin rəhbərliyi altında gərgin işlədi. Konstitusiyanın hər bir müddəası ətrafında geniş müzakirələr, diskussiyalar aparıldı. Son olaraq referendum öncəsi bir daha toplanan Konstitusiya Komissiyası layihənin yekun variantını razılaşdıraraq onu referenduma çıxartdı.

Azərbaycan Respublikasının Əsas Qanununun qəbulu təkcə ölkədə yeni hüquqi bazanın yaradılması demək deyildi. Bu, mahiyyəti etibarı ilə Azərbaycanda müstəqil dövlət quruculuğu tarixində keyfiyyətcə yeni səhifənin açılmasını hədəfləyirdi. Çünki müstəqilliyin ilk illərindən siyasi çəkişmələr, hakimiyyət böhranı, qiyam və çevriliş cəhdləri ilə silkələnən Azərbaycan üçün yeni Konstitusiyanın qəbulu həm də çoxdan gözlənilən daxili sabitliyin bərqərar olması demək idi.

Cəmiyyətdə siyasi sabitliyin, ictimai sülhün, ümumi razılığın, hətta bəzi hallarda milli barışığın qarantı kimi Konstitusiyanın qəbulu dövlətin statusunu, fəaliyyət konsepsiyasını, gələcək prioritetlərini əks etdirərək, şəxsiyyət, cəmiyyət və dövlət arasında münasibətlərin sivil çərçivələrini müəyyənləşdirməli, cəmiyyət və dövlət quruluşunun əsaslarını, hakimiyyət orqanlarının təşkilini, insan hüquq və azadlıqlarının təminatı ilə bağlı mühüm məsələləri də nizama salmalı idi. Digər tərəfdən, Azərbaycanda sovet dövründən qalan qanunvericilik bazası, 1991-ci il oktyabrın 18-də qəbul olunan və keçid dövrü üçün nəzərdə tutulan Konstitusiya Aktı, daha sonra qəbul edilən konstitusion qanunlar, onlara edilmiş çoxsaylı əlavə və düzəlişlər hüquqi qarışıqlıq atmosferi yaradırdı. Təsadüfi deyil ki, bu müddətdə ölkədə baş verən dövlət çevrilişi cəhdləri də nəticə etibarı ilə Azərbaycanda sabit olmayan dövlət idarəçiliyini konstitusion çərçivədən çıxarmağı hədəfləyirdi. 1995-ci ilin martında sonuncu qiyam cəhdinin yatırılması Azərbaycanda qeyri-konstitusion yolla hakimiyyətə gəlmək cəhd-

lərinə birdəfəlik son qoymaqla yanaşı, sabit dövlət quruculuğu prosesini də dönməz etdi.

Əsas Qanunun hazırlanması üçün 6 ay sürən ictimai müzakirələrdən sonra 1995-ci ilin 12 noyabrında müstəqil Azərbaycanın ilk Konstitusiyasının referendum yolu ilə qəbulu Azərbaycanın yeni tarixinin ən mühüm hadisələrindən biri olmaqla, ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısındakı daha bir vacib xidmətlərindən sayılır. Konstitusiyanın hazırlanması zamanı isə Heydər Əliyev onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə məsuliyyətlə yanaşmışdı. Bununla əlaqədar ulu öndər bildirmişdi: *«Bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var ki, deyəm, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam. Onun bu gün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altına imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bəyan edirəm».*

Beləliklə, 1995-ci ildə Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq ümumxalq səsverməsi – referendum yolu ilə öz Konstitusiyasını qəbul etdi.

Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında BMT-nin 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini

dövlətin ali məqsədi kimi bəyan etmişdir. Konstitusiya bu deklarativ norma ilə kifayətlənməyərək, insan və vətəndaş hüquqlarını, azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə vəzifə olaraq qoymuşdur.

Demokratiya, dövlət suverenliyi, insan və vətəndaş hüquqlarının prioriteti kimi hamılıqla qəbul edilmiş dəyərlər Əsas Qanunun təməl prinsiplərini təşkil edir. Konstitusiyanın qəbulu cəmiyyət və dövlət həyatında demokratik dəyişikliklərə böyük yol açmış, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratmaqla həyatımızın bütün sahələrinin inkişafına təkan vermiş, xalqımızın tarixi ənənələrinə, milli və mədəni dəyərlərinə uyğun olan və eyni zamanda, ölkəmizdə müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım olmuşdur. Bu addım sadəcə yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyil, ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi idi.

Konstitusiyada qeyd olunurdu ki, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli sosial və iqtisadi qaydalar əsasında hər bir vətəndaşın layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə əsaslanaraq bütün dünya xalqları ilə dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq Azərbaycan xalqının ali məqsədləridir. Bununla bərabər, Konstitusiyada müasir sivil cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən və konstitusiya quruluşunun əsaslarını təşkil edən ideya və dəyərlər geniş şəkildə öz əksini tapmışdır və bunlar aşağıdakılardır: insan şəxsiyyətinə və ləyaqətinə hörmət; dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması vasitəsilə xalqın hakimiyyət funksiyalarının həyata keçirilməsində iştirakı;

insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; siyasi sistemdə plüralizmə təminat verilməsi; sosial ədalətə nail olmaq, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və s.

Konstitusiyanın ən yüksək və ali hüquqi qüvvəyə malik olan normaları bütün hüquqi tənzimləmə sisteminin əsasında durur, eyni zamanda, ictimai münasibətlərin inkişafında sabitlik, müəyyənlik amili kimi çıxış edir. Məhz Konstitusiyanın əsasında qanunvericilik sistemini təşkil edən normativ-hüquqi aktlar arasında ziddiyyətlər aradan qaldırılır, hüququn ayrı-ayrı sahələri formalaşır, o cümlədən, hüququn sabitliyinə və davamlı inkişafına əsas yaranır.

Əsas Qanun ictimai münasibətlər sistemində dövlətin roluna məhz müasir cəmiyyət tələblərindən yanaşaraq, dövlətin ali məqsədinin məhz insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi olduğunu müəyyənləşdirmişdir. Başqa sözlə, Konstitusiyamız dövlətin hər hansı abstrakt maraqlara deyil, məhz vətəndaşların mənafelərinə xidmət etdiyini ən yüksək səviyyədə bəyan edir.

Konstitusiyada sosial dövlət konsepsiyası geniş əksini tapmışdır. Belə ki, Konstitusiya iqtisadiyyatın azad inkişafına təminat verməklə yanaşı, xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsini, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalmağı vəzifə olaraq dövlətin üzərinə qoyur. Bu zaman vətəndaşla dövlət arasındakı mürəkkəb münasibətlər, sözsüz ki, hüquqi dövlət tələblərinə, yəni insan hüquqlarının üstünlüyünə və hüququn mütləq hakimiyyətinə tabe olmalıdır.

Müstəqil Azərbaycanın ilk milli Konstitusiyası əsasında hakimiyyətin yeganə mənbəyi kimi xalqın tanınması, ölkənin bütövlüyünün qorunması, hakimiyyətlərin bölünməsi prinsipinə ciddi riayət olunması, insan hüquq və azadlıqlarının dövlətin ali məqsədi kimi bəyan edilməsi, beynəlxalq hüququn milli qanunvericilik üzərində üstünlüyü kimi hüquqi

dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideyalar dayanmışdır. Öz müqəddəratını sərbəst və müstəqil həll etməyi və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi tanıyan Konstitusiya Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan etmişdir. Əsas Qanun ənənəvi hüquqi dövlət ideyalarını özündə ehtiva etməklə yanaşı, bu ideyaların inkişaf meyillərini də nəzərə almış, onları özünəməxsus milli dəyərlər və təsdiq olunmuş müasir yanaşmalarla zənginləşdirmişdir.

Konstitusiyamızın normaları həm də bəşəriyyətin uzun illər ərzində nail olduğu mütərəqqi dəyərləri özündə əks etdirir. İnsan hüquqlarının səmərəli müdafiəsinə yönəlmiş ümumi müddəaları ilə yanaşı, onun ən böyük fəsli olan – «Əsas insan və vətəndaş hüquqları və azadlıqları» fəslində müasir demokratik cəmiyyətdə təmin edilməsi zəruri olan bütün insan hüquqları və əsas azadlıqlar, onların reallaşdırılmasının ümumi mexanizmləri, həmçinin ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yol verilən hədləri təsbit edilmişdir. Ümumilikdə, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi fəlsəfəsində bir ali məqsəd – insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı məramı dayanır. İnsan şəxsiyyətinin toxunulmazlığı, onun həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmini, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Respublikası Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 5 bölmədən, 12 fəsil, 158 maddədən ibarət olan Azərbaycan Konstitusiyasının 48 maddəsinin və yaxud üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması ümummilli liderin yüksək daxili demokratizmini, insanpərvərliyini bir daha təsdiqləyir. Konstitusiyada əksini tapmış strateji məqsədlər ilk növbədə hüquqi islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri

etmişdir. İnsan hüquq və azadlıqlarının statusu və onlara yanaşmada müasir tendensiyalardan çıxış edən Konstitusiyamız həmin hüquq və azadlıqları dövlətin öz vətəndaşlarına verdiyi imtiyaz kimi deyil, hər kəsin doğulduğu andan malik olduğu ali dəyərlər kimi ifadə edir və onları toxunulmaz, pozulmaz və ayrılmaz elan edir, hamının məhkəmə və qanun qarşısında bərabərliyini tanıyır.

Azərbaycan Respublikasının konstitusiya layihəsini hazırlamış komissiyanın 1995-ci il noyabrın 24-də keçirilmiş iclasında dərin məzmunlu nitq söyləyən Heydər Əliyev demişdir: *«Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır. Xalqımız bu Konstitusiyanın müddəalarından istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir».*

Əsas Qanunun birinci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Konstitusiyanın 4-cü maddəsində vurğulanır ki, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. 6-cı maddədə göstərilir ki, Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Həmin maddənin 2-ci bəndində hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayət kimi xarakterizə olunmuşdur. Bu müddəalar ölkədə hakimiyyətin xalqa məxsus

olduğunu və demokratiyanın respublikanın yeganə inkişaf strategiyası kimi qəbul edildiyini göstərir.

Hüquqi dövlətin çox mühüm prinsipi kimi çıxış edən hakimiyyət bölgüsü Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsinin III hissəsində birbaşa göstərişlə təsbit olunmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasında qanunverici, icra və məhkəmə hakimiyyətlərinin səlahiyyətləri, hüquq və vəzifələri dəqiq müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası insan hüquqlarının qorunması məsələsinin dövlətin prioritet vəzifələrindən biri olduğunu təsbit etmişdir. Konstitusiyanın 12-ci maddəsinin I və II hissəsinə əsasən, insan və vətəndaş hüquqlarının təmin edilməsi dövlətin ali məqsədidir və bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Əsas hüquqlar, azadlıqlar və vəzifələr adlanan ikinci bölmədə 24-cü maddənin 1-ci bəndində isə qeyd olunur ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları vardır. Azərbaycan dövləti ölkə ərazisində yaşayan bütün vətəndaşların toxunulmazlıq hüququnu tanıyır və bu hüququn qorunmasına təminat verir. Şübhəsiz, bu azadlıqlar sərhədsiz deyildir – həmin maddənin 2-ci bəndində bildirilir ki, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də özündə ehtiva edir. Yəni hər bir vətəndaşın hüquq və azadlıqları digər vətəndaşın hüquq və azadlıqlarının başladığı yerdə qurtarır. Heç bir şəxsin öz toxunulmazlıq hüququndan istifadə edərək digərlərinin hüquqlarını pozmasına yol verilmir.

Əsas Qanunun 25-ci maddəsində isə hər bir şəxsin qanun və məhkəmə qarşısında bərabər olması prinsipi təsbit edilmişdir. Bu maddənin 2-ci bəndində göstərilir ki, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən,

əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər bir şəxsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Bununla yanaşı, Konstitusiyamız insan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmağı qəti şəkildə qadağan edir.

Demokratiyanı dövlət idarəçiliyi kimi qəbul edən dövlətlərdə hakimiyyətin təşkili və həyata keçirilməsinin ən ümumi və ən mühüm prinsipləri sırasında xalqın dövlət hakimiyyəti orqanlarını formalaşdırmaq məqsədi ilə öz seçki hüququndan istifadə etməsi prinsipi kəsb etdiyi əhəmiyyətə görə xüsusi önəm daşıyır. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ təsbit olunmuş, müstəqillik dövrünün önəmli hadisələrindən biri də seçki hüququnun daha etibarlı təmin edilməsi sahəsində həyata keçirilən islahatlarla bağlı olmuşdur.

Əsas Qanuna görə, hər bir şəxsin öz hüquqlarını və azadlıqlarını qanunla qadağan olunmayan vasitələrlə müdafiə etmək hüququ var və bununla bərabər, dövlət özü də bu hüquq və azadlıqların qorunmasına real təminat verir. Yəni Azərbaycan dövləti bütün vətəndaşlara münasibətdə məhz bu prinsipdən çıxış edir. Bu hüquq və azadlıqların əhatə dairəsi olduqca genişdir. İnsan hüquq və azadlıqları anlayışı yaşamaq hüququ, əmək hüququ, istirahət hüququ, tətil hüququ, sosial təminat hüququ, təhlükəsizlik hüququ, mənzil toxunulmazlığı hüququ, təhsil hüququ, milli mənsubiyyət hüququ, fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ və s. əhatə edir.

Əsas Qanunda vətəndaşların mülkiyyət hüququnun toxunulmazlığı prinsipi də öz əksini tapmışdır. 29-cu maddədə qeyd edilir ki, mülkiyyətin heç bir növünə üstünlük verilmir və o, qanunla qorunur. Vətəndaşların hər birinin mülkiyyətində daşınan və daşınmaz əmlak ola bilər. Mükiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarını nəzərdə tutur. Bununla yanaşı, 29-cu maddənin 4-cü bəndində qeyd edilir ki, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Konstitusiyada insanların əqli mülkiyyət hüququ da təsbit edilmişdir.

Şəxsi toxunulmazlıq hüququ Azərbaycan Respublikasının Konstitusiyasında əsas insan hüquqlarından biri kimi öz əksini tapmışdır. 32-ci maddədə qeyd olunur ki, hər kəsin şəxsi toxunulmazlıq, şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ var və qanunla nəzərdə tutulan hallardan başqa, heç bir vətəndaşın şəxsi həyatına müdaxilə edilə bilməz. Əsas Qanunumuza görə, öz razılığı olmadan heç kəsin şəxsi həyatı haqqında məlumat toplanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Bu müddəa insanların şəxsi toxunulmazlıq hüququnun ən vacib elementlərindən biridir. Azərbaycan dövləti bütün vətəndaşların bu hüququnun qorunmasına təminat verir və onların şəxsi həyatına müdaxilənin yolverilməz olduğunu bəyan edir.

Əsas Qanunumuz insanların mənzil toxunulmazlığı hüququnun dövlət tərəfindən qorunmasına da təminat verir. 33-cü maddədə qeyd olunur ki, məhkəmənin qərarı olmadan və qanunla müəyyən edilmiş hallardan başqa mənzildə yaşayanların iradəsi əleyhinə heç kəs mənzilə daxil ola bilməz. Belə hallara qarşı Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müvafiq cəza növləri müəyyənləşdirilmişdir.

Sosial təminat hüququ da Əsas Qanunda insan hüquqlarının vacib növlərindən biri kimi qeyd olunmuşdur. 38-ci maddədə göstərilir ki, hər kəsin sosial təminat hüququ var və ehtiyacı olanlara yardım etmək ilk növbədə onların ailə üzvlərinin borcudur. Azərbaycan dövləti bütün vətəndaşların sosial hüquqlarının qorunmasını da özünün ali vəzifələrindən biri kimi qiymətləndirir. 38-ci maddənin 3-cü bəndində göstərilir ki, hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir. Həmin maddənin 4-cü bəndində isə göstərilir ki, təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən olunur.

Azərbaycan Respublikası Konstitusiyası vətəndaşların təhsil hüququnun təmin olunması məsələsinə də xüsusi diqqət ayırır. 42-ci maddədə hər bir vətəndaşın təhsil almaq hüququnun olduğu göstərilir. Qeyd olunur ki, dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət olunur və maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir.

Demokratiyanı dövlət idarəçiliyi kimi qəbul edən dövlətlərdə hakimiyyətin təşkili və həyata keçirilməsinin ən ümumi və ən mühüm prinsipləri sırasında xalqın dövlət hakimiyyəti orqanlarını formalaşdırmaq məqsədi ilə seçki hüququndan istifadə etməsi prinsipial əhəmiyyət kəsb etdiyinə görə xüsusi önəm daşıyır. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ təsbit olunmuşdur.

Bununla yanaşı, digər hüquqların real həyata keçirilməsinin mühüm mexanizmlərindən biri kimi çıxış edən, eyni zamanda, ayrıca insan hüququ və ya təminatı kimi nəzərdə tutulan

«məhkəmə müdafiəsi hüququ» Əsas Qanunda kifayət qədər geniş mənada ifadə olunmuşdur: hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir (Konstitusiyanın 60-cı maddəsi). Bu təminat kifayət qədər geniş olmaqla, bir sıra beynəlxalq sənədlərdə «ədalətli məhkəmə baxışı hüququ» kimi əks olunan insan hüququnun bütün zəruri elementlərini ehtiva edir.

Hüquqi dövlətin Konstitusiya nəzarəti prinsipi Azərbaycan Respublikasının hüquqi dövlət quruculuğu yolunda öz uğurlu həllini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin təşkili və həll etdiyi məsələləri təsbit etmişdir.

Bir məsələni də qeyd etmək lazımdır ki, beynəlxalq standartlara cavab verən Əsas Qanunda dünya konstitusionalizminin aparıcı prinsipləri öz əksini tapmışdır. Təsadüfi deyildir ki, Konstitusiyanın 147-ci maddəsinə əsasən, bu sənəd Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Bununla yanaşı, Azərbaycan Respublikası Konstitusiyasının hətta inkişaf etmiş dövlətlərin konstitusiyaları ilə müqayisədə kifayət qədər mütərəqqi hesab edilə biləcək müddəalarından biri Konstitusiyada sadalanan insan və vətəndaş hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi ilə bağlıdır. Bu norma özündə insan hüquqlarının beynəlxalq standartlara uyğun tətbiqinə imkan verən mühüm prinsipi əks etdirir. Belə ki, qeyd olunan prinsip ölkəmizdə insan hüquq və azadlıqlarının hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında və insan hüquqlarına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulanlardan daha artıq məhdudlaşdırılmasına imkan vermir.

İnsan hüquqlarının ən yüksək səviyyədə təmin edilməsi baxımından Konstitusiyamızın 149-cu maddəsinin VII hissəsi də diqqətəlayiqdir. Belə ki, insan hüquqlarına həsr olunmuş əksər

beynəlxalq müqavilələrdə və inkişaf etmiş bir çox dövlətlərin konstitusiyalarında ayrı-ayrı şəxslərin yalnız cinayət və inzibati məsuliyyətini yüngülləşdirən normaların geriyə qüvvəsi müəyyən edilib. Əsas Qanunumuzun adıçəkilən norması isə fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ-hüquqi aktların qüvvəsini geriyə şamil edir. Sözsüz ki, bu məsələnin həlli zamanı digər şəxslərin hüquq və azadlıqlarının qorunması, konkret hüquq münasibətlərinin spesifikası da nəzərdən yayınmamalıdır.

Ölkə Konstitusiyasının 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir. Bu maddə Azərbaycan Konstitusiyasının liberallığını və demokratikliyini bir daha sübuta yetirməklə yanaşı, həm də ölkədə milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasına yaxşı imkanlar açmışdır.

Əsas Qanunda əksini tapmış insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının son illərdə tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilmişdir. Bu müddəa respublikamızın dünya birliyinə inteqrasiyasına geniş imkanlar açmaqla yanaşı, beynəlxalq hüquq normalarının, xüsusilə də insan hüquqlarına dair normaların ölkəmizdə maneəsiz tətbiqinə əlverişli şərait yaratmışdır.

Yuxarıda qeyd olunan mülahizələri ümumiləşdirərkən belə bir nəticəyə gəlmək olar ki, demokratik, hüquqi, sosial dövlət formulu Konstitusiyamızın, onun bütün institutlarının və maddələrinin özəyini təşkil edir. Ötən dövr ərzində cəmiyyətimizdə baş verən proseslərdə ölkə qanunvericiliyinin inkişafı üçün sabit əsasa çevrilən Konstitusiyanın əhəmiy-

yətli rolu olmuşdur. Əminliklə qeyd etmək olar ki, respublikamızın həyatının ən müxtəlif sahələrində aparılan irimiqyaslı islahatlar öz əsasını, mənbəyini 1995-ci il Konstitusiyasından götürmüşdür. Məhz Konstitusiya normalarında müəyyən edilmiş ümumi prinsip və istiqamətlər ölkəmizdə siyasi, hüquqi, iqtisadi və digər islahatların həyata keçirilməsinə, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli tətbiqini təmin edən fundamental normativ bazanın yaradılmasına səbəb olmuşdur.

Əsas Qanunda əksini tapmış mühüm amillərdən biri də xalqın hüquq və mənafeləri ilə bağlı hər bir məsələnin referendum yolu ilə həllinin nəzərdə tutulmasıdır və konkret olaraq 3-cü maddədə göstərilir ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulu və ona dəyişikliklər edilməsi, habelə Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi məsələləri yalnız ümumxalq səsverməsi – referendum yolu ilə həll oluna bilər.

Konstitusiyanın qeyri-müəyyən müddətdə qüvvədə olmasının nəzərdə tutulması onun məzmun sabitliyi ilə fərqlənən əsas normativ-hüquqi akt kimi səciyyələndirsə də, zaman keçdikcə müəyyən əlavə və dəyişikliklər etmək zərurəti yaranır. Bu mənada 2002-ci il avqustun 24-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə keçirilən konstitusion referendumun da başlıca məqsədi Konstitusiyada insan hüquq və azadlıqlarının sırasını genişləndirmək, habelə ölkənin siyasi və hüquqi sistemini təkmilləşdirmək məqsədi daşıyırdı. Sözügedən dəyişikliklər Azərbaycan Konstitusiyasının qəbul edildiyi 1995-ci ildən bu yana baş verən proseslərdən, hüquq və qanunvericilik sahəsində ortaya çıxmış yeniliklərdən irəli gələn zərurət idi və bu dəyişikliklərə ictimai zərurət vardı. Çünki Azərbaycanın bütün sahələrdə dinamik inkişaf etməsi, dövlətin iqtisadi siyasətində sosialyönümlü məsələlərin prioritetə çevrilməsi, habelə insan hüquq və azadlıqlarının maksimum müdafiəsinə

xidmət edən təkmil qanunvericilik bazasının formalaşması Konstitusiyaya zamanın tələbi ilə səsləşən bir sıra əlavə və dəyişikliklər edilməsini zərurətə çevirmişdi.

«Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında» referendum aktı layihəsinin hüquqi qüvvəyə minməsini təmin edən bu ümumxalq səsverməsi demokratik inkişaf istiqamətində mühüm addım olmaqla, respublikanın sivil Avropa dəyərlərinə sadiqliyini bir daha təsdiqləyəcəkdi.

Ümumiyyətlə, cəmiyyətin ümumi inkişaf səviyyəsinə və təkamül prosesinə uyğun olaraq dövlətin idarəetmə sisteminin əsasını təşkil edən mühüm qanunvericilik aktlarının təkmilləşdirilməsi də dövrün zəruri tələbi kimi ortaya çıxır. Konstitusiyada və digər qanunlarda zaman-zaman müəyyən dəyişikliklərin edilməsi, onların müasir tələblərə uyğunlaşdırılması bütün demokratik dövlətlər üçün qanunauyğun haldır. Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac da məhz bütün sahələrdə qabarıq nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Əsas Qanunun qəbulundan ötən 7 il müddətində ölkədə hüquqi islahatların aparılması və nəticədə yeni demokratik siyasi şəraitin formalaşması, eləcə də Azərbaycanın insan hüquqları sahəsində bir sıra mühüm konvensiyalara, beynəlxalq təşkilatlara qoşulması fonunda Prezident tərəfindən irəli sürülmüş dəyişikliklərin nə dərəcədə əsaslı olması gerçək təsdiqini tapırdı. Referendum aktı layihəsində təklif olunan yeni müddəalar Konstitusiyanın bir çox normalarının təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin olunmasına yönəlmişdi. Avropa Şurasına üzvlüklə əlaqədar yeni yaradılmış bəzi demokratik təsisatların başlıca fəaliyyət istiqamətləri, habelə təşkilatın tələblərindən irəli gələn yeniliklər ölkə Konstitusiyasında mütləq əksini tapmalı idi. Əsas Qanuna təklif olunan prinsipial dəyişikliklər proporsional seçki sisteminin ləğvini, fövqəladə hallarda prezi-

dent səlahiyyətlərinin Baş nazirə keçməsini, eləcə də prezident seçkilərinin nəticələrinin səs çoxluğu – «50+1 faiz» prinsipi ilə hesablanmasını nəzərdə tuturdu. Eyni zamanda, konstitusiya islahatları hökumətin Milli Məclis qarşısında hesabatla çıxış etməsi, siyasi partiyaların ləğvi səlahiyyətlərinin Konstitusiya Məhkəməsindən alınaraq ümumi yurisdiksiyalı məhkəmələrə verilməsi, alternativ hərbi xidmət növünün formalaşdırılması, respublika Prokurorluğunun və Ali Məhkəmənin qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyətinə malik olması, vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanının yaradılması kimi vacib məsələləri əhatə edirdi.

Proporsional seçki sisteminin ləğvinə bütün dünyada meylin artdığı bir zamanda Azərbaycanda siyasi partiyaların həddən artıq çoxluğu və onların parlamentdə yer qazanmaq imkanlarının məhdudluğu üzdə olan acı reallıq idi. Digər tərəfdən, majoritar və proporsional seçki sistemlərinin müqayisəli təhlili göstərir ki, vətəndaşların iradəsinin hansı formada ifadə olunması ölkədə parlament və ya prezident üsuli-idarəsinin tətbiqindən bilavasitə asılıdır. Majoritar seçki sistemi prezident üsuli-idarəli ölkələrdə daha geniş tətbiq olunur. Azərbaycan da məhz bu ölkələr sırasına daxildir və Prezidentin timsalında icraedici hakimiyyətlə qanunverici hakimiyyət arasındakı səlahiyyət bölgüsünun nisbəti təbii olaraq birincinin xeyrinə yüksək şəkildə ifadə olunur. Bu mənada Azərbaycanda qanunverici orqana seçkilərin sırf majoritar seçki sistemi əsasında keçirilməsi siyasi qanunauyğunluğun nəticəsi olmaqla, demokratik normalara, beynəlxalq təcrübəyə və siyasi nəzəriyyələrə qətiyyən zidd sayıla bilməzdi. Ən acınacaqlısı budur ki, vətəndaşlar bəzən istəmədikləri, yaxud tanımadıqları təsadüfi adamlara səs vermək məcburiyyətində qalır, iradələrini azad surətdə ifadə edə bilmirlər. Parlament seçkilərinin sırf majoritar sistem üzrə keçirilməsini nəzərdə

tutan konstitusion dəyişiklik də hansısa partiyanın deyil, sırf ölkə vətəndaşlarının mənafeyini özündə ehtiva edirdi.

Konstitusiya islahatlarının prinsipial istiqamətlərindən birini də fövqəladə hallarda prezident səlahiyyətlərinin Baş nazirə verilməsi təşkil edirdi. Məlumdur ki, həm prezident, həm də Baş nazir icraedici hakimiyyətin nümayəndələri olduğundan, birincinin hansısa səbəbdən öz vəzifəsini icra edə bilməməsi halında səlahiyyətlərin icraedici hakimiyyətin digər nümayəndəsinə verilməsi məntiqi və qanunauyğundur. Bu qanunauyğunluq həm də hakimiyyət bölgüsü haqqında nəzəriyyələrin diktə etdiyi tələblərdən irəli gəlir. Hakimiyyətin icraedici, qanunverici və məhkəmə orqanları arasında bərabər surətdə bölünməsi prinsipinin qorunub saxlanılması demokratik dövlətin əsas atributlarından hesab olunur. Lakin fövqəladə hallarda səlahiyyətlərin prezidentdən Milli Məclisin Sədrinə ötürülməsi barədə əvvəllər Konstitusiyada nəzərdə tutulmuş müddəa bu bölgü ilə ziddiyyət təşkil edirdi. Milli Məclis rəhbərinin həm qanunverici, həm də icraedici hakimiyyətin səlahiyyətlərini müvəqqəti də olsa öz əlində cəmləşdirməsi, istər-istəməz hakimiyyətin iki qanadı arasında tənzimləmə prosesini çətinləşdirirdi. Eləcə də Azərbaycan Konstitusiyasında hakimiyyət bölgüsü prinsipinin müvəqqəti olaraq qüvvədən düşməsi, yaxud dondurulması barədə heç bir müddəa yox idi. Bu baxımdan, fövqəladə hallarda prezident səlahiyyətlərinin baş nazirə keçməsi həmin prinsipin davamlı olaraq hüquqi qüvvədə olmasını təmin etdi. Digər prinsipial dəyişiklik isə Azərbaycanda prezident seçkilərinin nəticələrinin «50+1 faiz» prinsipi əsasında hesablanmasını nəzərdə tuturdu. 24 avqust referendumuna qədər ölkədə seçicilərin üçdə ikisinin, yaxud 67 faizinin səsini toplamış namizəd qalib elan olunurdu. Yeni prinsip isə hər bir namizədin xeyrinə olmaqla, seçkilərin demokratikliyinin daha yüksək səviyyədə təmin edilməsi istiqamətində atılmış ciddi addım idi.

Beləliklə, 24 avqust referendumunun nəticəsi kimi insan hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) İnstitutunun təşkili və fəaliyyəti ilə bağlı bir sıra mühüm müddəalar Konstitusiyada əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasına edilən yeni dəyişikliklərlə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququ verilmişdir.

Konstitusiya qanunu yalnız şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduğu halda müvəkkilin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu nəzərdə tuturdu. Konstitusiyaya dəyişikliklər edilməsi nəticəsində müvəkkilin bu sahədə səlahiyyətləri genişləndirilmişdir və insan hüquqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktları barədə müraciət etmək hüququ ilə yanaşı, bələdiyyə və məhkəmə aktları haqqında Konstitusiya Məhkəməsinə sorğu vermək hüququ müəyyən edilmişdir.

Konstitusiya qanununa əsasən, cari il bitdikdən sonra 2 aydan gec olmayaraq müvəkkil ölkədə insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının Prezidentinə illik məruzəni təqdim edir və həmin məruzə ilə parlament qarşısında çıxış edir. Bu məruzədə insan hüquqlarını pozan, müvəkkilin tələbləri ilə hesablaşmayan, dövlət və yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin adları çəkilir, bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir. Eyni zamanda, məruzədə insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələr öz əksini tapmalıdır.

Ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qa-

nunvericiliyin beynəlxalq, Avropa standartlarına uyğunlaşdırılması prosesinin məntiqi davamı kimi qəbul edilmiş «Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu da tənzim etdiyi məsələlərin dairəsinə görə çox mühüm əhəmiyyət kəsb edir. Qəbul edilmiş bu konstitusiya qanunu, əsasən, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiyaya uyğunlaşdırılması məqsədinə hesablanmışdır.

İlk dəfə 2002-ci ildə keçirilmiş konstitusiya islahatından ötən dövr ərzində isə respublikanın ictimai-siyasi həyatında özünü qabarıq göstərən fundamental dəyişikliklər – iqtisadi, siyasi, hüquqi islahatların dərinləşməsi, demokratikləşmə prosesinin sürətlənməsi, vətəndaş cəmiyyəti institutlarının, siyasi partiyaların sayının artması, qeyri-hökumət təşkilatlarının cəmiyyətdəki rolunun obyektiv dərk olunması və onların dövlət dəstəyi ilə əhatə olunması, Avratlantik məkana inteqrasiya prosesinin yüksək dinamizmlə davam etdirilməsi, ən əsası, sosial ehtiyacları əhəmiyyətli dərəcə ödənən ölkə vətəndaşlarının ictimai şüurunda demokratik proseslərin qaçılmazlığı fikrinin möhkəmlənməsi və digər pozitiv yeniliklər Azərbaycan Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklər edilməsini obyektiv tələbata çevirmişdi.

Son illərdə demokratik inkişaf sahəsində əldə edilən uğurlar Konstitusiyaya bir daha nəzər salmağı, onu daha da təkmilləşdirməyi vacib məsələyə çevirmişdi. İctimai münasibətlərin inkişafı, sosial, iqtisadi və siyasi şəraitin xarakterində pozitiv dəyişikliklərin baş verməsi Konstitusiyaya müvafiq dəyişiklik və əlavələr edilməsini zərurətə çevirir. Bu mənada 2009-cu il martın 18-də Konstitusiyaya yeni əlavə və dəyişikliklərə münasibəti öyrənən «Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında» Refe-

rendum Aktına da xüsusi toxunmaq lazım gəlir. Milli Məclisin qərarları və Konstitusiya Məhkəməsinin rəyi əsasında referenduma çıxarılmış yeni əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə seçilmişdir.

Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin mühüm bir qismi Azərbaycan dövlətinin insan və şəxsiyyət amilini yüksək tutaraq yeritdiyi sosialyönümlü siyasət strategiyasının daha dolğun, hərtərəfli ifadəsinə, vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsinə, dövlətin sosial məsuliyyətinin artırılmasına xidmət etmişdir. Məsələn, referenduma qədər olan mətndə Konstitusiyanın 12-ci maddəsində qeyd olunurdu ki, «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir». Referendum Aktı layihəsində isə bu maddənin «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir» formasında verilməsi nəzərdə tutulmuşur.

Bazar iqtisadiyyatı yolu ilə inamla irəliləyən Azərbaycan dövlətinin yeritdiyi siyasətin ana xəttində sosialyönümlü məsələlərin prioritet təşkil etməsi, «sosial dövlət» modelinə doğru inamlı addımların atılması Konstitusiyanın 15-ci maddəsinə təklif olunan dəyişiklik timsalında bir daha real təsdiqini tapmışdır. Belə ki, yeni mətndə həmin maddənin 2-ci hissəsində qeyd olunmuşdur ki, «Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir». Referendum Aktı layihəsində bu hissənin «Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad

sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir» formasında verilməsi haqlı olaraq daha məqsədəuyğun hesab edilmişdir.

Konstitusiyanın 17-ci maddəsinə təklif olumuş əlavələr də özünün humanist mahiyyəti ilə diqqəti cəlb edir. Referenduma qədər mövcud mətndə dövlətin uşaqların gələcəyi və himayəsi ilə bağlı üzərinə düşən vəzifələr müəyyən mənada ümumi şəkildə əksini tapmış olsa da, yeni dövrün bir sıra reallıqları Konstitusiyanın yurisdiksiyasından kənarda qalmışdır. 17-ci maddəyə təklif olunan birinci mühüm əlavəyə görə, «Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsi altındadırlar». Bu əlavə müxtəlif səbəblərdən valideyn himayəsindən məhrum olmuş uşaqların dövlətin hərtərəfli qayğısı ilə himayə olunmasına daha etibarlı, ciddi təminat yaratmış, dövlətin bu sahədə məsuliyyətini artırmışdır. İkinci əlavəyə görə, «Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır». Belə bir müddəanın Konstitusiyada konkret şəkildə təsbit olunması uşaq hüquqlarının dövlət tərəfindən daha etibarlı müdafiəsinə xidmət etməklə bu sahədə beynəlxalq konvensiya və sazişlərin də tələblərinə tam cavab verir. Təklif olunan üçüncü mühüm əlavədə göstərilmişdir ki, «15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər». Uşaq əməyinin getdikcə geniş yayıldığı, uşaqların fiziki istismara məruz qaldığı hazırkı şəraitdə belə bir müddəanın Konstitusiyada birmənalı təsbit olunması son dərəcə təqdirəlayiq hal kimi qiymətləndirilmişdir.

Konstitusiyaya əlavə və dəyişikliklərin digər qismi isə respublikamızın hazırkı inkişaf tempinə adekvat olaraq insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin daha da təkmilləşdirilməsinə xidmət etmişdir. 25-ci maddəyə təklif olunan əlavələr də hamının qanun qarşısında bərabərliyi prinsipinin daha dolğun, hərtərəfli ifadəsinə etibarlı hüquqi

zəmanət yaratmışdır. Referenduma qədər olan mətnə görə, «Hamı qanun və məhkəmə qarşısında bərabərdir; Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır; Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır». Bu maddəyə təklif olunan birinci mütərəqqi əlavəyə görə, «Heç kəsə yuxarıda göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və imtiyazların verilməsindən imtina oluna bilməz». Eləcə də digər əlavədə göstərilmişdir ki, «hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir». Azərbaycan demokratik dəyərlərin inkişafında prioritet kimi qəbul edən hüquqi və dünyəvi dövlət olduğundan hər iki əlavənin Konstitusiyada əksini tapması tamamilə məntiqidir.

Referendumda məhkəmə hakimiyyətinin daha səmərəli həyata keçirilməsinə xidmət edən bir sıra mühüm müddəalar da əksini tapmışdır. 125-ci maddəyə təklif edilən əlavəyə görə, «Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir». 129-cu maddəyə təklif olunan əlavələrə görə isə, «Məhkəmə qərarlarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur; Məhkəmə qərarı əsaslandırılmalı və sübuta yetirilmiş olmalıdır». Nəzərdə tutulan əlavə məhkəmə qərarlarının təsir gücünün və səmərəliyinin daha yüksək səviyyədə təminatına, məhkəmə qərarlarının icrası sahəsində bəzi problemli məqamların tamamilə aradan qaldırılmasına xidmət edir. Bundan başqa, 130-cu və 131-ci maddələrə təklif edilən

əlavələrlə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin və Ali Məhkəməsinin qərarlarının dərc edilməsi Konstitusiyada əksini tapmışdır.

Konstitusiyanın icra hakimiyyəti ilə bağlı hissəsinə təklif olunan əlavə və dəyişikliklər isə Azərbaycan dövlətinin hazırkı inkişafı, habelə iqtisadi və demokratik islahatlar mərhələsində xalqın yüksək təfəkkürü və formalaşmış müasir siyasi mədəniyyəti fonunda tamamilə aktual xarakter daşımışdır. Konstitusiyanın 101-ci maddəsinə təklif edilən əlavə və dəyişikliklər hər bir vətəndaşın seçki hüququnun daha etibarlı təminatına xidmət edilməsinə imkan vermişdir. Söhbət bir şəxsin iki dəfədən artıq prezident seçilməsinə qoyulan məhdudiyyətin aradan qaldırılmasından gedir. Ümumiyyətlə, prezidentlik müddətinin konkret müddəa ilə Konstitusiyada əksini tapması müasir dövrdə demokratik dəyər və ideallar, habelə insanların azad seçim hüququ baxımından o qədər də aktual səslənmir. Deputatlara və bələdiyyə üzvlərinə belə məhdudiyyət qoyulmadığı halda, xalqın daha böyük qisminin öz taleyini etibar etdiyi Prezident üçün belə yasağın nəzərdə tutulması demokratik dəyərlərlə bir araya sığmır.

Bundan başqa, 101-ci maddənin V hissəsinə təklif edilən əlavədə müharibə şəraitində yaşayan, torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan üçün bu, son dərəcə mühüm və aktual xarakter daşımışdır. Həmin maddənin V hissəsinin bu redaksiyada ifadə edilməsi təklif olunmuşdur: «Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir».

Bütün bunlar bir daha təsdiq etmişdir ki, Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər mütərəqqi xarakter daşımaqla, ölkədə qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına xidmət etmişdir. Konstitusiya Məhkəməsinin 2008-ci il dekabrın 24-də keçirilmiş iclasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Konstitusiyasında əlavələr və dəyişikliklər edilməsi haqqında təkliflərinə verilmiş yekun rəy də bunu bir daha təsdiqləyir: «Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında» Referendum Aktı layihəsinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə göndərilməsi barədə» Azərbaycan Respublikası Milli Məclisinin 2008-ci il 19 dekabr tarixli, 745-IIIQR saylı qərarı ilə təqdim olunmuş Referendum Aktı layihəsində göstərilən təkliflər xalq hakimiyyəti və dövlətin əsaslarına dair Azərbaycan Respublikasının Konstitusiyasının ümumi müddəaları ilə ziddiyyət yaratmadığından və 155-ci maddəsinin tələblərinə uyğun olduğundan ümumxalq səsverməsinə – referenduma çıxarıla bilər.

18 mart referendumuna çıxarılan məsələlərin xalq tərəfindən dəstəklənməsi isə onu göstərir ki, ötən 7 ilin nailiyyətlərini gündəlik həyatında hiss edən, respublikanın əldə etdiyi inanılmaz nəticələrlə qürur duyan orta statistik azərbaycanlı daha təminatlı gələcəyə, yüksək maddi-sosial rifaha, davamlı demokratikləşməyə aparan mövcud siyasi kursa qətiyyən alternativ görmür. Tamamilə azad, demokratik və şəffaf şəraitdə keçərək xalqın azad siyasi iradəsini ifadə edən ümumxalq referendumunun nəticələri həm də təsdiqləmişdir ki, Azərbaycan seçicisi Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişikliyin həm şəxsən özünün, həm də respublikanın gələcək taleyi baxımından əhəmiyyətini düzgün dəyərləndirir.

18 mart referendumunun nəticəsi olaraq Azərbaycan Respublikası Konstitusiyasına edilən əlavə və dəyişikliklər

mahiyyətcə dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının hüquqi təminatı məsələlərinin dəqiqləşdirilməsinə, habelə onların hüquqi çərçivəsinin, əhatə dairəsinin, hüdudlarının müəyyənləşdirilməsinə, ali hakimiyyət orqanlarının səlahiyyətlərinin konkretləşdirilərək məsuliyyətinin artırılmasına, yerli özünüidarə qurumlarının məsuliyyəti prinsiplərinin təsbit olunmasına yönəlmişdir. Referendumun nəticəsi olaraq Konstitusiyada əksini tapmış əlavə və dəyişikliklərə vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması və ətraf mühitin qorunmasından tutmuş mülkiyyətin geri alınması prinsiplərinin dəqiqləşdirilməsinə, şəxsi həyatın qorunmasına, dini etiqadların və əqidələrin sərbəst ifadə edilməsinə, cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqlarının qorunmasına, insanların fərdi və qrup şəklində hüquqlarının təminatına, məhkəmə hakimiyyəti üzərində ictimai nəzarətin gücləndirilməsinə, icra və qanunverici orqanların fəaliyyətinin daha səmərəli həyata keçirilməsinədək geniş spektrli əhəmiyyətli məsələlər daxildir.

Bu gün həm dövlət orqanları, həm də ictimaiyyət qarşısında duran əsas tələblərdən biri isə ölkə həyatını Konstitusiyanın tələblərinə uyğun qurmaq və onun tətbiqini, xüsusilə də ölkə ərazisində ali və birbaşa hüquqi qüvvəsini təmin etməkdən ibarətdir. Məhz Konstitusiya dəyərləri əsasında göstərilən fəaliyyət, ümumi mənafelərin həyata keçirilməsi üçün şəxsiyyət, cəmiyyət və dövlət arasında Konstitusiyanın müəyyən etdiyi çərçivələrdə birgə əməkdaşlıq Əsas Qanunun qarşıya qoyduğu məqsədlərin tam reallaşdırılmasına imkan verəcəkdir.

Ötən dövrdə Azərbaycanda genişmiqyaslı məhkəmə-hüquq islahatları həyata keçirilmiş, hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bu proseslərin davamı olaraq yeni qanunvericiliyə

müvafiq və nüfuzlu beynəlxalq təşkilatların iştirakı ilə hakim seçkiləri keçirilib, hakim korpusunun genişləndirilməsi və yeniləşdirilməsi prosesi uğurla həyata keçirilib və bu gün də davam etdirilməkdədir.

Konstitusiyanın hüquqi dövlət quruculuğu tendensiyalarının tələblərindən irəli gələrək ötən dövr ərzində bir sıra yeni institutlar, o cümlədən, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmış və fəaliyyətə başlamışdır. Məlum olduğu kimi, konstitusiya nəzarəti orqanları ayrı-ayrı dövlətlərin hüquq sistemində xüsusi mövqeyə, spesifik təyinata və funksiyalara malik olur. Təsadüfi deyil ki, konstitusiya nəzarəti orqanlarını obrazlı olaraq «hüquqi dövlətdə hakimiyyət qolları arasında arbitr» adlandırırlar. Xüsusilə ayrı-ayrı dövlət hakimiyyəti orqanları arasında yaranmış müxtəlif mübahisələri həll edərkən konstitusiya nəzarəti orqanları barışdırıcı orqan, konstitusiya quruluşunun qoruyucusu qismində çıxış edir.

Qanunvericilikdə Konstitusiya Məhkəməsinin əsas məqsədləri Konstitusiyanın aliliyinin təmin edilməsi və hər kəsin hüquq və azadlıqlarının müdafiəsi kimi müəyyənləşdirilmişdir. Məhkəmə müstəsna olaraq Konstitusiyanın və qanunların ona verdiyi səlahiyyətlər çərçivəsində qəbul etdiyi qərarlarla bu məqsədləri həyata keçirir və milli hüquq sisteminə töhfəsini verir.

1998-ci ildə yaradılmış Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı ilk dövrdən üzərinə düşən bu vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışmışdır. Konstitusiya Məhkəməsinin beynəlxalq hüquqa və xarici məhkəmə praktikasına böyük diqqət yetirdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının qoşulduğu beynəlxaq sazişlər, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin və Avropa konstitusiya nəzarəti orqanlarının qərarları mütəmadi olaraq öyrənilir və Konstitusiya Məhkəməsinin qərarlarında onlara istinad edilir.

Bundan əlavə, hər hansı hüquqi məsələyə operativ olaraq aydınlıq gətirilməsinə və xarici təcrübənin öyrənilməsinə ehtiyac yarandıqda, Konstitusiya Məhkəməsi Avropa Şurasının Venesiya Komissiyasının Avropa Konstitusiya məhkəmələri üçün yaratdığı operativ əlaqə vasitəsilə qısa müddət ərzində konkret hüquqi məsələlərlə bağlı digər ölkələrin konstitusiya nəzarəti orqanlarının məsləhət və rəylərini əldə edə bilir. Venesiya Komissiyasının bütün Avropa Konstitusiya məhkəmələri üçün ildə üç dəfə nəşr etdiyi bülletenlərdə Avropa Konstitusiya məhkəmələrinin, o cümlədən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları ingilis və fransız dillərində nəşr olunur. Eyni zamanda, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının digər dövlət orqanları ilə qarşılıqlı fəaliyyət göstərir və onlarla əməkdaşlığa böyük önəm verir.

Məhkəmə-hüquq islahatları istiqamətində aparılan kompleks tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin 1 dekabr 1998-ci il tarixli «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə» fərmanının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Həmin dövrdən ardıcıl surətdə aparılan məhkəmə islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin konseptual həlli olmuşdur.

«Məhkəmələr və hakimlər haqqında» qanunda hakim vəzifəsinə seçkilərin test üsulu ilə, şəffaf və obyektiv prosedur əsasında aparılması zəruri tələb kimi qarşıya qoyulmuşdur. Qanuna müvafiq olaraq hakimlərin test üsulu ilə seçilməsi

üçün ölkə Konstitusiyası ilə təsbit olunmuş hər üç hakimiyyət qolu ilə qarşılıqlı fəaliyyət göstərən yeni qurum – Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Şura hakim vəzifəsində çalışmaq üçün qanuni meyarlara cavab verən müstəqil namizədlərin test üsulu ilə – tamamilə obyektiv və ədalətli əsaslarla seçilməsi, peşəkar hakim korpusunun formalaşdırılması üçün bütün zəruri tədbirləri həyata keçirmiş, bu sahədə mövcud beynəlxalq təcrübə öyrənilmişdir.

Məhkəmələrin işinin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədi ilə hələ 2004-cü ilin dekabrında «Məhkəmə-Hüquq Şurası haqqında» qanun qəbul olunmuş, «Məhkəmələr və hakimlər haqqında» qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir. Həmin sənədlər məhkəmələrin fəaliyyətində nöqsan və qüsurların aradan qaldırılması, şəffaflığın təmin edilməsi baxımından zəruri tədbirlərin görülməsi üçün mükəmməl fəaliyyət proqramına çevrilmişdir.

19 yanvar 2006-cı il tarixdə Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bu məqsədlə «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» qanunun tətbiq edilməsi barədə fərman imzalayan Prezident İlham Əliyev məhkəmə hakimiyyətinin cəmiyyətdə nüfuzlu təsisat kimi təşəkkül tapmasında maraqlı olduğunu bir daha nümayiş etdirmişdir. Bu fərman məhkəmələrin fəaliyyəti ilə bağlı narahatlıq doğuran bəzi məqamların aradan qaldırılması baxımından əlahiddə əhəmiyyətli sənəd olmaqla, həm də regionların hazırkı sosial-iqtisadi inkişaf tempi ilə şərtlənmişdir. Burada məhkəmələrin maddi-texniki təchizatının yaxşılaşdırılması, onların yeni bina və zəruri inventar, habelə informasiya texnologiyaları ilə təminatı məsələləri də geniş əksini tapmışdır.

Fərmanın 6-cı bəndində Azərbaycan Respublikasının Ali Məhkəməsinə, o cümlədən, apelyasiya məhkəməsinə Avropa

presedent hüququnu öyrənmək və təcrübədə tətbiq etmək tövsiyə edilmişdir.

Bu fərmanla məhkəmə sisteminin müasirləşdirilməsinin növbəti mərhələsində əhalinin hüquq islahatlarına və hüquqi yardıma olan tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılığına səbəb olan sui-istifadə, süründürməçilik və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlər öz həllini tapmışdır.

Burada ən ümdə cəhətlərdən biri Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki şəhərlərində yeni apelyasiya məhkəmələri, Naxçıvan şəhərində Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi, eyni zamanda, 2 saylı Bakı Yerli İqtisad Məhkəməsi, Sumqayıt Yerli İqtisad Məhkəməsi və Şəki Yerli İqtisad Məhkəməsinin yaradılması idi. Fərmanın 3-cü bəndində Məhkəmə-Hüquq Şurasına tövsiyə edilirdi ki, apelyasiya məhkəmələri, yerli iqtisad məhkəmələri və müvafiq hərbi məhkəmələrin yurisdiksiyasının müəyyən edilməsi haqqında təkliflərini hazırlayıb Azərbaycan Prezidentinə təqdim etsinlər. Bütün bunlar isə ondan xəbər verirdi ki, məhkəmə-hüquq islahatları sahəsində qazanılmış uğurlar paytaxt və regionlar arasında tarazlı xarakter daşıyır, bütün respublika miqyasında özünü göstərirdi.

Bunun ardınca dövlət başçısının 17 avqust 2006-cı il tarixli «Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında» fərmanı da mühüm önəm daşımış və hakimlərin sayı 153 ştat vahidi artırılmış, məhkəmələrin ərazi yurisdiksiyaları müəyyən olunmuşdur. Beləliklə də məhkəmə-

lərə daxil olan işlərin qanunda nəzərdə tutulmuş vaxtda və keyfiyyətlə baxılması istiqamətində önəmli nailiyyətlər əldə edilmişdir. Həyata keçirilən bu tədbirlər, yaradılan mükəmməl qanunvericilik bazası ilə bərabər, bu gün hakimlərin yeni tələblərlə, demokratik prinsiplərə yüksək səviyyədə əməl etməklə seçilməsi də məhkəmələrin Avropa tələblərinə cavab verən prinsiplər əsasında fəaliyyət göstərməsini təmin edən mühüm faktorlardan biri kimi çıxış edir. Həmçinin məhkəmələrin fəaliyyətinin daha da yaxşılaşdırılması məqsədi ilə onların maddi-texniki bazasının müasir standartlara müvafiq olaraq hazırlanması, yeni inzibati binalarla, zəruri informasiya texnologiyaları ilə təmin olunması, digər bu qəbildən olan məsələlər də xüsusi diqqət mərkəzindədir.

Hüquqi islahatların uğurla həyata keçirilməsində, məhkəmə-hüquqi islahatlarının aparılmasında, müstəqil məhkəmə hakimiyyətinin formalaşmasında Azərbaycan ədliyyəsi böyük rol oynayır. Bu amili nəzərə alan cənab İlham Əliyev 18 aprel 2006-cı il tarixli sərəncamı ilə «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında» Əsasnaməni təsdiq etmişdir. Yeni əsasnaməyə uyğun olaraq nazirlik müvafiq məhkəmələrin fəaliyyətinin təşkilati təminatını həyata keçirir, məhkəmə qərarlarının icrasını təmin edir, penitensiar müəssisələrin fəaliyyətini təşkil edir, nəzarəti həyata keçirir və onlara metodoloji yardım göstərir, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirir, qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət işləri üzrə ibtidai istintaq aparır, hüquq sahələrinə dair elmi-tədqiqat işləri aparır və məhkəmə ekspertizalarının keçirilməsini təşkil edir. Lakin burada ən vacib məqam ondan ibarətdir ki, yeni əsasnamə ilə sözügedən nazirlik ədliyyə sahəsində vahid dövlət siyasətini və tənzimlənməsini həyata keçirən hüquq-mühafizə orqanı statusunu almış və onun fəaliyyət istiqamətləri genişlənmiş, konkret hüquq və vəzifələri müəyyən edilmişdir.

Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 26 may 2006-cı ildə «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» qanun qəbul edilmiş, daha sonra dövlət başçısı 17 avqust 2006-cı il tarixdə «Ədliyyə orqanlarının inkişafı haqqında» fərman imzalamışdır. Bu fərmanla Ədliyyə Nazirliyində edilən struktur dəyişiklikləri, ədliyyə orqanlarının fəaliyyətinin səmərəli olması üçün yaradılan yeni qurumlar islahatların keyfiyyətlə aparılmasına xidmət etmişdir. Fərmanda əsas məqsəd kimi vətəndaşların ədliyyə orqanlarına müraciət etmə imkanlarının asanlaşdırılması, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, məhkəmə ekspertizalarının keyfiyyətinin artırılması, hüquqi maarifləndirmənin və yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması, yüksək peşəkar mütəxəssislərin hazırlanması və digər istiqamətlər üzrə ədliyyə orqanlarının inkişafını təmin etmək qarşıya qoyulmuşdur.

Dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq islahatlarının daha da dərinləşdirilməsi, hüquqi təsisatların möhkəmləndirilməsi, beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi ədliyyə və məhkəmə orqanlarının işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsini, onun maddi-texniki bazasının modernləşdirilməsini şərtləndirməsi fonunda Prezident İlham Əliyevin 2009-cu il 6 fevral tarixli sərəncamı ilə təsdiq edilən «Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı» ədliyyə sahəsində daha sürətli inkişafı təmin etmək üçün əsas vəzifələri, istiqamətləri və yerinə yetirilməli olan tədbirləri müəyyən etmişdir.

Dövlət proqramının məqsədi Azərbaycan Respublikasında ədliyyə sahəsində dövlət siyasətinin daha uğurla həyata keçirilməsini, ölkədə aparılan məhkəmə-hüquq islahatlarının davam etdirilməsini, ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafını təmin etməkdən ibarətdir.

Proqramın giriş hissəsində qeyd edilmişdir ki, ölkədə hüquq sisteminin müasirləşdirilməsi, məhkəmə-hüquq islahatlarının davam etdirilməsi ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin son dövrün tələbləri səviyyəsində qurulmasını, ədalət mühakiməsinin səmərəliyinin artırılmasını, vətəndaşların məhkəmələrə və ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılmasını, regionlarda hüquq infrastrukturunun genişləndirilməsini, yeni nəsil hüquqşünaslarının formalaşdırılmasını, cəza-icra siyasətinin humanistləşdirilməsini zəruri edir ki, dövlət proqramının imzalanması da ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması, kadr potensialının, ədliyyə orqanlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədini daşıyır.

Prezident İlham Əliyev də daim məhkəmə sisteminin müasirləşdirilməsi işinin davamlı proses olduğunu da diqqətə çatdırmışdır: *«Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi işi sürətlə gedir. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə məhkəmə-hüquq islahatları aparılmağa başlamışdır. Bu işlər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır və bu gün uğurla davam etdirilir. Çünki məhkəmə-hüquq sisteminin təkmilləşməsi hər bir ölkənin inkişafında çox böyük əhəmiyyət kəsb edir. Hətta inkişaf etmiş ölkələrdə də bu proses daim gedir. Yəni bu prosesin əvvəli var, amma sonu yoxdur. Ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesi, təbii ki, məhkəmə-hüquq sisteminin islahatları ilə bərabər aparılmalıdır. Çünki bu amillər bir-birindən çox asılıdır».*

Hüquqi islahatlar çərçivəsində Prezident İlham Əliyev respublika Prokurorluğunun fəaliyyətinin daha səmərəli şəkildə təşkil olunması, müasir standartlara və müvafiq beynəlxalq konvensiyaların tələblərinə cavab verməsi məqsədi ilə də mühüm addımlar atmış, taleyüklü qərarlar qəbul etmişdir. Bununla bağlı cənab İlham Əliyevin tarixi əhəmiyyət daşıyan fərmanlarından biri 2004-cü ilin 28 oktyabrında Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsini təsdiq etməsi olmuşdur. Sözügedən idarənin yaradılması Milli Məclisin 13 yanvar 2004-cü ildə qəbul etdiyi «Korrupsiyaya qarşı mübarizə haqqında» qanunun tələblərindən irəli gələn halların, eləcə də dövlət başçısının «Korrupsiyaya qarşı mübarizə üzrə (2004-2006-cı illər) Dövlət Proqramı»nın icrasında mühüm rol oynamışdır. Məhz bu idarənin fəaliyyəti nəticəsində korrupsiyaya qarşı mübarizə sahəsində ciddi nəticələr əldə edilmiş, ölkəmizdə bu problemin həlli istiqamətində mühüm nailiyyətlərə imza atılmışdır.

Qısa müddətdə strukturlaşaraq fəaliyyətə başlayan bu qurum qısa dövrdə korrupsiyaya qarşı mübarizə sahəsində ciddi nəticələr əldə etmişdir. Bu idarənin yaradılması ilk növbədə prokurorluğun strukturunun keyfiyyətcə təkmilləşdirilməsinə yönəlmiş addım olmaqla yanaşı, dövlət başçısının prokurorluq orqanlarına yüksək inam və etimadını təcəssüm etdirmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi korrupsiya ilə bağlı cinayətlərin aşkarlanması, qarşısının alınması, nəticələrinin aradan qaldırılması, habelə vəzifəli şəxslərin fəaliyyətində qanuniliyin, şəffaflığın və səmərəliyin təmin edilməsində bu gün də mühüm rol oynayır.

Azərbaycan Prezidenti İlham Əliyevin «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə» 28 iyul 2007-ci il tarixli Fərmanı respublikamızda şəffaflığın təmin olunması və korrupsiyaya qarşı

mübarizə tədbirlərinin ardıcıl xarakter daşıdığını təsdiqləyir. Sənəddə məhkəmələrlə yanaşı, Azərbaycan Respublikası Prokurorluğu qarşısında da mühüm vəzifələr müəyyənləşdirilmişdir.

Zamanın axarına uyğun olaraq dövlət quruculuğu sahəsində davam etdirilən islahatlar və ölkəmizin cinayət hüquq sisteminin inkişafı demokratik cəmiyyətdə prokurorluğun rolunun artırılmasını və müasir dövrün tələblərinə uyğun işinin keyfiyyətcə yeni səviyyədə qurulmasını zəruri edir. Prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorlarının formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədi ilə Prezident İlham Əliyev 27 sentyabr 2008-ci il tarixdə Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramını təsdiq etmişdir.

Bununla yanaşı, Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində atılan ilk prinsipial addımlardan biri də 1993-cü ildən ölüm cəzasının tətbiqi üzərində moratoriumun qoyulması, 1998-ci ilin fevralında isə bu cəzanın tamamilə ləğv edilməsi olmuşdur. Şərqdə bu sahədə ilk addımı atan dövlət kimi xarakterizə olunan Azərbaycan Avropa Şurasının 1983-cü ildə qəbul etdiyi İnsan Hüquqlarına dair Konvensiyanın 6 saylı Protokolunda ölüm hökmünün yolverilməzliyinə tərəfdar çıxdığını nümayiş etdirmişdir. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyasında ölüm hökmü cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərilmiş və daimi cəza növü kimi nəzərdə tutulmamışdır. 1996-cı ilin mayında parlament Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsünü dəstəkləyərək yaşı 65-dən yuxarı olanların ölüm cəzasından azad olunması ilə bağlı qərar qəbul

etmiş, eyni zamanda, ölüm cəzasının tətbiqini nəzərdə tutan cinayətlərin sayı qanunvericilikdə 33-dən 12-yə endirilmişdir.

Ölüm hökmü tam ləğv olunmazdan əvvəl cəmiyyətdə geniş ictimai müzakirəyə çıxarılmış, Avropa Şurası ilə geniş məsləhətləşmələr aparılmışdır. Ulu öndər 1998-ci il fevralın 3-də Milli Məclisə ölüm hökmünün ləğvi ilə bağlı müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirmiş, bu tarixi bəyanatın zəruriliyini əsaslandırmışdır. Milli Məclis ölüm hökmünün ləğvi ilə bağlı ölkə Prezidentinin təklifini dəstəkləmiş, 10 fevral 1998-ci ildə belə bir tarixi qərar qəbul etmişdir. Yüksək bəşəri dəyərlərə, humanizm və insanpərvərlik prinsiplərinə əsaslanan bu qərar, eyni zamanda, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olmaq, sivil dəyərləri əxz etmək niyyətindən irəli gəlmişdir. Həmin vaxt hətta Avropa Şurasının üzvü olan bəzi dövlətlər belə bu addımı atmamışdılar. Bəzi iddiaların əksinə olaraq, ölüm hökmü cəzasının ləğvi tərbiyəvi məzmun kəsb edərək ağır və xüsusilə ağır cinayətlərin sayının azalmasına gətirib çıxarmışdır.

Prezident İlham Əliyevin başladığı hüquqi islahatlar Azərbaycan Respublikası Daxili İşlər Nazirliyini də ehtiva etmiş, bu dövlət təsisatının fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülmüşdür. Cənab İlham Əliyevin 30 iyun 2004-cü il tarixli «Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında», eləcə də «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturunda dəyişikliklər edilməsi haqqında» fərmanları buna əyani misal ola bilər. Sözügedən dövlət proqramında daxili işlər orqanları əməkdaşlarının sosial təminatının gücləndirilməsi, onların yaşayış və iş şəraitinin yaxşılaşdırılması, polisin fəaliyyəti və

rolu haqqında bilgilərin ictimaiyyətə təlqin olunması, daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və daim müasirləşdirilməsi kimi vacib məsələlər öz əksini tapmış, onların icrası uğurla həyata keçirilmişdir.

Bununla yanaşı, həyata keçirilən tədbirlər əsasında Daxili İşlər Nazirliyinin strukturunda yeni idarələr də yaradılmışdır. Onlara misal olaraq Daxili təhlükəsizlik, İnsan alverinə qarşı mübarizə, Miqrasiya, Korrupsiya cinayətləri üzrə əməliyyat-axtarış tədbirləri idarələrini göstərmək mümkündür. Eləcə də nazirliyin maddi-texniki bazasının yenilənməsi, xüsusi texniki avadanlıqlarla təchizi, avtomobil parkının genişləndirilməsi və müasirləşdirilməsi, Daxili Qoşunlar üçün xüsusi texniki vasitələrin alınması istiqamətində mühüm işlər görülmüşdür.

Aparılan hüquqi islahatlar, eləcə də insan hüquq və azadlıqlarının təmini istiqamətində Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli «Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında» sərəncamı müstəsna əhəmiyyət kəsb etmişdir. Sərəncamda bir daha vurğulanmışdır ki, Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Sərəncamın mühüm müddəalarından biri də milli qanunvericiliyin beynəlxalq hüquqi aktlara uyğun daha da təkmilləşdirilməsidir. Bu istiqamətdə islahatlara milli qanunvericiliyin əsası olan Konstitusiyadan başlanılması isə tamamilə məntiqəuyğun xarakter daşımışdır.

Beləliklə, hüquqi dövlət və vətəndaş cəmiyyətinin quruculuğu istiqamətlərində də mühüm nailiyyətlərin əldə olunduğu Azərbaycanda siyasi-hüquqi sistemin əsaslı şəkildə demokratikləşməsi həyata keçirilmiş, qeyd edilən sahələr üzrə Avropa tələblərinə uyğun mükəmməl baza yaradılmışdır.

# II FƏSİL

# Demokratiya yoluna sədaqət

## Xalqın azad seçim hüququnun reallaşdırılması

*«Azərbaycanda seçkilərin keçirilməsində artıq böyük təcrübə var və biz ən qabaqcıl təcrübəni öyrənirik, Azərbaycanda tətbiq edirik. Bütün işlər beynəlxalq standartlara uyğun şəkildə qurulubdur. Azərbaycanda seçkilərin keçirilməsi prosesi ildən-ilə daha da təkmilləşir, şəffaflıq tam şəkildə təmin edilir və insanlar azad, sərbəst şəkildə öz iradələrini ifadə edirlər».*

İlham ƏLİYEV

**Demokratiya sahəsində böyük inkişaf yolu keçmiş dövlətlərin təcrübəsi göstərir ki, sabit vətəndaş cəmiyyətinin, müstəqil dövlətin mütərəqqi inkişafı ilk növbədə demokratik seçkilərdən keçir. Siyasi nəzəriyyələrdə təsbit olunduğu kimi, seçkilər demokratik idarəetmənin mərkəzi institutu, vətəndaşların yaşadığı cəmiyyətin ictimai həyatında, dövlət işlərində iştirakının ən kütləvi formasıdır. Xalq dövlətin idarə edilməsində iştirak hüquqlarını əsas etibarı ilə demokratik seçkilər vasitəsilə reallaşdırır və bu zaman hakimiyyət də idarəedilənlərin razılığı ilə legitimliyini təmin edir. Bu razılığı hökumətin səlahiyyətinə çevirən ən başlıca mexanizm isə ilk növbədə azad, ədalətli və obyektiv seçkilərin təşkilidir. Demokratik seçkilərin əsas şərti hesabat vermək məsuliyyətindən əlavə, həm də aşkarlıq, şəffaflıq, obyektivlikdir. Seçkilərin bu meyarlar əsasında keçirilməsi siyasi mədəniyyətin, hüquq düşüncəsi və mədəniyyətinin formalaşması, xalqın ümumi iradəsinin milli maraqlar ətrafında birləşdirilməsi kimi çox mühüm amillərə meydan açır.**

## Demokratik seçki ənənələrinin formalaşması

Seçib-seçilmək istəyi insanlığın can atdığı ali siyasi dəyər olaraq ta qədimdən sivilizasiyanın müasir mərhələsinədək uzun yol gəlmiş, bəşəriyyətin demokratik hüquqi ideallar uğrunda mücadiləsinin ideya istiqamətinə, başlıca qayəsinə çevrilmişdir. Bəşəriyyətin insan haqları uğrunda tarixi mücadiləsinin, davamlı səylərinin əsas hədəflərindən biri də məhz seçki hüquqları əldə etmək olmuş, insanlar öz gələcək müqəddəratları baxımından bu məsələyə son dərəcə məsuliyyətlə yanaşmışlar. Eynən yaşamaq hüququ kimi, seçki hüquqları uğrunda mübarizədə də çoxlu qanlar tökülmüş, insanlar legitim hakimiyyət strukturları formalaşdırmaqla azad, firavan həyat tərzi əldə etməyə çalışmışlar. Yaranmış əlverişli tarixi şəraitdə gələcəyi baxımından xeyirli olanı seçən ayrı-ayrı xalqlar bununla həm də dünya miqyasında özünütəsdiq şansı qazanmış, etnos kimi nəyə qadir və layiq olduqlarını təcəssüm etdirmişlər.

Tale yolunu müstəqil şəkildə seçmək, gələcək müqəddəratını sərbəst şəkildə müəyyənləşdirmək əzmini qərinələr boyu sübuta yetirmiş azərbaycanlıların da milli düşüncəsində seçim anlayışı dərin mənəvi-psixoloji və sakral məzmuna malikdir. Yaxşını pisdən, ağı qaradan seçməyi yaxşı bacaran müdrik xalqımızın dünyagörüşündə xeyrin şər üzərində təntənəsi, ədalətli rəhbərə sahiblik arzusu da qırmızı xətlə keçir.

Azərbaycan insanının formal seçib-seçilmək imkanları qazanması hələ ötən əsrin əvvəllərinə təsadüf edir. Belə ki, hələ çar hakimiyyəti dövründə azərbaycanlılar Rusiya Dövlət Dumasına, o cümlədən şəhər sovetlərinə seçib-seçilmək hüquqlarından istifadə edirdilər. XX əsrin əvvəllərində çar Rusiyasında cərəyan edən ictimai-siyasi proseslər, imperiya daxilində bir araya gətirilmiş xalqların azadlıq uğrunda

mübarizəyə qalxması 1918-ci ilin mayında Azərbaycana öz istiqlaliyyətini elan etmək imkanı yaratmışdır. Nəticədə ölkə vətəndaşlarının, o cümlədən müsəlman Şərqində ilk dəfə olaraq qadınların seçki hüququ tanınmış, 1918-ci ilin dekabrında isə demokratik yolla ilk parlament formalaşdırılmışdır.

Müstəqillik yolunda ilk kövrək addımlarını atan AXC-nin 1920-ci ilin aprelində işğalından sonra Azərbaycan 70 il imperiya buxovları altında yaşamış, vətəndaşların sovet konstitusiyaları ilə təsbit olunmuş seçki hüquqları, əslində, formal səciyyə daşımışdır. Birpartiyalı totalitar rejim şəraitində seçkilər alternativsiz – xüsusi direktivlər əsasında, qeyri-demokratik şəraitdə keçmiş, xalqın iradəsini əks etdirməmişdir.

Azərbaycan xalqı ötən əsrin sonlarına doğru dövlət müstəqilliyinə qovuşduqdan sonra hüquqi, demokratik, dünyəvi inkişaf kursunu seçmiş, dünyanın sivil toplumu olaraq güvəndiyi, öz taleyini etibar etdiyi legitim siyasi hakimiyyəti məhz demokratik, azad, şəffaf seçkilər yolu ilə – müstəqil, azad iradə əsasında seçmək əzmini nümayiş etdirmişdir. 1991-ci ilin 18 oktyabrında qəbul olunmuş «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nda xalqın azad, demokratik seçki yolu ilə hakimiyyəti formalaşdırmaq hüququ bütün dünyaya bəyan olunmuşdur.

1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil respublikamızın ilk Konstitusiyasının 1-ci maddəsinə əsasən, Azərbaycanda dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Konstitusiyanın 2-ci maddəsində göstərilir ki, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Konstitusiyanın 4-cü maddəsinə əsasən, xalqın seçdiyi səlahiyyətli

nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Əsas Qanunun 56-cı maddəsinə əsasən, hər bir Azərbaycan Respublikası vətəndaşının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Azərbaycan Respublikasının vətəndaşları seçkilərdə və referendumda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra respublikamızda keçirilən hər seçki müstəqil Azərbaycan dövlətinin seçki təcrübəsində mühüm irəliləyişlərlə səciyyəvidir. 1993-cü ildən ölkəmizdə keçirilmiş iki referendum, dörd prezident, üç parlament, iki bələdiyyə seçkisi Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsi baxımından böyük uğurlarla yadda qalmış, bu sahədə qazandığımız nailiyyətlər əməkdaşlıq münasibətlərini getdikcə inkişaf etdirdiyimiz aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən rəğbətlə qarşılanmışdır. Ötən illərdə ölkədə keçirilmiş hər bir seçkinin əvvəlki ilə müqayisədə irəliyə doğru addım olduğunu beynəlxalq təşkilatların rəylərinin müqayisəli təhlili də birmənalı sübuta yetirir.

Azərbaycan dövləti tarixi təkamül yolu ilə qazanılan nailiyyətlərlə kifayətlənməmiş, ölkədə seçki təcrübəsinin demokratik standartlara uyğunlaşdırılması yönündə səyləri artırmış, beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini gücləndirmişdir. Ölkə iqtidarının siyasi iradəsilə 1997-ci ildən ölkədə müasir standartlara cavab verən seçki qanunvericiliyinin formalaşdırılması məqsədi ilə Azərbaycan hökuməti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu arasında qurulmuş fəal işbirliyinin müsbət nəticələri bu nöqteyi-nəzərdən diqqəti xüsusilə çəkir. Azərbaycan 2001-ci ilin

yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edildikdən sonra bu sahədə əməkdaşlıq hüdudları daha da genişlənmiş, ölkədə seçki qanunvericiliyinin təkmilləşdirilməsi işində Avropa Şurasının Venesiya Komissiyası da yüksək fəallıq göstərmişdir.

Azərbaycanda seçki qanunvericiliyinin unifikasiyası məqsədi ilə 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsinin qəbulu bu əməkdaşlığın uğurlu bəhrəsidir. Sənədin hazırlanması ilə bağlı ilk növbədə Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Beynəlxalq Seçki Sistemləri üzrə Fondla (IFES) sıx əməkdaşlıq münasibətləri qurulmuşdur. 2002-ci ilin ortalarından etibarən bu təşkilatlarla aparılan məsləhətləşmələrdən, alınan müsbət rəylərdən sonra Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə təqdim edilmişdir.

2002-ci ilin dekabrında Azərbaycan hökumətinin nümayəndələri, müxalifət nümayəndələri, beynəlxalq təşkilatların və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə ATƏT tərəfindən təşkil olunmuş «dəyirmi masa»larda Seçki Məcəlləsinin layihəsi ətrafında müzakirələr aparılmış, televiziya vasitəsilə yayımlanan bu tədbirlər nəticəsində ictimaiyyət Seçki Məcəlləsinin layihəsi ilə bağlı məlumatlar əldə etmişdir. Bütün təkmilləşdirmələrdən sonra Seçki Məcəlləsi 2003-cü ilin mayında Milli Məclisdə qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə qüvvəyə minmişdir. Beynəlxalq ekspertlərin birmənalı rəyinə əsasən, Seçki Məcəlləsi seçkilər sahəsində bütün qanunvericilik normalarını özündə əks etdirmiş, Avropa standartlarına uyğun tərtib olunmuşdur. Sənəd ölkədə prezident, parlament və bələdiyyə seçkilərinin, həmçinin referendumun keçirilmə qaydalarını müəyyənləşdirmişdir. Seçki Məcəlləsi eyni zamanda Mərkəzi Seçki Komissiyasının, eləcə də dairə və məntəqə seçki komis-

siyalarının təsisi və fəaliyyəti prinsiplərini də özündə əks etdirmişdir. Əvvəlki qanunlarla müqayisədə Seçki Məcəlləsi şəffaf və demokratik seçkilərin keçirilməsi üçün daha möhkəm hüquqi bazisin yaradılması, namizədlərin qeydiyyatı, seçkilərə hazırlıq və seçki komissiyalarının formalaşdırılması, fəaliyyətinin təşkili prinsip və mexanizmlərinin təkmilləşdirilməsinə imkan yaratmışdır.

Hələ 2003-cü il oktyabrın 15-də azad, demokratik və şəffaf şəraitdə keçirilmiş prezident seçkiləri Seçki Məcəlləsinin mütərəqqi və təkmil sənəd olduğunu tam təsdiqləmişdir. Azərbaycan Respublikası prezidentliyinə bütün namizədlərə öz seçki kampaniyalarını qanunamüvafiq şəkildə aparmaq üçün lazımi mühit və bərabər imkanlar yaradılmışdır. Bununla yanaşı, fəal seçki kampaniyasının aparılması, seçkilərə texniki hazırlığın yüksək səviyyədə təşkili, Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarının işi müsbət məqamlar kimi ATƏT, Avropa Şurası və ATƏT parlament assambleyalarından ibarət Beynəlxalq Seçki Müşahidəsi Missiyasının seçkilərə dair rəyində əksini tapmışdır. 15 oktyabr 2003-cü ildə Azərbaycanda keçirilmiş prezident seçkiləri xalqın demokratik seçiminin dönməzliyini və ölkədə demokratik islahatların davamlığına sadiqliyini bir daha sübut etmiş, demokratik cəmiyyət quruculuğunda mühüm irəliləyiş olmuşdur.

Seçki təcrübəsi təkmilləşən proses olduğundan sonrakı mərhələdə də Seçki Məcəlləsinə bir sıra dəyişikliklər edilməsi zərurəti yaranmışdır. 2005-ci ilin fevral, may və iyun aylarında Azərbaycan və Venesiya Komissiyası ekspertlərinin görüşlərində sənədə bir sıra dəyişikliklər edilməsi tövsiyə olunmuşdur. Azərbaycan Prezidentinin 2005-ci il 11 may tarixində imzaladığı «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» sərəncam da Seçki Məcəlləsinə yeni dövrün tələblərindən irəli gələn, demokratik seçimə

daha münbit zəmin yaradan bir sıra mütərəqqi dəyişikliklər edilməsini nəzərdə tutmuşdur. Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisə Seçki Məcəlləsinə əlavə və dəyişikliklər edilməsinə dair qanun layihəsi təqdim edilmiş, beynəlxalq təşkilatların təklifləri, o cümlədən Venesiya Komissiyasının irəli sürdüyü tövsiyələrin böyük əksəriyyəti həmin layihədə əksini tapmışdır. 2005-ci ilin may ayında Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə çıxarılmış, sənədin 43 müddəasında mütərəqqi dəyişikliklər edilmişdir.

«Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» sərəncamda seçki rəsmilərinin təlim kurslarından keçməsi məqsədi ilə müvafiq proqramların hazırlanması, bu sahədə bütün siyasi qüvvələrlə, beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlığın həyata keçirilməsi, seçki prosesinə qanunazidd olaraq müdaxilə edən mərkəzi və yerli icra hakimiyyəti orqanları rəhbərlərinin, digər dövlət məmurlarının hüquqi məsuliyyətə cəlb edilməsi, seçkilərdən sonra siyasi mənsubiyyətə görə vətəndaşların təqibinə yol verilməməsi, televiziya kanallarında deputatlığa namizədlərin bərabər əsaslarla təbliği və siyasi platformaların müzakirəsini təmin edən proqramların hazırlanması, deputatlığa bütün namizədlər üçün kütləvi informasiya vasitələrindən bərabər qaydada istifadə etmələri və onlar üçün bərabər təbliğ imkanlarının yaradılması, ixtisaslaşmış ictimai rəyçilər tərəfindən «exit-poll» prosesinin aparılması, vətəndaşların sərbəst toplaşmaq azadlığının təmini, seçici vəsiqələrinin çatdırılması, seçici siyahılarının dəqiq, dürüst tərtibi və açıq nümayiş etdirilməsi üçün zəruri tədbirlərin görülməsi kimi məsələlər əksini tapmışdır.

Sərəncamdan sonra seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliyinin artırılması, Seçki Məcəlləsinin müddəalarının seçkilərə hazırlıq dövründə və səsvermə günü tam və şərtsiz həyata keçirilməsi, vətəndaşla-

rın seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti 2005-ci il oktyabrın 25-də «Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında» növbəti sərəncam imzalamışdır. Sərəncamla Mərkəzi Seçki Komissiyasına seçici vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yaranmış problemləri nəzərə alaraq, seçicilərin səsvermə günü seçki bülletenlərini aldıqları zaman barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi qaydalarını hazırlamaq, seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasını təmin etmək tövsiyə olunmuşdur.

Müvafiq dövlət orqanlarına şəxsiyyəti təsdiq edən heç bir sənədi olmayan vətəndaşlara seçki gününədək şəxsiyyət vəsiqələrinin verilməsinin təmin edilməsi, «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq siyasi partiyalara, siyasi partiyaların bloklarına və deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə kütləvi tədbirlər və seçkiqabağı təşviqatın keçirilməsi üçün zəruri şəraitin yaradılması, seçki günü vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar Mərkəzi Seçki Komissiyasından daxil olan cinayət tərkibli olması ehtimal edilən məlumatların təcili araşdırılması və cinayət əməlləri törətməkdə təqsirli bilinən şəxslərin məsuliyyətə cəlb edilməsinin təmin olunması tapşırılmışdır.

Sərəncamla Milli Məclisə təklif edilmişdir ki, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının prezident, Milli Məclis və bələdiyyə seçkilərini müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin. Digər mühüm təklifə görə, Milli Məclis

seçici vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yaranmış problemlərlə bağlı səsvermə günü seçicilərin barmaqlarının gözə görünməyən mürəkkəblə işarələnməsi qaydalarına dair müvafiq təlimatı qısa müddətdə hazırlayıb Mərkəzi Seçki Komissiyasının müzakirəsinə çıxarmışdır. MSK-ya tövsiyə olunmuşdur ki, seçki komissiyalarına daxil olan seçki hüquqlarının pozulması haqqında şikayətlərə baxılma qaydaları haqqında təlimatı qısa müddətdə hazırlayıb təsdiq etsin; deputatlığa namizədlərin seçkiqabağı təşviqat kampaniyası zamanı yol verdikləri qanun pozuntularına dair qətiyyətli mövqe bildirsin, qanunla ona verilmiş inzibati tənbeh səlahiyyətlərindən tam və dönmədən istifadə etsin; məntəqə seçki komissiyalarında seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasını təmin etsin.

Sənəddə həmçinin «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq siyasi partiyalara, siyasi partiyaların bloklarına və deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə kütləvi tədbirlər və seçkiqabağı təşviqatın keçirilməsi üçün bütün zəruri şəraitin yaradılması barədə tapşırıq verilmişdir.

Görülmüş tədbirlərin nəticəsidir ki, 2005-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilər demokratikləşmə prosesini sürətləndirən bir çox pozitiv yeniliklərlə yadda qalmış, həmçinin beynəlxalq müşahidəçilər və təşkilatlar seçkilərin şəffaflığına, ədalətliyinə, demokratik prinsiplərə uyğun keçirilməsinə dair müsbət rəy vermişlər.

2005-ci ilin parlament seçkilərindən ötən 5 ildə Azərbaycanda ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində gedən islahatlar durmadan dərinləşmiş, cəmiyyət həyatının ən müxtəlif sahələrində proqressiv meyillər güc-

lənmiş, beynəlxalq aləmə sıx inteqrasiya təmin olunmuşdur. Bu isə vətəndaş hüquq və azadlıqlarını, o cümlədən seçki hüquqlarının daha etibarlı təminatını dövlətin mühüm vəzifəsi kimi aktuallaşdırmışdır. 2008-ci ilin may-iyun aylarında Azərbaycanın Seçki Məcəlləsinə edilmiş bir sıra mütərəqqi dəyişikliklər sənədin daha da təkmilləşdirilməsinə, 15 oktyabr 2008-ci il tarixli prezident seçkilərinin tamamilə azad, ədalətli və obyektiv keçirilməsinə, vətəndaşların seçki hüququnun etibarlı təminatına xidmət etmişdir.

Azərbaycanda demokratik inkişafın mühüm göstəricisi, «lakmus kağızı» sayılan seçki sisteminin hərtərəfli inkişaf etdirilib təkmilləşdirilməsi üçün 2008-ci ildə də bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Azərbaycan hakimiyyətinin Avropa Şurasının Venesiya Komissiyası ilə seçki qanunvericiliyinin təkmilləşdirilməsi məqsədi ilə apardığı uzunmüddətli işin yekun nəticəsi olaraq Milli Məclis bu il iyunun 2-də keçirilən iclasında «Seçki Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında» qanunu qəbul etmişdir. Həmin qanunla Seçki Məcəlləsinin 145 maddəsinə 91 əlavə və dəyişiklik edilmişdir.

Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ümumilikdə seçki institutlarının daha səmərəli fəaliyyət göstərməsinə, seçki prosesi ilə bağlı şikayətlərin daha çevik, operativ araşdırılmasına, seçici siyahılarının dəqiqləşdirilməsinə, seçkiləri müşahidə prosesinin asanlaşdırılmasına, seçkilərin daha şəffaf, demokratik şəraitdə keçirilməsinə, seçkilərin monitorinqi, namizədlərin təbliğat-təşviqat, vətəndaşların seçki hüququnun realizəsi imkanlarını yaxşılaşdırmağa xidmət etmişdir.

Seçki Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı qanun layihəsinə Avropa Şurasının Venesiya Komissiyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) da müsbət rəy vermişdir. Həmin təşkilatların birgə rəyində təklif olunan əlavə və dəyişikliklər ölkənin seçki qanunvericiliyinin

təkmilləşdirilməsi istiqamətində irəliyə doğru atılmış addım kimi dəyərləndirilmişdir.

Seçki Məcəlləsinə edilmiş mühüm dəyişikliklərdən biri də səmərəlik baxımından seçki kampaniyasının müddətinin 120 gündən 75 günə endirilməsi, habelə seçkiqabağı təbliğat-təşviqat müddətinin 28 gün müəyyənləşdirilməsi olmuşdur. Bu dəyişiklik seçki kampaniyasının daha çevik, operativ və keyfiyyətli təşkilinə xidmət etməklə bir sıra obyektiv reallıqlarla şərtlənmiş, dünyanın bir çox inkişaf etmiş demokratik dövlətlərinin təcrübəsinə əsaslanmışdır. Əhalisi və ərazisi o qədər də böyük olmayan Azərbaycan Respublikasında 4 ay müddətində davamlı kampaniya aparmaq seçkilərdə iştirak edən namizədlər üçün əlavə vaxt və maliyyə məsrəfi deməkdir. Bu müddətin 75 günə endirilməsi namizədlərin daha səmərəli, yığcam, yorucu xarakter daşımayan seçki kampaniyası aparması baxımından məqsədəuyğun sayılmışdır. Məlumat üçün qeyd etmək lazımdır ki, Gürcüstanın Seçki Məcəlləsində bu müddət 60 gün, Rumıniyanın «Prezident seçkiləri haqqında» qanununda 45 gün, Macarıstanın «Seçkilər proseduru haqqında» qanununda 72 gün, Rusiya və Qazaxıstan kimi ərazi və əhalisinə görə böyük dövlətlərdə isə cəmi 90 gün nəzərdə tutulmuşdur.

Digər mühüm dəyişiklik namizədlərin qeydə alınması üçün depozit sisteminin ləğvi ilə bağlı olmuş, habelə namizədin qeydə alınması üçün tələb olunan imzaların sayı 45 mindən 40 minə endirilmişdir. Venesiya Komissiyası və ATƏT DTİHB-in tövsiyəsinə əsasən, Seçki Məcəlləsinə seçkilərin gedişinə qanunsuz müdaxilənin qadağan edilməsini nəzərdə tutan bənd əlavə edilmiş, bu cür qanunsuzluğa yol verən dövlət məmurları və bələdiyyə işçiləri üçün hüquqi məsuliyyət normaları müəyyən olunmuşdur. Cinayət Məcəlləsində təsbit olunmuş bu müddəanın Seçki Məcəlləsində də əksini tapması seçkilərin gedişinə hər hansı qanunsuz müdaxilənin qarşısının alınması baxımından preventiv – çəkindirici addımdır.

Məcəlləyə vətəndaşların seçki hüquqlarının pozulması ilə bağlı şikayətlərin araşdırılması prosedurunu tənzimləyən bəzi əlavə müddəalar daxil edilmişdir. Seçki prosesi ilə bağlı daxil olmuş şikayətlərin ayrıca komissiya tərəfindən araşdırılmasını nəzərdə tutan dəyişiklik Venesiya Komissiyası və ATƏT DTİHB tərəfindən də müsbət qiymətləndirilmişdir.

Seçki Məcəlləsinə edilmiş daha bir dəyişikliklə dövlət büdcəsindən maliyyələşən televiziya, radio və qəzetlərdə namizədlərin ödənişli və ödənişsiz əsaslarla təbliğat aparması qadağan olunmuş, prezidentliyə namizədlərin seçki fondu 1 milyon manatdan 10 milyon manata, deputatlığa namizədlər üçünsə 85 min manatdan 500 min manata qədər artırılmışdır.

Mühüm dəyişikliklərdən biri də Mərkəzi Seçki Komissiyasına paralel seçki – «exit-poll» keçirmək istəyən təşkilatları akkreditasiyadan keçirmək səlahiyyətinin verilməsidir. Səslərin paralel sayılması prosedurunu həyata keçirən yerli və yaxud xarici qeyri-hökumət təşkilatlarının hansısa dövlət qurumunda deyil, müstəqil orqan olan MSK-da qeydiyyatdan keçməsi onların azad, ədalətli və obyektiv mövqeyini təmin edir, onları hakimiyyət strukturlarının təsir və nüfuz dairəsindən azad edir. Başqa bir dəyişikliyə əsasən, xüsusi rejimli hərbi hissələrdə seçki məntəqələri yalnız Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi hallarda yaradıla bilər (Dəyişikliklərdən əvvəl isə hərbi hissələrdə seçki məntəqələrinin yaradılması Müdafiə Nazirliyinə həvalə edilmişdi). Üstəlik, MSK belə bir qərarı səsvermə gününə ən azı 5 gün qalmış qəbul edə bilər.

Məcəlləyə edilmiş mühüm dəyişikliklərin bir qismi indiyəqədərki seçkilərdə problem kimi özünü göstərən seçici siyahıları ilə bağlı olmuşdur: əvvəlki seçkilərdən fərqli olaraq, adı seçici siyahısında olmayan vətəndaşların hüquqlarının məhkəmədə deyil, məhz məntəqə seçki komissiyalarında bərpa olunması nəzərdə tutulmuşdur. Son illərin təcrübəsi adı siyahıda olmayan vətəndaşlarla bağlı məsələnin məhkəmələrə həvalə

edilməsinin o qədər də ciddi səmərə vermədiyini göstərmişdir. Bu, həm vətəndaşlara problem yaratmış, həm də məhkəmələrin bir gün ərzində obyektiv araşdırma aparmaq imkanlarını məhdudlaşdırmışdır. Buna görə də qanunla vətəndaşların adlarının seçici siyahısına daxil edilməsi məsələsinin həlli məntəqə seçki komissiyalarına həvalə olunmuşdur.

Seçici siyahıları ilə bağlı digər mühüm dəyişiklik məntəqələrdə xüsusi lövhələrdə yerləşdirilən seçici siyahılarında vətəndaşların ev ünvanlarının konkret şəkildə göstərilməsini nəzərdə tutmuşdur. Beləliklə, seçicilərin ünvanlarının təkcə «Seçkilər» İnformasiya Mərkəzinin internet saytında deyil, həm də məlumat stendlərində birbaşa göstərilməsi nəzərdə tutulmuşdur.

Namizədlərin seçki təbliğatı ilə bağlı qaydalara da müəyyən dəyişikliklər edilmişdir. Prezidentliyə namizədlərə yalnız İctimai Televiziya və radioda pulsuz seçki təbliğatı ilə məşğul olmaq hüququ verilmişdir. Özəl telekanallarda ödənişli təbliğat kampaniyasının aparılması qaydaları isə «Reklam haqqında» qanunun müddəalarına uyğun olaraq həyata keçirilir.

Seçkiqabağı təşviqat materiallarının böyük şəhərlərdə yerləşən binalarda və müxtəlif obyektlərdə yerləşdirilməsi də qanunla qadağan edilmişdir. Bu dəyişiklik iri şəhərlərdə, xüsusilə də Bakıda seçkilərdən sonra binalara yapışdırılmış seçkiqabağı təşviqat materiallarının qopardılması üçün ayrılmalı olan xərclərin qarşısını almaq məqsədi güdür.

Seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi məsələsi də məcəllədə konkret müddəa ilə təsbit olunmuşdur. Xatırladaq ki, 2005-ci ilin parlament seçkilərində seçicilərin barmaqlarının gözə görünməyən şəffaf mürəkkəblə işarələnməsi Azərbaycan Prezidentinin 25 oktyabr 2008-ci il tarixli *«Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında»* sərəncamında ək-

sini tapmış tövsiyə əsasında həyata keçirilmişdir. Seçkilərin şəffaflığına maksimum təminat yaradan bu prosedurun Seçki Məcəlləsinə salınması son dərəcə mütərəqqi addımlardan biri kimi qeyd olunmalıdır.

Məcəlləyə edilmiş digər dəyişikliyə əsasən, seçkilərin ilkin nəticələrinin dərhal elan olunması nəzərdə tutulmuşdur. Bu, şəffaflığın təmini və prosesə müdaxilə imkanlarının heçə endirilməsi baxımından mühüm addımlardan biridir. Dəyişikliklərdən əvvəl isə nəticələrin ən geci 24 saat müddətinə açıqlanması nəzərdə tutulurdu.

Məcəllədə «Xarici dövlətlər qarşısında öhdəlikləri olan» ifadəsi açıqlanmış, bununla əlaqədar Konstitusiya Məhkəməsinin 2003-cü il 1 avqust tarixli qərarında verilən təfsir dəqiqləşdirilmiş, üstəlik, buraya zaman elementi (5 il) əlavə edilmişdir. Həmçinin qohumluq əlaqələrinə görə səlahiyyətlərinə müvəqqəti xitam verilmiş komissiya üzvlərinin səlahiyyətinin seçkilərin nəticələri rəsmən elan olunduqdan sonra bərpa olunması ilə bağlı müddəa Seçki Məcəlləsinə əlavə edilmiş, seçki komissiyalarının daimi əsasda fəaliyyət göstərməsinə mane ola biləcək məqam aradan qaldırılmışdır.

Məcəlləyə edilmiş mühüm bir dəyişikliyə görə, seçki bülletenləri üçün zərflərdən istifadə olunması praktikası aradan qalxmış, bu, bir tərəfdən şəffaflığın təminatı, digər tərəfdənsə səslərin sayılması zamanı vaxt itkisinin qarşısının alınması məqsədindən irəli gəlmişdir. Bu dəyişiklik, həmçinin səsvermə protokollarını sadələşdirməyə və səslərin təkrar hesablanmasını asanlaşdırmağa xidmət etmişdir.

Məcəlləyə edilmiş dəyişikliyə görə, daşınan seçki qutusu üzrə səslər hesablanarkən bülletenlərin ümumi sayı verilmiş ərizələrin sayından (bülleten alan seçicilərin ümumi sayından) çox olarsa, daşınan seçki qutusundakı bütün səslər məntəqə seçki komissiyasının qərarı ilə etibarsız sayılır.

Məcəllədə özünü göstərən bir sıra boşluqlar aradan qaldırılmış, istintaq zamanı barələrində həbs qətimkan tədbiri seçilən və ya inzibati qaydada saxlanılan vətəndaşların seçici siyahısına daxil edilməsi qaydası tənzimlənmişdir. Eyni zamanda, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin siyahılarının dəqiqləşdirilməsi qaydaları müəyyən olunmuşdur.

Məcəlləyə edilmiş dəyişikliyə əsasən, birmandatlı seçki dairəsində seçkilərin nəticəsi ləğv olunarsa, MSK-nın qərarı ilə bülletenlər yenidən sayıla bilər.

Seçki Məcəlləsinin müzakirəsi ərəfəsində müxalifət partiyaları, o cümlədən Avropa Şurası Venesiya Komissiyası, ATƏT DTİHB tərəfindən Mərkəzi Seçki Komissiyasının paritet əsasda formalaşdırılması ilə bağlı təkliflər irəli sürülsə də, hakimiyyət bu variantın praktikada reallaşdırılmasının qeyri-mümkünlüyünü konkret mülahizələrlə əsaslandırmışdır. Komissiyaların paritet əsasda formalaşdırılması Azərbaycan reallığında özünü doğrultmadığından və ölkədəki real siyasi qüvvələr spektrini əhatə etmədiyindən qəbul edilməmişdi. *Hakimiyyət hələ 2000-ci ildə keçirilmiş parlament seçkiləri ərəfəsində komissiyaların formalaşdırılması ilə bağlı məsələdə müxalifətə ciddi güzəştlərə getsə də, sonradan həmin qüvvələr bundan istifadə edərək iclaslarda iştirak etməmiş, nəticədə seçkilərin pozulması təhlükəsi yaranmışdı. Bəzi müxalifət partiyalarının MSK-nın fəaliyyətində yaratdığı böhranlı vəziyyəti aradan qaldırmaq üçün Milli Məclis seçki qanunvericiliyində yenidən dəyişiklik etmək məcburiyyətində qalmışdı.*

Seçki komissiyalarının paritet əsasda formalaşdırılması ilə bağlı təkliflərin reallaşacağı halda iki qütbə bölünmüş komissiyaların normal fəaliyyət göstərə bilməyəcəyi arqumenti Milli Məclis tərəfindən yenə də ciddi əsas kimi götürülmüşdür. Müzakirələr zamanı çoxluğun fikri belə

olmuşdur ki, paritet əsasda formalaşdırılan komissiyalarda konsensusun əldə edilməsi ehtimalı sıfırdır: uduzan tərəflər bununla razılaşmadıqları üçün komissiyaların hər hansı qərar qəbul etməsinə imkan verməyəcəklər. Digər tərəfdən, belə arqumentlər də səsləndirilmişdir ki, Azərbaycan seçiciləri təkcə iqtidar və müxalifətdən ibarət deyil – ölkə əhalisinin böyük bir hissəsi bitərəflərdən ibarətdir.

Seçkiqabağı mühitin demokratikliyinin təmin edilməsi baxımından Milli Məclisdə «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının Qanununa da bir sıra mütərəqqi dəyişiklik və əlavələr edilmişdir. Dəyişikliklər Avropa Şurası Venesiya Komissiyasının tövsiyələri əsasında hazırlanmış, yeni dövrün tələblərinə cavab vermişdir. Təklif olunan dəyişikliklərlə «Sərbəst toplaşmaq azadlığı haqqında» qanun beynəlxalq konvensiyalara maksimum dərəcədə uyğunlaşdırılmışdır. Qanuna əsasən, müvafiq dövlət orqanları sərbəst toplaşmaq azadlığı ilə bağlı məsələləri həll edərkən yerli qanunvericiliklə yanaşı, beynəlxalq standartları və Avropa İnsan Haqları Konvensiyasının 11-ci maddəsini nəzərə almalıdır. Qanundakı əsas yenilik kütləvi aksiyaların keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının icazə verməsinin nəzərdə tutulmasıdır.

Kütləvi aksiyaya icazə verilməməsi anlayışı ümumiyyətlə qanundan çıxarılmışdır. Yalnız beynəlxalq tədbirlərə hazırlıq ərəfəsində kütləvi aksiyaların keçirilməsi məhdudlaşdırıla bilər. Qanunda ziyarətgahlarda, ibadətgahlarda və qəbiristanlıqlarda tətbiq olunan sərbəst toplaşmaq azadlığı ilə bağlı qadağa aradan götürülmüşdür. Qeyd olunan yerlərdə aksiya keçirilərkən qanunun tələbləri pozularsa, toplantının keçirilməsi məhdudlaşdırıla bilər. Qanundakı digər yenilik isə xüsusi mülkiyyətlərin qarşısında kütləvi aksiyaların keçirilməsinə icazənin verilməsidir. Toy və yas mərasimlərinin siyasi xarakterli kütləvi aksiya kimi keçirilməsi isə qanunla qadağan olunmuşdur. Bundan əlavə, zəruri hallarda milli təh-

lükəsizlik və ictimai təhlükəsizlik mənafeləri üçün, iğtişaşların və cinayətlərin qarşısının alınması, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün kütləvi aksiyaların keçirilməsi məhdudlaşdırıla bilər.

Yeni variantda dövlət orqanlarının yerləşdiyi ərazinin 200 metr radiusunda kütləvi aksiya keçirilməsinə icazə verilmir. Dəyişikliklərdən əvvəl isə dövlət orqanlarının 300 metrlik radiusunda kütləvi aksiyanın keçirilməsinə icazə verilməməsi göstərilmişdi. Qanunda vətəndaşlara əks toplantı keçirmək hüququ da verilmişdir – müəyyən məsələ ilə bağlı aksiya keçirənlərin fikirləri ilə razılaşmayanlar eyni vaxtda və eyni yerdə əks toplantı keçirə bilərlər. Qarşıdurma ehtimalı mövcuddursa, müvafiq icra hakimiyyəti orqanı tərəfindən tərəflərə digər yerlər təklif edilməlidir. Əks toplantılar keçirilən zaman polis təhlükəsizliyi təmin etmək məqsədi ilə toplantı keçirilən yerdə olmalıdır. Qanundakı digər yeniliklərdən biri də Azərbaycanda yaşayan xarici ölkə vətəndaşlarına sərbəst toplaşmaq azadlığının verilməsi ilə bağlı olmuşdur.

Beləliklə, istər «Sərbəst toplaşmaq azadlığı haqqında» qanuna, istərsə də Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ümumilikdə pozitiv xarakter daşımış, seçki qanunvericiliyinin daha da demokratikləşməsini, beynəlxalq təcrübənin nəzərə alınaraq tətbiq olunmasını, seçki qanunvericiliyinin tətbiqi praktikasının yaxşılaşdırılmasını şərtləndirmişdir. Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər daha çox praktik xarakteri ilə diqqət çəkmiş, bu da, öz növbəsində, seçki administrasiyasının fəaliyyətinin daha yaxşı təşkil olunmasına, seçkilərin daha effektiv idarəsinə, şəffaflığın və hesabatlılıq standartlarının yüksəldilməsinə xidmət etmişdir. Bu əlavə və dəyişikliklər ümumilikdə Seçki Məcəlləsinə daha demokratik məzmun verilməsində çox böyük və əhəmiyyətli nailiyyət kimi qiymətləndirilə bilər.

Prezident seçkiləri ərəfəsində cəmiyyətdə möhkəm ictimai-siyasi sabitlik, əmin-amanlıq müşahidə edilmiş, ictimai təhlükəsizliyə təsir göstərə, onu poza biləcək hər hansı təsir, müdaxilə və meyillər baş verməmişdir. İqtidarda olan Yeni Azərbaycan Partiyasından fərqli olaraq, 2008-ci ilin əvvəllərindən radikal müxalifət partiyaları seçkidə iştirak edib-etməməklə bağlı ziddiyyətlərlə, kəskin fikir ayrılığı ilə müşahidə olunan müzakirələrə başlamışlar.

Seçki ərəfəsi, ənənəvi olaraq, ölkədə siyasi gərginlik yaratmağa çalışan radikal müxalifət partiyaları seçki ərəfəsində şəhərin mərkəzində aksiya keçirmək barədə qərar qəbul etmişlər. Bununla bağlı Bakı Şəhər İcra Hakimiyyətinə ünvanlanmış müraciətlər qanunamüvafiq olmadığından rədd edilmişdir. BŞİH «boykotçu» müxalifətin aksiya keçirməklə bağlı müraciətinə cavab olaraq onlara daha öncə hakim Yeni Azərbaycan Partiyasının aksiya keçirdiyi Bibiheybət meydanını göstərmiş, həmin meydanda mitinq keçirməyin məqsədəuyğunluğunu bildirmişdir. Həmin partiyalar isə BŞİH-in bu qərarı ilə razılaşmamış, aksiya keçirmək qərarından vaz keçmişlər. Bununla belə, radikal müxalifət seçkilərin gedişini müşahidə etmək niyyətində olduğunu bəyan etmiş, səsvermə günü prosesi izləmişlər.

Müxalifət düşərgəsinə aid konstruktiv mövqeli partiyalar isə prezident seçkilərində fəal mövqe nümayiş etdirməyə çalışmışlar. Seçkiyə öz namizədləri ilə qatılan partiyalarla yanaşı, öz namizədi olmayan müxalifət partiyaları da seçkiqabağı ərəfədə yüksək siyasi fəallıq nümayiş etdirmişlər. Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Liberal-Demokrat Partiyası, Ümid Partiyası, Yaşıllar Partiyası, Müasir Müsavat Partiyası prezident seçkilərində iştirak barədə qərar qəbul etmişlər. Seçkilərin birinci mərhələsində «Azadlıq» blokunda təmsil olunan Azərbaycan Xalq Cəbhəsi

Partiyası sədrinin müavini Qulamhüseyn Əlibəyli partiyadan istefa verərək müstəqil şəxs kimi prezidentliyə namizədliyini irəli sürmüşdür.

Müxalifətin seçkilərdə iştirakdan imtina qərarı seçki ərəfəsində ayrı-ayrı müxtəlif beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları tərəfindən düzgün olmayan addım kimi dəyərləndirilmişdir.

Prezident seçkilərinin ən mühüm yeniliklərindən biri də seçki məntəqələrində kameraların quraşdırılması olmuşdur. MSK-nın 2008-ci il 8 oktyabr tarixli qərarı ilə seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsinə dair qaydalar təsdiq edilmişdir. Bu qaydalar Seçki Məcəlləsinin 40.1 və 110-cu maddələrinə müvafiq olaraq hazırlanmış, Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumlarda) aşkarlıq institutunun daha geniş tətbiq edilməsi məsələlərini əhatə etmişdir. Seçki Məcəlləsinin 40.1-ci maddəsinə müvafiq olaraq, seçki prosesi aşkar olmalıdır. Səsvermə günü ictimaiyyət tərəfindən səsvermənin gedişinin izlənməsi yolu ilə aşkarlığın geniş tətbiq edilməsi, səsvermə prosesinə qanunsuz müdaxilələrin yol verilməməsi və seçkilərə ictimai inamın daha da artırılması məqsədi ilə seçki prosesində yeni texniki vasitə – veb-kamera tətbiq edilir. Məntəqə seçki komissiyaları üzvlərinin öz vəzifələrini lazımınca icra etmələri, onlar tərəfindən seçki sənədləri ilə işin aparılması, seçicilərə öz iradələrini heç bir qanunsuz təsir olmadan azad ifadə etmək üçün zəruri şəraitin yaradılması, seçicilər tərəfindən seçki bülletenlərinin seçki qutusuna salınması, səslərin sayılması, səsvermənin nəticələrinin müəyyən edilməsi və digər proseslər bu qurğu vasitəsilə müşahidə olunaraq seçki məntəqələrində seçkilərin qanunun tələbinə uyğun keçirilməsini nümayiş etdirir.

Seçki prosesində kameraların tətbiq edilməsi heç bir vəchlə seçkilər və referendum zamanı səsvermənin gizliliyinə xələl

gətirməməli, habelə seçicilərin iradəsinin ifadəsi üzərində hər cür nəzarəti istisna etməlidir. Kamera səsvermə günü, səsvermə kabinəsi istisna olmaqla, seçki məntəqəsinin içərisində gedən prosesləri müşahidə etmək və əldə edilən görüntüləri birbaşa Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) internet səhifəsində yerləşdirilməklə kütləvi şəkildə nümayiş etdirmək üçün nəzərdə tutulan müvafiq texniki qurğudur. Kameralar Mərkəzi Seçki Komissiyasının sifarişi ilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən quraşdırılır. Kameralar tələb olunan qaydada quraşdırılaraq yerləşdirilməli, səsvermə günü fasiləsiz fəaliyyət göstərməli, məlumatlar təhlükəsiz şəkildə əldə edilməli, ötürülməli və müəyyən olunmuş müddətdə saxlanılmalıdır. Kameraların tətbiqi və onunla bağlı digər məsələlər Mərkəzi Seçki Komissiyasının müvafiq qərarı ilə müəyyən edilir. Kameraların qanunauyğun tətbiqi və fəaliyyəti üzərində nəzarəti Mərkəzi Seçki Komissiyası həyata keçirir.

Azərbaycanda və ölkə hüdudlarından kənarda böyük maraqla izlənən 2008-ci ilin 15 oktyabr prezident seçkiləri kifayət qədər demokratik, azad, şəffaf şəraitdə keçməklə respublikamızın davamlı demokratik inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. 15 oktyabrda təxminən 4 milyon 800 min nəfər ölkə vətəndaşı seçki məntəqələrinə gedərək növbəti 5 il üçün seçimlərini etmişlər. Hakimiyyətin yüksək siyasi iradə nümayiş etdirərək seçkiqabağı mühitin demokratikliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi təşkilati-hüquqi tədbirlərin məntiqi yekunu olaraq səsvermə prosesi sakit, sərbəst, azad, ədalətli, demokratik şəraitdə keçmiş, seçicilərin yüksək fəallığı müşahidə edilmiş, ciddi saxtakarlıq faktı kimi dəyərləndiriləcək heç bir qanun pozuntusuna rast gəlinməmişdir. Səsvermə günü ciddi əhəmiyyət kəsb etməyən, texniki xarakterli, yekun nəticələrə təsir göstərməyən

bəzi xırda qüsurlara rəğmən, 15 oktyabr seçkilərinin beynəlxalq standartlara cavab verdiyi, demokratikləşmə yolunda mühüm irəliləyiş olduğu, ən başlıcası, xalqın iradəsini əks etdirdiyi beynəlxalq müşahidə missiyaları, habelə ayrı-ayrı yerli və xarici QHT-lər, mətbuat nümayəndələri tərəfindən də birmənalı etiraf olunur.

MSK-nın yüksək təşkilatçılığı ilə seçkilər Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə start götürmüş, prosesin gedişi barədə ictimaiyyətə, habelə yerli və xarici kütləvi informasiya vasitələrinə müntəzəm olaraq məlumatlar çatdırılmışdır. Bu informasiyaların operativ, obyektiv və şəffaf şəkildə əhaliyə çatdırılmasında əsas ağırlıq Avtomatlaşdırılmış «Seçkilər» İnformasiya Mərkəzinin üzərinə düşmüşdür. Xatırladaq ki, ulu öndər Heydər Əliyevin 2000-ci il 3 sentyabr tarixli «Azərbaycan Respublikasında Dövlət Avtomatlaşdırılmış «Seçkilər» İnformasiya Sisteminin yaradılması haqqında» sərəncamına əsasən, Azərbaycan Respublikasında seçki sisteminin təkmilləşdirilməsi, onun informasiya təminatının müasir tələblər səviyyəsində qurulması və seçki prosesində aşkarlığın və şəffaflığın təmin olunması məqsədi ilə Azərbaycan Respublikasında Dövlət Avtomatlaşdırılmış «Seçkilər» İnformasiya Sistemi yaradılmışdır. Sərəncamın 2-ci bəndində MSK-ya sistemin fəaliyyətini təşkil etmək üçün öz nəzdində İnformasiya Mərkəzi yaratmaq, sistemə aid tələbləri və ondan istifadə qaydalarını müəyyən etmək, həmçinin sistemin daxilində informasiya mübadiləsi və mühafizəni təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanları ilə birgə zəruri tədbirlər hazırlayıb həyata keçirmək tövsiyə edilmişdir. 2000-ci il noyabrın 2-də «Seçkilər» İnformasiya Mərkəzinin rəsmi açılışı olmuş, mərasimdə iştirak edən ulu öndər Heydər Əliyev mərkəzin iş rejimi ilə maraqlanmış, burada quraşdırılmış müasir avadanlıqlar və kompyuter texnikası ilə tanış olmuşdur.

## Seçki praktikası ildən-ilə təkmilləşir

Ötən illərdə «Seçkilər» İnformasiya Mərkəzi təcrübəsini artırmış, seçkidən-seçkiyə işini ən müasir metodlar çərçivəsində qurmuşdur. Mərkəz bütün seçkilərdə və referendumda fəal iştirak etmiş, vəzifələrinin öhdəsindən layiqincə gəlmişdir. Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin (DAİS) funksiyalarını Seçki Məcəlləsinə uyğun olaraq MSK müəyyənləşdirir. DAİS-in texniki baxımdan iş icraçılığını isə «Seçkilər» İnformasiya Mərkəzi yerinə yetirir. Seçki dövrü olmadığı müddətlərdə belə mərkəz daim fəaliyyət göstərmişdir.

Ötən seçkilərdə əsası qoyulmuş mütərəqqi ənənənin davamı kimi yerli və beynəlxalq kütləvi informasiya vasitələri əməkdaşlarının, beynəlxalq müşahidəçilərin mərkəzdə normal fəaliyyəti, informasiya əldə etməsi və ötürməsi üçün lazımi şərait yaradılmışdır. Mərkəzin qapıları istənilən jurnalist və müşahidəçi üçün açıq olmuş, onların rahat şəkildə seçkinin gedişini izləmələri, məlumat toplamaları üçün lazımi texniki imkanlar yaradılmışdır. Müşahidə zalındakı texniki avadanlıqlar isə son parlament seçkiləri zamanı quraşdırılmış avadanlıqlardan fərqlənmişdir. Divarda quraşdırılmış üç monitor vasitəsilə kompyuter arxasında əyləşmədən gün ərzində dairələr üzrə səsvermənin gedişini izləmək mümkün olmuşdur. Bundan başqa, jurnalistlər zalda quraşdırılmış ən müasir kompyuterlər vasitəsilə lazımi məlumatları əldə etmişlər. Kütləvi informasiya vasitələri nümayəndələrinin, müşahidəçilərin operativ şəkildə internet, telefon və ya faks vasitəsilə informasiya ötürməsi, o cümlədən televiziya kanalları əməkdaşlarının birbaşa efirə çıxmaları üçün hər cür şərait yaradılmışdır. Mərkəzin rəhbərliyi və əməkdaşları səsvermənin gedişini izləyən hər kəsin müraciətinə həssaslıqla yanaşmışlar.

Oktyabrın 15-dən 16-na keçən gecə saat 1.50-də MSK məntəqələrin 70 faizindən əldə olunmuş ilkin məlumatları açıqlamışdır. İlkin məlumatlara görə, seçkilərdə səsvermə hüququ olan əhalinin 75,64 faizi iştirak etmişdir. Seçkilərin nəticələrinə əsasən, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev 89,04 faiz səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Seçkilərdə məğlub olan namizədlər nəticələrlə razılaşdıqlarını bildirərək qələbə münasibətilə İlham Əliyevi təbrik etmişlər.

Seçkilərin demokratik keçirildiyini səsvermədə iştirak edən vətəndaşlar, namizədliyini irəli sürmüş siyasilər, prosesi müşahidə edən müşahidəçilər də təsdiq etmişlər. Seçkinin gedişini izləyən QHT koalisiyaları, «exit-poll» təşkilatları da prosesin kifayət qədər demokratik keçdiyini bəyan etmişlər.

Seçkinin gedişini yuxarıda adları qeyd olunan «ELS» Müstəqil Araşdırmalar Mərkəzi, Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) və «Rəy» Monitorinq Mərkəzi izləmişdir. Bu sırada «Seçki–2008», «Azad, şəffaf və ədalətli seçkilər» (AŞƏS) koalisiyaları da yer almışdır. Bütün QHT koalisiyalarının və «exit-poll» aparan birliklərin seçki günü yaydıqları hesabatlar prosesin kifayət qədər demokratik keçdiyini nümayiş etdirmişdir.

Oktyabrın 24-də isə Respublika Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir. Andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, ictimai təşkilatların, siyasi partiyaların nümayəndələri, xarici ölkələrin səfirləri iştirak etmişlər. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxışında bildirmişdir ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2008-ci il 22 oktyabr tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti seçkilərinə dair

Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içmişdir.

Andiçmə mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev geniş nitq söyləyərək ötən beş ildə qazanılmış uğurlar və qarşıda duran vəzifələr barədə danışmış, bundan sonra da vətənimizin uğurlu inkişafı, Azərbaycanın çiçəklənməsi, demokratik yolla inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini bəyan etmişdir.

Azad, ədalətli, şəffaf və sivil rəqabət şəraitində keçirilmiş 2010-cu ilin 7 noyabr parlament seçkiləri müstəqil Azərbaycanın demokratikləşməsi prosesində mühüm mərhələnin əsasını qoymuş, liberal dəyərlərə, demokratik norma və prinsiplərə səmimi sadiqliyini nümayiş etdirmişdir. Postkeçid mərhələsində olan respublikamız demokratik inkişaf yolunun dönməzliyini və əbədiliyini özü üçün tam yəqinləşdirmiş, xalqın, dövlətin perspektiv inkişaf strategiyasında bu mütərəqqi dəyərlərin rolunu və əhəmiyyətini bir daha önə çəkmişdir.

Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 2010-cu il tarixli sərəncamı ilə dördüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər 2010-cu il noyabrın 7-nə təyin olunmuşdur. Bununla əlaqədar Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planını hazırlamış və təsdiq etmişdir. Seçki prosesi məhz bu təqvim planına uyğun aparılmış və hansısa ciddi problem müşahidə olunmamışdır.

Hakimiyyətin yüksək siyasi iradə nümayiş etdirərək seçkiqabağı mühitin demokratikliyinin təmin edilməsi istiqamətində

həyata keçirdiyi təşkilati-hüquqi tədbirlərin məntiqi yekunu olaraq səsvermə prosesinin tamamilə sakit, sərbəst, ədalətli, demokratik keçməsi baş tutmuşdur. Ölkədə seçki qanunvericiliyinin təkmilləşdirilməsi, seçkiqabağı mühitin demokratikləşdirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər beynəlxalq müşahidəçilər tərəfindən də müsbət dəyərləndirilmişdir. Seçki kampaniyasının bütün mərhələlərini diqqətlə izləyən müxtəlif dövlətlər, o cümlədən demokratik institutların təmsilçiləri Azərbaycanda 7 noyabr seçkilərinin azad və demokratik şəraitdə keçirildiyini bəyan etmişlər.

Seçkiqabağı mühitlə tanışlıq məqsədi ilə Azərbaycana səfərlər edən müxtəlif beynəlxalq təşkilatların təmsilçiləri prosesin Seçki Məcəlləsinin tələblərinə müvafiq şəkildə keçirildiyini, ciddi qanun pozuntularına yol verilmədiyini açıq bildirmişlər. Belə ki, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) seçkiqabağı missiyası Azərbaycanda parlament seçkilərinə hazırlıq işlərinin sakit şəraitdə aparıldığını bəyan etmişdir. Missiya onu da açıqlamışdır ki, yeni seçki kampaniyası beş il bundan əvvəl keçirilmiş seçki kampaniyasından müsbət mənada fərqlənir və seçkilərə hazırlıq yüksək səviyyədə təşkil edilmişdir. AŞ PA missiyası ötən seçkilərlə müqayisədə bu seçkilərdə müxalif siyasi partiyaların fəal iştirakını xüsusi qeyd edərək, bunu Azərbaycanda demokratiyanın inkişafı kimi dəyərləndirmiş, eləcə də qeyri-hökumət təşkilatlarına yaradılan şəraiti təqdir etmişdir.

Parlament seçkilərinin gedişini müşahidə edən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun müşahidə missiyası da seçkiqabağı mühitlə bağlı iki aralıq hesabat açıqlamışdır. Müşahidə missiyasının ikinci hesabatında göstərilmişdir ki, Azərbaycanda seçkilərə hazırlıq prosesi fəal şəkildə davam etdirilmiş, Mərkəzi Seçki Komissiyasının iclasları KİV nümayəndələri və müşahidəçilər üçün açıq olmuş-

dur. MSK seçicilər, seçki qurumları və polis əməkdaşları üçün maarifləndirmə işlərini davam etdirmiş, həmçinin seçici siyahılarının təkmilləşdirilməsi istiqamətində ciddi səylər göstərmişdir. Seçicilərə siyahıda özləri ilə bağlı yanlış məlumatları düzəltmək imkanı yaradılmışdır. Hesabatda həmçinin qeyd edilmişdir ki, oktyabrın 25-dən başlayaraq MSK quruma daxil olan 224 şikayəti araşdırmış, 42 şikayəti təmin etmişdir.

Azərbaycanın mövcud seçki qanunvericiliyinin azad, ədalətli və demokratik seçkilərin keçirilməsi baxımından təkmil sənəd olduğu da etiraf edilmişdir. Qüvvədə olan Seçki Məcəlləsinə indiyədək edilmiş dəyişikliklər zamanı Avropa Şurası Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, IFES, eləcə də seçki üzrə ixtisaslaşmış digər mötəbər beynəlxalq təşkilatlardan müsbət rəy alınmışdır. Milli Məclis 2010-cu ilin iyun ayında «Seçki Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında» qanun layihəsini qəbul etmişdir. Məcəlləyə edilən bu və digər dəyişikliklər təkcə beynəlxalq təşkilatların tövsiyəsi ilə deyil, həm də seçki praktikasına əsaslanaraq hazırlanmış və qəbul edilmişdir. Təkliflər hazırlanarkən Azərbaycanda gedən demokratik inkişaf prosesi, ötən seçkilərin təcrübəsi və daim yeniləşən beynəlxalq standartlar nəzərə alınmışdır.

Seçki Məcəlləsi daim təkmilləşməyə ehtiyacı olan qanunvericilik sənədidir. Bu mənada məcəllə qəbul ediləndən sonra ona müəyyən əlavələrin və dəyişikliklərin edilməsi dövrün tələbi olmaqla yanaşı, respublikada ümumi prinsiplər baxımından dünyada qəbul edilmiş modelə uyğun seçkilərin keçirilməsinin daim diqqət mərkəzində olmasından xəbər verir. 2010-cu ilin iyununda Yeni Azərbaycan Partiyasının Milli Məclisdə təmsil olunan deputatlarının təklifi ilə respublikamızda seçki praktikasının daha da təkmilləşdirilməsi, bey-

nəlxalq standartlara uyğunlaşdırma və qabaqcıl dünya təcrübəsinin tətbiq olunması üçün Seçki Məcəlləsinə bir sıra əlavələr və dəyişikliklər edilmişdir. Bunlardan biri seçki kampaniyasının 75 gündən 60 günə endirilməsidir. Bu təklifdə məqsəd seçki praktikasının daha da təkmilləşdirilməsi olmuşdur. Həmin dəyişikliklərə qədər Azərbaycanda seçki kampaniyası 75 gün davam edirdi. Amma son illərdə qazanılmış təcrübə və hazırlıq səviyyəsi seçki kampaniyasını digər ölkələrdə olduğu kimi, daha demokratik şəkildə keçirməyə, resurslardan daha səmərəli istifadə etməyə imkan verirdi. Bütün bunlar isə göstərmişdir ki, Azərbaycan da əksər ölkələr kimi, seçki kampaniyasını iki ay müddətində keçirməyə tamamilə hazırdır.

Digər mühüm dəyişiklik seçkilərə qoşulmuş vətəndaşlara və partiyalara MSK tərəfindən ayrılan vəsaitin ləğv edilməsidir. Heç bir ölkədə seçkiyə qoşulmuş namizədlərə dövlət tərəfindən vəsait ayrılmır. Əksinə, seçkiyə qoşulmaq niyyətinə düşən insanlar da, partiyalar da seçkinin keçirilməsi üçün lazım olan vəsaitləri ya özləri birbaşa hesablarına ayırırlar, ya da onları dəstəkləyən seçicilərin yardımı nəticəsində fond formalaşdırırlar. Həm də indiyədək keçirilmiş seçkilər namizədlərə vəsait ayrılmasının neqativ tərəflərini üzə çıxarmışdı. Bu da ondan ibarət idi ki, bəzi vətəndaşlar seçkiyə yalnız dövlət tərəfindən ayrılan vəsaiti əldə etmək niyyəti ilə qoşulurdular. Onların seçki kampaniyasında iştirakı namizədliklərini qeyd etdirib dövlət tərəfindən ayrılan vəsaiti alana qədər davam edirdi. Seçki kampaniyasının digər hissəsində isə bu namizədlərin hər hansı seçki hərəkəti müşahidə olunmurdu. Azərbaycanın seçki praktikasını beynəlxalq təcrübəyə yaxınlaşdırmaq məqsədi ilə namizədlərə vəsaitlərin ayrılmasının ləğv edilməsi təqdirəlayiq hal idi.

Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən, ölkə ərazisində daimi fəaliyyət göstərən dairə seçki komissiyalarının iş şəraiti və maddi-texniki vəziyyətinin öyrənilməsi məqsədi ilə Mərkəzi Seçki Komissiyası hələ 2010-cu ilin əvvəllərindən monitorinqlərə başlamış, 125 dairə seçki komissiyasının fəaliyyətini yoxlamışdır. Monitorinq zamanı dairə seçki komissiyalarının kargüzarlıq işlərindən tutmuş onların yerləşdiyi binada mövcud olan iş şəraitinədək bütün müvafiq məsələlər nəzərdən keçirilmişdir. Dairə seçki komissiyalarının iş şəraiti yaxşılaşdırılmış, yüksək standartlara cavab verən yeni inzibati binalar inşa olunmuş, digər dairə seçki komissiyalarının yerləşdiyi binalarda təmir və yenidənqurma işləri aparılmışdır. Bütün dairə seçki komissiyaları, həmçinin yeni kompyuter avadanlığı da daxil olmaqla, zəruri ofis ləvazimatı ilə təchiz edilmişdir. MSK-nın yeni binasının açılışında Prezident İlham Əliyev də iştirak etmiş, seçkilərin demokratikliyinin təmin edilməsi ilə bağlı görülən işləri təqdir edərək demişdir: *«Azərbaycanda seçkilərin keçirilməsində artıq böyük təcrübə var və biz ən qabaqcıl təcrübəni öyrənirik, Azərbaycanda tətbiq edirik. Bütün işlər beynəlxalq standartlara uyğun şəkildə qurulubdur. Azərbaycanda seçkilərin keçirilməsi prosesi ildən-ilə daha da təkmilləşir, şəffaflıq tam şəkildə təmin edilir və insanlar azad, sərbəst şəkildə öz iradələrini ifadə edirlər».*

Seçki Məcəlləsinə müvafiq olaraq səsverməyə 24 saat qalmış başa çatan təşviqat kampaniyasının gedişi də hakimiyyətin parlament seçkilərinin demokratikliyinin təmin edilməsi, prosesdə bütün tərəflərə bərabər imkanların yaradılması, ümumilikdə seçkiqabağı mühitin şəffaflığına xələl gətirə biləcək neqativ halların tam aradan qaldırılması üçün ciddi siyasi iradə və qətiyyət nümayiş etdirdiyini təsdiqləmişdir. Hakimiyyət təşviqat mərhələsinin lazımi səviyyədə aparılması üçün bütün deputatlığa namizədlərə bərabər və əlverişli

imkanlar yaratmış, əvvəlcədən namizədlərin seçicilərlə görüş keçirəcəyi yerləri dəqiq müəyyənləşdirmişdir.

MSK-nın qərarı ilə hər bir deputatlığa namizədə İctimai Televiziyada 4 dəqiqə olmaqla ödənişsiz efir vaxtı, habelə ödənişsiz təşviqat materialının yerləşdirilməsi üçün «Azərbaycan» qəzetində yer ayrılmışdır. Hər bir deputatlığa namizəd təşviqat mərhələsində qanunvericiliyin yaratdığı imkanlardan maksimum dərəcədə yararlanmış, təbliğatını aparmışdır.

Səsvermə günü prosesin demokratikliyinin və şəffaflığının təmin edilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Mərkəzi Seçki Komissiyası «exit-poll» aparmaq üçün müraciət etmiş Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasını rəsmən qeydə almışdır. Səsvermə prosesinin demokratikliyinin təmini istiqamətində mühüm addımlardan biri də 500-dək seçki məntəqəsində veb-kameraların yerləşdirilməsi olmuşdur. Bundan əvvəlki seçkilərdə olduğu kimi, Azərbaycanda məntəqə seçki komissiyalarının üzvləri tərəfindən seçki sənədləri ilə işin aparılması, seçicilərə səsvermə günü lazımi şəraitin yaradılması, seçki bülletenlərinin seçki qutusuna salınması, səslərin sayılması və nəticələrin müəyyənləşdirilərək rəsmiləşdirilməsi prosesi seçki məntəqələrində quraşdırılan veb-kameralarla görüntüyə alınmışdır. Beləliklə, seçki məntəqəsinə getmədən nəinki Azərbaycanda, dünyanın istənilən nöqtəsində internetdə MSK-nın saytlarına daxil olmaqla seçki məntəqələrində gün ərzində baş verən bütün prosesləri izləmək mümkün olmuşdur.

Bütün bunlar bugünkü parlament seçkilərinin tamamilə azad, obyektiv və demokratik keçdiyini böyük əminliklə söyləməyə ciddi əsaslar verir. Prosesin Avropa standartlarına uyğun keçməsini şərtləndirən ən vacib amillərdən biri də bunun üçün lazımi siyasi iradənin mövcudluğu olmuşdur.

2010-cu ilin 7 noyabr parlament seçkilərinin tamamilə azad, ədalətli və demokratik şəraitdə keçməsi də son illərdə

əldə olunmuş inkişaf göstəricilərinin qorunub saxlanılması, habelə ictimai həyatın bütün sahələrini əhatə edən mütərəqqi qanunların qəbulu baxımından müstəsna əhəmiyyətə malikdir. IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk sessiyasında dərin məzmunlu nitq söyləyən Azərbaycan Prezidenti İlham Əliyev deputatlara gələcək fəaliyyətində uğurlar diləmiş, onların qarşıdakı fəaliyyətinin məhsuldar olacağına ümidvar olduğunu bildirmişdir.

Şübhəsiz, 2010-cu il noyabrın 7-də keçirilən seçkilər Azərbaycan xalqının Heydər Əliyevin ideallarına yüksək inamını, hörmət və ehtiramını növbəti dəfə təcəssüm etdirmişdir. Parlament seçkilərində Yeni Azərbaycan Partiyasının şəksiz qələbə qazanması həm bu hörmət və ehtiramın nəticəsi, həm də dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasətin insanlar tərəfindən yüksək qiymətləndirilməsi nəticəsində mümkün olmuşdur.

# Demokratik parlamentarizm ənənələri inkişaf edir

*«Parlament seçkiləri Azərbaycanda demokratik inkişaf istiqamətində atılmış növbəti mühüm addımdır. Bildiyiniz kimi, seçkilər çox azad, ədalətli, şəffaf şəkildə, rəqabət şəraitində keçirildi. Bütün namizədlər üçün bərabər imkanlar yaradılmışdır və seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirir. Mən əminəm ki, yeni tərkibdə Milli Məclis ölkəmizin gələcək inkişafı üçün dəyərli töhfələrini verəcək və Milli Məclis tərəfindən qəbul ediləcək qanunlar ölkəmizin demokratik inkişafı üçün gözəl şərait yaradacaqdır».*

İlham ƏLİYEV

**Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyəti cəmi 23 ay yaşamasına baxmayaraq, xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmiş, həyata keçirdiyi bütün tədbirlər dövlətçilik ənənələrinin bərpasına və inkişafına böyük təsir göstərmişdir. Qısa müddətdə Azərbaycan Xalq Cümhuriyyətinin bütün dövlətçilik atributları, ölkə hakimiyyətinin bütün qolları yaradılmış, o cümlədən ilk parlament formalaşdırılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 145 iclası keçirilmişdi. Bütün iclaslarda parlament İstiqlal Bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü**

**təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi.**

**Parlamentarizmin inkişaf tarixi**

Bütün bu qanunlar və qərarlar nəticə etibarı ilə hakimiyyətin üç qolunun – qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi. Birinci dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir şəraitdə fəaliyyət göstərən Azərbaycan parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Parlamentin bu sahədə qəbul etdiyi qanun və qərarların müzakirəsində parlament üzvləri, bir qayda olaraq, həmrəylik və yekdillik nümayiş etdirirdilər. Xalq Cümhuriyyəti parlamenti və hökuməti ölkənin başının üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınması üçün də böyük iş aparırdı. Bununla bağlı olaraq parlament 1918-ci il dekabrın 28-də parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Ə.M.Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra böyük dövlətlər tərəfindən de-fakto tanınmasına nail olsa da, bolşevik Rusiyasının Azərbaycanı işğal etməsilə onun bu sahədəki fəaliyyəti yarımçıq qaldı.

Sovet dövründə digər sosialist respublikalarında olduğu kimi, Azərbaycanda da parlamentin qəbul etdiyi qanun və qərarlar Kommunist Partiyasının siyasi-iqtisadi və ideoloji məqsədlərini

həyata keçirməyə xidmət edirdi. XX əsrin 50-60-cı illərində Azərbaycan SSR-də milli-mənəvi dirçəliş istiqamətində bir sıra ehtiyatlı addımlar atılsa da, bu sahədə məqsədyönlü iş Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi vaxtdan başlandı. Məhz ümummilli lider hələ ötən əsrin 70-80-ci illərində müstəqil Azərbaycan üçün möhkəm siyasi və iqtisadi təməl yaratmaqla yanaşı, mütərəqqi parlamentarizm ənənələrinin də əsasını qoymuş, yüksək siyasi iradə göstərərək qanunverici orqanın xalqın milli maraqlarına uyğun çevik və işlək fəaliyyətini təmin etmişdir. Ötən əsrin 50-60-cı illərində respublikada milli-mənəvi dirçəliş istiqamətində müəyyən ehtiyatlı addımlar atılsa da, bu sahədə kompleks tədbirlər məhz Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi vaxtdan başlanmışdır. Ümummilli lider böyük hakimiyyət ustadı kimi bütün dövlət hakimiyyəti orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi və sosial-mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltmişdir. Haqq-ədalətə, düzgünlüyə tapınan müdrik rəhbərin yeritdiyi kadr siyasəti bütün sahələrdə olduğu kimi, qanunverici orqana da ən bacarıqlı, layiqli şəxslərin seçilməsinə münbit şərait yaratmış, Ali Sovetin işində ciddi dönüş baş vermiş, müxtəlif sahələri əhatə edən yeni daimi komissiyaların fəaliyyətə başlaması parlamentin fəaliyyətində yüksək səmərəliyi təmin etmişdir. Xüsusi xatırlatmaq lazımdır ki, bu gün Milli Məclisin yerləşdiyi əzəmətli bina da məhz ulu öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə – keçmiş İttifaqda analoqu olmayan memarlıq üslubunda inşa edilmişdir.

Ali qanunverici orqanın geniş imkanlarından yüksək peşəkarlıqla istifadə edən Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər xalqda milli oyanışı və özünüdərk hissini gücləndirmiş, Azərbaycan SSR Ali Sovetində milli-mənəvi dəyərlərin və mədəni irsin qorunub saxlanılmasına,

elmi-intellektual tərəqqiyə xidmət edən mühüm qanunlar, qərarlar qəbul olunmuşdur. Həmin illərdə ulu öndər Heydər Əliyev respublikanın birinci katibi olmaqla yanaşı, SSRİ Ali Sovetinin (VIII-X çağırışlar) deputatı, yuxarı palatanın – İttifaq Sovetinin sədr müavini (IX çağırış), habelə Azərbaycan SSR Ali Sovetinin (VII-X çağırışlar) deputatı və Rəyasət Heyətinin üzvü kimi böyük səylə çalışmışdır. Parlamentin cəmiyyət və dövlət həyatındakı müstəsna rolunu düzgün dəyərləndirərək ali qanunverici orqanla sıx təmasda fəaliyyət göstərmiş, IX, X və XI beşilliklərin proqramlarının təsdiq olunmasında, respublikanın illik büdcələrinin qəbulunda yaxından iştirak etmiş, milli mənafeyə əsaslanan parlamentarizm ənənələrinin inkişafı üçün mühüm tədbirlər həyata keçirmişdir. Azərbaycan SSR Ali Soveti və SSRİ Ali Sovetinin tribunalarından məharətlə istifadə edən Heydər Əliyev rəhbərlik etdiyi deputat qrupunun Moskvadakı fəaliyyətini də respublikanın mənafeyi baxımından düzgün istiqamətləndirmişdir.

Azərbaycan SSR Ali Soveti Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən möhtəşəm quruculuq prosesinin mükəmməl hüquqi bazasının formalaşdırılması prosesində yaxından iştirak etmiş, dayanıqlı inkişafa zəmin yaradan mühüm qərarlar qəbul etmişdir. Həmin dövrdə, eyni zamanda, mülki, mülki-prosessual və cinayət-prosessual məcəllələrinə bir sıra mütərəqqi əlavə və dəyişikliklər olunmuş, Azərbaycan SSR-in məhkəmə quruluşu, səhiyyə, dövlət notariatı, xalq təhsili, tarixi və mədəni abidələrin qorunması, xalq deputatları sovetləri, torpaq və əmək haqqında qanunlar qəbul edilmiş, ailə və nikah haqqında məcəllə hazırlanmışdır. 70-80-ci illərdə icra orqanları ilə parlamentin işinin səmərəli koordinasiyası milli tərəqqi üçün zəruri əsaslar formalaşdırmış, Azərbaycanın gələcək siyasi müstəqilliyinə möhkəm körpü salmışdır.

Ümumilikdə, Heydər Əliyevin rəhbərliyi altında 70-80-ci illərdə istər icra strukturları, istərsə də parlament səviyyəsində

həyata keçirilmiş kompleks tədbirlər respublikamızın ötən əsrin 90-cı illərinə doğru müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratmışdır. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görmüş, bu prosesi sürətləndirən mühüm addımlara imza atmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə qətiyyən biganə qalmayan ulu öndər Heydər Əliyev Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda da əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə müstəqilliyin qazanılması, milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak etmişdir. Dövlət müstəqilliyini qazanmış Azərbaycanın sonrakı mərhələdə üzləşdiyi fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, xaos və anarxiya mühiti təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Belə böhranlı və ağır vəziyyətdə xalq çıxış yolunu yenə də müdrik rəhbərinin – ulu öndər Heydər Əliyevin yenidən hakimiyyət sükanı arxasına keçməsində görmüşdür.

1993-cü ilin 15 iyununda Heydər Əliyevin Azərbaycan Ali Sovetinin – parlamentinin Sədri seçilməsi isə qanunverici orqanın cəmiyyətdəki nüfuzunu qaldırmış, onun təşəkkülünə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, habelə milli parlamentarizm ənənələrinin inkişafına böyük zəmin yaratmışdır. Ali Sovetin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışında ulu öndər Heydər Əliyev ona göstərilən etimadı doğrultmağa çalışacağını vurğulamışdır: *«Sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gər-*

*gin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını vəhdət tutaraq əlimdən gələni edəcəyəm».*

Böyük siyasət ustadı mürəkkəb bir siyasi dövrdə parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirmiş, onun sivil, işlək orqana çevrilməsini təmin etmişdir. Müdrik siyasətçinin iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, deputatların çıxışlarının məzmununu tutmaq bacarığı, dəyərli fikirləri ümumiləşdirərək ən optimal variantı seçmək qabiliyyəti bu gün də böyük ehtiram hissi ilə xatırlanır. Dövlətin ən çətin günlərində Ali Sovetin Sədri kimi məsul vəzifəni şərəflə daşımış Heydər Əliyev bir-birindən mürəkkəb problemləri böyük siyasi məharətlə yoluna qoymuş, yüksək idarəçilik keyfiyyətləri sayəsində parlamentin xoşagəlməz siyasi çəkişmələr meydanına çevrilməsinin qarşısını almışdır.

## Müstəqil dövlət quruculuğunun hüquqi bazası möhkəmlənir

Ulu öndər ilk gündən milli qanunvericiliyin yeni dövrün tələblərinə uyğunlaşdırılması, cəmiyyət həyatı üçün faydalı olan bir sıra yeni qanunların qəbulu prosesini də diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyildir ki, Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Azərbaycan Respublikası parlamentinə rəhbərlik etdiyi dövr Azərbaycan parlamentarizmi tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi, hərbi əməliyyatların şiddətləndiyi bir zamanda Heydər Əliyev Milli Məclisdə ilk növbədə müdafiə sisteminin hüquqi bazasının təkmilləşdirilməsini, nizami ordu quruculuğuna xidmət edən qanunların hazırlanmasını və qəbulunu vacib saymışdır.

Azərbaycan Respublikasının qanunverici orqanı «Müdafiə haqqında» 26 noyabr 1993-cü il tarixli Azərbaycan Respub-

likasının Qanununu qəbul etmişdir. Sonrakı əlavə və dəyişikliklərlə 5 bölmə və 18 maddədən ibarət qanunda göstərilirdi ki, bu qanun Azərbaycan Respublikasının müdafiəsi, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədi ilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemidir. Azərbaycan Respublikasının müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin Hərbi doktrinasına uyğun olaraq təşkil edilir. Qanunda Azərbaycan Respublikasının Hərbi doktrinası Silahlı Qüvvələr quruculuğunda müdafiə yetərliyi prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikasının heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına və əgər o, təcavüz obyekti olmasa, beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç bir dövlətə qarşı birinci hərbi əməliyyatlara başlamayacağına əsaslanır.

1993-cü il dekabrın 6-da Milli Məclis Azərbaycan Respublikasının «İstiqlal» ordeninin statusunun və təsvirinin təsdiq edilməsi haqqında» qanun qəbul etdi. Azərbaycan Respublikasının ən yüksək ordeni ilə Azərbaycan Respublikasında milli-azadlıq hərəkatında müstəsna xidmətlərinə, dövlət və xalq qarşısında, habelə milli dövlət quruculuğu işlərində xüsusi xidmətləri olan şəxslər təltif edilirdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra qanunverici orqan ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, hərbi sahənin inkişafına yönəlmiş, onun üçün hüquqi bazanı müəyyən edən qanunlar qəbul etmişdi. 1994-cü il 4 yanvar tarixli «Sərhəd qoşunları haqqında», 1994-cü il 8 fevral tarixli «Daxili Qoşunların statusu haqqında», 1994-cü il 23 sentyabr tarixli «Silahlı Qüvvələrin intizam Nizamnaməsinin təsdiqi haqqında», «Silahlı Qüvvələrin daxili xidmət Nizamnaməsinin təsdiqi haqqında», 1995-ci il 10 yan-

var tarixli «Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyət haqqında Əsasnamənin təsdiqi haqqında» qanunları qeyd etmək olar.

1994-cü il iyulun 1-də Milli Məclis «Müəssisələr haqqında» qanun qəbul etdi. Bu qanun Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən müəssisələrin təşkilati-hüquqi formaları, onların yaradılması, idarə edilməsi və fəaliyyəti prinsiplərini müəyyən edir, müəssisələrin təsərrüfat müstəqilliyinə və hüquqi bərabərliyinə təminat verirdi.

Qanunverici orqan 1994-cü il sentyabrın 16-da «Auditor xidməti haqqında» qanun qəbul etdi. Qanunda mülkiyyətçinin əmlak hüquqlarını müdafiə edən müstəqil maliyyə nəzarəti sisteminin yaradılması, təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyətini yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, habelə təsərrüfat münasibətləri sahəsində digər xidmətləri göstərmək auditor xidmətinin tərkib hissəsi kimi müəyyən edilirdi.

Azərbaycan Respublikasının qanunverici orqanı maliyyə-hüquq münasibətləri subyektlərinin hüquq və vəzifələrini müəyyən edən «Valyuta tənzimi haqqında» 21 oktyabr 1994-cü il tarixli Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Qanun Azərbaycan Respublikasında valyuta əməliyyatlarının həyata keçirilməsi prinsiplərini, valyuta tənzimi və valyuta nəzarəti orqanlarının səlahiyyətlərini və funksiyalarını, hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquqlarını, vəzifələrini və valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir.

Azərbaycan Respublikası ərazisində mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növlərindən asılı olmayaraq bütün subyektlər üçün bərabər hüquqlar yaradılmasını nəzərdə tutan «İnvestisiya fəaliyyəti haqqında» qanun 13 yanvar 1995-ci il tarixdə qəbul edilmişdi. Qanunda Azərbaycan

Respublikasının ərazisində investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtləri də müəyyənləşdirilirdi. 4 fəsil və 21 maddədən ibarət qanun investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. İnvestisiyaların qorunması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, habelə başqa dövlətlərlə bağladığı müqavilələrlə təmin edilir. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan mübahisələrə müvafiq olaraq məhkəmələr baxır.

Azərbaycan Respublikası iqtisadiyyatının struktur dəyişmələrinin mühüm istiqamətlərindən biri torpaq üzərində mülkiyyət münasibətlərinin yenidən müəyyənləşdirilməsi baxımından Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş «Aqrar islahatların əsasları haqqında» və «Kolxoz və sovxozların islahatı haqqında» 18 fevral 1995-ci il tarixli qanunlar olmuşdur. Qanun kənddə torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşması, müxtəlif növlü təsərrüfatların yaradılmasının hüquqi bazasını müəyyən edirdi. Torpaq islahatının əsas istiqamətini müəyyən edən qanun torpaqların dövlət və bələdiyyə mülkiyyətinə ayrılmasını, müəyyən edilmiş normalar əsasında torpaqların xüsusi mülkiyyətə əvəzsiz verilməsini, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinə təsərrüfat fəaliyyəti üçün bərabər şərait yaradılmasını nəzərdə tutur. Torpaq mülkiyyətçisinin Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq torpağı satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, icarəyə və vərəsəliyə vermək, əlavə torpaq sahəsi satın almaq hüquqları vardır. Qanuna görə, müxtəlif növlü təsərrüfatlar mülkiyyət münasibətlərindən və təsərrüfatçılıq formalarından

asılı olaraq aşağıdakı kimi müəyyən edilir: torpaq və əmlak üzərində xüsusi mülkiyyətə əsaslanan kəndli (fermer), şəxsi yardımçı təsərrüfatlar; torpaq və əmlak üzərində xüsusi mülkiyyətə əsaslanan birgə təsərrüfatlar, kooperativlər, səhmdar cəmiyyətlər; torpaq və əmlak üzərində dövlət mülkiyyətinə əsaslanan dövlət kənd təsərrüfatı müəssisələri, səhmdar cəmiyyətlər və s. Mülkiyyətçilərin qərarı ilə bir təsərrüfat formasının digərinə çevrilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

Ölkə Prezidentinin fərmanı ilə 1995-ci ilin mart ayında Dövlət aqrar islahat komissiyası yaradıldı. Azərbaycan Respublikası hökuməti islahatları davam etdirmək üçün aqrar sahədə tədbirlər görürdü. Milli Məclis torpaq islahatının aparılmasının hüquqi əsaslarını müəyyən edən 1996-cı il iyulun 16-da «Torpaq islahatı haqqında» qanun qəbul etdi. Qanuna əsasən torpaq kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz olaraq verilirdi. Respublikanın vahid torpaq fondu əsasında dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti formaları müəyyən edildi. Torpaq mülkiyyətçisinin torpağa sahiblik, ondan istifadə və sərəncam hüququ təsbit edilirdi. Beləliklə, torpaq islahatının məqsədini müəyyən edən qanun iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatı və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltmək məqsədini güdürdü.

Müstəqil Azərbaycan Respublikası iqtisadiyyatının liberallaşdırılması, sağlam rəqabət prinsipləri əsasında inkişaf etdirilməsi üçün geniş imkanlar yaradılmışdı. İqtisadi münasibətlərdə inhisarçılığın qarşısının alınması və haqsız rəqabətə yol verilməməsini təmin edəcək «Haqsız rəqabət haqqında» 2 iyun 1995-ci il tarixli Azərbaycan Respublikasının Qanunu qəbul

edildi. Hüquqi baza yaradan qanun haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati-hüquqi əsaslarını müəyyən edir, sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradır, bazar subyektlərinin haqsız rəqabət metodlarından istifadəyə görə məsuliyyətini müəyyən edirdi. Qanun Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün bazar subyektlərinə şamil edilir. Sonrakı əlavə və dəyişikliklərlə 3 fəsil 15 maddədən ibarət qanun rəqibin təsərrüfat fəaliyyətinin təqlidi, onun nüfuzdan salınması, rəqibin təsərrrüfat fəaliyyətinə müdaxilə kimi halları tənzimləyir. III fəsildə «Haqsız rəqabət haqqında» qanunun pozulmasına görə məsuliyyət təsbit edilmişdi.

Qanunverici orqan 13 iyun 1995-ci il tarixdə «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanılması, icrası və ləğv edilməsi qaydaları haqqında» Azərbaycan Respublikasının Qanununu qəbul etdi. 5 fəsil 26 maddədən ibarət qanunun məqsədi Azərbaycan Respublikası Konstitusiyasına, hamılıqla tanınan beynəlxalq hüquq prinsiplərinə və normalarına müvafiq surətdə Azərbaycan Respublikasının bütün yazılı beynəlxalq müqavilələrinin (müqavilə, saziş, konvensiya, pakt, protokol, məktubların və ya notaların mübadiləsi və başqa adlı beynəlxalq müqavilələr) bağlanması, icrası və ləğv edilməsi qaydalarını müəyyənləşdirir. Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla beynəlxalq müqavilələri Azərbaycan Respublikası adından, Azərbaycan Respublikasının hökuməti adından, Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri və idarələri adından bağlanır. İdarələrarası xarakter daşıyan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilir.

1990-cı ildə sovet parlamenti kimi seçilmiş Azərbaycan SSR Ali Sovetinin səlahiyyətləri 1995-ci ilin payızında başa

çatırdı. Ona görə də Milli Məclisə yeni seçkilər keçirilməsi üçün müvafiq seçki qanunu hazırlandı.

Qanunverici orqan 1995-ci il avqustun 12-də «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» qanun qəbul etdi. Respublikanın ali qanunvericilik orqanı olan Milli Məclisin tərkibi 125 nəfərlik müəyyənləşdirildi. Səlahiyyət müddəti 5 il nəzərdə tutulan Milli Məclisə seçkilər majoritar və proporsional seçki sistemləri əsasında keçirilirdi (Hazırda seçkilər yalnız majoritar qayda üzrə keçirilir). Seçkilər günü 25 yaşı tamam olan və ya yaşı 25-dən çox olan Azərbaycan vətəndaşları Milli Məclisə deputat seçilə bilərdilər. Din xadimlərinin, müddətli həqiqi hərbi və ya alternativ xidmətdə olanların, məhkumluğun ödənilməsindən asılı olmayaraq Cinayət Məcəlləsinin 7.1-ci maddəsində nəzərdə tutulan ağır cinayətlərə görə məhkum olunmuş şəxslərin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkənlərin, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilmiş vətəndaşların Milli Məclisə deputat seçilməsi yolverilməz hesab edilirdi.

Seçki qanununa görə, mənşəyinə, siyasi baxışlarına, sosial və əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə, dinə münasibətinə, məşğuliyyətinin növünə və xarakterinə görə vətəndaşların seçki hüquqlarının birbaşa, dolayısı ilə və ya başqa şəkildə məhdudlaşdırılması qadağan olunurdu. 100 deputat birmandatlı seçki dairələri üzrə vahid təmsilçilik norması əsasında, 25 deputat isə vahid çoxmandatlı seçki dairələri üzrə siyasi partiyaların və ya onların bloklarının göstərdikləri deputatlığa namizədlərin siyahılarına seçicilərin verdikləri səslərin nisbəti əsasında seçilirdi. Milli Məclisə seçkilər respublika Prezidenti tərəfindən təyin edilirdi. Yeni seçkilər Milli Məclisin səlahiyyətlərinin başa çatmasına ən geci 80 gün qalmış təyin olunur və səsvermənin bazar gününə düşməsi mütləq sayılırdı.

Birinci çağırış Milli Məclisin deputatlarını seçicilər bilavasitə seçməli idilər. Deputatların dövlət orqanlarında seçkili və ya təyinatlı başqa vəzifə tutmaları, habelə sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul olmaları qadağan edilirdi. Keçid dövründə bu qaydadan müəyyən istisnalara yol verilməsi və bu cür istisnalarla seçilən deputatların sayının Milli Məclisin deputatlarının ümumi sayının 15 faizindən çox ola bilməməsi nəzərdə tutulurdu. 1995-ci il qanunu əsasında həmin il noyabrın 12-də keçirilmiş seçkilər nəticəsində formalaşmış yeni Milli Məclisin ilk iclas günü Azərbaycan Respublikası Ali Sovetinin əvvəlki 360 xalq deputatının səlahiyyətlərinə xitam verilmişdi.

Milli Məclisin 1995-ci il iyulun 3-də keçirilən iclasında Heydər Əliyev milli maraqları əsas tutaraq AXC hökuməti zamanı xarici şirkətlərlə neft sahəsində aparılan bütün danışıqların müvəqqəti olaraq dayandırıldığını bəyan etmişdir. Danışıqların Azərbaycanın mənafeyinə cavab vermədiyini bilən ulu öndər demişdir ki, məsələ mütəxəssislər tərəfindən ətraflı öyrənildikdən sonra hansısa qərar qəbul edilə bilər. 1994-cü il sentyabrın 20-də imzalandıqdan sonra parlament tərəfindən də ratifikasiya edilmiş «Əsrin müqaviləsi» isə xalqın və dövlətin maraqlarına tam cavab vermiş, Azərbaycanın iqtisadi inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Ulu öndər Heydər Əliyev peşəkar siyasi xadim kimi parlamentin formalaşdırılması işində də həlledici rol oynamış, 1995-ci ilin 12 noyabrında Konstitusiyanın ümumxalq referendumuna çıxarılması ilə paralel şəkildə Azərbaycan Respublikası Milli Məclisinə ilk demokratik seçkilərin keçirilməsini təmin etmişdir. Azad, ədalətli və şəffaf şəraitdə keçən seçkilərdə Azərbaycan Respublikasının Milli Məclisi formalaşdırılmış, ölkədə demokratik parlamentarizm təcrübəsinin əsası qoyulmuşdur. Birinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiya ilə müəyyənləşdirilmiş səlahiyyətlərini uğurla yerinə yetirmiş,

fəaliyyətini demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri üzərində qurmuşdur. 1995-ci il noyabrın 24-də Heydər Əliyev birinci çağırış Milli Məclisin ilk iclasında iştirak etmiş, qanunvericilik orqanının üzvlərinə xeyir-duasını vermişdir.

Azərbaycan Respublikasının Milli Məclisi 1995-ci ildən etibarən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, ölkəmizin Avratlantik məkana inteqrasiyası üçün hüquqi bazanın yaradılması kimi vəzifələri uğurla yerinə yetirmiş, qanun yaradıcılığı işində dünyanın qabaqcıl demokratik ölkələrinin təcrübəsindən bəhrələnmiş, qanunvericilik fəaliyyətində mühüm nailiyyətlər qazanmışdır. Statistik rəqəmlər göstərir ki, 1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclisdə qəbul edilmiş 1715 qanun və qərardan 975-i məhz ümummilli lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olunmuşdur.

Həyata keçirilən islahatların mühüm bir istiqamətini də məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının maksimum dərəcədə müdafiəsi üçün çevik mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması məsələləri təşkil etmişdir. Ulu öndər Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli fərmanı ilə yaradılmış Hüquq İslahat Komissiyası tərəfindən hazırlanaraq Milli Məclisdə qəbul edilmiş «Məhkəmələr və hakimlər haqqında», «Konstitusiya məhkəməsi haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Prokurorluq haqqında», «Polis haqqında», «Əməliyyat-axtarış tədbirləri haqqında», «Notariat haqqında» və s. qanunlar, habelə mülki və cinayət-prosessual məcəllələr ölkədə insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmini məqsədinə xidmət etmişdir.

Ümummilli lider Heydər Əliyevin yüksək humanizminin və insanpərvərliyinin təcəssümü kimi 1993-cü ildən tətbiqinə

moratorium qoyduğu ölüm hökmü Milli Məclisin 10 fevral 1998-ci il tarixli qərarı ilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Bu tarixi qərar Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 17 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Azərbaycan parlamentinin təşkilatla son 10 illik səmərəli əməkdaşlığı milli qanunvericiliyin Avropa standartlarına uyğun təkmilləşdirilməsi prosesinə ciddi təkan vermişdir.

Milli Məclis qanunların təkmilləşdirilməsi mərhələsində təkcə beynəlxalq təcrübəni öyrənib presedent kimi tətbiq etməklə kifayətlənməmiş, eyni zamanda milli maraqları əsas tutmaqla müxtəlif beynəlxalq konvensiya və sazişləri ratifikasiya etmişdir. Konstitusiyamızın 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir. Bu maddə Azərbaycan Konstitusiyasının liberallığını və demokratikliyini bir daha sübuta yetirməklə yanaşı, həm də son 15 ildə ölkədə milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasına yaxşı imkanlar açmışdır. Əsas Qanunumuzda əksini tapmış insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilmişdir.

2000-ci ildə keçirilmiş ikinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər də ölkədə demokratiyanın inkişafı, hüquqi dövlət quruculuğu yolunda irəliyə doğru mühüm addım olmuşdur. Seçicilərin yüksək fəallığı şəraitində ikinci çağırış Milli Məclisə respublikamızda fəaliyyət göstərən 9 siyasi partiyanın təmsilçiləri seçilmiş, ölkəmizin aparıcı

siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası böyük qələbə qazanaraq deputat mandatlarının əksəriyyətini əldə etmişdir. Məhz ikinci çağırış Azərbaycan Milli Məclisi fəaliyyəti dövründə 2001-ci il yanvarın 17-də respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmiş, beləliklə, milli qanunvericiliyin Avropa standartlarına uyğun təkmilləşdirilməsi sahəsində keyfiyyətcə yeni mərhələnin əsası qoyulmuşdur. Xüsusi xatırlatmaq lazımdır ki, 2000-2003-cü illərdə Azərbaycanın AŞ PA-dakı parlament nümayəndə heyətinin rəhbəri olmuş cənab İlham Əliyev təşkilat çərçivəsində Azərbaycanın milli maraq və mənafeyini layiqincə təmsil etmiş, Avropa məkanında sayılıb-seçilən nüfuzlu siyasətçilərdən birinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyev 2001-ci ildə müstəqil dövlətimizin ilk parlamentinin fəaliyyətini yüksək qiymətləndirərək demişdir: *«1995-ci ildə seçilmiş Milli Məclis Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesinin inkişafı üçün, sosial-iqtisadi, hüquqi-siyasi islahatların keçirilməsi üçün çox iş görmüşdür və görülən işlərin əsas mənası da qəbul olunmuş qanunlardır. Tam cəsarətlə deyə bilərəm ki, ötən beş il ərzində Azərbaycanın Milli Məclisi çox məhsuldar işləmiş, çox böyük əhəmiyyətə malik olan və mürəkkəb xarakter daşıyan qanunlar qəbul etmişdir. Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur. Eyni zamanda, Milli Məclis Azərbaycan dövlətinin xarici siyasətinin həyata keçirilməsində də parlamentlərarası əlaqələr vasitəsilə, başqa vasitələrlə bizim ümumi işimizə öz payını vermişdir».*

Ötən illərdə Milli Məclisdə dünyanın 60-dan çox ölkəsinin parlamenti ilə əlaqələr üzrə işçi qrupları yaradılmış, qanunverici orqanın beynəlxalq əlaqələri genişlənmişdir. Azərbaycanın

parlament nümayəndə heyəti tez-tez xarici ölkələrdə işgüzar səfərlərdə olur, habelə Milli Məclisdə xarici ölkələrin siyasi və dövlət xadimləri, parlament üzvləri ilə görüşlər təşkil edilir. Bütün bunlar həm də qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi baxımından əhəmiyyətlidir. Azərbaycan parlamenti ölkənin beynəlxalq əlaqələrinin inkişafına layiqli töhfəsini verməklə yanaşı, respublikanın demokratik imicinin yüksəlməsində də öz sözünü deyir.

2003-cü ilin 15 oktyabrında xalqın iradəsilə Azərbaycan Prezidenti seçilmiş cənab İlham Əliyev parlamentin ölkə həyatındakı rolunu yüksək dəyərləndirmiş, onun maddi-texniki bazasının yeniləşməsi, iş üsul və vasitələrinin müasirləşdirilməsi prosesinə öz töhfəsini vermişdir. Dövlət başçısının təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisinin inzibati binası əsaslı və ən müasir səviyyədə təmir edilmiş, infrastrukturu yeniləşdirilmiş, bir sözlə, deputatların səmərəli və normal fəaliyyəti üçün bütün zəruri tədbirlər həyata keçirilmişdir. Bundan başqa, ulu öndər Heydər Əliyevin dövlət və xalq qarşısında misilsiz xidmətlərinin obyektiv dəyərləndirilməsi, xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Milli Məclisin foyesində büstü qoyulmuş, eyni zamanda parlamentdə Heydər Əliyev Muzeyi yaradılmışdır.

2005-ci il noyabrın 6-da üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilər Azərbaycan xalqının Heydər Əliyevin ideallarına yüksək inamını, hörmət və ehtiramını növbəti dəfə təcəssüm etdirmişdir. Parlament seçkilərində Yeni Azərbaycan Partiyasının şəksiz qələbə qazanması həm bu hörmət və ehtiramın nəticəsi, həm də dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasətin nəticələrinin insanlar tərəfindən yüksək qiymətləndirilməsi olmuşdur. 2005-ci il dekabrın 2-də üçüncü çağırış Azərbaycan Milli Məclisinin ilk iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti seçkilərdə

qələbə qazanmış deputatları təbrik etmiş, onlara gələcək qanunvericilik fəaliyyətlərində uğurlar arzulamışdır. Cənab İlham Əliyev demokratik parlament seçkilərinin ölkəmizin demokratik inkişafı baxımından böyük əhəmiyyət kəsb etdiyini söyləmişdir: *«Bütövlükdə parlament seçkilərinin Azərbaycanın demokratik inkişafında çox mühüm rolu vardır. Seçkilər şəffaf, ədalətli şəkildə keçirilib və bizə imkan verəcək ki, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycanda siyasi proseslər daha da sürətlə aparılsın, ölkədə demokratik islahatlar davam etdirilsin və bütövlükdə Azərbaycan demokratik dövlətə çevrilsin».*

Son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü əsasında ölkə həyatı üçün son dərəcə vacib əhəmiyyət kəsb edən çoxlu sayda qanun və qərarlar qəbul edilmiş, parlamentin ölkənin ictimai-siyasi həyatında rolu daha da yüksəlmişdir. 2008-ci ildə Azərbaycan parlamentinin yaranmasının 90-cı ildönümü təntənəli şəkildə qeyd olunmuş, bu əlamətdar tədbirdə dərin nitq söyləyən dövlət başçısı İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin hüquqi dövlət quruculuğu sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi milli qanunvericiliyin təkmilləşdirilməsi prosesində yaxından iştirak edir, hər bir addımda dövlətçilik maraqlarını, insan və vətəndaş hüquq və azadlıqlarının aliliyi prinsipini əsas tutur. Xüsusi vurğulamaq lazımdır ki, 18 mart 2009-cu il tarixli ümumxalq referendumu nəticəsində Azərbaycan Respublikası Konstitusiyasına edilmiş əlavə və dəyişikliklərin bir qismi Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin daha da təkmilləşdirilməsinə xidmət etmişdir.

2010-cu ilin 7 noyabr parlament seçkilərindən sonra formalaşan IV çağırış Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev demişdir: *«Növbəti beş ildə Milli*

*Məclisin qarşısında çox mühüm vəzifələr dayanır. Bir daha demək istəyirəm ki, artıq Azərbaycanda parlamentarizmin çox yaxşı ənənələri yaranmışdır. Milli Məclis siyasi qurumdur, hakimiyyətin bir qoludur. Məclis tərəfindən qəbul edilmiş qərarlar ölkəmizin inkişafına xidmət göstərir, belə də olmalıdır. Hamımız çalışmalıyıq ki, ölkəmizi gücləndirək. Hamımız tutduğumuz vəzifədən, siyasi əqidədən asılı olmayaraq səylərimizi müstəqil Azərbaycan dövlətinin güclənməsinə qoymalıyıq. Mən çox şadam ki, Azərbaycan cəmiyyətində və son illərdə, o cümlədən siyasi spektrdə bu meyillər güclənir. Bu meyillərin daşıyıcılarının rolu artır. Azərbaycanın inkişafına əngəl yaratmaq, Azərbaycanı ləkələmək istəyən, Azərbaycanda hər hansı bir xoşagəlməz hadisəni gözləyən qüvvələrin təsiri böyük dərəcədə azalmışdır, demək olar ki, artıq hiss olunmur. Bu parlament seçkilərinin nəticələri bunu bir daha göstərdi».*

Ulu öndər Heydər Əliyev təcrübəli dövlət xadimi, hakimiyyət ustadı olaraq Azərbaycan xalqının milli mentaliteti və dünyagörüşü ilə uzlaşan, reallığa adekvat olan milli inkişaf strategiyası seçməklə yanaşı, bu strategiyanın reallaşdırılmasında parlamentin geniş imkanlarından yetərincə bəhrələnmişdir. Heydər Əliyevin dövlətçilik ideallarına tapınan Azərbaycan Respublikasının Milli Məclisi bu gün də üzərinə düşən məsuliyyətli missiyanı uğurla yerinə yetirməyə, dövlətin və xalqın maraqlarının keşiyində layiqincə dayanmağa, habelə dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən mütərəqqi siyasi, iqtisadi və hüquqi islahatlara töhfəsini verməyə çalışır.

## Vətəndaş cəmiyyətinin qurucusu

*«Əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış dövlətlərdə demokratik proseslər də geridə qalır. O ölkələr ki onlar iqtisadi cəhətdən güclüdürlər, o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə iqtisadi islahatların davam etdirilməsi, xalqın maddi rifahının yaxşılaşdırılması demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir. Ancaq bununla bərabər, əgər sadəcə olaraq iqtisadi məsələlərə diqqətimizi yönəltsək və siyasi islahatlarda hansısa bir yubanma olarsa, bu da Azərbaycan qarşısında duran vəzifələrin həlli üçün bizə imkan yaratmayacaqdır. Siyasi islahatlar mütləq aparılmalı və Azərbaycan müasir ölkəyə çevrilməlidir».*

İlham ƏLİYEV

**Tarixən formalaşmış siyasi nəzəriyyələr göstərir ki, əsl demokratiya yalnız vətəndaş cəmiyyəti ideyasının gerçəkləşdiyi, eləcə də vətəndaş cəmiyyəti təsisatlarının mövcüd olduğu dövlətlərdə özünə möhkəm dayaqlar tapa bilər. Huquqi dövlət özünün formalaşması və qərarlaşması prosesində nəinki fərdi azadlığın və hüququn qanunvericiliklə təmin olunmasını işləyib hazırlamış və möhkəmlətmiş, eyni zamanda vətəndaş cəmiyyətinin normal mövcudluğu və fəaliyyəti, onun başlıca təsisatları, prinsipləri və dəyərləri üçün təminat yaratmışdır. Politologiyanın mürəkkəb kateqoriyalarından biri olan vətəndaş cəmiyyəti özlüyündə**

**heç bir təşkilati mərkəzə malik olmayan cəmiyyətdir. Vətəndaş cəmiyyətini təşkil edən təşkilatlar və birliklər öz-özünə yaranır. Dövlətin hər hansı formada iştirak etmədiyi vətəndaş cəmiyyəti ictimai həyatı təşkil edən və tənzimləyən qüdrətli sferaya çevrilməklə, demokratik dövlətin ən mühüm tərəfidir. Vətəndaş cəmiyyəti institutlarının inkişaf dərəcəsi isə hər bir dövlətdə demokratiyanın inkişaf səviyyəsini əks etdirir.**

## Vətəndaş cəmiyyəti: nəzəri-politoloji aspekt

Vətəndaş cəmiyyətinə qovuşmaq ta qədimdən bəşər övladının can atdığı ali ideallardan biri olmuş, insanlar yalnız bu cür cəmiyyətdə layiqli yaşamağın mümkünlüyünü dərk etmişlər. Təsadüfi deyildir ki, vətəndaş cəmiyyəti haqqında tarixi ideya Qədim Yunanıstan və Romadakı siyasi-hüquqi fikrə aid yaradıcılıq dövrünə təsadüf edir. Xüsusən də Siseronun vətəndaş cəmiyyəti haqqındakı fikirləri elə bir dövrdə formalaşmışdı ki, artıq «vətəndaşlıq» və «vətəndaş», vətəndaşların məcmusundan ibarət «cəmiyyət» anlayışları mövcud idi. Vətəndaşın xüsusi hüquq və vəzifələri haqqında təsəvvürlər Qədim Romada daha çox inkişaf etmişdi – bu imperiyanın təbəəliyində olan şəxs azad vətəndaş hesab edilirdi.

«Vətəndaş cəmiyyəti» anlayışı siyasət elminin özü qədər qədimdir – 2 min ildən çoxdur ki, alimlər bu ideyanı nəzərdən keçirir, təhlil edirlər. Vətəndaş cəmiyyətini müstəqil substansiya kimi «qeyd» edən» ilk mütəfəkkirlər arasında qədim yunan filosofu Platonun adı xüsusi çəkilir. Onun insanlara anadangəlmə xas təbii sosial ehtiyaclar, habelə ideal insan cəmiyyəti ilə bağlı mühakimələri bu nəticəyə gəlməyə imkan verir ki, cəmiyyətin mütəşəkkil dövlət şəbəkəsindən başqa özgə həyati fəaliyyət formaları da mövcuddur. «Vətəndaş cəmiyyəti»

anlayışı həm də Aristotelin polis ideyasına (koinoia politike), Siseronun «societas civilis» və təbii hüquq ideyalarına gedib çıxır.

Aristotelə görə, insan ictimai-siyasi varlıq, dövlət isə siyasi vətəndaşlar cəmiyyətinin təbii məhsuludur. Aristotel vətəndaşların həyatını cəmiyyətin, istehsal qüvvələri və münasibətlərinin müəyyən inkişaf səviyyəsinə qədər – dövlət müdaxiləsi tələb olunmayan digər həyati fəaliyyət sferalarında – iqtisadi, mənəvi, əxlaqi, elmi, dini sahələrdə də təhlil etmişdir. Bu baxımdan Aristotelin əsərlərində dövlət və vətəndaş cəmiyyətinin müəyyən mənada bir-birindən ayrıldığı aşkar görünür.

Orta əsrlərdə isə Nikkolo Makiavelli (1469-1527) öz dövründən çıxış edərək dövləti insan iradəsinin ən ali təzahürü, ona qulluq etməyi isə həyatın mənası və xoşbəxtliyi sayırdı. O, belə güman edirdi ki, qorxu və zorakılığın köməyi ilə öz təbəələrini idarə etmək imkanına və hüququna malik hökmdar onları qıcıqlandırmamaq üçün bundan sui-istifadə etməyəcək, onların mülkiyyət və şəxsi hüquqlarını pozmayacaq. Aşkar görünür ki, burada söhbət insanın təbəəlik funksiyalarından fərqli bir sferadan, mahiyyət etibarı ilə vətəndaş cəmiyyətinin əlamətlərindən gedir. «Tita Liviyanın birinci dekadası» haqqında düşüncələr» adlı əsərində isə Makiavelli dövlətin özünü ucaltmaq naminə cəmiyyətin hər cür fəaliyyətini gücdən salmağa və heçə endirməyə can atdığını yazır. Burada dövlətin və vətəndaş cəmiyyətinin, siyasi sfera ilə vətəndaş sferasının bir-birindən fərqləndirildiyi aydın sezilir.

XVII əsrin ortalarında T.Qobbs «Vətəndaş haqqında» (1642) və «Leviafan» (1651) adlı məşhur əsərlərində vətəndaş cəmiyyətinə dair prinsip etibarı ilə yeni konsepsiya irəli sürmüşdür. O, «vətəndaş cəmiyyəti» anlayışından birbaşa öz mənasında istifadə etsə də, bu məsələdə tam ardıcıl görünmür: bəzi hallarda vətəndaş cəmiyyətini dövlətlə eyniləşdirir, bəzi

hallarda isə onları bir-birindən ayırır. Qobbs bir tərəfdən deyir ki, dövlətin vətəndaş qanunları və hüquqa bağlılığı yoxdur. O, sanki vətəndaş cəmiyyətindən ayrı bir təsisatdır. «Dövlətdən kənarda ehtiraslar, müharibə, qorxu, səfalət, yalqızlıq, barbarlıq, vəhşilik, cəhalət... hökmranlıq edir» deyə Qobbs «Vətəndaş haqqında» əsərində yazır. Digər tərəfdənsə o, hesab edir ki, dövlət «vətəndaş cəmiyyəti» anlayışı vasitəsilə İncildəki əjdaha Leviafan kimi hər şeyi özünə tabe etdirir. Qobbsun bir sıra dövlət idarələrinin mükəmməl olmaması və bəzi təlimlərin yanlışlığı barədə qeydləri də onun «dövlət» və «vətəndaş cəmiyyəti» anlayışlarını bir-birindən ayırdığına dəlalət edir.

Con Lokk (1632-1704) «vətəndaş cəmiyyəti» anlayışından aktiv istifadə edərək müəyyən mənada dövlətə münasibətdə vətəndaş cəmiyyəti formulunu elan edir. O, mülkiyyəti cəmiyyətin, o cümlədən vətəndaş cəmiyyətinin əsası sayır. Lokk siyasi hakimiyyəti mülkiyyəti nizamlamaq və qoruyub saxlamaq üçün insanların qanun yaratmaq hüququ kimi şərh edir. Vətəndaşların bir dövlətdə birləşməsinin başlıca məqsədi mülkiyyəti qoruyub saxlamaqdır. Buna görə də dövlət heç də cəmiyyətin əbədi atributu deyil və vətəndaş cəmiyyətinin müəyyən inkişaf mərhələsində, cəmiyyət üzvlərinin buna ehtiyacı yarananda meydana çıxır.

Fransız mütəfəkkiri Şarl Lui Monteskyö (1689-1755) də vətəndaş cəmiyyəti haqqında çoxlu yeni fikirlər söyləyir. O, «Qanunların ruhu haqqında» adlı əsərində vətəndaş cəmiyyətini tarixi inkişafın nəticəsi kimi nəzərdən keçirir. Monteskyö vətəndaş və dövlət qanunlarını, siyasi qanunları bir-birindən fərqləndirir. Vətəndaş qanunları vətəndaş cəmiyyətinə xas münasibətləri – mülkiyyət, vətəndaşların könüllü birlikləri və s. münasibətləri reqlamentləşdirir. Dövlət qanunları isə başlıca olaraq siyasi hüquqları və elə həmin vətəndaşların azadlıqlarını nizamlayır. Monteskyö vətəndaş cəmiyyəti

və dövlət qanunlarının dialektik vəhdətdə və ziddiyyətdə olduğunu göstərərək belə nəticəyə gəlir ki, bu vəhdətin bir tərəfinin yoxa çıxması hökmən böyük ictimai sarsıntılara gətirib çıxaracaqdır. O, həmçinin qeyd edir ki, vətəndaş cəmiyyəti cəmiyyətin özbaşınalıqlardan və diktaturadan qorunmasının ən mühüm qarantıdır.

Jan Jak Russo (1712-1778) vətəndaş cəmiyyətini dövlətə çevrilmiş cəmiyyət kimi göstərir və bunu ictimai müqavilənin köməyilə dəqiqləşdirir. «İctimai müqavilə və yaxud siyasi hüquq prinsipləri» adlı əsərində Russo xalq suverenliyini bəyan edir, xalqın mütləqiyyəti devirmək hüququnu və demokratik şəkildə seçilmiş hökumətin hakimiyyətdən uzaqlaşdırılmasını əsaslandırır. Bu əsərində o, praktik olaraq vətəndaş cəmiyyəti anlayışını formulə edərək göstərir ki, siyasi orqanizmin mahiyyəti tabeliyin və azadlığın razılaşdırılmasından ibarətdir.

Georq Vilhelm Fridrix Hegel (1770-1831) vətəndaş cəmiyyəti probleminin nəzərdən keçirilməsini prinsipial olaraq yeni müddəalarla zənginləşdirir. Hegel bu nəticəyə gəlir ki, vətəndaş cəmiyyəti öz-özlüyündə orta əsrlərdən yeni dövrə uzunmüddətli və mürəkkəb tarixi keçid prosesində ailədən dövlətə doğru dialektik irəliləyişin xüsusi bir stadiyasını əks etdirir. Vətəndaş cəmiyyəti öz tələbatlarını əmək vasitəsilə başqalarının tələbatlarına uyğunlaşdıran individiumlar sistemi kimi çıxış edir. Vətəndaş cəmiyyətinin təməlini şəxsi mülkiyyət, maraqların birliyi və vətəndaşların qanunla təsbit olunmuş formal ümumi bərabərliyi, insanın təsadüflərdən qorunması təşkil edir. Öz sələflərindən fərqli olaraq, Hegel vətəndaş cəmiyyətini və dövləti müstəqil institutlar kimi nəzərdən keçirir. Hegelə görə, vətəndaş cəmiyyəti dövlətin daxilində deyil, onunla yanaşı mövcuddur. O, hesab edir ki, vətəndaşların ümumi iradəsi dövlətdə təmsil olunub, vətəndaş cəmiyyəti isə ayrı-ayrı individlərin xüsusi, özəl maraqlarının reallaşdırılması sferasıdır.

Sonralar vətəndaş cəmiyyətinə, onun azadlıq, hüquq, əxlaq, mülkiyyət problemlərinə dair konsepsiyanı ən görkəmli mütəfəkkirlərdən J.J.Russo, İ.Kant və başqaları işləyib hazırladılar. İ.Kant qeyd edirdi ki, bu və digər fərdin azadlığı ilə hamının azadlığının nisbətində başlıca amil vətəndaş cəmiyyətinin formalaşmasıdır. Beləliklə, fəlsəfi kateqoriya kimi formalaşmağa başlayan vətəndaş cəmiyyəti ideyası tədricən Qərbdə siyasi fikrin və azadlıq hərəkatının mərkəzi probleminə çevrilmişdir. Vətəndaş cəmiyyətinin yaranması cəmiyyətin mütərəqqi qüvvələrinin uzunmüddətli mübarizəsində əldə olunmuş məqsədyönlü dəyişikliklərin nümunəsidir.

XIX-XX əsrlərdə inkişaf etmiş ölkələr üçün vətəndaş cəmiyyətinin təşəkkülü ictimai məqsədlərin qəbulu və etirafı kimi dəyərləndirilir. Xüsusən də ötən əsrin ikinci yarısında vətəndaş cəmiyyətinə doğru coşqun iqtisadi və elmi-texniki inkişafın tərkib hissəsi kimi səciyyələnmişdir. Y.İ.Averyanovun rəhbərliyi altında nəşr olunmuş politologiyaya dair ensiklopedik lüğətdə vətəndaş cəmiyyəti belə səciyyələndirilir: *«Vətəndaş cəmiyyəti dövlətdən asılı olmayan, lakin onunla əlaqə kəsb edən, həmin cəmiyyətin üzvləri arasında inkişaf etmiş iqtisadi, mədəni, hüquqi və siyasi münasibətlərdir, dövlətlə birlikdə inkişaf etmiş hüquqi münasibətlər yaradan, yüksək sosial, iqtisadi, siyasi, mədəni və əxlaqi statusa malik olan cəmiyyətdir».*

Vətəndaş cəmiyyəti azad və bərabərhüquqlu fərdlərin bazar və demokratik hüquqi dövlətçilik şəraitində dövlət vasitəsilə tənzimlənən qarşılıqlı münasibətlərin çoxcəhətliyidir. Vətəndaş cəmiyyəti aşağıdan öz-özünə təşəkkül tapan ictimai orqanizm olmaqla xüsusi mənafelərin və fərdiyyətçiliyin azad oyun sferasıdır. Yəni bu cəmiyyətin formalaşmasını şərtləndirən birliklər öz-özünə, vətəndaşlar qrupunun və ya müəssisələrin təzahürü ilə yaranır. Onlar öz mənafelərini və tələbatlarını reallaşdırmağa çalışırlar. Ölkədə vətəndaşların könüllü birliyini

və müəssisələrini özündə birləşdirən möhkəm ictimai «şəbəkə» rolunu oynayan vətəndaş cəmiyyəti eyni zamanda yüksək inkişaf etmiş demokratik cəmiyyətin əlamətidir. Vətəndaş cəmiyyətini təşkil edən birliklər vətəndaşların iqtisadi, ailə, hüquqi, mədəni və digər mənafelərinin geniş dairəsini əks etdirir, bu mənafeləri təmin etmək məqsədi ilə yaradılır. Bu mənada o, həm də bütövlükdə ictimai rəyin ifadəçisi olmaqla özünün spesifik formada təzahür edən siyasi hakimiyyətinə xidmət edir.

Vətəndaş cəmiyyətində assosiasiya həyatı, kütləvi hərəkatlar sferası, partiyalar, inama və digər əlamətlərə görə təzahür edilən qruplaşmalar azad şəkildə formalaşır. Onlar hakimiyyət səlahiyyətlərinin bir hissəsinin özünüidarəyə həvalə olunması hesabına onun mərkəzləşdirilməsinə nail olur, münaqişəsiz, razılıq əsasında çoxluğun və azlığın qarşılıqlı fəaliyyətini həyata keçirir. Vətəndaş cəmiyyəti elə böyük ictimai qüvvədir ki, dövlət onunla hesablaşmaya bilməz. Eyni zamanda, vətəndaş cəmiyyəti nə qədər çox inkişaf etmiş olarsa, dövlətin demokratikliyi üçün bir o qədər geniş meydan açılar. Çünki vətəndaş cəmiyyəti bəşər sivilizasiyasının müasir səviyyəsində fərdlər, qruplar və birliklər arasında dövlət vasitəsilə şərtlənməyən inkişaf etmiş iqtisadi, mədəni, hüquqi, siyasi münasibətlərdir. Prinsip etibarı ilə siyasi strukturlardan kənarda təşəkkül tapan vətəndaş cəmiyyəti bu strukturları da əhatə edir. Çünki siyasi strukturlar vətəndaş cəmiyyətinin bir hissəsidir və vətəndaşlar tərəfindən yaradılır.

Vətəndaş cəmiyyəti dövlətdən fərqli elə bir sahədir ki, burada vətəndaşlar öz maraqlarından çıxış edərək birgə fəaliyyət göstərə bilərlər. Bu cəmiyyətin təməlini şəxsi mülkiyyət, maraqların birliyi və vətəndaşların qanunla təsbit olunmuş formal ümumi bərabərliyi, insanın təsadüflərdən qorunması təşkil edir. Ümumilikdə vətəndaş cəmiyyəti özündə müxtəlif sosial və siyasi subyektlərin maraqlarını cəmləşdirir. Vətəndaş

cəmiyyəti – azad insanların özlərinin, onların könüllü birliklərinin və cəmiyyətlərinin dövlət hakimiyyətinin müdaxiləsi olmadan istibdadından uyğun qanunlar tərəfindən qorunan özünü ifadə etmək sahəsidir.

Ötən əsrin 90-cı illərində vətəndaş cəmiyyətinin qurulması ətrafında müzakirələr dünyanın bütün ölkələrini bürümüş, milli dövlətlər çərçivəsində hər hansı istibdad rejiminin mövcudluğunu təhlükə altına almışdır. Vətəndaş cəmiyyəti «soyuq müharibə»nin qurtarması ilə başlanan dövrün əsas ünsürünə çevrilmişdir. Bu anlayışın nəzəri və praktik aspektlərinin aktuallığı sıravi vətəndaşların və onların könüllü birliklərinin rolunun bəşər cəmiyyətinin bütün sferalarında – iqtisadi, siyasi, sosial, mənəvi həyatda açıq-aşkar artması ilə şərtlənir. Xoşməramlı insanların yaratdığı ictimai təşkilat və hərəkatların beynəlxalq gərginliyin yumşaldılmasında, təbii fəlakət və müsibətlərə, sosial bədbəxtliklərə düçar olmuş xalqlara yardım göstərilməsində qazandığı uğurlar yaxşı məlumdur. Bu uğurların əsasında vətəndaş cəmiyyətlərinin inkişafı, vətəndaşların və onların könüllü birliklərinin yüksək fəallığı durur.

Vətəndaş cəmiyyəti anlayışının genezisi ilə bağlı tarixən mövcud olan mülahizələrdən çıxış edərək bu mürəkkəb orqanizmin «tərifini» verməyə çalışaq: *birincisi,* vətəndaş cəmiyyəti əmək vasitəsilə öz fərdlərinin tələbatlarını təmin edən və müəyyən inkişaf mərhələsində olan insan birliyi formasıdır; *ikincisi,* vətəndaş cəmiyyəti individlərin könüllü formalaşmış ilkin birlikləri (dövlət və siyasi strukturlardan başqa ailə, kooperasiyalar, peşə, yaradıcılıq, idman, etnik, konfessional, dini və s. birliklər) kompleksidir; *üçüncüsü,* o, cəmiyyətdə qeyri-dövlət münasibətlərinin məcmusudur (iqtisadi, sosial, ailə, milli, mənəvi, əxlaqi, dini və s. insanların istehsal və özəl həyatı, onların adətləri, ənənələri, xasiyyətləridir). *Nəhayət,* vətəndaş cəmiyyəti dövlət hakimiyyəti tərəfdən fəaliyyətlərinə birbaşa müdaxiləyə və bu fəaliyyətlərin

özbaşına reqlamentləşdirilməsinə qanunla yol verilməyən azad individlərin və onların birliklərinin özünütəzahür sferasıdır. Vətəndaş cəmiyyətinin bütün bu elementləri bir-birinə sıx inteqrasiya olunaraq bir-birindən asılı vəziyyətə düşmüşdür.

Vətəndaş cəmiyyəti dövlətlə dialektik vəhdətdə mövcuddur və dialektik vəhdətdə fəaliyyət göstərir. Demokratik rejimlərdə o, dövlətə çox yaxındır və onunla qarşılıqlı fəaliyyətdədir, avtoritar və totalitar rejimlərdə isə rejimə qarşı passiv və ya aktiv müxalifətdə olur. Dövlət vətəndaş cəmiyyətinin həyati fəaliyyətini xeyli məhdudlaşdıra bilər, amma onu tamamilə dağıda, «ləğv» edə» bilməz, çünki o, dövlətə münasibətdə ilkindir, onun bünövrəsini təşkil edir. Öz növbəsində, vətəndaş cəmiyyəti də dövlətin funksiyalarını əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilər, amma onu əvəzləməyə, xüsusilə də cəmiyyətin indiki inkişaf mərhələsində onu ləğv etməyə qabil deyildir.

Vətəndaş cəmiyyəti öz-özünə inkişaf edən bir sistemdir. Bununla yanaşı, yüksək inkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, vətəndaş cəmiyyəti yalnız onun üçün müəyyən əlverişli şərait yaradıldığı təqdirdə daha uğurlu və səmərəli şəkildə fəaliyyət göstərir, inkişaf edir. Belə bir şəraiti dövlət vasitəsilə və ya onun əksinə olaraq xeyli dərəcədə cəmiyyətin özü yaradır. Dövlət vasitəsilə dedikdə, lazımi qanunların yaradılması, demokratik strukturların formalaşdırılması, dövlətin hamılıqla qəbul olunmuş norma və prosedurlara ciddi riayət etməsi nəzərdə tutulur. Dövlətin əksinə dedikdə isə, müstəqil ictimai təşkilatlar, kütləvi demokratik ictimai hərəkatlar, kütləvi informasiya vasitələri timsalında konstitusiya çərçivəsində dövlətə qarşı balanslaşdırıcı güc mərkəzinin yaradılması nəzərdə tutulur.

Vətəndaş cəmiyyətinin həyati fəaliyyətinin başlıca şərti onun hər bir üzvünün konkret mülkiyyətə və ya belə bir mülkiyyətə yiyələnməkdə iştirak imkanına, ondan öz istədiyi

kimi istifadə edə bilmək və onun barəsində sərəncam vermək hüququna malik olmasıdır. Mülkiyyət sahibi olmaq vətəndaş cəmiyyətində şəxsiyyət azadlığının əsas, təməl şərtidir. Vətəndaş cəmiyyətinin uğurlu fəaliyyətinin daha bir mühüm şərti cəmiyyətdə müxtəlif qrupların və təbəqələrin mənafelərini bütün zənginliyi və çoxcəhətliyilə əks etdirən inkişaf etmiş, çoxcəhətli sosial strukturun mövcud olmasıdır. Sosial strukturun dağınıqlığı şəraitində individ dövlətdən birbaşa asılı olur ki, bu da onun öz şəxsi hüquq və azadlıqlarını reallaşdırmaq imkanını xeyli məhdudlaşdırır.

Vətəndaş cəmiyyətinin fəaliyyətinin növbəti şərti şəxsiyyətin sosial, intellektual və psixoloji inkişafının, daxili azadlığının, habelə bu və ya digər vətəndaş cəmiyyəti institutuna qoşularkən özfəaliyyət qabiliyyətinin yüksək səviyyədə olmasıdır. Bu şərt cəmiyyətin uzunmüddətli tədrici və inqilabi inkişafı nəticəsində ödənilərək reallaşır. Yaxşı inkişaf etmiş cəmiyyət strukturunu qısa müddət ərzində yaratmaq olmaz, bu, obyektiv prosesdir. Qısamüddətli kampaniya vasitəsilə hər kəsin canındakı kölə psixologiyasını kökündən bir anda qoparıb atmaq mümkün iş deyil – kölə təkcə yarınmağa çalışan yox, həm də bu yarınmanı qəbul edəndir.

Vətəndaş cəmiyyəti konsepsiyası istənilən halda dövlət strukturlarından kənarda duran bütün təşkilatları və birlikləri ehtiva edir. Politologiyada bunlar maraqlar üzrə yaradılan birliklər adlandırılır. Sosial-siyasi oriyentasiyalı qeyri-hökumət təşkilatları ilə birlikdə buraya həmkarlar ittifaqları, ticarət palataları, peşə kollegiyaları və sindikatları, etnik assosiasiyalar və siyasi partiyalar daxildir. Sosial-siyasi proqramları və məqsədləri olmayan birliklərin geniş spektri də vətəndaş cəmiyyətindən kənar deyildir – tələbə, idman və mədəniyyət cəmiyyətləri də bu cəmiyyətin seqmentləri sayılır.

İnkişaf etməkdə olan ölkələrdə qeyri-hökumət təşkilatları hökumətə səhihləşdirici təsirlər göstərməklə və siyasətçilərə

xüsusi məsələlərə dair məsləhətlər verməklə heç də az əhəmiyyətli rol oynamırlar. Vətəndaş cəmiyyətinin daha ənənəvi seqmentlərinin xüsusi çəkisi qeyri-hökumət təşkilatlarının xüsusi çəkisindən dəfələrlə artıqdır. Kilsə, həmkarlar ittifaqları, palatalar, idman klubları və s. kimi maraqlar üzrə qurulan birliklər qeyri-hökumət təşkilatlarından fərqli olaraq, geniş üzv bazasına, ölkədaxili maliyyə mənbələrinə malikdir. «İctimai rifah» uğrunda mübarizə aparan qeyri-hökumət təşkilatları isə yağışdan sonra çıxan göbələk kimi artsalar da, öz kadrlarını çevik elita fəallarının son dərəcə dar qrupundan seçib götürürlər. Və bu səbəbdən də fəaliyyətlərini maliyyələşdirməkdə onlar daha çox xarici sponsorlardan asılı olurlar.

Müasir demokratikləşmə şəraitində vətəndaş cəmiyyəti tədricən dövlətlə şəxsiyyət arasında, bir növ, vasitəçi kimi, əlaqələndirici vasitə kimi çıxış etməyə başlamışdır. Vətəndaş cəmiyyətinin yüksək inkişaf etdiyi Qərb ölklərində, xüsusilə ABŞ-da onun mexanizmləri dövlətlə daha sıx təmasda fəaliyyət göstərir. Məhz onların bu yaxınlığı müxtəlif şəxslərə öz mənafelərini daha dolğun reallaşdırmaq üçün imkanlar yaradır. Onlar tam hüquqlu subyekt kimi dövlətlə qarşılıqlı münasibətlərə daxil olurlar. Bunun nəticəsində isə bir tərəfdən şəxsiyyətin inkişafı üçün şərait yaranır, digər tərəfdən isə ölkədə dövlət hakimiyyətinin, bütövlükdə götürdükdə isə siyasi sistemin sabitliyi artır.

Vətəndaş cəmiyyəti şəxsiyyətin inkişafı, onun siyasi, iqtisadi, sosial və mənəvi cəhətdən formalaşması baxımından mühüm əhəmiyyətə malikdir. Hüquqi dövlət və vətəndaş cəmiyyətini səciyyələndirən keyfiyyətlərin şəxsiyyətə təsirinin mühüm cəhətlərindən biri də dəyərlər sisteminin yenidən mənalandırılması və dəyərlər oriyentasiyasının dəyişdirilməsidir. Hər bir cəmiyyətdə müəyyən dəyərlər sistemi mövcud olur və bu dəyərlər sistemi əhalinin, ayrı-ayrı fərdlərin davranış və hərəkətlərinin nizama salınmasında mühüm rol oynayır.

Xüsusən də fundamental xarakterli dəyərlər ictimai həyatın bütün sferalarına dərindən nüfuz edir. İnsanların iqtisadi sahədəki fəaliyyəti, siyasi fəallığı və mənəvi həyatı bir çox cəhətdən məhz onlardan asılı olur. Şəxsiyyətin, demək olar ki, bütün həyat fəaliyyəti həmin dəyərlər sisteminin əsasında qurulur. Dəyərlərin rolu bununla məhdudlaşmır, onlar ictimai şüurun müxtəlif kanalları, adət-ənənələr vasitəsilə nəsildən-nəslə ötürülür və inkişaf etdirilir.

Dövlət vətəndaş cəmiyyətinə onun strukturlarının hüquqi çərçivəsini müəyyən etməklə təsir edir və bununla bərabər, o, vətəndaş cəmiyyəti tərəfindən əks-təsirə məruz qalır. Məsələn, dövlətin qanunvericilik fəaliyyəti, xalqın nümayəndəli orqanlarının işi siyasi partiyaların, ictimai təşkilatların fəaliyyəti ilə sıx qarşılıqlı əlaqədədir. Belə nəticəyə gəlmək olar ki, dövlət mexanizminin, cəmiyyətin siyasi hakimiyyətinin bütün təşkilatlarının normal və səmərəli işi, şəxsiyyətlə dövlət arasındakı mühüm halqa, özünəməxsus şəkildə vasitəçi olan vətəndaş cəmiyyətinin inkişafı olmadan mümkün deyil. Vətəndaş cəmiyyəti elə bir sosial mühitdir ki, burada vətəndaş və onların birliklərinin əsas hüquq və azadlıqları həyata keçir.

İnsanların dövlətlə siyasi-hüquqi bağlılığını əks etdirən vətəndaşlıq institutunun olması o demək deyildir ki, belə əlaqələrin mövcud olduğu hər bir yerdə inkişaf etmiş vətəndaş cəmiyyəti mövcuddur. Üzvləri vətəndaşlıq statusuna malik olan bütün cəmiyyətləri vətəndaş cəmiyyəti səviyyəsinə yetişmiş cəmiyyət hesab etmək düzgün deyil. XX əsrin ən güclü totalitar dövlətlərindən olan SSRİ-də də vətəndaşlıq institutunun mövcud olmasına baxmayaraq, vətəndaş cəmiyyətinin inkişaf etməsi mümkün deyildi. Bu ölkədə vətəndaş tam şəkildə dövlətdən asılı vəziyyətdə idi, vətəndaşlar dövlətdən asılı olmayan, müstəqil və könüllü birliklər yarada bilməzdilər. İnsanların kiçik yaşlarından ahıllıq dövrünə qədər daxil olduqları bütün birliklər tamamilə dövlətin nəzarəti altında idi.

## Vətəndaş cəmiyyəti quruculuğu yolunda inamlı addımlar

Totalitar imperiyanın dağılması ilə bir arada dövlət müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikası da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu prioritet inkişaf yolu kimi seçmişdir. Xüsusən də 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra respublikada ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi prosesi geniş vüsət almışdır.

*«Biz Azərbaycanda demokratik respublika, vətəndaş cəmiyyəti quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır»* deyən ümummilli lider Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsi, demokratik dəyərlərin daha da möhkəmlənməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı naminə daim əzmkar fəaliyyət göstərmişdir. Heydər Əliyev hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl, məqsədyönlü və konkret strategiyaya əsaslanan islahatların həyata keçirilməsini böyük müdrikliklə təmin etmişdir. Böyük strateq Heydər Əliyev cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri əzmlə həyata keçirmişdir.

Tarixi təcrübə sübut edir ki, demokratikləşmə prosesinin sürətlənməsi təkcə iqtisadi inkişafla deyil, həm də cəmiyyətdə sabitliyin, hüquq qaydalarının, qanunçuluğun gücləndirilməsi, bir sözlə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna yönəlmiş islahatların dərinləşdirilməsi ilə şərtlənir. Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev «Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti» əsərində bu məqama toxunaraq xüsusi vurğulayır ki, respublikamız 10 ildən artıq müddətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna xidmət edən islahatları uğurla gerçəkləşdirmişdir. Azərbaycanda demokratikləşmə prosesi müəyyən yol keçmiş, respublikamız bu dövrün bir sıra sınaqlarından uğurla çıxaraq keçid dövrünün son mərhələsinə adlamışdır. Müəllifin fikrincə, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsinin bir sıra gerçəklikləri fonunda iqtidar da ölkəni artıq yeni metodlarla idarə edir.

Prezident İlham Əliyevin prezidentliyinin mühüm istiqamətlərindən biri də güclü iqtisadi sistemin yaradılmasından ibarət olmuşdur. İqtisadi sistemin sabitliyi labüd surətdə ictimai şüurun daha geniş demokratikləşməsinə geniş imkanlar açmış, genişmiqyaslı iqtisadi tədbirlər kompleksinin həyata keçirilməsi əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsinə, vətəndaşların maliyyə imkanlarının artmasına şərait yaratmışdır. Ölkənin iqtisadi cəhətdən güclənməsi, insanların maddi rifahının təmin edilməsi vasitəsilə cəmiyyətin mərhələli demokratikləşməsindən və keçid demokratiyasından möhkəmlənmiş, yəni konsolidasiya olunmuş məkana transformasiyası barədə danışmaq olar. ÜDM-in yüksək artımı, öz növbəsində, insan və şəxsiyyətin azadlığına, demokratik dəyişikliklərin mahiyyətinin dərk olunmasına, səmərəli təşəbbüslərin artmasına zəmin yaradır. Təsadüfi deyildir ki, son illərdə dövlətin ictimai-siyasi inkişafının əsas oriyentiri yalnız demokratik təsisatların və ənənələrin möhkəm sisteminin formalaşmasına yönəlmişdir.

Məhz bütün bunları nəzərə alan akademik Ramiz Mehdiyev yazır ki, hazırkı mərhələdə ölkə iqtidarı da demokratik dəyişikliklərin daha sürətlə həyata keçirilməsi vacibliyini dərk edir: *«Bir şeyi başa düşmək vacibdir ki, demokratiya təkcə müəyyən olunmuş gündə səsvermə qutularına yaxınlaşıb səs verməkdən ibarət deyildir. Demokratiya cəmiyyət həyatının bir hissəsi, onun üzvlərinin təfəkkür tərzi, cəmiyyət daxilində onun üzvləri arasında qarşılıqlı əlaqənin formasıdır. Bu proses dövlətin tənəzzülünə deyil, onun güclənməsinə və inkişafına imkan yaradır. Biz iqtidar olaraq bu həqiqətləri aydın başa düşürük. Dərk edirik ki, siyasi məkanın daim yeniləşməsinə ehtiyac var və biz etiraf edirik ki, demokratik inkişafımızın daha mükəmməl və davamlı olması üçün daha da irəli getməliyik. Son illərdə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin bütöv bir kompleksi həyata keçirilmişdir».*

Müstəqil Azərbaycanda ictimai həyatın demokratikləşdirilməsinin əsas istiqamətlərindən biri məhz vətəndaş cəmiyyəti institutlarının inkişaf etdirilməsidir. Bu istiqamətdə mühüm addımlardan biri də «üçüncü sektor»un – qeyri-hökumət təşkilatlarının formalaşması və inkişafı üçün münbit şəraitin təmin olunmasıdır. Sivil dövlətin vacib atributlarından biri kimi qeyri-hökumət təşkilatlarının (QHT) genişmiqyaslı fəaliyyəti Azərbaycan cəmiyyəti üçün də vacibdir. Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyətinin əsas institutlarından biridir. Hazırda ölkəmizin sürətli iqtisadi və siyasi inkişafı vətəndaş cəmiyyətinin fəaliyyətinə kömək göstərilməsində, qeyri-hökumət təşkilatlarını dəstəkləmək və inkişaf etdirmək sahəsində dövlətin imkanlarını genişləndirir.

Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» qanuna əsasən, ictimai birlik – təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas

məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər.

Azərbaycan Prezidenti İlham Əliyevin 27 iyul 2007-ci il tarixdə imzaladığı «Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında» sərəncam dövlətlə qeyri-hökumət sektoru arasındakı əməkdaşlığın inkişafı, vətəndaş cəmiyyəti quruculuğu işlərinin daha da sürətləndirilməsi, üçüncü sektorun fəaliyyətini dəstəkləmək sahəsində dövlət siyasətinin təkmilləşdirilməsi istiqamətində atılan mühüm addım kimi dəyərləndirilir. Sənəddə qeyri-hökumət təşkilatlarının meydana gəlməsi və inkişafı təhlil edilir, üç mərhələyə ayrılır. Qeyd olunur ki, 1992-1995-ci illəri əhatə edən ilkin mərhələ qeyri-hökumət təşkilatlarının yaranmasında sistemliyin olmaması və pərakəndəliklə xarakterizə olunur. 1995-ci ildə Azərbaycan Konstitusiyası qəbul edildikdən sonra isə qeyri-hökumət təşkilatlarının keyfiyyət və kəmiyyət artımı, eyni zamanda fəaliyyət növləri üzrə diferensiasiyası baş verir, müvafiq qanunvericilik bazası yaradılır. 2000-ci ildə «Qeyri-hökumət təşkilatları haqqında» yeni qanun qəbul edilir. Müasir dövrü əhatə edən üçüncü mərhələdə isə qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşdirilməsi prosesinin vacib institutlarından birinə çevrilir.

Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası milli maraqların qorunması, Konstitusiya və qanunlara hörmətin formalaşdırılması, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin respublikamızın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq normalara uyğun həlli ilə bağlı Azərbaycanın mövqeyinin dünyada fəal şəkildə təbliğ edilməsi sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin

gücləndirilməsini, onlara dövlət dəstəyi verilməsini nəzərdə tutur. Sənəddə dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən problemlərin həllinə qeyri-hökumət təşkilatlarının cəlb olunması və belə layihələr üzrə onlara məlumat, metodiki, təşkilati-texniki, maliyyə yardımlarının göstərilməsi prioritet kimi müəyyən edilir. Beləliklə, konsepsiya qeyri-hökumət təşkilatlarının problemlərinin həllinə, onların fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsinə xidmət etməklə bərabər, həm də ölkədə vətəndaş cəmiyyətinin inkişafına, demokratik təsisatların bərqərar olunmasına uğurla xidmət edir.

2008-ci ildən başlayaraq bir sıra yerli QHT-lərə dövlət büdcəsi hesabına qrantların ayrılması da dövlət səviyyəsində vətəndaş cəmiyyəti quruculuğu prosesinə göstərilən dəstəyin bariz təcəssümüdür. Dövlət üçüncü sektorun inkişafı üçün qarşısında duran vəzifələri görməklə yanaşı, onların həyata keçirilməsi istiqamətində müvafiq addımlar atır. QHT-lərin tərəfdaş kimi tanınmasını rəsmiləşdirən və onların Azərbaycanın siyasi sistemində yerini daha da möhkəmləndirən bu addımlar demokratik quruluşların ən mühüm atributlarından olan vətəndaş cəmiyyətinin əsaslarının gücləndirilməsinə yönəlmişdir. Dövlət başçısının demokratik siyasi sistemin gücləndirilməsi istiqamətində atdığı bu addım onun iqtisadi inkişafa paralel olaraq siyasi islahatların dərinləşdirilməsi konsepsiyasına uyğundur və onu göstərir ki, bu konsepsiya real həyatda tətbiq edilməkdədir. İndi Azərbaycan iqtisadi inkişafının elə bir səviyyəsinə çatıb ki, bu, dövlətə QHT-lərin fəaliyyətini stimullaşdırmağa imkan verir. Bununla da Azərbaycan dövləti özü vətəndaş cəmiyyətinin, deməli, həm də demokratiyanın qarantı və himayəçisinə çevrilmək istiqamətində mühüm addımlardan birini atmışdır.

QHT-lərlə dövlətin əməkdaşlıq mexanizmi hələ cənab İlham Əliyevin prezidentliyinin ilk ilində qurulmuşdu.

Əfvlə bağlı işçi qrupuna QHT-lərın nümayəndələri də daxil edilmişdi və bununla da dövlət strukturu ilə QHT-lərın birgə qərarqəbuletmə mexanizmi Azərbaycanın demokratik inkişaf tarixində ilk dəfə tətbiq edilmişdi. QHT-lərlə tərəfdaşlığın ikinci mühüm məqamı seçkilərdə QHT-lərin fəaliyyətinə şərait yaradılması və 2005-ci ilin parlament seçkilərində Prezidentin imzaladığı sərəncamda «exit-poll»un keçirilməsi ilə bağlı ayrıca bəndin olmasıdır. Prezidentin təsdiq etdiyi QHT-lərə Dövlət Dəstəyi Konsepsiyasında dövlətin QHT-lər vasitəsilə üstünlük verdiyi fəaliyyət istiqamətlərində Azərbaycanın dünya birliyinə inteqrasiyasının və beynəlxalq təşkilatlarla və xarici ölkələrdə fəaliyyət göstərən qeyri-hökumət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsi də yer almışdır. Bu da QHT-lər vasitəsilə cəmiyyətin demokratikləşməsinə yardımın bir forması sayıla bilər. Ona görə ki, ayrıca götürülmüş cəmiyyətin demokratikləşməsi başqa demokratik cəmiyyətlərə inteqrasiya olunmadan qeyri-mümkündür. QHT-lər alternativ siyasi partiyalar kimi demokratik, plüralistik siyasi sistemin atributlarından biridir. İndiyə qədər dövlət-QHT münasibətləri tədricən inkişaf etsə də, bu sərəncamın yaratdığı situasiya 3-cü sektorla dövlətin münasibətlərində yeni keyfiyyət mərhələsinin başlanması deməkdir. Bu o deməkdir ki, dövlət rəsmi olaraq QHT-ləri tərəfdaş kimi tanıyır və əməkdaşlığı sabitləşdirmək və daimiləşdirmək niyyətini təsdiq edir. Bu həm də onun göstəricisidir ki, Azərbaycan Prezidenti sosial problemlərin, insan hüquq və azadlıqları, söz, fikir azadlığı ilə bağlı məsələlərin həllində cəmiyyətin potensialını hərəkətə gətirmək niyyətindədir. Cəmiyyətin potensialının hərəkətə gətirilməsinin təcrübədən keçmiş mexanizmi isə QHT-lərdir. Bu, liberal islahatların daha da dərinləşdirilməsində Prezidentə əlavə ictimai dəstək verilməsi deməkdir.

Ümumiyyətlə, bu gün Azərbaycanda vətəndaş cəmiyyətinin mövcudluğunu şərtləndirən bütün seqmentlər normal və

ahəngdar şəkildə fəaliyyət göstərir. Ölkədə qeyri-hökumət təşkilatları ilə yanaşı, kütləvi informasiya vasitələrinin, habelə siyasi partiyaların fəaliyyəti üçün hərtərəfli imkanlar yaradılmışdır. Cəmiyyətin hər bir üzvünün hər hansı birlik, ittifaq, dərnək yaratmaq, ictimai həyatda fəal iştirak etmək hüququ ölkə Konstitusiyası və qanunları ilə tanınır. 18 mart 2009-cu il tarixdə Azərbaycan Respublikası Konstitusiyasına ümumxalq referendumu əsasında edilmiş əlavə və dəyişikliklər isə deməyə əsas verir ki, respublikamız demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesinin həlledici mərhələsinə daxil olaraq qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir.

## Söz və mətbuat azadlığı demokratikləşmənin prioritet xəttidir

*«Əgər güclü ictimai nəzarət olmasa, əgər Azərbaycanda azad cəmiyyət formalaşmasa, bizim iqtisadi uğurlarımızın gələcəyi olmayacaq, ancaq müvəqqəti xarakter daşıyacaqdır. Ona görə də son illər ərzində Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur».*

İlham ƏLİYEV

**Demokratik inkişafı şərtləndirən ən mühüm dəyərlərdən biri də kütləvi informasiya vasitələrinin müstəqilliyinin, o cümlədən mətbuat, söz, fikir azadlıqlarının yüksək səviyyədə təminatıdır. Bu azadlıqlar cəmiyyətdə sosial məsuliyyəti, şəffaflığı, siyasi plüralizmi, tolerantlığı şərtləndirməklə yanaşı, beynəlxalq konvensiyalar və digər normativ-hüquqi aktlarda təsbit edilmiş insan hüquqlarının etibarlı müdafiəsinə geniş imkanlar açır. Kütləvi informasiya vasitələri cəmiyyət həyatının bütün sahələrinə təsir göstərən qüdrətli vasitələrdən biri olaraq ictimai rəyin formalaşmasında, habelə ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır.**

## Söz və mətbuat azadlığının təmini yönümündə islahatlar

İnkişaf etmiş dövlətlərin mütərəqqi təcrübəsinə əsasən demək olar ki, kütləvi informasiya vasitələrinin öz funksiyasını sərbəst həyata keçirməsi üçün iki mühüm şərt tələb olunur. Bunlardan birincisi ölkə qanunvericiliyi ilə azad mətbuat fəaliyyəti ilə məşğul olmaq üçün bütün insanlara bərabər şəraitin yaradılmasıdır. Bu şərtə görə, qanunla hüququ olan hər bir vətəndaş istədiyi vaxt, istədiyi məkanda, istədiyi səviyyədə kütləvi informasiya vasitələri təsis edir, onların fəaliyyətinə rəhbərliyi həyata keçirir. İkinci başlıca şərt isə azad mətbuatın fəaliyyəti üçün normal imkanların, ilk növbədə demokratik və plüralist siyasi mühitin formalaşdırılmasıdır. Yəni jurnalist sərbəst şəkildə, heç nədən çəkinmədən, bütün qanuni mexanizmlərdən istifadə edərək, azad şəkildə informasiya toplamağı bacarmalı, əsl həqiqəti məsuliyyətlə, jurnalist etikası çərçivəsində cəmiyyətə çatdırmalıdır. Bu iki şərtə eyni dərəcədə əməl olunması hər bir demokratik cəmiyyətdə azad mətbuatın mövcudluğunun başlıca amilidir.

Əsası görkəmli ziyalı, ictimai xadim və ədib Həsən bəy Zərdabi tərəfindən qoyulan, 2010-cu ildə 135 illik yubileyi dövlət səviyyəsində təntənə ilə qeyd edilən Azərbaycan milli mətbuatının da formalaşma mərhələləri cəmiyyətin özünün inkişaf xüsusiyyətlərinə uyğun olaraq mürəkkəb təkamül yolu keçmiş və müasir səviyyəyə gəlib çatmışdır. Azərbaycan və eləcə də bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması, əslində, ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır.

Milli demokratik mətbuatın «Əkinçi» qəzeti ilə bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə

saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşı rolunu oynamışdır.

Azərbaycan ötən əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yaranmış, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirilmişdir. Hələ Azərbaycan Xalq Cümhuriyyəti illərindən sonra rüşeym halında inkişafını dayandırmış proseslər yenidən dirçələrək demokratik mətbuatın inkişafına xidmət etmişdir. Azərbaycan mətbuatının sürətli inkişafı isə respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxarmışdır. Hazırda hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 4500-ə yaxın müxtəlif kütləvi informasiya vasitəsi – qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri qeydiyyata alınmışdır.

Müstəqil Azərbaycan söz, fikir və mətbuat azadlığının maksimum səviyyədə təminatı baxımından MDB məkanında ən qabaqcıl yerlərdən birini tutur. Respublikada bu yönümdə həyata keçirilən mütərəqqi islahatlar, ilk növbədə demokratik, hüquqi və dünyəvi inkişaf yolunu prioritet seçərək bu yolla inamla irəliləyən Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyətinə verilən yüksək qiymətin ifadəsi sayılmalıdır. Azərbaycanda insan hüquqlarının, siyasi plüralizmin, vətəndaş cəmiyyətinin mövcudluğu öz təsdiqini həm də demokratik institut kimi formalaşmış kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətində, onların inkişafı üçün yaradılmış hüquqi təminatlarda tapır.

Xatırladaq ki, müstəqilliyin ilk illərində mətbuatın formalaşma və inkişaf yolu heç də rəvan olmadı. 1991-ci il 18 oktyabr tarixli «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nda vətəndaşların söz, fikir, mətbuat azadlıqları təsbit edilsə də, müstəqilliyin ilk illərində müəyyən obyektiv və subyektiv səbəblərdən ölkənin yeni formalaşan mətbuat orqanları ciddi məhrumiyyətlərlə, çətinliklərlə üzləşdi. Həmin dövrdə ölkədə hökm sürən gərgin ictimai-siyasi vəziyyət, silahlı dəstələrə arxalanan müxtəlif siyasi qrupların öz iddialarını gerçəkləşdirmək üçün qeyri-qanuni cəhdlər göstərməsi, Ermənistanın hərbi təcavüzünün doğurduğu ağır sosial-iqtisadi və psixoloji durum söz və mətbuat azadlığının təmin edilməsinə, bu sahədə dövlət və vətəndaşların mənafelərinin qorunmasına ciddi maneələr yaradırdı.

Həmin dövrdə ölkədə hökm sürən gərgin ictimai-siyasi vəziyyət, silahlı dəstələrə arxalanan müxtəlif siyasi qrupların məkrli iddialarını gerçəkləşdirmək üçün qeyri-qanuni cəhdlər göstərməsi, Ermənistanın hərbi təcavüzünün doğurduğu ağır sosial-iqtisadi və psixoloji durum söz, mətbuat, məlumat azadlıqlarının təmin edilməsinə, bu sahədə dövlətin və vətəndaşların mənafelərinin qorunmasına ciddi maneələr yaradırdı. Mövcudluğunu qoruyub saxlamağa çalışan o zamankı siyasi hakimiyyət çıxış yolunu yeni təşəkkül tapmaqda olan müstəqil mətbuata təzyiqləri gücləndirməkdə görürdü. 1992-ci il aprel ayının 12-də prezident səlahiyyətlərini icra edən Y.Məmmədovun fərmanı ilə hərbi senzura tətbiqi adı altında mətbuat üzərində nəzarət daha da gücləndirilmişdi. 1992-ci ildə zor gücünə hakimiyyətə yiyələnmiş AXC–Müsavat cütlüyünün bir illik fəaliyyəti dövründə isə ölkədə söz və mətbuat azadlığı sahəsində vəziyyət daha da pisləşmişdi. O zamankı ölkə rəhbərinin 15 aprel 1993-cü il tarixli sərəncamı ilə hərbi vəziyyətlə bağlı senzura təkcə hərbi sirlərə deyil,

bütün məlumatlara aid edilərək jurnalistlərin sərbəst informasiya fəaliyyətini daha da sərtləşdirmişdi. Yaxşı xatırlayırıq ki, o zaman nəinki hansısa jurnalistin, hətta sıravi vətəndaşın təhlükəsizliyinə də təminat yox idi. Həmin dövrdə jurnalistlər daha ağır senzura ilə üzləşir, öz fikirlərini sərbəst ifadə edə bilmirdilər. Mətbuat nümayəndələrinin ayrı-ayrı məmurlar tərəfindən döyülməsi, hakimiyyətə qarşı təndiqi yazılar dərc edən nəşrlərin bağlanması isə adi hala çevrilmişdi. Səriştəsiz AXC–Müsavat cütlüyünün bir illik hakimiyyəti dövründə kütləvi informasiya vasitələrinə qarşı hücumlar təkcə ayrı-ayrı məmurların özfəaliyyəti deyil, həm də dövlətin apardığı uğursuz siyasətin mahiyyətindən irəli gəlirdi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonrakı dövrdə isə Azərbaycan mətbuatının inkişafında birinci intibah dövrü başlandı. Bu mənada Heydər Əliyev eyni zamanda Azərbaycanda söz və mətbuat azadlığının, müstəqil mətbuatın əsasını qoymuş lider kimi böyük ehtiramla anılır. Respublikada ictimai-siyasi sabitliyin bərqərar olması, vətəndaşların təhlükəsizlik təminatının və qanunçuluğun tədricən gücləndirilməsi, sosial-iqtisadi problemlərin həlli istiqamətində ciddi addımların atılması KİV-in fəaliyyəti, söz və mətbuat azadlığının müdafiəsi sahəsində də əsaslı irəliləyişlərin əldə olunmasına şərait yaratdı. Həmin dövrdən etibarən Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanıldı. Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası 1993-cü ildən insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşuldu.

1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında ölkə vətəndaşlarının təhlükəsiz yaşamaq, söz, fikir, vicdan azadlığı təsbit edildi. Son 10 ildə Əsas Qanunun tələblərinə müvafiq surətdə həyata keçirilmiş demokratik hüquqi islahatlar kütləvi informasiya vasitələrinin və jurnalistlərin normal fəaliyyətinə geniş imkanlar açdı.

Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsində hər kəsin informasiya əldə etmək hüququ təmin edilmişdir. Konstitusiyaya bu müddəanın daxil edilməsi respublikamızın da qoşulduğu beynəlxalq müqavilələrdən irəli gəlir. 1948-ci ildə BMT tərəfindən qəbul edilmiş İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsi, eyni zamanda, 1966-cı ildə yenə BMT tərəfindən qəbul edilmiş Mədəni və siyasi hüquqların qorunmasına dair Konvensiyanın 19-cu maddəsi, 1950-ci ildə Romada qəbul edilən Avropa insan hüquqlarının qorunmasına dair Konvensiyanın 10-cu maddəsi bütünlükdə hər kəsin məlumat azadlığını – informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi və yayılması hüququnu təsbit edir.

1996-cı il noyabrın 15-də «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra Nazirlər Kabineti yanında Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin («Qlavlit») iş metodlarında müsbətə doğru ciddi dəyişikliklər edildi. Buna baxmayaraq, ölkədə demokratikləşmə prosesinin tədricən dərinləşməsi əlavə qərarların qəbulunu da zəruri edirdi. Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 iyun tarixli «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» isə vətəndaşların Azərbaycan Konstitusiyasında əksini tapmış söz, mətbuat, fikir azadlıqlarının təminatına əlverişli imkanlar açdı. Həmin dövlət proqramından az sonra Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 6 avqust tarixdə imzaladığı «Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının

təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım olmuşdur. Fərman eləcə də kütləvi informasiya vasitələri əməkdaşlarının beynəlxalq mərkəzlərin tədqiqat və təhsil proqramlarında, beynəlxalq konfrans, seminar və digər tədbirlərdə iştirakı üçün geniş şərait yaradılmasını nəzərdə tuturdu.

Həmin fərmanla 1966-cı il 27 oktyabr tarixdə yaradılan və Azərbaycanın bütün informasiya vasitələri üzərində senzura fəaliyyəti həyata keçirən Nazirlər Kabineti yanında Dövlət Sirlərini Mühafizə edən Baş İdarə («Qlavlit») ləğv olundu. Fərmanla həmçinin Azərbaycan Respublikası Prezidentinin hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərmanı, eləcə də bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncamı qüvvədən düşmüş hesab olundu. Bu qətiyyətli addım 1875-ci ildə «Əkinçi» qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatının ilk dəfə senzuradan tamamilə azad edilməsi demək idi. Mətbuat üzərində dövlət senzurasının ləğvi barədə fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, cəmiyyət həyatında onların səmərəli rolunun artırılması sahəsində geniş dövlət proqramının əsas istiqamətlərini müəyyənləşdirdi.

Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında 19 iyun 1998-ci il tarixli «Məlumat azadlığı haqqında», 10 iyun 1997-ci il tarixli «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında», 3 aprel 1998-ci il tarixli «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında», 12 mart 2002-ci il tarixli «Ətraf mühitə dair informasiya almaq haqqında» Azərbaycan Respublikası qa-

nunlarının qəbulu da mühüm addımlardan oldu. Eləcə də sonrakı mərhələdə 11 may 2002-ci il tarixli «Kütləvi informasiya vasitələri haqqında», 2005-ci il 19 dekabr tarixli «İnformasiya azadlığı haqqında» qanunlar qəbul edildi, bu zaman Avropa Şurasının mütərəqqi rəy və təklifləri nəzərə alındı.

2000-ci il 6 mart tarixli fərmanla isə «2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı» təsdiq olundu. Proqram jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kütləvi informasiya vasitələrinin istehsalı və yayımı ilə əlaqədar problemlərin həlli məqsədi ilə Əlaqələndirmə Şurasının yaradılmasını önə çəkirdi. Eyni zamanda, proqramda KİV subyektləri tərəfindən dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələrinin icarəsi və telefon rabitəsi üzrə müəyyən olunmuş tariflərin minimum məbləğdə ödənilməsi nəzərdə tutulmuşdu.

Bu fərmandan sonra ölkə rəhbərliyi demokratik inkişafın qarantı qismində çıxış etdiyi üçün mətbuatda özünütənzimləmə funksiyasını həyata keçirən Mətbuat Şurasının yaradılmasını mətbuat nümayəndələrinin öz öhdəsinə buraxdı. Şura 2003-cü ilin martında Jurnalistlərin I qurultayında azad şəkildə formalaşaraq fəaliyyətə başladı, mətbuatın özünütənzimləməsi prosesini uğurla həyata keçirdi.

Mətbuat və İnformasiya Nazirliyinin ləğvi ilə kütləvi informasiya vasitələrinin təsis olunması sahəsindəki bəzi süni əngəllər də tam aradan qaldırıldı. Azərbaycan Respublikası Prezidentinin 11 may 2002-ci il tarixli «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» fərmanı yazılı medianın təsis edilməsini və ondan istifadə imkanlarını qat-qat asanlaşdırmaqla, bu sahədə liberallığı tam təmin etmiş, mətbu nəşrlərin dövlət qeydiyyatı ilə bağlı icazə sistemini aradan

götürmüşdür. Bu isə inkişaf etmiş bir sıra Qərb ölkələrinin mətbuata dair qanunvericilik təcrübəsinə əsaslanır.

18 dekabr 2001-ci il tarixdə aparıcı KİV rəhbərləri ilə görüşən ümummilli lider Heydər Əliyev sonrakı mərhələdə də milli jurnalistikanın üzləşdiyi bir sıra problemlərin aradan qaldırılması üçün mühüm fərman və sərəncamlar imzaladı. Bu sənədlər mətbuata güzəştli kreditlərin verilməsini, onların maddi-texniki bazasının daha da gücləndirilməsini, çoxlu sayda qəzetin «Azərbaycan» nəşriyyatına olan borcunun 2005-ci ilədək dondurulmasını nəzərdə tuturdu. Bu diqqət və qayğının qarşılığı kimi, 2002-ci ildə «Jurnalistlərin dostu» mükafatına layiq görülən Heydər Əliyev martın 23-də bununla əlaqədar keçirilmiş təntənəli mərasimdəki çıxışında demişdir: *«Mən bu mükafatı çox yüksək dəyərləndirirəm... Təbiidir, mən çox mükafatlara layiq görülmüşəm. Ancaq bu mükafatın öz yeri var. Çünki aldığım mükafatların əksəriyyəti dövlətlər tərəfindən verilən mükafatlardır, dövlət mükafatlarıdır. Düzdür, başqaları da var. Amma bu, jurnalistlər tərəfindən verilən mükafatdır».*

Ümummilli lider bütün bunlarla yanaşı, ölkə mətbuatının qüsurlarını, problemlərini də hər zaman açıq şəkildə bildirir, jurnalistləri milli-mənəvi, etik dəyərlərə riayət etməyə çağırırdı. Böyük strateq mətbuat azadlığından sui-istifadə hallarını pisləyir, qanun pozuntularının yolverilməz olduğunu bildirirdi. Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü onda idi ki, o, peşə etikasını kobud şəkildə pozan, faktlara deyil, şəxsi mülahizələrə söykənən «yazarlar»ın qanunamüvafiq qaydada cəzalandırılmasına yol vermir, dövlət məmurlarına dözümlü olmağı tövsiyə edirdi. Məhz Heydər Əliyevin humanistliyinin nəticəsi olaraq o illərdə bir sıra məmurlar məhkəmələrdə qəzetlərə qarşı qaldırdıqları haqlı iddiaları geri götürdülər. Bu fakt ulu öndərin ölkədə azad mətbuatın fəaliyyətinə necə böyük əhəmiyyət verdiyini bir daha təsdiqləyir.

Mətbuatın 125 illiyi ilə əlaqədar jurnalistlərlə görüşündə ulu öndər Heydər Əliyev demişdir: *«Jurnalistikaya mənim hörmətimə, ehtiramıma şübhəniz olmasın. Yenə də deyirəm, mən hesab edirəm ki, lap o qatı yalan yazan jurnalistlər də jurnalistdir – qoy olsun. Azərbaycanda belə bir ifadə var: zaman hər şeyi saf-çürük edəcəkdir. Kim bu imtahandan, rəqabətdən keçəcək, həqiqətən hörmətli bir jurnalist olacaqsa, olacaq. Kimsə bu yolu keçə bilməyəcək, – yəqin ki, o, özünə başqa peşə axtaracaq. Amma bu, ayrı-ayrı fərdlərə aiddir. Ümumiyyətlə isə, bu peşə çox vacib peşədir. Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir. Bu, mənim fikrimdir və mən bu fikrimi heç vaxt dəyişdirməyəcəyəm. Sizə, bütün Azərbaycan jurnalistlərinə, mətbuat işçilərinə hörmət, ehtiramımı bildirirəm».*

**Mətbuata davamlı qayğı siyasəti**

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə Azərbaycan iqtidarı da söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Son 8 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir.

Dövlət başçısı respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasının tərəfdarıdır. Hələ 2005-

ci il 21 iyul tarixində «Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında», «Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında», habelə «Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında» sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymət verildiyini göstərmişdir. «Əkinçi» qəzetinin 130 illik yubileyinin respublikanın bütün bölgələrində yüksək səviyyədə qeyd olunması, jurnalistlərin fəxri adlarla mükafatlandırılması, bir neçə peşəkar jurnalistin prezident təqaüdünə layiq görülməsi dövlətin mətbuata qayğısının bariz təcəssümü kimi xatırlanır.

Keçid dövründə KİV-in üzləşdiyi bir sıra problemlər nəzərə alınmaqla mətbuata davamlı olaraq qayğı və diqqət göstərilir. Mətbuatın maddi-texniki və maliyyə bazasının möhkəmləndirilməsi məqsədi ilə 2006-cı il fevralın 8-də imzalanmış «Qəzetlərin Azərbaycan nəşriyyatına olan borclarının ödənilməsi barədə» sərəncama əsasən qəzetlərin «Azərbaycan» nəşriyyatına olan 450 min ABŞ dolları məbləğində borcu dövlət büdcəsindən ödənilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, borcları ödənilən qəzetlər sırasında müstəqil və müxalifyönlü qəzetlər çoxluq təşkil etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il 31 iyul tarixli «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında», eləcə də «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında» sərəncamları isə təsdiqləmişdir ki, Azərbaycanda mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Belə bir konsepsiyanın imzalanması milli mətbuatın problemlərinin həllində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Mətbuata Dövlət Dəstəyi Konsepsiyasının imzalanması dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdiril-

məsi, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğunda kütləvi informasiya vasitələrinin rolunun gücləndirilməsi məqsədindən irəli gəlmişdir.

Dövlət başçısının 2009-cu il 3 aprel tarixli «Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında» sərəncamı da məhz Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Sərəncamla həmçinin «Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu haqqında Nizamnamə» təsdiq edilmişdir. Sərəncam əsasında Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fəaliyyətinin təşkili üçün müvafiq yer ayrılmasını, maddi-texniki təminatını, xərclər smetasını, ştat cədvəlini, işçilərin say həddini və aylıq vəzifə maaşlarını müəyyən etmişdir. Həmçinin hər il dövlət büdcəsinin layihəsi tərtib edilərkən kütləvi informasiya vasitələrinə dövlət dəstəyi məqsədi ilə müvafiq vəsaitin ayrılması təmin edilmişdir. Fond ötən iki il müddətində uğurla fəaliyyət göstərir və mətbuata, jurnalistlərə qanunla müəyyən olunmuş qaydada maddi yardım göstərir.

Konsepsiyanın beşinci hissəsində kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin sahələri əksini tapmışdır. Yaradılacaq fond vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu, fikir, söz və mətbuat azadlığının, plüralizmin inkişaf etdirilməsi; insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi; sosial və siyasi fəallığının artırılması, ictimai və döv-

lət maraqlarının müdafiəsi; Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi; Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi; qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin işıqlandırılması; Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği, azərbaycançılıq ideyasının təbliği; gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi; regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi, azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi, informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi; diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi, dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsinə xidmət edən layihə və proqramları dəstəkləyir.

Dövlət başçısı İlham Əliyev milli mətbuatın qabaqcıl dövlətlərin mütərəqqi ənənələrinə əsaslanmaqla, eyni zamanda xalqın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayır. Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu il 10 iyun tarixli «Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında» sərəncamına əsasən Prezident Administrasiyasında tədbirlər planı hazırlanmış, Zərdab, Yevlax, Gəncə, Şəki, Lənkəran, Xaçmaz və Naxçıvanda «Azərbaycan milli mətbuatı–135: tarixi nailiyyətlər və perspektivlər» mövzusunda konfranslar keçirilmiş, mətbuat işçiləri mükafatlandırılmışlar. Ümumilikdə, Azərbaycan mətbuatının 135 illik yubileyinin «Gülüstan» sarayında yüksək səviyyədə qeyd edilməsi, jurnalistikamızın inkişafında rolu olmuş qələm sahiblərinin mükafatlandırılması, 40-dək

qəzetə və informasiya agentliyinə birdəfəlik yardımların verilməsi, Mətbuat Şurasının yeni binasının təntənəli açılış mərasiminin keçirilməsi, jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5 milyon manat vəsaitin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Xüsusi vurğulamaq lazımdır ki, mətbuat işçiləri üçün dövlət hesabına yeni mənzillərin inşası dünya miqyasında analoqu olmayan bir addımdır. 2010-cu ilin dekabrında həmin binaların tikintisi üçün Bakıda torpaq sahəsinin ayrılması da Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist əməyinə verdiyi yüksək qiymətin göstəricisidir.

Müstəqil Azərbaycan demokratik inkişaf yolu seçən ölkə kimi mətbuatın dövlət və cəmiyyət həyatındakı roluna mühüm önəm verməklə onun müstəqilləşməsi, mövcud problemlərinin həlli istiqamətində davamlı tədbirlər həyata keçirir. Bu da təsadüfi deyildir – respublikanın dünya informasiya məkanına daxil olması və informasiyalı cəmiyyətə keçid şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsinə, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsinə və müasir dövrün tələblərinə uyğunlaşmasına ehtiyac yaradır.

Azərbaycan mətbuatı keyfiyyətcə yeni mərhələdə sağlam jurnalistika dəyərləri əsasında fəaliyyət göstərməli, ifrat siyasiləşmə meyillərindən qaçmalı, cəmiyyət qarşısındakı sosial məsuliyyətini unutmamalıdır. Mətbuatda milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına hörmət prinsipi bütün konyunktur maraqlardan öndə dayanmalıdır. 2010-cu il 22 iyul tarixdə Mətbuat Şurasının yeni müasir binasında – şuranın İdarə Heyətinin üzvləri ilə görüşdə dövlət başçısı bu və digər məsələlərə xüsusi toxunmuş, mətbuatın cəmiyyətdəki missiyasını yüksək dəyərləndirməklə yanaşı, onun qarşısında duran başlıca

vəzifələrdən də söz açmışdır. Prezident İlham Əliyev hazırkı inkişaf mərhələsində mətbuatın müstəqilləşməsi, obyektivlik və tərəfsizlik nümayiş etdirməsi, siyasiləşmə meyillərindən, qərəzdən, böhtandan uzaq olması, milli-mənəvi dəyərlərə hörmətlə yanaşması, ümummilli məsələlərdə vətəndaşlıq mövqeyi nümayiş etdirməsi ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Dövlət başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələdə Azərbaycan mətbuatının birmənalı mövqedən çıxış etdiyini də razılıqla bildirmişdir: *«Ümumiyyətlə, mən məmnunluq hissi ilə deyə bilərəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan mediasında birmənalı mövqe vardır. Bu, çox vacibdir. Bu, milli məsələdir, ümummilli məsələdir. Bu məsələdə siyasi maraqlar kənara qoyulmalıdır. Bu məsələdə iqtidar-müxalifət münasibətləri ümumiyyətlə olmamalıdır. Bu məsələ ilə bağlı heç kim spekulyasiya etməməlidir. Bu, bizim ümummilli məsələmizdir, əsas məsələmizdir, əsas problemimizdir. Bütün Azərbaycan xalqı birləşərək bu məsələni həll edə bilər. Ona görə bu məsələ ilə bağlı həm ölkə daxilində, həm də xüsusilə sizin beynəlxalq media nümayəndələri ilə əlaqələrinizdə biz daha da fəal iş aparmalıyıq».*

Prezident İlham Əliyevin qurumun idarə heyətinin üzvləri ilə görüşdə mətbuatın mövcud durumu, problemləri, inkişaf perspektivləri ilə bağlı dəyərli tövsiyələrini verməsi bir daha göstərdi ki, ölkə rəhbəri demokratik proseslərin dərinləşdirilməsində, mülki cəmiyyət quruculuğunda medianın imkanlarını və rolunu yüksək dəyərləndirir. Qəzetlərin fəaliyyətindəki çatışmazlıqları, üstün cəhətləri incəliklərinə qədər diqqətə çatdıran dövlət başçısı ölkədə jurnalist peşəkarlığının artırılması, KİV-in iqtisadi müstəqilliyinin təmini üçün reklam bazarının inkişaf etdirilməsi, peşə etikasına ciddiliklə riayət

edilməsi, milli mənəvi dəyərlərin qorunması, vətənpərvərlik təbliğatının gücləndirilməsi ilə bağlı da fikirlərini açıqlamışdır.

Şübhəsiz, ölkənin iqtisadi imkanlarının artdığı, demokratikləşmə prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu bir şəraitdə mətbuatın üzərinə düşən vəzifələr də nisbətən fərqli mahiyyət kəsb etməyə başlayır. Yeni mərhələnin siyasi reallıqları mətbuatın cəmiyyətdə təkcə rolunu deyil, həm də sosial öhdəliklərini, məsuliyyətini artırır. Bu gün ictimaiyyət ölkənin taleyüklü məsələlərinə münasibətdə mətbuat nümayəndələrindən əsl vətəndaş mövqeyi, milli təəssübkeşlik nümunəsi tələb edir. Söhbət ondan gedir ki, peşə etikası ilə yanaşı milli təəssübkeşik, taleyüklü problemlərə vətəndaş yanaşması tədricən Azərbaycan mediasının keyfiyyət göstəricisinə çevrilməlidir.

Dövrün tələblərinə uyğun olaraq bu ehtiyacı hiss edən ölkə rəhbərliyi kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğu prosesində onların rolunun gücləndirilməsi məqsədi ilə bir sıra mühüm tədbirlər həyata keçirir. Son illər ölkə başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlərin nəticəsi olaraq bu gün Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər.

Həyata keçirilən tədbirlər ölkə jurnalistlərinin böyük razılığı, minnətdarlığı ilə qarşılanır. «RUH» Jurnalistləri Müdafiə Komitəsinin keçirdiyi sorğuya əsasən, Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu ilin yekunlarına görə «Jurnalistlərin dostu» mükafatına layiq görülməsi də bu razılığın təzahürüdür. Məlumat üçün bildirək ki, «Jurnalistlərin dostu» mükafatı medianın inkişafında, onun demokratik təsisat kimi

formalaşmasında müstəsna xidmətləri olan şəxslərə, ictimai-siyasi və dövlət xadimlərinə verilir. Qaliblər «RUH»un kütləvi informasiya vasitələri və jurnalist təşkilatları arasında keçirdiyi sorğu vasitəsilə müəyyənləşdirilir. 2010-cu il üzrə qalibi müəyyən etmək üçün bu il dekabrın 1-dən 20-dək keçirilmiş sorğuda 30 gündəlik, 19 həftəlik qəzet, 13 jurnalist təşkilatı, 11 informasiya agentliyi, 8 xəbər portalı, 7 telekanal, 3 radio və 2 jurnal iştirak etmişdir. Bütövlükdə sorğu 30 minə yaxın media nümayəndəsinin rəyini ümumiləşdirmişdir. Nəticələrə əsasən, mediaya verdiyi dəyərə və bütövlükdə kütləvi informasiya vasitələrinə diqqətə görə Prezident İlham Əliyev 81 faiz səslə birinci yerə layiq görülmüşdür. Cənab İlham Əliyev yalnız ötən il mətbuatın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərlə bu mükafata tam layiq olduğunu nümayiş etdirmişdir.

Mükafatın təqdimetmə mərasimində çıxış edən dövlət başçısı İlham Əliyev mətbuatın inkişafı istiqamətində bundan sonra da bütün lazımi tədbirlərin həyata keçiriləcəyini demişdir: *«Azərbaycan hüquqi dövlət quruculuğu işində çox böyük nailiyyətlərə çatmışdır. Biz, sözün əsl mənasında, azad, müasir, demokratik, hüquqi dövlət qururuq. Hüquqi dövləti azad mətbuatsız təsəvvür etmək mümkün deyildir. Məhz buna görə Azərbaycanda söz azadlığı, vicdan azadlığı, plüralizm meyilləri gücləndirilməlidir. Azərbaycan dövləti və Azərbaycan iqtidarı, əlbəttə, bu sahədə öz işini elə qurmalıdır ki, bu azadlıqlar Azərbaycanda tam şəkildə bərqərar olsun. Son illər ərzində görülmüş işlər onu göstərir ki, biz düzgün yolla addımlayırıq».*

Dövlət başçısının mətbuatda milli maraqların qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə daha dolğun çatdırılması ilə bağlı fikirləri də obyektiv reallığa söykənir. Bu zərurət yalnız Azərbaycanın müharibə şəraitində yaşaması,

ərazilərinin 20 faizinin işğal altında olması ilə şərtlənmir. Nəzərə almalıyıq ki, hazırda bütün planeti təsiri altına alan qloballaşma prosesi bir sıra mütərəqqi cəhətləri ilə yanaşı, xalqların tarixən formalaşmış dəyərlər sisteminə təhdidlər doğurur. Belə bir şəraitdə kütləvi informasiya vasitələrində milli-mənəvi və əxlaqi dəyərlərə lazım olduğundan daha az diqqət yetirilməsi mənəvi aşınma prosesinə rəvac verə bilər. Milli mənəvi dəyərlərin, mütərəqqi adət-ənənələrin qorunması zərurəti həm də çeşidli dünyagörüşü və həyat tərzinin, mədəni dəyərlərin, dini konfessiyaların qovuşduğu Azərbaycanın milli-etnik tərkibi etibarı ilə dünyanın tolerant dövlətlərindən biri olması ilə bağlıdır. Xalqımız yalnız zəngin milli-əxlaqi keyfiyyətlərini, milli «Mən»ini, heysiyyətini qorumaqla gələcək yaşam fəlsəfəsini düzgün müəyyənləşdirə, dünya miqyasında layiqli yerini, mövqeyini təmin edə bilər.

Prezident İlham Əliyev bədnam erməni təbliğatına qarşı mübarizədə Azərbaycan mətbuatının rolunu da yüksək qiymətləndirmiş, respublikamızın bu sahədə mühüm uğurlara imza atdığını demişdir: *«Əlbəttə ki, mən bu sahədə dövlət siyasəti ilə bərabər, media qurumlarının fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Biz artıq Azərbaycan haqqında reallıqları dünya ictimaiyyətinə çatdıra bilirik. Bizim artıq mövcud olan mətbuat resurslarımız, Azərbaycanın dünyadakı dostlarının sayının artması buna imkan verir. Bilirsiniz ki, Azərbaycan indi enerji təhlükəsizliyi, regional təhlükəsizlik üçün çox önəmli ölkədir. Bəzi hallarda bizim fikrimiz, rəyimiz və addımlarımız həlledici xarakter daşıyır. Təsadüfi deyil ki, Azərbaycanla dostluq münasibətləri qurmaq istəyənlərin sayı artmaqdadır. Bu da bizim informasiya resurslarımızdır. Son illərdə onlarla səfirlik açılmışdır. Azərbaycanın dünyada əllidən yuxarı səfirliyi vardır. Bu da bizim informasiya resurslarımızdır».*

Dövlət başçısı İlham Əliyevin «Jurnalistlərin dostu» mükafatının təqdimetmə mərasimindəki dərin məzmunlu nitqi – mətbuatın bugünü və gələcək perspektivləri ilə bağlı söylədiyi dəyərli fikir və tövsiyələr ümumən bu sahənin inkişafı baxımından olduqca əhəmiyyətlidir. Ümumilikdə son proseslər göstərir ki, Azərbaycan Prezidenti ölkə mətbuatının mütərəqqi milli və bəşəri dəyərlər əsasında inkişafında maraqlıdır və bunun üçün bütün zəruri tədbirləri həyata keçirir. Azərbaycan dövləti özünün konstitusion prinsiplərinə sadiq qalaraq söz və məlumat azadlığının təmin edilməsi sahəsində müəyyən etdiyi siyasi xətti ardıcıl şəkildə davam etdirir.

# Dünya azərbaycanlılarını birləşdirən lider

*«Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Düşünürəm ki, diaspor qurumlarımız bu sahədəki səylərini bundan sonra da artırmalı, intellektual potensialı ilə maddi resurslarını birləşdirməli, xarici ölkələrdəki diplomatik korpuslarımızla əlaqələrini genişləndirməlidirlər».*

İlham ƏLİYEV

**Xarici ölkələrdə yaşayan həmvətənlərimizlə çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər uğrunda səfərbər etmək son 18 ildə müstəqil Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən olmuşdur. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu sərbəst müdafiə etmək, qorumaq və inkişaf etdirmək, respublikamızla əlaqələrini genişləndirmək və digər hüquqlarını müdafiə etməkdən ibarətdir. Dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin**

**həlli naminə səfərbər etmək, milli birliyə, həmrəyliyə və mütəşəkkiliyə nail olmaq bu gün də ölkə iqtidarının prioritet saydığı məsələlərdəndir.**

## Diaspor quruculuğu prosesi keyfiyyətcə yeni mərhələdə

Müxtəlif səbəblərdən xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsini vacib məsələ kimi nəzərdən keçirən Azərbaycan iqtidarı ölkədəki sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətinə uyğun olaraq diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlərin həyata keçirilməsini son dərəcə vacib sayır.

Xatırlatmaq lazımdır ki, 1991-ci ilin oktyabrında canı, qanı bahasına müstəqilliik nemətinə qovuşmuş Azərbaycanda cəmiyyətin qütbləşərək parçalanması, milli maraq və mənafelər ətrafında səfərbər olunmaması, birlik və həmrəylik ideyalarının özünə yer tapmaması özünü ciddi problem kimi göstərmiş, milli inkişafı əngəlləyən amilə çevrilmişdi. 1993-cü ilin iyun ayınadək Azərbaycanda vətəndaş sülhü və həmrəyliyi mövcud olmamış, cəmiyyətdəki siyasi konfrantasiya kəskinləşərək ağır siyasi böhrana gətirib çıxarmış, bütövlükdə ölkə parçalanmaq və müstəqil dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdir. Bu dövrdə xalqın iradəsindən kənar formada hakimiyyətdə olan naşı  qüvvələr xarici siyasətin prioritet istiqamətlərindən biri kimi diaspor və lobbi quruculuğuna diqqət yetirməmiş, müxtəlif səbəblərdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın vahid Vətənlə – Azərbaycanla əlaqələrinin genişləndirilməsi, milli problemlərin həllində onların geniş potensialından istifadə edilməsi kimi vacid məsələlərə olduqca etinasız, laqeyd münasibət bəsləmişlər. 1991-1993-cü illərdə müstəqil Azərbaycanın ideoloji-siyasi, təbliğati müstəvidə Ermənistana uduzması, ciddi informasiya blokadasına məruz

qalması, üzləşdiyi ağır faciələri dünya ictimaiyyətinə vaxtında və düzgün çatdıra bilməməsi məhz bu səhlənkarlığın, etinasızlığın acı fəsadları kimi diqqəti çəkir.

Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bu arzuolunmaz vəziyyət aradan qalxmış, bu böyük şəxsiyyət müxtəlif səbəblərdən Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər sistemi ətrafında birləşməsinə, onların malik olduğu güclü potensialın ümummilli problemlərin həllinə yönəldilməsinə xidmət edən bir sıra tədbirlər həyata keçirmişdir. İndi siyasi baxışlarından asılı olmayaraq hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın təhtəlşüurunda bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır. Ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görmüş, ümumxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürmüşdür. *«Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam»* deyən ulu öndər yeritdiyi siyasətlə dünya azərbaycanlılarının şəksiz siyasi-mənəvi liderinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyev özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də

onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyildir. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışır.

Xalqın milli-mənəvi birliyinin əlamətdar rəmzinə çevrilmiş 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi hər il yüksək səviyyədə qeyd olunması ulu öndərimizin necə böyük və uzaqgörən şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il dekabrın 16-da «Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında» qərar qəbul etməklə yenicə müstəqillik elan etmiş Azərbaycanda milli həmrəylik ideyasının möhkəmlənməsinə əvəzsiz töhfə vermişdir. Xalqımız, o cümlədən dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-də milli həmrəylik gününü qeyd edirlər. Qədim tarixə malik Azərbaycan xalqı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan ən xoş amal və duyğularla bu bayramı keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət taparaq, ürəklərdə Vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır.

Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq və mütəşəkkil birgə qüvvə təşkil etmək səylərinə ciddi fikir verir. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin

nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır. Ümummilli lider Heydər Əliyev həmin tarixi tədbirdəki çıxışında dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi zərurəti ilə bağlı fikirlərini söyləmişdir. Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr kimi diqqəti cəlb etmişdir.

Qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Ümummilli liderimiz Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə 2002-ci ildə «Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması barədə» fərman imzalamışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birlik və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş

imkanlar vermişdir. Dövlət komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

2002-ci ildə Milli Məclisdə qəbul olunmuş «Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında» qanun xaricdəki azərbaycanlılara dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirir. Qanuna əsasən xaricdə yaşayan, fəaliyyət göstərən soydaşlarımızın hüquqları Azərbaycan dövləti səviyyəsində qorunur. Habelə imkanlı azərbaycanlıların ölkə iqtisadiyyatına sərmayə qoyması üçün qanunda vergi, gömrük güzəştləri nəzərdə tutulur. Bu qanun ölkəmizin diaspor və lobbi quruculuğu sahəsindəki fəaliyyətinin hüquqi əsaslarını və prinsiplərini müəyyənləşdirən mühüm sənəd kimi təqdirəlayiqdir.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı – Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderin diaspor quruculuğu sahəsindəki fəaliyyətini uğurla davam etdirərək ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında konsolidasiyasına çalışır. Prezident İlham Əliyev hər zaman bildirir ki, yalnız güclü diaspora malik xalqlar xarici siyasətdə mühüm uğurlar qazanır, dünya miqyasında mənafelərini hər zaman layiqincə qoruyur, ümummilli problemlərinin həllinə nail olur, öz dilini, mədəniyyətini, incəsənətini, tarixini lazımi səviyyədə təbliğ edirlər. Prezident İlham Əliyev hələ 27 iyul 2004-cü il tarixdə ölkə diplomatlarının iştirakı ilə Xarici İşlər Nazirliyində keçirdiyi geniş tərkibli müşavirədə diaspor quruculuğu işini xarici siyasət sahəsində prioritet istiqamətlərdən biri kimi qiymətləndirmiş və bu fəaliyyətin daha da

gücləndirilməsi vacibliyini önə çəkmişdir. Dövlət başçısı milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mücadilə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Bu və digər uğurlarla qətiyyən kifayətlənməyən Azərbaycan Prezidenti Azərbaycan diasporunun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq niyyətindədir.

Azərbaycan Prezidenti İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə martın 16-da Bakı şəhərində Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə respublikanın çağdaş tarixində ən əlamətdar hadisələrdən biri kimi mühüm aktuallıq kəsb edir. Dünya azərbaycanlılarının II qurultayının keçirilməsində məqsəd hesabat dövründə diaspor quruculuğu istiqamətində görülmüş işləri dəyərləndirmək, habelə xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi bəzi problemləri, yaşadıqların ölkələrin iç siyasətinə təsir imkanlarını öyrənmək, onların tarixi Vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlərin hazırlanmasını təmin etməkdən ibarət olmuşdur. 16 mart 2006-cı il tarixdə keçirilmiş qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir. Yüksək mütəşəkkillik və ruh yüksəkliyi ilə başa çatan

qurultayın nəticəsi kimi Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması barədə qərarın qəbul edilməsi, dünya azərbaycanlılarına müraciətin, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı xüsusi bəyanatın, işğal olunmuş ərazilərdə tarixi abidələrimizin, mədəni irsimizin dağıdılması ilə bağlı beynəlxalq təşkilatlara müraciətlərin və digər sənədlərin qəbulu istər təbliğati, istərsə də səmərəli əks hücumun təşkili baxımından böyük əhəmiyyətə malikdir.

Hazırda Azərbaycan inkişafının elə yüksək mərhələsindədir ki, respublikamızın bütün həyati əhəmiyyətli sahələrdə qazandığı böyük uğurlar beynəlxalq səviyyədə geniş təbliğ olunmalıdır. Prezident İlham Əliyevin qurultaydakı proqram xarakterli, dərin məzmunlu nitqi də məhz diaspor quruculuğu sahəsində perspektiv fəaliyyət prioritetlərinin müəyyənləşdirilməsi baxımından son dərəcə maraq doğurur. Dövlət başçısı bütün sahələrdə yüksək dinamizmlə inkişaf edən Azərbaycanın beynəlxalq arenadakı nüfuz və mövqelərinin daha da gücləndirilməsini, respublikamız haqqında tam obyektiv, dolğun informasiyaların dünya ictimaiyyətinə çatdırılmasını milli diaspor təşkilatları qarşısında vacib məsələ kimi müəyyənləşdirmişdir. Son illər Cənubi Qafqazda həyata keçirilfən bütün qlobal enerji və kommunikasiya layihələrinin lokomotivi qismində çıxış edən Azərbaycan dünyada kifayət qədər tanınsa da, bu sahədə hələ çox iş görülməli, erməni lobbisinin, bütövlükdə isə anti-azərbaycançı şəbəkənin respublikamıza qarşı apardığı əks-təbliğatın qarşısı daha müasir, səmərəli vasitələrlə alınmalıdır. Dövlət başçısı İlham Əliyev Dünya azərbaycanlılarının II qurultayındakı çıxışında bu məsələyə xüsusi diqqət ayırmış, respublikamız haqqında məlumat qıtlığının tamamilə aradan qaldırılması vacibliyini bəyan etmişdir: «*Azərbaycanın addımları bütün sahələrdə, o cümlədən xarici siyasətdə müsbət nəticələrini*

*verməkdədir. Sizə bildirmək istəyirəm ki, son iki il ərzində Azərbaycanın 21 səfirliyinin açılması haqqında qərarlar verilibdir. İndi Azərbaycanın müxtəlif ölkələrdə 46 səfirliyi olacaq ki, onların da 21-nin açılması haqqında son iki ildə qərar verilibdir. Onların bəziləri açılıb fəaliyyət göstərir, bəziləri isə bu yaxınlarda açılacaqdır. Bu, nə deməkdir?! O deməkdir ki, Azərbaycan öz xarici siyasətini daha da dolğun, hərtərəfli şəkildə aparacaqdır. Çünki, – yəqin siz də bunu hiss edirsiniz, biz də bunu bilirik, – əfsuslar olsun ki, Azərbaycan həqiqətləri dünya ictimaiyyəti tərəfindən o qədər də yaxşı dərk edilmir. Məlumat qıtlığı var, bəzi hallarda informasiya blokadası ilə də üzləşirik. Çünki bizim əleyhimizə dünyanın erməni lobbisi fəaliyyət göstərir və hər vəchlə çalışır ki, Azərbaycanı ləkələsin, Azərbaycanda gedən proseslərə mənfi don geydirsin və beləliklə, Azərbaycanı təcrid edilmiş vəziyyətə salsın».*

Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar ilk növbədə öz milli kimliklərini dərk etməli və qorumalı, Azərbaycanın dilini, mədəniyyətini, incəsənətini, mütərəqqi ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidirlər. Hər bir xalqın mövcudluğunun ideoloji-siyasi və mənəvi təməl prinsipi kimi nəzərdən keçirilən bu meyarlar xaricdəki soydaşlarımız üçün də əsas olmalı, daim diqqətdə saxlanılmalıdır. Bu, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin təminatı baxımından bəlkə də ən mühüm şərtdir. Zəngin milli-mənəvi irsi ilə dünyanın ən qədim etnoslarından biri kimi tanınan azərbaycanlılar haqqında xarici ölkələrdə obyektiv rəyin formalaşdırılması məhz bu prinsiplərə riayət olunmasından keçir. Bunun üçün xaricdəki soydaşlarımızı birləşdirən diaspor təşkilatları yüksək fəallıq nümayiş etdirərək yaşadıqları ölkələrin ictimai-siyasi həyatına geniş təsir imkanları əldə etməyə, müəyyən mövqelərə malik olmağa çalışmalıdır.

Yalnız bu halda Azərbaycan haqqında məlumat qıtlığını aradan qaldırmaq, ölkə reallıqlarını beynəlxalq ictimaiyyətə çatdırmaq mümkündür. Dövlət başçısı cənab İlham Əliyevin qurultayda tövsiyə etdiyi kimi, Azərbaycanda gedən proseslər dünya dövlətləri üçün açıq olmalıdır: *«Bizə o lazımdır ki, Azərbaycanda gedən proseslər dünya üçün açıq olsun. Son iki il yarım ərzində mən çoxsaylı xarici səfərlər etmişəm. Mənim müxtəlif qonaqlarla çox görüşlərim olubdur. Görürəm ki, Azərbaycana ilk dəfə gələn qonaqlar tam başqa fikirlə gəlirlər. Amma burada reallıqları, ab-havanı görəndə, Azərbaycanın ümumi inkişafını, cəmiyyətdə hökm sürən dözümlülüyü, tolerantlığı, qonaqpərvərliyi, vətəndaş həmrəyliyini görəndə Azərbaycandan tamamilə başqa fikirlə ayrılırlar. Ona görə diasporun fəaliyyəti məhz bu istiqamətdə də öz töhfəsini verməlidir və bunu etmək üçün diaspor daha da möhkəm təşkilatlanmalıdır».*

Respublikamızın sosial-iqtisadi sahədə qazandığı nailiyyətlərin dünya miqyasında təbliğ olunması beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsi baxımından da olduqca vacibdir. Azərbaycanın zəngin təbii resurslara, habelə Şərqlə Qərbi qovuşduran əlverişli tranzit imkanlarına malik olması, qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi iştirak etməsi, eləcə də balanslaşdırılmış xarici siyasət yeritməsi onun dünyanın siyasi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə əlaqələrinin genişlənməsinə geniş imkanlar açır. Qlobal iqtisadi layihələrin uğurla həyata keçirilməsi təkcə iqtisadi deyil, həm də siyasi aspektdən Azərbaycan üçün son dərəcə faydalıdır. Prezident İlham Əliyev haqlı olaraq hesab edir ki, sosial-iqtisadi sahədəki uğurlar xaricdə yaşayan soydaşlarımızın müstəqil respublikamızla bağlı dolğun və hərtərəfli təbliğat aparması, habelə Azərbaycana investisiya qoyuluşunu təşviq etməsi baxımından daim istinad ediləcək zəngin informasiya bankı rolunu oynayır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazın ən ciddi problemi kimi indiyə qədər həllini tapmaması bütövlükdə Xəzər hövzəsi regionunda sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa potensial təhlükə mənbəyi kimi çıxış edir. Azərbaycanın 20 faizdən artıq ərazisini işğal altında saxlayan bu təcavüzkar dövlətin ən müxtəlif səviyyələrdə ifşası, erməni lobbisinin respublikamıza qarşı apardığı bədnam təbliğata qarşı effektiv əks-hücumun təşkili prosesində müvafiq dövlət və qeyri-dövlət qurumları ilə yanaşı, xaricdə yaşayan azərbaycanlıların da fəal mövqe tutması son dərəcə vacibdir. Beynəlxalq hüquq normaları, o cümlədən bir sıra mötəbər təşkilatların münaqişə ilə bağlı prinsipial mövqeyi Ermənistanın cəfəng iddialarının həm hüquqi, həm də siyasi baxımdan əsassızlığını tamamilə sübuta yetirir. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş və zor işlədilməklə sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi birmənalı qeyd olunmuşdur. Bu sənədlərdə silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Son illərdə isə rəsmi Bakının diplomatik fəallığının güclənməsi ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində ardıcıl və sistemli fəaliyyətin həyata keçirilməsi ilə müşayiət olunur. Nəticədə Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə əməl etməyən təcavüzkar dövlət olması faktı indi bir çox dünya dövlətləri tərəfindən tanınır. *«Ən yaxşı müdafiə hücumdur»* postulatı özünü doğruldur – Azərbaycan gerçəkliklərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlər rəsmi Yerevanın diplomatik mövqelərinin zəifləməsi ilə nəticələnir.

AŞ PA-nın 2004-cü il tarixli 1416 saylı qətnaməsində Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal olunduğu və

separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi göstərilmiş, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş tələblərin yerinə yetirilməsinin və silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyi vurğulanmışdır. Bu tələblər AŞ PA-nın 2005-ci il 1690 saylı Tövsiyəsində də öz əksini tapmışdır. Eləcə də ATƏT-in faktaraşdırıcı missiyası nümayəndələrinin 2005-ci ilin martında Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri zamanı orada ermənilərin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırıldığı təsdiq olunmuş, bu fakt təşkilatın yekun hesabatında özünə yer almışdır.

Bu və digər faktların dünya ictimaiyyətinə çatdırılması üçün ilk növbədə azərbaycanlıların xaricdəki diaspor təşkilatlarının fəaliyyətinin daha da gücləndirilməsinə, onların daha sıx əlaqələndirilməsinə, mütəşəkkilliyinin təmin olunmasına böyük ehtiyac duyulur. Dünya azərbaycanlılarının II qurultayının ən mühüm nəticələrindən biri də məhz bu sahədə daha müasir, çevik və işlək fəaliyyət mexanizmlərinin aşkara çıxarılması və onların praktik tətbiq metodlarının hazırlanmasıdır. Dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqələrinin daha da möhkəmləndirilməsi, bu sahədə hüquqi, siyasi, ictimai və mədəni əsasların gücləndirilməsi dövrün tələbindən irəli gələn obyektiv zərurətdir. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət hiss etməlidir. Eynilə Azərbaycan hökuməti də vətənimizin getdikcə artan maddi və mənəvi gücündən, siyasi nüfuzundan bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların hüquq və mənafelərinin qorunması üçün istifadə etməlidir.

Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi bu prioritetlərə əsaslanaraq son illər milli diaspor quruculu-

ğu sahəsində uğurlu nəticələr əldə etmişdir. Müxtəlif ölkələrdəki Azərbaycan icmalarının fəaliyyətinin gücləndirilməsi, çevikliyinin artırılması, bu təşkilatların vahid mərkəz ətrafında birləşdirilməsi əsas strateji məqsədlərdən biri kimi qəbul edilərək, bu istiqamətdə müvafiq addımlar atılmışdır. Diaspor quruculuğu sahəsində həyata keçirilən ardıcıl və məqsədyönlü iş nəticəsində Amerika, Avropa, Asiya və Şimali Afrikanın ayrı-ayrı ölkələrində 100-dən çox yeni azərbaycanlı icması yaradılmış, bununla da xaricdəki soydaşlarımızı birləşdirən qurumların sayı 400-ü ötmüşdür.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesini keyfiyyətcə təkmilləşdirmək, diaspor təşkilatlarının fəaliyyətini daha səmərəli şəkildə əlaqələndirmək, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işinin müasir tələblər səviyyəsində qurulmasını təmin etmək məqsədi ilə Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması barədə qərarın qəbul olunması da qurultayın ən mühüm nəticələrindən biri kimi vurğulanmalıdır.

Bu gün xaricdə yaşayan soydaşlarımızın üzərinə düşən mühüm vəzifələrdən biri də Azərbaycanda müxtəlif iqtisadi layihələrin icrasına dəstək vermək, yaşadıqları yerlərdə ölkəyə sərmayə qoyuluşunu geniş təşviq etməkdir. Ölkəmizdə azad rəqabət və sahibkarlıq mühitinin hökm sürməsi, xarici sərmayələrə dövlət təminatının olması xaricdə yaşayan soydaşlarımıza bu yöndə fəal iş aparmaq üçün geniş imkanlar açır. Bu gün xaricdə yaşayan soydaşlarımız arasında dünya miqyasında tanınan nüfuzlu sahibkarlar, iş adamları var. Onlar bu prosesdə bilavasitə iştirak etməli, Azərbaycan iqtisadiyyatına sərmayə qoymaqla dinamik inkişaf prosesinə töhfə verməli, eyni zamanda öz kapitallarını artırmalıdırlar. Yeri gəlmişkən, 2002-ci ildə Milli Məclisdə qəbul olunmuş «Xaricdə yaşayan azərbaycanlılara dövlət qayğısı haqqında»

qanun xaricdəki azərbaycanlılara dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirir. Qanuna əsasən, xaricdə yaşayan, fəaliyyət göstərən soydaşlarımızın hüquqları Azərbaycan dövləti səviyyəsində qorunur. Habelə imkanlı azərbaycanlıların ölkə iqtisadiyyatına sərmayə qoyması üçün qanunda müəyyən vergi və gömrük güzəştləri də nəzərdə tutulur. Qurultayda sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsinə xaricdə yaşayan azərbaycanlı iş adamlarının geniş cəlb edilməsi məqsədi ilə hərtərəfli şəraitin yaradılmasının məqsədəuyğunluğu fikri bir daha önə çəkilmiş, bu məqsədlə xüsusi forumun keçirilməsi tövsiyə olunmuşdur.

## Türkdilli xalqların mənəvi birliyi güclənir

Azərbaycana strateji müttəfiq olan bir sıra ölkələrlə diaspor quruculuğu və lobbiçilik sahəsində fəaliyyətin əlaqələndirilməsi Dünya azərbaycanlılarının II qurultayının ən yaddaqalan və vacib qərarlarındandır. Bu baxımdan qardaş Türkiyə ilə əməkdaşlığın gücləndirilməsi məsələsinin xüsusi önə çəkilməsi heç də təsadüfi deyildir. Qurultayın qətnaməsində də vurğulandığı kimi, tarixən bir-birinə qırılmaz tellərlə bağlı olan xalqlarımız çətin məqamlarda çiyin-çiyinə verərək, qardaş köməyini bir-birindən əsirgəməmişlər. Türk dünyasının iki böyük şəxsiyyətinin – Mustafa Kamal Atatürkün «Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir» və Heydər Əliyevin «Biz bir millət, iki dövlətik» kəlamları qarşılıqlı əlaqələrimizin dərin tarixi köklərini ifadə edərək siyasi, iqtisadi və mədəni əməkdaşlığımızın təməl prinsiplərini müəyyənləşdirmişdir. Son illər iki qardaş ölkənin diasporlarının fəaliyyətinin əlaqələndirilməsi ciddi uğurlara yol açmış, xüsusilə Avropa Şurası çərçivəsində Ermənistanın ciddi diplomatik uğursuzluqlara düçar olmasına gətirib

çıxarmışdır. Dünyadakı türk diaspor təşkilatları ilə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində müəyyən addımlar atılmış, bir sıra məsələlərdə Azərbaycan və türk diasporlarının eyni mövqedən çıxış etməsi, birgə aksiyalar keçirməsi təmin edilmişdir. Qurultayda bu sahədə aparılan işlərin davam etdirilməsi, birgə fəaliyyət strategiyasının hazırlanması üçün türk və Azərbaycan diaspor təşkilatlarının müştərək forumunun keçirilməsi də tövsiyə olunmuşdur. Türkiyə ilə yanaşı, Azərbaycanın bu sahədə digər islam dövlətləri ilə, eyni zamanda dünyada ən güclü lobbi və diaspora malik olan İsraillə əməkdaşlıq etməsi də zəruri sayılmışdır.

Dünya azərbaycanlılarının II qurultayı xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsində, soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmləndirilməsində yeni mərhələnin açıldığını bir daha təsdiqləmişdir. Bu, bir tərəfdən, Azərbaycanın iqtisadi və siyasi cəhətdən güclənməsi, onun regionda lider dövlətə çevrilməsi, beynəlxalq nüfuzunun artması ilə, digər tərəfdən isə xaricdə yaşayan azərbaycanlılarla işin keyfiyyətinin yüksəldilməsi, qarşıya yeni vəzifələrin qoyulması ilə əlaqədardır. Hazırda Azərbaycan dövləti öz qarşısına həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi, yaşadıqları ölkələrdə təsirli qüvvəyə çevrilməsi, dünya azərbaycanlılarının taleyi üçün məsuliyyət daşıması kimi vəzifələr qoyur. Buna görə də azərbaycanlı icmalarının yaşadıqları ölkələrin müxtəlif hakimiyyət və ictimai strukturlarında layiqli təmsil olunması, aparıcı dövlətlərdə nüfuzlu lobbinin formalaşdırılması Azərbaycan dövlətinin və xaricdə yaşayan soydaşlarımızın qarşısında duran mühüm vəzifələrdəndir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etdiyi son 8 ildə ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirmişdir. Dövlət başçısı türkdilli xalqların oxşar milli irsinə,

ülvi və pak dəyərlərinə, mental xüsusiyyətlərinə həm də ümumi müqaviməti və səfərbərliyi təmin edən güclü ideoloji-siyasi təsir vasitəsi kimi yanaşır. Türk dövlətlərinin, xalqlarının, diaspor təşkilatlarının vahid ideya və məqsədlər uğrunda mübarizə aparması, ideoloji-siyasi cəbhədə eyni nöqtəyə vurması, bədnam erməni lobbisinə qarşı mütəşəkkil mübarizəyə qoşulması cənab İlham Əliyevin ən çox səy göstərdiyi məsələlərdəndir. 2006-cı ilin sentyabr ayında isə Ankarada keçirilən Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı dövlət başçısı İlham Əliyevin türk dövlətləri arasında birləşdiricilik missiyasını həyata keçirən və bu sahədə böyük uğurlar qazanan lider olduğunu bir daha təsdiqləmişdir. Forumdakı çıxışında *«Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl bilirik və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücüm etməliyik, çünki həqiqət bizim tərəfimizdədir»* deyən dövlət başçısı cənab İlham Əliyev «Ən yaxşı müdafiə hücumdur!» taktikasından çıxış etməklə türk dünyasına qarşı aşkar düşmənçilik siyasəti aparan bədnam ermənilərin yerində oturdulması vacibliyini önə çəkmişdir.

2009-cu ildə Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. Milli Məclisdə baş tutan sammitdə türk dövlətlərinin əməkdaşlığı istiqamətində mövcud potensialdan daha səmərəli istifadə

vacibliyi vurğulanmışdır. Nəhayət, 2009-cu ilin oktyabr ayında Naxçıvanda keçirilmiş Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Görüşü Türkiyə, Azərbaycan, Qazaxısan və Türkmənistan arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə intensiv inkişafı, ümumi səylərin vahid məqsədlər naminə səfərbər olunması baxımından mühüm nəticələrlə yadda qalmışdır.

Bütün bu uğurlara, müsbət nəticələrə rəğmən, mövcud reallıq göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Tam əminliklə demək olar ki, bu istiqamətdə həyata keçirilən tədbirlər milli diaspor quruculuğu prosesinə mühüm töhfə olmaqla, dünya azərbaycanlılarının daha sıx birliyinə, əməli fəaliyyətinə geniş imkanlar açacaqdır.

## III FƏSİL

# Yeni hədəflərə doğru

# Modernləşmə strategiyası: iqtisadi və siyasi liberallaşma

*«Ölkəmizin qarşısında duran başlıca vəzifə iqtisadiyyatın bundan sonra da sürətlə inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi, ölkənin modernləşdirilməsidir. Son illərdə bu istiqamətdə çox iş görülmüşdür.*

*...Biz ölkəmizdə geniş modernləşdirmə siyasəti aparırıq. Bu siyasət bizə imkan verəcək ki, enerji resurslarından daha da az asılı olaq. Bizim əsas məqsədimiz güclü, dayanıqlı, uzunmüddətli iqtisadi inkişafı təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, Azərbaycanda sosial məsələlərin həlli üçün bütün lazımi tədbirləri görməkdir».*

İlham ƏLİYEV

**Müasir dövrdə dövlətlərin demokratiklik əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqdan mandat almış hakimiyyət fəaliyyəti ilə daim ictimai etimadı doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməyə çalışır. Bu prinsip son 8 ildə Heydər Əliyev dövlətçilik irsini inamla davam etdirən və daha da möhkəmləndirən Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinin başlıca qayəsini təşkil edir. İlk gündən hakimiyyətin xalqa xidmət vasitəsi olduğunu bəyan etmiş dövlət başçısı verdiyi bütün vədləri əməli işi ilə doğrultmaq üçün əzmlə çalışır, hər bir addımında vətəndaşların mənafeyini əsas götürür.**

## Siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır

İdarəetməyə yeni ruh və müasirlik çalarları gətirmiş cənab İlham Əliyev hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərin mühüm şərti hesab etməklə yanaşı, bu mütərəqqi ənənəni son 18 ildə müstəqil Azərbaycanın davamlı, dönməz inkişaf yoluna çevrilmiş demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesinin keyfiyyətcə yeni mərhələsi kimi dəyərləndirir. Hazırda respublikamız öz inkişafının elə uğurlu mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının ən müxtəlif sahələrində sosial rifaha, iqtisadi azadlığa və səmərəli təşəbbüskarlığa yönələn, hər bir vətəndaşın taleyində kardinal dəyişikliklərlə müşayiət olunan, demokratik islahatların dərinləşdirilməsi yolu ilə insan inkişafına xidmət edən liberal islahatları yüksək dinamizmlə gerçəkləşdirmək imkanı yaradır.

Vətəndaşların yaşayış tərzində, sosial rifah halında özünü qabarıq göstərməyə başlayan müsbət dəyişikliklər, hər bir hüquqi dövlətdə ictimai-siyasi sabitliyin başlıca təminatçısı sayılan orta təbəqənin – milli sahibkarlar ordusunun mövqelərinin ildən-ilə möhkəmlənməsi ümumbəşəri səciyyə daşıyan demokratik hüquqi idealların ictimai şüurda adekvat dərk olunmasına, qavranılmasına və qiymətləndirilməsinə əlverişli şərait formalaşdırır. Azərbaycanın hazırkı sürətli iqtisadi inkişaf tempi ictimai konsensusun əldə olunmasına, liberallaşmaya xidmət edən hüquqi-siyasi və demokratik islahatlar kursunun daha da genişləndirilməsini obyektiv zərurətə çevirir.

Bir ictimai-iqtisadi formasiyadan digərinə keçid cəmiyyətləri üçün səciyyəvi olan bir sıra çətin maneələri uğurla adlamış Azərbaycanda cəmiyyətin istər iqtisadi, istərsə də siyasi-hüquqi liberallaşdırılmasına yönəlmiş çoxşaxəli islahatlar

müasir mərhələdə dövlətçilik maraqları ilə qətiyyən ziddiyyətə girmir. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra hazırda Azərbaycanın prioritet inkişaf yoluna çevrilmiş milli iqtisadi modeli özünəməxsus uzaqgörənliklə əsaslandırmış, eyni zamanda bu spesifik modelin yalnız demokratik tərəqqiyə əsaslanan möhkəm ictimai-siyasi sabitlik şəraitində davamlı nəticələr verə biləcəyini vurğulamışdır. Böyük strateq mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini müdrikliklə irəli sürmüş və onun mərhələlərlə həyata keçirilməsinə çalışmışdır.

Demokratik həyat tərzinin diktə etdiyi gerçəklik kimi, Azərbaycanda da bazar iqtisadiyyatının fundamental prinsipləri – xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı, sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçilmişdir. Uğurla reallaşdırılan bu strategiya nəticəsində ölkə iqtisadiyyatının strukturu mülkiyyət və təşkilati-hüquqi baxımdan köklü surətdə dəyişdirilmiş, bir sıra mərkəzi və dövlət idarəetmə orqanları ləğv edilmiş, digərlərinin tənzimləmə funksiyaları saxlanılmaqla təsərrüfat funksiyaları dayandırılmışdır. Heydər Əliyevin rəhbərliyi altında iqtisadi sahədə həyata keçirilən islahatların başlıca qayəsini həm də dövlətsizləşdirmə prosesinin sürətləndirilməsi – iqtisadi cəhətdən güclü və müstəqil milli şirkətlərin yaradılması, insanların biznes təşəbbüskarlığının, özünüifadə və özünütəsdiq imkanlarının artması, demokratik dəyərlərin ictimai şüurda möhkəmlənməsi kimi mühüm prinsiplər təşkil etmişdir. Ümummilli lider dəfələrlə bildirmişdir ki, Azərbaycan könüllü olaraq qoşulduğu demokratiya yolunun iqtisadi bazisə əsaslanan təkamül modelini özünün alternativsiz inkişaf yolu hesab edir. Və tətbiq olunan hər hansı mütərəqqi yeniliyin xalqın milli xüsusiyyətləri, ictimai şüur səviyyəsi

ilə səsləşməsini vacib sayır: *«Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir».*

1995-ci ildən respublikamızda hüquqi-siyasi və iqtisadi islahatların paralelliyi prinsipinin gözlənilməsi, Azərbaycanın inkişaf tempinə cavab verən liberallaşdırma siyasətinin aparılması Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf strategiyasının ana xəttini təşkil edir. Yeni minilliyin başlanğıcında formalaşan mürəkkəb və ziddiyyətli dünya nizamı böyük siyasət ustadının məharətlə əsaslandırdığı bu strategiyanın alternativsizliyini bir daha sübuta yetirir. Bəşəriyyətin minilliklər boyu can atdığı demokratik meyarların cəmiyyətdə yalnız elmi əsaslarla həyata keçirilən səmərəli iqtisadi islahatlar və təkamül nəticəsində özünə möhkəm dayaqlar tapa bilməsi fikri qloballaşan dünyanın gerçəklikləri fonunda tam təsdiqlənir.

Azərbaycan Prezidenti İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə davamlı və yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, dünya təsərrüfat sisteminə inteqrasiyası mümkün deyildir. Eyni zamanda, iqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər əsasən uğursuzluqla nəticələnir, çünki tətbiqinə cəhd göstərilən mütərəqqi yeniliklər vətəndaşların real yaşayış səviyyəsi ilə bir araya sığmır. Məhz bu reallıqdan çıxış edən Azərbaycan Prezidenti hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını məhz demokratik və iqtisadi islahatların paralel şəkildə davam etdirilməsi şərtilə real hesab edir.

*«Azərbaycanda siyasi islahatlar çox cəsarətlə aparılır. Bu da bizim prinsipial və düşünülmüş seçimimizdir. İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir. Bu zəmin əsasında Azərbaycanda güclü sosial siyasət aparılır»* deyən Azərbaycan Prezidenti İlham Əliyev hesab edir ki, cəmiyyət həyatındakı fundamental dəyişikliklər hüquqi-siyasi islahatların dərinləşdirilməsini, inkişaf etmiş Qərb dövlətlərinin mütərəqqi demokratik ənənələrinin mənimsənilməsinə xidmət edən fəal siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxarır. Respublikamızın aktiv inkişaf fazasına daxil olduğu indiki mərhələdə demokratik normaların ictimai şüurda möhkəmlənməsinə və qəbul edilməsinə daha yaxşı imkanlar yaranmışdır. Bu çağırışın əsasında Azərbaycanda liberal dəyərlərin, insan və vətəndaş hüquq və azadlıqlarının prioritetinə əsaslanan, cəmiyyətə təkamül yolu ilə əxz edilən suveren demokratiya modelinin formalaşdırılması məqsədi dayanır.

Azərbaycan müstəqillik qazandıqdan sonra azad bazar iqtisadiyyatı və demokratik inkişaf yolunu prioritet kimi seçsə də, bu prosesin tədricən həyata keçirilməsinə, təkamülə əsaslanmasına üstünlük vermişdir. Müasir dövrdə bəşəriyyətin alternativsiz yaşam tərzinə çevrilmiş demokratiya hər bir xalqın sosial-iqtisadi, mədəni, intellektual baxımdan bu prosesə hazırlığı ilə şərtlənir. Demokratik dəyər və normaların hər hansı cəmiyyətdə möhkəmlənməsi, özünə möhkəm dayaqlar tapması üçün birinci növbədə insanların maddi rifah halı, yaşayış və düşüncə tərzi mütərəqqi dəyişikliklərə məruz qalmalıdır. Maddi sıxıntılar içərisində yaşayan insan azad ola bilməz və iqtisadi baxımdan inkişaf etməmiş hansısa cəmiyyətdə demokratiya qurmaq mümkün deyildir. Demokratiyanın fundamental şərti azadlıqdır – insanın tam azadlığı isə

təkcə qanunun və hüquq qaydalarının deyil, həm də iqtisadi müstəqilliyin hökm sürdüyü cəmiyyətlərdə mümkün ola bilər. Aforizmə çevrilmiş «İqtisadi müstəqilliksiz ümumiyyətlə müstəqillik yoxdur» ifadəsi də bu fikri daha aydın əks etdirir. Liberal demokratiyanın başlıca şərti sağlam və güclü orta sinfin mövcudluğudur və bunsuz təbii demokratik inkişafdan söhbət belə gedə bilməz.

Müasir dövrdə demokratik və hüquqi dövlət quruculuğunun ilkin şərtlərindən biri də məhz dövlətin iqtisadi imkanlarının geniş olmasıdır. Məhz bu səbəbdən də Azərbaycanın inkişafının Prezident İlham Əliyev tərəfindən elan edilmiş öncül istiqaməti ilk növbədə əhalinin maddi rifahının yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, orta təbəqənin mövqelərinin möhkəmlənməsidir. Orta təbəqənin güclənməsi cəmiyyətdə baş qaldıra biləcək hər hansı neqativ proseslərin maddiləşən işgüzar fəallığa çevrilməsini təmin edən başlıca amildir. Dövlət idarəçiliyinin, birgəyaşayışın, vətəndaş-dövlət münasibətlərinin bugünkü reallıqda ən yaxşı, ahəngdar forması olan demokratiya yalnız iqtisadi cəhətdən sürətli inkişaf yolunda olan, xüsusi mülkiyyətçilik münasibətləri inkişaf edən dövlətlərdə bərqərar ola bilər.

Azərbaycan hələ ötən əsrin sonlarında dünyadakı mütərəqqi inkişaf meyillərini düzgün qiymətləndirərək demokratiya və azad bazar iqtisadiyyatı yolunu özünün strateji milli inkişaf strategiyası elan etmişdir. Respublikamızda gələcək siyasi dəyişikliklərin əsası hələ 1993-1996-cı illərdə qoyulmuş, ümumxalq referendumu yolu ilə qəbul edilmiş Konstitusiyanın 7-ci maddəsində respublikamızın demokratik, hüquqi, dünyəvi və unitar dövlət olduğu təsdiqini tapmışdır. Eyni zamanda, demokratik həyat tərzinin diktə etdiyi gerçəklik kimi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan olunmuşdur. Ölkə iqtidarı siyasi və sosial-iqtisadi problemlərin dolaşıq düyünlərini açaraq,

Avratlantik məkana inteqrasiya xətti götürərək tamamilə fərqli ictimai-siyasi və iqtisadi struktur yaratmağa başlamış, ölkənin təcrid vəziyyətindən çıxarılması, vətəndaş cəmiyyətinin qurulması milli prioritetə çevrilmişdir.

Respublikamız hazırkı iqtisadi potensialı ilə demokratikləşmə prosesinin keyfiyyətcə yeni mərhələsinə keçid prosesinə tam hazırdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu kimi layihələrin gerçəkləşdirilməsi qloballaşma layihələrində ölkənin önəmini əhəmiyyətli dərəcədə artırır, eyni zamanda, Avropa məkanının enerji təhlükəsizliyi məsələlərini həll edir. Paralel olaraq bir tərəfdən, ölkəmizdə yerli sahibkarlığın investisiya imkanları artır, yeni investisiya proqramlarının gerçəkləşdirilməsi və neft satışından gələn gəlirlərdən bu layihələrdə istifadə edilməsi üçün geniş perspektivlər yaranır, digər tərəfdən isə əcnəbi sərmayədarlar fəal surətdə cəlb olunur. Demokratikləşmə prosesinə keçid mərhələsində sahibkarlığın və xüsusi mülkiyyətçiliyin roluna verilən böyük qiymət iqtisadi cəhətdən inkişaf etmiş bir çox dövlətlərin uğurlu təcrübəsinə əsaslanır. İqtisadi cəhətdən fəal və azad, təşəbbüskar, mütərəqqi islahatlara meyilli təbəqə daim proqressiv ideyaları dəstəkləyir, inkişafı buxovlayan bürokratizmə, konservatizmə qarşı çıxır.

Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev «Azərbaycanın kursu: sabitləşmədən modernləşməyə doğru» əsərində düzgün olaraq göstərir ki, keyfiyyətcə yeni mərhələdə Azərbaycanın üstünlük verdiyi modernləşmə xətti özünün ilkin uğurlu əsasını ölkədə sabitləşmə və iqtisadi inkişaf istiqamətində həyata keçirilmiş tədbirlərdən götürür. Şübhəsiz, ötən əsrin 90-cı illərində ulu öndərin böyük siyasi iradə və qətiyyəti hesabına formalaşdırdığı siyasi sabitlik iqtisadi və hüquqi islahatlara başlamaq üçün uğurlu zəmin

formalaşdırmış, cəmiyyətin normal inkişaf harmoniyası təmin olunmuşdur.

Müstəqilliyin ilk illərində cəmiyyətdə həllini gözləyən bir sıra problemləri – yeni iqtisadi-siyasi sistemin qaçılmaz reallıqlarının ictimai rəydə hələ yaxşı «həzm olunmadığını», dövlətçilik üçün daxili və xarici təhdidlərin aradan qalxmadığını, sivil siyasi münasibətlər sisteminin formalaşmadığını nəzərə alan ulu öndər Heydər Əliyev bir müddət «dəmir əl» siyasətinə üstünlük vermək məcburiyyətində qalmış, totalitar düşüncə tərzinin ziyanlı komplekslərindən azad olmamış cəmiyyətin liberal demokratik islahatlara tədricən hazırlanmasını vacib saymışdır. Bunun üçün dövlət idarəetmə sistemində institusional xarakterli islahatların həyata keçirilməsini təmin edən, iqtisadi inkişaf üçün etibarlı zəmin hazırlayan, qanunçuluğu, hüquq qaydalarını möhkəmləndirən böyük strateq demokratiyanı üstqurum kimi dəyərləndirərək onun bazisində, ana axarında iqtisadiyyatın dayandığını böyük müdrikliklə vurğulamışdır.

Ulu öndərin irəli sürdüyü inkişaf modelinin uğurunu şərtləndirən mühüm amillərdən biri də demokratikləşməyə və iqtisadi inkişafa xidmət edən islahatların paralelliyinin qorunub saxlanılmasıdır. Başqa sözlə, böyük strateq Heydər Əliyev yaxşı bilirdi ki, iqtisadi inkişaf və demokratikləşmə prosesləri bir-birini tamamlamalı, təkamül xarakteri daşımalı, ən əsası, ictimai şüurda obyektiv dərk olunmalıdır. Böyük strateq Heydər Əliyev milli gəliri yüksəltmədən, ümumi daxili məhsulun artımına, vətəndaşların yaşayış tərzində əsaslı dəyişikliklərə nail olmadan, təşəbbüskarlığa və maddiləşən işgüzar fəallığa təkan verən əlverişli biznes mühiti yaratmadan, milli sahibkarlığın inkişafını təmin etmədən vətəndaş cəmiyyəti və hüquqi dövlət ideyasının mümkünsüzlüyünü müdrikliklə vurğulamışdır.

Azərbaycanda demokratikləşmə və modernləşmənin ilkin mərhələsi üçün xarakterik xüsusiyyətlərdən biri də dünya

təsərrüfat sisteminə və ümumilikdə Avratlantik məkana sürətli inteqrasiyanın təmin edilməsi olmuşdur. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsində külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan vermişdir. Avropa Şurası, ATƏT, Avropa Birliyi kimi mühüm demokratik təşkilatlarla əməkdaşlıq təkcə siyasi-hüquqi deyil, ictimai həyatın digər sahələrində də kardinal dəyişikliklərə yol açmış, respublikamıza xarici sərmayə qoyuluşlarının həcmi artmış, iqtisadi modernləşmə və siyasi liberallaşma üçün əlverişli zəmin formalaşmışdır.

**Demokratik inkişaf təkamülə əsaslanır**

Ötən müddətdə Heydər Əliyev siyasi kursunu bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ilk gündən müəyyən geosiyasi reallıqlardan çıxış edərək bildirmişdir ki, sürətli demokratik yeniliklər cəmiyyətdə yalnız təkamül yolu ilə, mərhələli şəkildə bərqərar ola bilər. Bu qənaəti tamamilə haqlı saymaq olar ki, kənardan süni şəkildə ixrac edilən demokratiya modelləri transformasiyalı cəmiyyətlərdə şəraitə uyğunlaşmağa heç də həmişə hazır olmur. Müasir dünyada demokratikləşmə prosesinin müəyyən universal tələbləri, meyarları olsa da, hər bir ölkənin özünəməxsus milli mentaliteti, tarixi, sosial-iqtisadi, siyasi və mədəni inkişaf xüsusiyyətləri, qeyri-bərabər başlanğıc imkanları nəzərə alınmalıdır. Bu gün Avropa dövlətlərində eyni demokratiya modelinin mövcudluğundan danışmaq mümkün deyildir. Bu baxımdan bizə eyni vaxtda həm demokratiyaya, həm də bazar iqtisadiyyatına keçidi zorla qəbul etdirmək səyləri iqtisadi və

siyasi dəyişikliklər arasında əsrlər boyu yaranmış qarşılıqlı əlaqələr modelini dəyişmək cəhdi, tarixi presedentləri olmayan eksperiment deməkdir.

*«Modernləşmə xətti yenə də gündəlikdədir»* əsərində akademik Ramiz Mehdiyev bununla bağlı yazır: *«Biz gizlətmirik ki, bəzən Azərbaycanda demokratiyanı tənqid edirlər, lakin onun çatışmazlıqlarının nədən ibarət olmasını əməlli-başlı izah etmirlər. Siyasi və sosial-iqtisadi sahədəki, o cümlədən vətəndaşların rifahının təmin edilməsi sahəsində ümdə problemlərin həllindəki uğurları, habelə iqtisadiyyatın liberallaşmasını nəzərə almadan tənqid edirlər. Bununla bərabər, unudurlar ki, bizim demokratiya, obrazlı şəkildə desək, yeniyetməlik mərhələsindədir, halbuki Qərb demokratiyası artıq postindustrial cəmiyyət şəraitində yaşayır, siyasi texnologiyalar dövrünə qədəm qoymuşdur. Azərbaycan hələ postmodernə keçid dövrünü genişləndirməli və dərinləşdirməli, sonra onu başa çatdırmalıdır».*

Görkəmli filosofun bu fikri ilə tam razılaşmaq olar ki, müasir dünyada bəzən demokratiya müəyyən dövlətlərin öz geosiyasi maraqlarını reallaşdırmaq üçün bəhanəyə çevrilmiş, ikili standartlara yol açmışdır. Respublikamız sürətlə inkişaf etdiyi, siyasi, hüquqi, eləcə də insan hüquq və azadlıqlarının təmini sahəsində ciddi islahatlar həyata keçirdiyi bir dönəmdə bəzən Qərbin müəyyən qərəzli dairələrinin obyektiv gerçəkliyə əsaslanmayan təhdidləri ilə də üzləşir. Əvvəla unudulur ki, demokratiya başlanğıcı olan, lakin sonu və son imkanları hələ heç kim tərəfindən müəyyən edilməyən uzun bir inkişaf yoludur. 20 illik müstəqillik tarixi olan bir dövlətdən yüksək Qərb demokratiyasını gözləməyin özü qeyri-adekvat, yanlış yanaşmadır. Yəni inkişaf etmiş və demokratik inkişaf yolunda böyük təcrübə qazanmış Qərb ölkələrinin standartları ilə totalitar rejimlərdən yenicə xilas olmuş, keçid mərhələsini

yaşayan ölkələrdə gedən prosesləri eyniləşdirmək cəhdi istənilən halda uğursuzluğa məhkumdur.

Demokratiya yalnız yüksək maddi rifah şəraitində özünə möhkəm ictimai dayaqlar tapa bilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin fəaliyyətində iqtisadiyyat həyata keçirilən islahatların əsas ağırlıq mərkəzini, nüvəsini təşkil etmişdir. Bu da kifayət qədər əsaslı yanaşma olaraq Azərbaycanın dövlət müstəqilliyinin iqtisadi bazisini möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlmişdir. İnkişaf etmiş dövlətlərin təcrübəsi də təsdiqləyir ki, iqtisadi sistemin sabitliyi labüd surətdə ictimai şüurun daha geniş demokratikləşməsinə doğru aparır. Azərbaycanın hazırkı sürətli iqtisadi inkişaf tempi cəmiyyətdə ictimai konsensusun əldə olunmasına, modernləşməyə xidmət edən hüquqi-siyasi və demokratik islahatlar kursunun daha da genişləndirilməsini obyektiv zərurətə çevirir.

2009-cu ilin noyabrında BDU-nun 90 illik yubileyində dərin məzmunlu nitq söyləyən dövlət başçısı İlham Əliyev tarixi bəyanatla çıxış edərək ölkədə ötən əsrin 90-cı illərindən başlanmış keçid dövrünün artıq geridə qaldığını, Azərbaycanın bu mərhələdən uğurla çıxdığını diqqətə çatdırmışdır. Söhbət ictimai-iqtisadi formasiya dəyişkənliyi ilə bağlı sovet təsərrüfat sistemindən, planlı iqtisadiyyatdan miras qalmış bütün iqtisadi seqmentlərin bazar prinsiplərinə uyğun tamamilə yenidənqurulması prosesinin başa çatmasından gedir. Respublikamız son 15 ildə – özəlləşdirmədən, torpaq, vergi, gömrük islahatından tutmuş səmərəli idarəçiliyin vacib şərti olan struktur islahatlarınadək böyük bir iqtisadi mərhələni inamla geridə qoymuşdur. Qarşıdakı dövrdə isə formalaşmış bu möhkəm təməl üzərində bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olmasına çalışmaq, iqtisadi sahədə liberallaşdırma prosesini davam etdirmək hökumətin qarşısında duran ciddi vəzifələrdən biridir.

Eyni zamanda, sabitləşmə və liberallaşma sahəsində uğurlar cəmiyyəti labüd olaraq modernləşməyə aparır. Modernləşmə dedikdə, kosmetik deyil, keyfiyyətcə təkmilləşdirməni, iqtisadiyyatın xarakterinin mahiyyətcə dəyişdirilməsini başa düşmək lazımdır. Bu, ilk növbədə iqtisadiyyatı bazar prinsiplərinə keçirməkdən, sərt bürokratik nəzarətdən xilas etməkdən, sərmayə mühitini yaxşılaşdırmaqdan, büdcə siyasətini sağlamlaşdırmaqdan ibarətdir. Eyni zamanda, cəmiyyətin varlı və yoxsul təbəqələri arasında aralıq mövqe tutan orta sinfin yaradılması üçün dövlətin məqsədyönlü səyləri olmadan modernləşmə mümkün deyildir. Müasir cəmiyyətdə bu sinif təkcə öz klassik qrupları – orta və kiçik sahibkarlar, ticarətçilər, sənətkarlar və başqaları deyil, həm də iri müəssisələrin menecerləri, elmi-texniki və humanitar ziyalılarla təmsil edilmişdir.

Heç də sabit və dəyişməz olmayan demokratik dəyərlər bəşəriyyətin inkişaf səviyyəsinə uyğun olaraq dəyişir, təkmilləşir, yeni məzmun kəsb etməyə başlayır. Bu mənada hər bir ölkə və xalq demokratiyanın universal prinsiplərindən uzaqlaşmamaq şərtilə özünün milli-tarixi adət-ənənələrini, siyasi-mədəni köklərini, milli-mənəvi dəyərlərini ehtiva edən demokratiya modeli formalaşdırmağa çalışır və Azərbaycan da demokratiyanın bu səpkidə inkişafına önəm verir.

Azərbaycanda demokratikləşmənin daha bir səciyyəvi xüsusiyyəti isə ölkəmizdə tolerantlıq mühitinin hökm sürməsi, dini və digər sosial zəmində proseslərə tolerant yanaşma mədəniyyətinin mövcudluğudur. Sivilizasiyaların dialoqu və tolerantlıq düşüncə tərzi cəmiyyətin tarixi inkişafının nəticəsi, müxtəlif mədəniyyət və lokal insan birliklərinin birgəyaşayışı nəticəsində əldə olunmuş tarixi nailiyyəti olaraq demokratik cəmiyyətin, mədəniyyətlərarası münasibətlərin təməl prinsiplərindəndir. Tolerantlıq ayrıca götürülmüş bir dövlətin deyil, hazırda bütün dünyanın qlobal, sosial-mədəni problemi statusunu kəsb etmişdir. Tarixən başqa millətlərə və səmavi dinlərə,

fərqli mədəniyyətlərə dözümlü yanaşması ilə seçilən Azərbaycanda tolerantlıq xalqın milli-mənəvi dəyərlər sistemindən, düşüncə sistemindən qaynaqlanır. Azərbaycan Avropanın və Qərbin mütərəqqi inkişaf meyillərini mənimsəməklə yanaşı, özünün milli-mənəvi, dini dəyərlərini qoruyub saxlamağa, ona sadiq qalmağa çalışır.

Ulu öndər Heydər Əliyev hakimiyyətdə olarkən ölkədə dini, milli, etnik münasibətlərin yüksək səviyyədə tənzimlənməsi, vicdan azadlığının tam bərqərar olması naminə ardıcıl tədbirlər həyata keçirmiş, xalqın milli təhlükəsizlik maraqları baxımından bu sahəyə daim xüsusi diqqətlə yanaşmışdır. 1995-ci ildə Azərbaycanda ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyada hər bir ölkə vətəndaşlarının vicdan azadlığı birmənalı təsbit edilmişdir. Bunun nəticəsi kimi ölkəmizdə mövcud olan etnik-dini tolerantlıq hazırda bəzi inkişaf etmiş ölkələrə də örnək göstərilə bilər. Əsrlərin sınağından çıxmış mədəniyyətini, mənəvi dəyərlərini, adət-ənənələrini hifz etməyi bacaran Azərbaycan xalqı ümumbəşəri mütərəqqi dəyərlərə tolerant münasibət bəsləməklə müasirliyə və yeniliyə can atmaqdadır.

Konstitusiyanın qəbulundan sonra ölkədə dini-mənəvi münasibətləri tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi müxtəlif dini icmaların qanunla müəyyənləşmiş qaydada fəaliyyətinə geniş imkanlar açmış, bu sahədə dövlət tənzimlənməsinin həyata keçirilməsi məqsədi ilə Dini İşlər üzrə Dövlət Komitəsi yaradılmışdır. Dünyəvi və demokratik dövlət modelini qəbul etməsinə rəğmən, respublikamızda insanların dini inanclarının, habelə vicdan azadlığının əleyhinə heç bir addım atılmamışdır.

Xalqlar arasında dostluq və qardaşlıq, qarşılıqlı anlaşma şəraitində milli, dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması tolerantlığın bariz nümunəsidir. Azərbaycanın dinlərarası

dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsi xaricdə də daim yüksək qiymətləndirilmişdir. Roma Katolik Kilsəsinin sabiq başçısı II İoann Pavel 2002-ci ilin mayında respublikaya etdiyi tarixi səfəri zamanı Azərbaycandakı tarixi dözümlülük ənənələrini xüsusi qeyd etmişdir. Eləcə də Rum patriarxı I Varfolomey 2003-cü il aprelin 16-dan 18-dək Azərbaycanda rəsmi səfərdə olmuşdur. Şərqi Roma Pravoslav Kilsəsi başçısının səfərinin əsas məqsədi müxtəlif dinlərə etiqad edən insanların narahatlığına səbəb olan bir çox mürəkkəb məsələlərdə qarşılıqlı anlaşma və razılığa nail olmaq, sıx münasibətlər yaratmaq, habelə dinlərarası dialoqu daha irəli aparmaqdan ibarət olmuşdur. Onun etirafına görə, respublikamızdakı dövlət-dini konfessiyaların münasibətləri, habelə ənənəvi və qeyri-ənənəvi dini konfessiyalar arasındakı mövcud münasibətlər nümunəvidir: *«Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir».*

Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Hələ andiçmə mərasimində *«Mən hər bir azərbaycanlının Prezidenti olacağam»* deyən Azərbaycan Prezidenti İlham Əliyev ilk gündən dini və milli azlıqların nümayəndələrinə xüsusi həssaslıqla yanaşmış, onların problemlərinin həlli üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Dövlət başçısı respublikada bütün milli və dini azlıqların birgəyaşayışı üçün kifayət qədər tolerant mühitin olduğunu məmnunluqla bildirir: *«Azərbaycanda müxtəlif dinlərə mənsub olan insanlar vahid ailə kimi yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və xalqımızın gündəlik həyatıdır. Biz fəxr edirik ki, Azərbaycanda müxtəlif millətlərdən olan insanlar*

*arasında qarşılıqlı anlaşma mövcuddur. Başqa dövlətlər də Azərbaycanın bu təcrübəsindən faydalana bilərlər. Ölkəmizdə Azərbaycan xalqı ilə yəhudi xalqı arasında münasibətlər daim səmimi və dostcasına olub, hətta sovetlər dövründə də, müstəqillik dövründə də bu, davam etmiş və ölkəmizin rəsmi siyasətinə çevrilmişdir».*

Dövlət başçısı İlham Əliyev son 8 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsi, xüsusən də dini ziyarətgahların əsaslı təmiri və yenidənqurulmasına da xüsusi diqqət ayırmışdır. Azərbaycan Prezidentinin İslam mədəniyyəti nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş və inanc yerlərinin təmiri, bərpası ilə bağlı xüsusi sərəncamlar imzalaması və bu işi şəxsi nəzarətinə götürməsi bunu bir daha təsdiqləyir.

Azərbaycan Prezidentinin cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi xalq arasında böyük razılıq və minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğində və təşviqində mühüm stimul rolunu oynayır. Dövlətin bu sahəyə diqqət və qayğısı Azərbaycandakı bütün mövcud milli-etnik qrupları, dini-mənəvi təşkilatları əhatə edir. Bu gün Azərbaycanda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, yüzlərlə islam və qeyri-İslam dini icmaları öz etiqadlarını azad və sərbəst şəkildə icra edirlər. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın dini-etnik sivilizasiyaların qovuşduğu məkan kimi tanınmasında ictimai statusda fəaliyyət göstərən Heydər Əliyev Fondu da yaxından iştirak edir. 2008-ci ildə Bakıda Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESCO-nun və ISESCO-nun dəstəyi ilə keçirilən «Mədəniyyətlərarası dialoqda

qadınların rolunun genişləndirilməsi» mövzusunda Beynəlxalq Bakı Forumu da sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb etmişdir.

YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva həmin tədbirdə Azərbaycanın bu gün mədəniyyətlərarası dialoq prosesindəki roluna xüsusi toxunmuş, ölkəmizdə mövcud olan tolerant düşüncə tərzini xalqın dünyagörüşü və milli adət-ənənələri ilə əlaqələndirmişdir: «Azərbaycan Böyük İpək yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühitini yaşatmışdır. Bu, həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi və sinaqoq, pravoslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir. Bu, təkcə tarixin ayrı-ayrı məqamları deyil. Bu il biz yeni katolik məbədi açmışıq. Tarixi əhəmiyyət daşıyan məscid və kilsələrin bərpası ilə yanaşı, yenilərini də tikirik. Ümidvaram ki, Bakı forumu gələcəkdə ənənəvi şəkil almaqla sivilizasiyaların faydalı dialoqunun formalaşmasına dair hər birimizin öz ideya və məqsədlərimizi həyata keçirmək üçün imkan yarada bilər».

Son illər Fondun səyləri ilə Azərbaycanla İKT ölkələri arasında humanitar və mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində də mühüm addımlar atılır. İKT-nin 2009-cu ildə Bakını İslam mədəniyyətinin paytaxtı elan etməsi də humanitar sahədə ikitərəfli əməkdaşlığın yüksək səviyyədə qurulduğunu göstərir. Respublikamızın müsəlman

dövləti kimi islam dəyərlərinə hörmətlə yanaşması, eyni zamanda, tarixi ənənələrini qoruyub saxlaması bu əməkdaşlıq üçün ciddi zəmin yaradır.

Hazırda sürətlə qloballaşan dünyanın ayrılmaz hissəsinə çevrilmiş Azərbaycan cəmiyyətində vətəndaşın hüquq və azadlıqlarının dərəcəsi və səviyyəsi dinamik şəkildə yüksəlməkdədir. Çünki insan hüquqları sahəsində fəaliyyət iqtisadi, siyasi və digər islahatları demokratikləşdirmək prosesinin, ictimai inkişafın keyfiyyətcə daha yüksək pilləsinə doğru irəliləyişin mühüm tərkib hissəsidir. Şəxsiyyətin hüquq və azadlıqları konsepsiyası təsərrüfat münasibətlərində, sosial və hüquqi təsisatların demokratikləşdirilməsi prosesinin dərinləşdirilməsində, cəmiyyətdə özünüidarənin və özünütənzimetmənin genişləndirilməsində, cəmiyyətin mənəvi-əxlaqi mühitinin təzələnməsində, siyasi-hüquqi mədəniyyətin yüksəldilməsində yeni prinsiplərin bərqərar olmasının geniş perspektivlərini nəzərə almaqla inkişaf edir.

Ümumən isə ölkənin iqtisadiyyatı sabitləşmiş sənaye cəmiyyətindən postindustrial cəmiyyət müstəvisinə transformasiya üçün real bazis yaradır ki, bu da, bir növ, iqtisadi modernləşmə, bazarın sabitliyi, bank mühitinin təkmilləşməsi, orta sinfin formalaşması və ölkə ÜDM-ində özəl sahibkarlığın rolunun güclənməsi, ictimai şüuru latent şəkildə təzələməklə onu yeni demokratik ənənələr və təsisatlar müstəvisinə yönəldir. Yaddan çıxarılmamalıdır ki, liberal demokratiyanın başlıca şərti də sağlam və güclü orta sinfin mövcudluğudur və bunsuz təbii demokratik inkişafdan söhbət belə gedə bilməz.

Ümumiyyətlə, modernləşmə dedikdə, tədqiqatçılar məhz keyfiyyətcə təkmilləşdirməyə, milli iqtisadiyyatın xarakterinin mahiyyətcə dəyişdirilməsinə diqqət çəkirlər. Bu, ilk növbədə, iqtisadiyyatı bazar prinsiplərinə keçirməkdən, bürokratik nəzarətdən xilas etməkdən, sərmayə mühitini yaxşılaşdırmaqdan, büdcə siyasətini təkmilləşdirməkdən ibarətdir.

Cəmiyyətdə varlı və yoxsul təbəqələr arasında aralıq mövqe tutan orta sinfin yaradılması, modernləşmə prosesinin uğurla aparılması üçün dövlətin məqsədyönlü səyləri olmalıdır.

Bütün bunlar bir daha təsdiqləyir ki, həqiqi demokratik inkişafın həlledici amili məhz səmərəli hüquqi, siyasi və intisadi sistemin yaradılmasıdır. Bütün bu inkişaf vektorlarının harmoniyası isə güclü hakimiyyətin yaranmasını və dövlətçiliyin möhkəmliyinin rəhninə çevrilməsini təmin edir. Dövlət hakimiyyətinin möhkəmliyi isə bir çox cəhətdən iqtidarın cəmiyyətin müxtəlif təbəqələrinin mənafelərini müdafiə etmək, ictimai qüvvələrin tarazlığını qoruyub saxlamaq və insanlar birliyinə xas olan mülki, demokratik, özünüidarə meyillərinin mütərəqqi inkişafını təmin etmək qabiliyyəti ilə müəyyən olunur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında son illər uğurla aparılan islahatlar nəticəsində respublikamız demokratikləşmə və modernləşmə prosesinin həlledici mərhələsinə daxil olaraq qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir.

# Heydər Əliyev ideyalarını layiqincə yaşadan Fond

*«İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsi işində, Azərbaycanın olduğu kimi təqdimatı işində, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm. Bu Fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu Fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən «xoş niyyət» deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük».*

İlham ƏLİYEV

**Müstəqil Azərbaycan dövlətinin qurucusu olan, həyatını xalqına xidmətə həsr edən ümummilli lider Heydər Əliyevi daim qəlblərdə yaşadan, xatirəsini əbədiləşdirən, bu böyük insanın adının hər zaman dərin ehtiramla anılmasına səbəb olan amillərdən biri də ulu öndərin humanizm prinsiplərinə söykənən nəcib əməlləridir. Siyasi uzaqgörənliyi, müdrikliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi olan Heydər Əliyev öz xeyirxahlığı, sosial ədalət prinsiplərinə sadiqliyi, milli-mənəvi dəyərləri daim uca tutması, cəmiyyətin tərəqqisi naminə göstərdiyi**

**titanik fəaliyyəti ilə də yaddaşlarda əbədi iz qoyub. Ümummilli liderin bu nəcib əməllərini davam etdirən, onun milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılayan, amallarını rəhbər tutaraq fəaliyyət göstərən, ümumbəşəri mədəniyyətə, sülhə öz töhfələrini verən Heydər Əliyev Fondu ölkəmizin dünya miqyasında daha geniş spektrdən tanınmasında, qədim və zəngin mədəniyyətə, söz, muğam sənətinə malik xalqımızın milli dəyərlərinin qorunmasında və təbliğində bu gün mühüm rol oynayır.**

**Nəcib missiyalar ünvanı**

Fəaliyyət və məqsədləri kifayət qədər geniş olan, ictimai həyatın, demək olar ki, bütün sahələrini əhatə edən, cəmiyyətin inkişafında, səhiyyə, təhsil kimi mühüm sferalarda yaranan problemlərin həllində, milli-mənəvi dəyərlərin qorunması və dünyada təbliği istiqamətində mühüm işlər görən Heydər Əliyev Fondu öz nəcib fəaliyyəti ilə cəmiyyətdə bir ümid və pənah ünvanına çevrilib. Mənəvi sərvətimizin və milli mədəniyyətimizin sadiq qoruyucusuna çevrilən Fond mühüm ideoloji-humanitar mərkəz kimi millət və dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik möhtəşəm layihələri uğurla reallaşdırır. Xalqın milli varlığını özündə yaşadan zəngin mənəvi-intellektual və mədəni mülkiyyətin qorunması istiqamətində yorulmaz fəaliyyət göstərən Heydər Əliyev Fondu ötən dövrdə böyük inkişaf yolu keçərək ölkə sərhədlərindən çox-çox kənarda da Azərbaycan haqqında obyektiv ictimai rəyin formalaşmasında müstəsna nailiyyətlərə imza atıb və atmaqdadır.

Təkcə Azərbaycan yox, elə beynəlxalq ictimaiyyət arasında da geniş rəğbət qazanan, hər zaman köməyə, yardıma ehtiyacı olanların yanında yer alan Fondun ən böyük uğurlarından

biri də ümumbəşəri mədəniyyətə, sülhə və əmin-amanlığa öz töhfələrini verməsi, insanlara qayğı və təmənnasız xidmət amalını prioritet seçməsidir. Bununla yanaşı, qloballaşan dünyada ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin əhəmiyyətini vurğulamaq niyyətinə köklənən Fond Heydər Əliyevin azərbaycançılıq ideologiyasının yaşadılmasında, milli irsin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz xidmətlər göstərməkdədir.

Fondun yaradılmasını zərurətə çevirən səbəblərə gəlincə, bunların sırasında ilk növbədə Azərbaycan xalqının ümummilli liderin xatirəsinə ehtiramını ifadə etmək arzu və istəyi, ulu öndərin siyasi məfkurəsinin davam etdirilməsi zərurəti, qloballaşan dünyada Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq niyyəti, bu dahi şəxsiyyətin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi qeyd olunmalıdır. 2004-cü ilin mayında açılışı olan Heydər Əliyev Fondu böyük amallar və məqsədlərə xidmət etməklə yanaşı, bu gün yardıma ehtiyacı olan hər bir insanın ümid yerinə çevrilib. Açılış mərasimində Prezident İlham Əliyev fondun fəxri qonaqlar kitabında ürək sözünü belə ifadə edib: *«Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyevin doğum günüdür. Bu bayram günündə onun adını daşıyan fondun təqdimat mərasimi keçirilmişdir. Heydər Əliyev Fondu xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir. Heydər Əliyev Fondu ictimai təşkilatlar və Azərbaycanın ictimai həyatında mühüm rol oynayacaqdır. Heydər Əliyevin ideyaları, fikirləri yaşayır. Heydər Əliyev siyasəti, fəlsəfəsi, ideologiyası yaşayır və bundan sonra da əbədi yaşayacaqdır. Heydər Əliyevin əsəri olan müasir Azərbaycan onun yolu ilə irəliyə, yeni qələbələrə doğru inamla gedəcəkdir».*

Ümumiyyətlə isə Heydər Əliyevin ideyalarını və əməllərini yaşadan Fondun yaradılması aşağıdakı səbəblərlə bağlıdır: *Azərbaycan xalqının öz ümummilli lideri Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzu və istəyi; Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək zərurəti; qloballaşan dünyada Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq niyyəti; Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi.*

Fəaliyyəti dövründə Fond həm kifayət qədər gərgin işlər görüb, həm də qarşıya qoyulan məqsədlərə çatılması istiqamətində mühüm nailiyyətlərin müəllifi kimi çıxış edib. Böyük xeyirxahlıqlar məbədi kimi də yaxşı tanınan Heydər Əliyev Fondu humanizm, vətənsevərlik hisslərinə, milli düşüncəyə söykənən fəaliyyəti ilə cəmiyyətdə dərin rəğbət qazanaraq hər zaman insanları narahat edən problemlərə həssaslıqla yanaşır. Elə ən böyük hakim olan zaman da Fondun öz fəaliyyəti ilə Azərbaycanın ictimai həyatında necə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə ölkəmizdə analoqu olmayan qeyri-dövlət qurumu olduğunu konkret əməllər timsalında sübuta yetirib.

Artıq Azərbaycanın, azərbaycançılığın, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq Heydər Əliyev Fondunun geniş spektrli fəaliyyətinin mühüm məqamları kimi müasir tariximizə unudulmaz səhifələr yazıb. Ulu öndərin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi ideyalarla silahlanan, onların reallaşmasına əməldə dəstək

verən, ölkəmizin tərəqqisi və xalqımızın rifahı naminə ümummilli liderin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin həyata keçməsinə yardım edən, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayan, həyata keçirən Heydər Əliyev Fondu ölkədaxili və xarici fondlarla, müxtəlif QHT-lərlə, ictimai təşkilatlarla da əməkdaşlığı genişləndirməkdədir. Yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olanlara kömək etmək, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək Heydər Əliyev Fondunun məqsədləri sırasında öncül yerlərdən birini tutur.

Ümumiyyətlə, Fondun məqsədləri aşağıdakı ardıcıllıqla qruplaşdırılır:

*– görkəmli siyasi xadimin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək;*

*– Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrın reallaşmasına kömək etmək;*

*– elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək;*

*– respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək;*

*– yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək;*

*– insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək;*

*– Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək;*

*– uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək;*

*– Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək;*

*– Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq;*

*– respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək;*

*– elmi tədqiqatların aparılmasına yardım göstərmək;*

*– xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək;*

*– uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək;*

*– səhiyyə və tibbi təsisatları inkişaf etdirmək;*

*– ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək;*

*– Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək;*

*– uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək;*

*– dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək.*

Fondun qarşıya qoyduğu məqsədlərin belə çoxluğu onun humantiar sahədə fəaliyyət miqyasının nə qədər geniş olduğunu, bu fəaliyyətin təkcə Azərbaycan sərhədləri çərçivəsində

məhdudlaşmayaraq dünya spektrində özünü qabarıq büruzə verdiyini aydın göstərir. Bununla yanaşı, Fondun fəaliyyət itstiqamətləri də olduqca genişdir. Təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, elm və texnologiya, ekologiya kimi vacib sferalar Fondun fəaliyyətinin əsas istiqamətləri arasındadır.

## İnkişafın ən müxtəlif sahələrini əhatə edən uğurlu fəaliyyət

Fəaliyyətə başladığı müddətdən 2010-cu ilin sonuna kimi Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən «Yeniləşən Azərbaycana yeni məktəb» və digər proqramlar çərçivəsində 300-dək məktəb və uşaq bağçası tikilib istifadəyə verilib, yaxud əsaslı təmir edilib. Eyni zamanda, həmin təhsil müəssisələri müasir avadanlıqla təchiz olunub, fondun təşəbbüsü və dəstəyi ilə müxtəlif bilik yarışları keçirilib.

Fond həyata keçirdiyi böyük layihələrlə dövlətin təhsil strategiyası çərçivəsində qarşıya qoyduğu bir sıra vacib planların reallaşmasına mühüm töhfələr verib. Cəmiyyətdə maarifçilik xəttinin güclənməsinə xüsusi önəm verən Fond təhsilin xalqın, dövlətin gələcəyi baxımından böyük əhəmiyyət kəsb etməsi reallığını nəzərə alaraq sözügedən sahənin, elmin dinamik inkişafı, milli-mədəni irsin mənfi təsirlərdən qorunması, gənc nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması istiqamətdə məqsədyönlü işlər görür. O da mühüm faktdır ki, maarifçilik sahəsində Fondun fəaliyyət sferası olduqca genişdir. Bu kontekstdə Fondun prezidentinin birbaşa təşəbbüsü ilə həyata keçirilən «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi xüsusi qeyd edilməlidir. Layihənin əsas məqsədi təhsil sahəsində mövcud problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirməkdir.

Qeyd edildiyi kimi, 6 il ərzində bu layihəyə uyğun olaraq 300-dək məktəb və uşaq bağçası tikilib istifadəyə verilib və ya əsaslı təmir edilib. Ən yüksək tələblərə cavab verən bu təhsil ocaqları müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompyuterlərlə təchiz olunub. Bu, sözün həqiqi mənasında kifayət qədər böyük uğurdur və həmin layihə ilə bağlı təşəbbüs irəli sürülərkən onun nə dərəcədə reallığa əsaslandığının bariz göstəricisidir. Fondun prezidenti Mehriban xanım Əliyeva bununla bağlı bildirmişdir: *«Ölkəmizdə çox böyük əks-səda doğuran «Yeniləşən Azərbaycana yeni məktəb» proqramıdır. Biz ilk dəfə bu proqramı təqdim edəndə «dəyirmi masa» keçirmişdik. Çox adam inanmırdı, şübhə ilə yanaşırdı ki, bu necə ola bilər, üç-dörd ay ərzində 132 məktəb tikiləcək, özü də əksəriyyəti ucqar rayonlarda, ölkəmizin dağlıq rayonlarında inşa olunacaqdır. Amma biz sübut etdik ki, əgər inam varsa, iradə varsa, əgər işləri düzgün qurmaq bacarığı varsa, hər bir problem çox qısa bir zamanda öz həllini tapa bilər».*

Heydər Əliyev Fondunun təhsil sferasında daha bir mühüm layihəsi «Uşaq evləri və internat məktəblərin inkişafı Proqramı»dır. Proqram çərçivəsində Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evlərində, internat məktəblərdə mövcud problemlər öyrənilərək onların aradan qaldırılması üçün konkret addımlar atılıb. Xeyli sayda uşaq müəssisəsi əsaslı təmir olunaraq, yeni avadanlıqla təchiz edilib. Ümumiyyətlə, uşaqların xoşbəxt gələcəyi üçün əlindən gələni əsirgəməyən Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində müxtəlif orta məktəblərin təhsildə fərqlənən şagirdləri, uşaq evləri və internat məktəblərində tərbiyə alan, qaçqın və məcburi köçkün ailəsindən olan, valideyn himayəsindən məhrum uşaqlar üçün şənlik təşkil edilir. Bununla yanaşı, Heydər Əliyev Fondu yaşı 18-

dən yuxarı olan, uşaq evlərini tərk edən yeniyetmələrin mənzillə təmin olunmasını da diqqət mərkəzində saxlayır. Ulu öndərin adını daşıyan Fondun «Təhsilə dəstək» layihəsi isə qurum tərəfindən hər il Ermənistanın işğal siyasəti nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edilir. Gürcüstanda yaşayan azərbaycanlı birinci sinif şagirdlərinə, Qax, Zaqatala, Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə hər il yeni dərslik və tədris ləvazimatları göndərilir. «Təhsilə dəstək» layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də uğurla həyata keçirilir. Bununla yanaşı, Fond xarici dildə çap edilən bir çox vacib nəşrləri Azərbaycan dilinə tərcümə etdirərək oxucuların diqqətiən çatdırır. Həmçinin təhsil sahəsində Fond uğurlu beynəlxalq əməkdaşlığı da həyata keçirir. Bütün bunlar Fondun təhsil sahəsində fəaliyyətinin kifayət qədər geniş olduğunu bir daha ayıdın göstərir.

Fond digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də böyük layihələrin təşəbbüskarıdır. Onlardan biri «Diabetli uşaqlara ən yüksək qayğı» layihəsidir. 2004-cü il dekabrın 4-də Fondda layihənin təqdimatından sonra ictimaiyyətin, yerli və xarici təşkilatların diqqəti ölkəmizdə diabetli uşaqların probleminə cəlb edildi, bu xəstəliyə tutulmuş 14 yaşadək 310 uşağın dərmanlarla təmin olunmasındakı çətinliklər aradan qaldırıldı. Bu iş indi də davam etdirilir, diabetdən əziyyət çəkən uşaqlar və böyüklər insulin, qlükometr və dərmanlar sarıdan korluq çəkmirlər.

Fondun səhiyyə sahəsində həyata keçirdiyi mühüm layihələrdən biri də talassemiya xəstəliyi ilə bağlıdır. Bu xəstəlikdən əziyyət çəkən insanların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələləri həmin layihə üzrə görülən

işlərin əsas istiqamətləridir. Layihə çərçivəsində İtaliya, Türkiyə, Yunanıstan və İsrailin talassemiya ilə mübarizə sahəsində təcrübəsi öyrənilib. Bir sıra ölkələrin talassemiya sahəsində tanınmış mütəxəssislərinin ölkəmizə səfərləri təşkil edilərək müzakirələr, təcrübə mübadiləsi aparılmışdır. Bütün bunlar yerli mütəxəssislərin hazırlanmasında mühüm rol oynayıb. Həmçinin müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzinin yaradılması həmin layihənin Azərbaycan səhiyyəsinə sanballı töhfəsidir.

Ümumiyyətlə, səhiyyə sahəsində Fond tərəfindən «Talassemiyasız həyat naminə», «Diabetli uşaqlara ən yüksək qayğı» layihələri həyata keçirilir. Fond səhiyyə müəssisələrinin yenidən qurulmasına, fiziki cəhətdən qüsurlu uşaqlar üçün reabilitasiya mərkəzlərinin inşa edilməsinə və müasir avadanlıqla təchiz olunmasına xüsusi önəm verir. Fond dünyanın bir sıra aparıcı səhiyyə şirkətləri ilə əməkdaşlıq edir. «Fresenius Medical Care», «Karl-Storz», «Servier» kimi nüfuzlu şirkətlər tərəfindən Fonda bağışlanmış müasir tibbi avadanlıq və dərman preparatları ölkənin müvafiq tibb müəssisələrinə təqdim olunub.

Heydər Əliyev Fondu tərəfindən BMT-nin İnkişaf Proqramı ilə birgə «Görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi»nə dair birgə layihə həyata keçirilib. Bununla yanaşı, Fond tərəfindən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və BMT-nin İnkişaf Proqramı ilə birgə fiziki imkanları məhdud olan insanların informasiya-kommunikasiya texnologiyalarından istifadə etməsinin artırılması məqsədi ilə Gəncə və Naxçıvan şəhərlərində regional informasiya mərkəzləri yaradılıb.

Azərbaycan mədəniyyətinin inkişafına da Heydər Əliyev Fondu tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Xüsusən də Fond Azərbaycan muğam sənətinin inkişafı və qorunmasına xidmət edən mühüm layihələr həyata keçirir. Fondun təşəbbüsü

ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzi və Müasir İncəsənət Muzeyi yaradılıb. 2005-ci ildən etibarən Fond tərəfindən ölkəmizdə bir sıra beynəlxalq musiqi festivalları keçirilib. Fond tarixi-mədəniyyət abidələrinin yenidən qurulması, rəsm müsabiqələrinin keçirilməsi, muğam sənətinin inkişaf etdirilməsi, görkəmli mədəniyyət xadimlərinin musiqi albomlarının hazırlanması, muğam müsabiqələrinin və dünya şöhrətli musiqiçilərin yubileylərinə həsr edilmiş beynəlxalq festivalların keçirilməsinə xüsusi önəm verir.

«Azərbaycan muğamı» layihəsi çərçivəsində «Qarabağ xanəndələri» musiqi albomunun nəşri Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafında və təbliğində böyük rola malikdir. Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə muğam YUNESKO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin Şah Əsərləri Siyahısına daxil edilib. 2005-ci ildə «Azərbaycan muğamı» layihəsi çərçivəsində Fond «Qarabağ xanəndələri» musiqi albomunu nəfis şəkildə nəşr etdirib. Albomda 24 sənətçinin ifasında səslənən muğam parçaları xalqımızın qədim və zəngin mədəniyyəti barədə dinləyicilərdə əyani təsəvvür yaradır. Albomun təqdimat mərasimi 2005-ci ilin martında Parisdə, YUNESKO-nun qərargahında, xoşməramlı səfirlərin illik toplantısında olub.

Bütün Azərbaycana məxsus muğam incilərinin toplandığı alboma «Qarabağ xanəndələri» adının seçilməsi təsadüfi olmayıb konkret siyasi məzmun daşıyır. YUNESKO xətti ilə hazırlanmış alboma «Qarabağ xanəndələri» adının qoyulması yolu ilə Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığı nümayiş etdirilmişdir. Fondun təşəbbüsü ilə «Qarabağ» adlı kitabın çapa hazırlanması və işıq üzü görməsi Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və bütün dünyada təbliği baxımından böyük əhəmiyyət daşımışdır.

Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində mühüm layihələr həyata keçirib. Bunların arasında Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması layihəsi önəmli yer tutur. Beynəlxalq Muğam Mərkəzində gənc ifaçılar Azərbaycan musiqi mədəniyyətinin mühüm qismini təşkil edən muğam sənətinin incəliklərinə yiyələnir. Bundan əlavə, mərkəzdə dünya ictimaiyyətinin diqqətini Azərbaycan muğam sənətinə cəlb etməyi bacarmış görkəmli muğam ustalarının konsertləri, muğam gecələri, beynəlxalq konfranslar təşkil olunur.

Xalqımızın möhtəşəm mədəniyyət abidəsi, professional musiqimizin yaranıb formalaşmasında əvəzsiz rol oynayan muğam sənətini yaşatmaq və təbliğ etmək, qədim ifaçılıq ənənələrini yenidən inkişaf etdirmək, gənc ifaçıları üzə çıxarmaq və muğam sənətinin dünyada təbliğini gücləndirmək məqsədi ilə Heydər Əliyev Fondu mugam müsabiqələri də təşkil edir. Bundan başqa, 2009 və 2010-cu illərdə Qəbələdə beynəlxalq musiqi festivallarının keçirilməsində də Fond mühüm rol oynayıb. Heydər Əliyev Fondu tarixi-mədəniyyət, dini abidələrin bərpası və mədəniyyət obyektlərinin inşasına xüsusi önəm verir.

Fəaliyyət göstərdiyi dövrdə qarşıya qoyduğu bütün layihələri uğurla gerçəkləşdirən Heydər Əliyev Fondu insanlara qayğı və təmənnasız xidməti ilə cəmiyyətdə böyük rəğbət qazanmışdır. Fondun vətəndaşların hər bir müraciətinə həssas münasibəti, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində əzmkar fəaliyyəti, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verməsi bu qurumun ən ali ideallara xidmət etdiyini təsdiqləyir.

Mehriban xanım Əliyeva Fonda üz tutmuş insanların mənəvi hamisi, qayğıkeşi kimi çıxış edir, imkan daxilində onların problemlərinin həllinə çalışır: *«Bəzən cəmiyyətdə insan elə*

*bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda o, üzünü bizim Fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq».*

Azərbaycanın birinci xanımı üzərinə götürdüyü xoşməramlı missiya ilə həm də insan hüquqlarının qorunmasına, vətəndaş cəmiyyəti ideyalarının cəmiyyətdə daha da möhkəmlənməsinə, habelə cəza siyasətinin humanistləşdirilməsi prosesinə öz töhfələrini verir. Cəmiyyətdə insanpərvərlik və humanizm ideyalarının möhkəmlənməsinə çalışan Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə müxtəlif vaxtlarda irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktları isə böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb edib.

Digər fəaliyyət sahələri üzrə də Fondun fəaliyyəti kifayət qədər genişdir. Ümumiyyətlə, fəaliyyəti dövründə Fondun həyata keçirdiyi proqram və layihələr, təşkil etdiyi beynəlxalq konfranslar, görüşlər, nəşr etdirdiyi kitablar, beynəlxalq aləmdə qazandığı nüfuz çox böyük nəticələrdən xəbər verir. Artıq Fondun fəaliyyət coğrafiyası ölkəmizin sərhədlərini aşıb, onun dəstəyi ilə dünyanın bir çox ölkəsində layihələr reallaşdırılıb və reallaşdırılmaqdadır. Fondun bu istiqamətdə fəaliyyətinin coğrafiyası gündən-günə genişlənir, xeyriyyəçilik missiyası bir neçə ölkədə də uğurla davam etdirilir. Gürcüstanda

yaşayan azərbaycanlıların təhsillə bağlı problemlərinin aradan qaldırılması üçün hər il dövlət xətti ilə yanaşı, Fond tərəfindən də böyük yardım edilir. Rusiya paytaxtında və ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən Azərbaycan məktəblərinə göstərilən müntəzəm qayğı xüsusilə qeyd olunmalıdır.

2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi də Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmayıb, məktəbə kompyuter dəsti və dərs vəsaitləri göndərilib. Fondun «Təhsilə dəstək» layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb yenidən tikilərək yüksək səviyyəli tədrisə imkan yaradan avadanlıqla təmin olunub.

Rusiyanın «Puşkin kitabxanası» ilə qurulan əməkdaşlıq da ölkəmizdə elm, təhsil və mədəniyyətin inkişafına yönələn hadisədir. «Puşkin kitabxanası» Fondu ilə yaranmış əməkdaşlıq çərçivəsində Rusiyada son illər nəşr olunmuş və müxtəlif elm sahələrinə aid 5 minə qədər kitab respublikamızın ali məktəblərinə təqdim edilib, «World Vision» («Dünyaya baxış») təşkilatı tərəfindən quruma təqdim edilən və məxsusi olaraq uşaq müəssisələri üçün nəzərdə tutulan 1000-dək nəfis tərtibatlı kitab uşaq evlərinə və internat məktəblərə paylanıb. «YP Morgan» təşkilatının Fonda hədiyyə etdiyi, xaricdə nəşr olunmuş müxtəlif adda kitablar ali məktəblərə təqdim olunub.

Heydər Əliyev Fondu xeyriyyəçilik missiyasını 2009-cu ildə Fransanın Strasburq şəhərində davam etdirib, Avropanın siyasi paytaxtı olan Strasburqda Kafedral Kilsənin tarixi şüşələrinin bərpası ilə əlaqədar Fondun təşəbbüsü ilə göstərilən maliyyə yardımının təqdimat mərasimi keçirilib.

Fond BMT-nin İnkişaf Proqramı, BMT-nin Əhali Fondu, YUNESKO, İSESKO, «Save the Children» və digər təşkilatlarla yaxından əməkdaşlıq edir və birgə layihələr həyata keçirir. Fondun təşkilatçılığı ilə bir sıra mühüm beynəlxalq kon-

franslar təşkil edilib. Hazırda Fondun beynəlxalq əməkdaşlığı genişlənməkdə, dünyanın nüfuzlu qurumları ilə əlaqələr möhkəmlənməkdədir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilmiş «YUNESKO–Azərbaycan: gələcəyə körpü», «Avrasiyada mədəniyyət müxtəlifliyi: Azərbaycan–sivilizasiyalararası dialoqun keçmişi və bugünü», «Orta əsr əlyazmalarında tibb və əczaçılıq» və digər beynəlxalq konfranslar, bir sıra xarici ölkələrdə baş tutan tədbirlər onun beynəlxalq aləmdə nüfuzlu bir qurum kimi mövqeyinin möhkəmlənməsindən xəbər verir.

**İnsanlara təmənnasız yaxşılıq**

Qeyd edilənlərin nəticəsidir ki, ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparan Heydər Əliyev Fondu reallaşdırdığı xeyirxah və nəcib layihələrlə ölkəmizdən kənarda da xeyli sayda insanın hədsiz inam və etimadını qazanıb. Fondun böyük nailiyyətlərə, uğurlara imza atmasında bütün təşəbbüsləri milli ruha əsaslanır. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, onun olduğu kimi dünyada təqdim olunması, fərqli mədəniyyətlərin birləşməsində öz dəst-xəttini yaradan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın fəaliyyəti və göstərdiyi xidmətlər xüsusi qeyd olunmalıdır. Milli-mənəvi dəyərlərimizin inkişafı, insanlığın xilasına xidmət edən nəcib missiyaların həyata keçirilməsi, elm, təhsil, səhiyyə, mədəniyyət, sosial sferada uğurlu fəaliyyəti ilə xoş məramlar elçisi olan Mehriban xanım Əliyeva vətəninə, xalqına əvəzsiz xidmətlər göstərməkdədir. Onun çoxşaxəli fəaliyyətini yalnız bir sözlə ifadə etmək mümkündür: xoş niyyət.

Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha da zənginləşməsinə, habelə mədəniyyət, təhsil, səhiyyə, idman sahələrində son dərəcə gərəkli layihələrin həyata keçirilməsinə, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına yönəlib. Onun əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə və ümumən Heydər Əliyev Fondunun işinə yaradıcı münasibəti ulu öndərin adını daşıyan bu təşkilatın fəaliyyətində kifayət qədər geniş spektri əhatə etməsini şərtləndirən ən mühüm amillərdən biridir. Hər bir insanda fərəh və qürur hissləri doğuran bu çoxşaxəli fəaliyyət bir əsas məqsədə yönəlmişdir: insanlara təmənnasız yaxşılıq! Bunu Mehriban xanım Əliyevanın özünəməxsus səmimiyyətlə dediyi sözlər də təsdiq edir: *«Mən arzu edirəm ki, dünyada saf və xeyirxah əməllər daha çox olsun, dərd-qüssə isə azacıq da olsa, əskilsin».*

Mehriban xanım Əliyeva haqlı olaraq hesab edir ki, Azərbaycan xalqının milli mədəniyyətinin yad təsirlərdən qorunması üçün ilk növbədə milli-mənəvi və əxlaqi dəyərlərin cəmiyyətdə tam bərqərar olmasına, habelə ictimai şüurda daha da möhkəmlənməsinə çalışmaq lazımdır. 1995-ci ildə onun tərəfindən yaradılmış Azərbaycan Mədəniyyətinin Dostları Fondu da ümumbəşəri mənəvi dəyərlərlə zəngin olan milli mədəniyyətimizin inkişafına çox böyük töhfələr verib. Fondun təşəbbüsü ilə 1996-cı ildən Azərbaycan, ingilis, rus dillərində çap olunan «Azərbaycan–İrs» jurnalı ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması və təbliği işinə böyük dəstək göstərib. Fondun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə Mehriban Əliyeva ölkəsinin mədəni irsinin təbliğinin, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərib. Həmçinin Fondun himayəsi altında müxtəlif müsabiqələrdən, bədii sərgilərdən tutmuş xeyriyyə konsertlərinə və

musiqi festivallarına qədər çoxsaylı layihələr həyata keçirilib. Müxtəlif dövrlərdə icra olunmuş bütün bu layihələri birləşdirən əsas məram isə Azərbaycan xalqının mənəvi irsinin yüksək səviyyəsini qoruyub saxlamaqdan ibarət olub. YUNESKO-nun Baş direktoru Koişiro Matsuura bununla bağlı belə bir maraqlı fikir səsləndirib: *«Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva yaratdığı Azərbaycan Mədəniyyətinin Dostları Fondunun çərçivəsində elə böyük işlər görmüşdür ki, mən onun bu sahədəki fəaliyyətini yaxından izləyib öyrəndim, heyrətə gəldim. Mehriban xanım yorulmadan çalışır, yeni layihələr üzərində fikirləşir, bütün varlığı ilə təkcə öz xalqına deyil, bütün millətlərə xidmət edir. Ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti indi nəinki Azərbaycanda, həm də regional miqyasda, hətta deyərdim ki, qlobal miqyasda fəaliyyət göstərir».*

Qədim və zəngin ənənələrə malik xalqımızın maddi və mənəvi mədəniyyət nümunələrinin, incəsənətinin, folklorunun, musiqisinin qorunması, eləcə də bütün dünyaya yayılmasında çox mühüm rol oynayan «Azərbaycan–İrs» jurnalının 1996-cı ildən nəşrə başlaması da son dərəcədə təqdirəlayiq tarixi faktdır. Mehriban xanım Əliyeva hələ o dövrdən məhz xeyirxah missiyanı qarşıya qoymuş, yüksək təşəbbüskarlığı, fitri idarəçilik keyfiyyətləri ilə milli mədəniyyətimizin böhrandan qurtulmasına və inkişafına böyük töhfəsini vermişdir. Azərbaycan, rus və ingilis dillərində nəşr edilən jurnalda qədim və zəngin mədəniyyətimizin, tarixi-milli irsimizin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi ilə bağlı çoxsaylı məqalələr dərc olunub. 2004-cü ildə ulu öndərin adını daşıyan Fondun fəaliyyətə başlaması Azərbaycanın birinci xanımının həmin dövrə qədər gördüyü işlərin, yerinə yetirdiyi nəcib missiyaların daha qlobal miqyasda, həm də sistemli və ardıcıl surətdə həyata keçirilməsinə imkan yaratdı.

## Xoşməramlı səfir

Bu gün Mehriban xanım Əliyeva fəaliyyətilə bir çox insanların ümid yerinə çevrilib və onun həyata keçirdiyi dəyərli layihələr, irəli sürdüyü nəcib və xeyirxah təşəbbüslər təkcə Azərbaycanda yox, beynəlxalq miqyasda da Azərbaycanın birinci xanımının dərin inam və etimad qazanmasına, nəcib missiyalar daşıyıcısı və Azərbaycan mədəniyyətinin dünyada ən fəal təbliğatçılarından olaraq tanınması ilə nəticələnib. Qeyd olunan kontekstdə Mehriban Əliyevanın 2004-cü ilin sentyabrında YUNESKO-nun xoşməramlı səfiri seçilməsi heç də təsadüfi xaratker daşımır.

BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. Onun Nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda imzalanıb, 4 noyabr 1946-cı ildə isə 20 üzv dövlətdən ibarət təşkilat öz rəsmi fəaliyyətinə başlayıb. BMT-nin bu ixtisaslaşmış orqanının vəzifələri müharibə nəticəsində dağıdılmış ölkələrdə sinif otaqları tikmək, yaxud elmi nailiyyətləri nəşr etməklə məhdudlaşmır. YUNESKO-nun fəaliyyəti daha ali məqsədə – təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlib. YUNESKO-nun Nizamnaməsinin 1-ci maddəsində qeyd edilir: *«Təşkilat irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoyur».*

İkinci dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan bir sıra əhəmiyyətli beynəlxalq və regional təşkilatlarla

əməkdaşlıq siyasətini həyata keçirməyə başlayıb. Öz üzvlərinə dünya səviyyəli mütəxəssislərin, texniki yardımların, həmçinin elmi və pedaqoji kadrların hazırlanması, qlobal elmi layihələrdə iştirak etmək imkanlarından bəhrələnmək imkanı verən YUNESKO ilə əməkdaşlıq etmək qərarına gələn Azərbaycan həmin təşkilata daxil olmaq barədə müraciət edərək müsbət cavab alıb. Qurumla ölkəmiz arasında əməkdaşlığın genişləndirilməsi haqda növbəti addım ulu öndər Heydər Əliyevin 1993-cü ilin dekabr ayında Fransa Respublikasında rəsmi səfərdə olarkən YUNESKO-nun Baş direktoru Federiko Mayorla görüşü zamanı atılıb. YUNESKO-nun Nizamnaməsinin 7-ci maddəsinə görə, üzv dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ona görə də YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atıldı və Heydər Əliyev bununla bağlı 21 fevral 1994-cü il tarixində sərəncam imzaladı.

Sonrakı dövrdə də Azərbaycan–YUNESKO əməkdaşlığının inkişafı üçün böyük əmək sərf edildi. Bu əməkdaşlıq yalnız ikitərəfli əlaqələr üzərində qurulmadı və ondan yalnız iki tərəf bəhrələnmədi. Belə ki, Azərbaycanın qədim və zəngin mədəniyyəti isə milli çərçivədən beynəlxalq səviyyəyə çıxıb ümumdünya mədəniyyətinin bir parçası oldu. YUNESKO çoxtərəfli beynəlxalq təşkilat olduğundan onun vasitəsilə müxtəlif ölkələrin qarşılıqlı əməkdaşlığı üçün şərait yarandı. Bunun nəticəsidir ki, gənc Azərbaycan Respublikası təhsil, elm və mədəniyyət sahələrində müxtəlif ölkələrlə YUNESKO vasitəsilə və birbaşa onun özü ilə geniş təcrübə mübadiləsi apara bildi.

Azərbaycan–YUNESKO münasibətlərinin inkişafında, onların canlanmasında və güclənməsində Azərbaycanın birinci

xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzolunmaz rolu oldu. 2004-cü ilin sentyabrında Mehriban Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görüldü.

Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə xanım M.Əliyeva 2006-cı il noyabrın 4-də İSESKO-nun xoşməramlı səfiri adına layiq görüldü. 2010-cu ilin 30 iyul tarixində YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya YUNESKO-nun Baş direktoru İrina Bokova tərəfindən Motsart medalı təqdim olundu.

Ölkəmizin birinci ledisi bu mötəbər təşkilatın xoşməramlı səfiri olaraq təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının mədəni irsinin təbliğatçısı kimi şərəfli missiyanı yerinə yetirməkdədir. 2004-cü ilin dekabrında Kazan şəhərində (Tatarıstan) YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair regional seminarında Mehriban xanım bu yöndə konkret təşəbbüslə çıxış edərək türk xalqlarının mədəniyyətini əhatə edən regional layihələr hazırlanacağını bildirdi.

Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri seçilməsi ilə Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması sahəsindəki fəaliyyəti bir qədər də genişləndi. «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, YUNESKO-nun «Dünya irs siya-

hısı»na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsi bu fəaliyyətin mühüm nəticələri kimi diqqəti çəkir. Fondun prezidentinin şəxsi səyləri nəticəsində Azərbaycan xalqının milli sərvəti sayılan muğam YUNESKO vasitəsilə bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edildi.

Mehriban Əliyevanın YUNESKO xətti ilə keçirilən tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri, həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasına toxunulmayan bir çıxışını belə xatırlamaq çətindir. O, təkcə çıxışlarında deyil, rəhbərlik etdiyi təşkilatların fəaliyyətində də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində böyük işlər görür. Dünyanın, demək olar ki, bir çox dillərində Azərbaycan həqiqətləri adlı kitablar nəşr olunmuşdur ki, burada Qarabağın tarixi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, Xocalıda törətdikləri soyqırımı, erməni terror təşkilatlarının dinc azərbaycanlılara, türk insanına qarşı törətdiyi vəhşiliklər barədə geniş məlumatlar öz əksini tapır.

Bundan başqa, Heydər Əliyev Fondu Ermənistanın Xocalı şəhərində törətdiyi soyqırımı dünya ictimaiyyətinə çatdırmaq üçün bir neçə dildə film də hazırlayıb. Dünyanın çoxlu sayda ölkəsində Fondun dəstəyi ilə Xocalı soyqırımının ildönümündə böyük tədbirlər keçirilir, Xocalı soyqırımını anladan foto və «Xocalı uşaqların gözü ilə» adlı rəsm sərgiləri nümayiş olunur. Həmin dövrdə bu soyqırımla bağlı dünyanın kütləvi informasiya vasitələri jurnalistlərinin şahidi olduqları materiallardan, onların məqalələrindən ibarət sərgi də dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond erməni yalanlarını, Azərbaycan həqiqətlərini, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi vəhşilikləri, təkcə Azərbaycana deyil, bütün insanlığa məxsus olan dini, tarixi və mədəni abidələrin dağıdılmasını özündə əks etdirən çoxlu

sayda kitablar nəşr etdirərək, dünya ictimaiyyətinə doğru məlumatların çatdırılması istiqamətində böyük işlər görüb və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir.

Fond tərəfindən Azərbaycan, ingilis və rus dillərində hazırlanmış «Qarabağ haqqında həqiqi faktlar» (The series of «The true facts about Garabagh») seriyasından kitablar isə bunlardır: *1. «Qarabağın tarixi haqqında qısa informasiya» («Brief Information of the history of Garabagh»). 2. «Azərbaycana qarşı erməni terror dəstələrinin fəaliyyəti» («Activity of Armenian terrorist organizations against Azerbaijan»). 3. «Xocalı soyqırımı» («The Khocaly genocide»). 4. «Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün nəticələri» («Consequences of Armenian aggression against Azerbaijan»).*

Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də İSESKO-nun xoşməramlı səfiri adına layiq görülmüş Mehriban xanım Əliyevanın gördüyü işlər təşkilat tərəfindən ən yüksək səviyyədə qiymətləndirilir. Azərbaycanın paytaxtı Bakı şəhəri 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilib.

Nəcib əməllərinə görə Mehriban xanım Əliyeva müxtəlif beynəlxalq mükafatlara, fəxri adlara, təltiflərə layiq görülüb. Hələ 2004-cü il dekabrın 28-də Mehriban xanım Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib. Bir il sonra Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən Mehriban xanım Əliyeva «İlin qadını» seçilib. 2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın «Yüzilliyin mesenatları»

Beynəlxalq Xeyriyyə Fondunun «Yaqut Xaç» ordeni ilə təltif olunub.

Milli Qəhrəman Çingiz Mustafayev Fondu və «ANS» Şirkətlər Qrupu ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə Mehriban Əliyevanı «2005-ci ilin adamı» elan edib.

Dünya Səhiyyə Təşkilatı (DST) İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Azərbaycanın birinci xanımı ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına layiq görülüb. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında «Qızıl ürək» beynəlxalq mükafatı ilə təltif olunub.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 may tarixli sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Mehriban xanım Əliyeva Heydər Əliyev mükafatı alıb, 2009-cu il sentyabrın 14-də Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Polşa Respublikasının «Xidmətlərə görə» Böyük Komandor Xaçı ordeni, 2010-cu il fev_ralın 15-də Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin sərəncamı ilə «Şərəf legionu» ordeninin zabit dərəcəsi ilə təltif edilib. 2010-cu il iyulun 30-da Mehriban xanım Əliyevaya YUNESKO-nun «Qızıl Motsart» medalı təqdim edilib. 2010-cu il dekabrın 30-da Türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və

qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə TÜRKSAV-ın «Türk dünyasına xidmət» mükafatına layiq görülüb.

**Azərbaycanın Rusiyada layiqli təmsilçisi**

Heydər Əliyev Fondunun Azərbaycan sərhədlərindən kənarda da uğurlu fəaliyyətinin təmin edilməsində onun xaricdəki nümayəndəlikləri mühüm rol oynayır. Fondun nümayəndəliklərinin məqsədləri isə aşağıdakılardır:

*Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək; Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq; Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək; xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək; elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək; xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, elmi tədqiqatların aparılmasına yardım göstərmək; xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək; yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək; xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək; uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək.*

Bu gün qeyd edilən vəzifələrin yerinə yetirilməsində özünəməxsus fəaliyyətilə seçilən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi, sözün əsl mənasında, Azərbaycanla şimal qonşumuz arasında həm də nəcib diplomatik missiya yerinə yetirməkdədir. 2007-ci ilin mayında Rusiyada açılan Heydər

Əliyev Fondunun nümayəndəliyinin başlıca vəzifələrindən biri də ölkələrimiz arasında mədəni və sosial-humanitar körpülər yaratmaqdır. Fondun proqramlarının irəliləyişini təmin edən əsas mexanizm vətəndaş diplomatiyasıdır. Rusiyada bu diplomatiyanın siması və bilavasitə icraçısı Leyla Əliyevadır. Məhz Leyla Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi Azərbaycanın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının təbliği, diaspor hərəkatının genişləndirilməsi istiqamətində böyük işlər görmüşdür. Bu gün də Rusiya ilə Azərbaycan arasında mədəni dialoqun genişləndirilməsi yönümündə atılan addımlar, Rusiyanın mədəni ictimaiyyəti ilə müxtəlif səviyyəli görüşlər keçirilməsi, Azərbaycanın zəngin mədəniyyətinin qonşu ölkədə təbliği siyasəti uğurla davam etdirilir. Rusiya ilə əlaqələrin genişləndirilməsinin vacibliyinə toxunan Leyla Əliyeva qeyd edir: *«Heydər Əliyev Fondunun fəaliyyəti genişlənir və bütün dünyanı əhatə etməyə başlayır, lakin Rusiya ilə əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Biz fondun fəaliyyətinin təkcə Azərbaycanla məhdudlaşa bilməyəcəyini və onun öz əhatə dairəsini genişləndirməli olduğunu başa düşəndə, təbii ki, əməkdaşlıq üçün ilk məkanlardan biri Rusiya oldu».*

Fondun Rusiya filialı təkcə federal icra hakimiyyətləri və qanunvericilik hakimiyyəti səviyyəsində deyil, həm də federasiya subyektlərinin nümayəndələri ilə əlaqələr saxlanması istiqamətində xeyli səy göstərir. Fondun nümayəndəliyinin rəhbərliyi Sankt-Peterburq, Tver, İvanovo, Tula və digər vilayətlərin rəhbərliyi ilə səmərəli əlaqələr qurub. Rusiya hakimiyyətinin və biznesinin digər regional elitası ilə də münasibətlər yaradılıb. Bu kontekstdə Azərbaycan diplomatiyasının mövqeyi baxımından Qarabağ münaqişəsi haqqında məlumatların yayılması kimi çox mühüm məqamı da

xatırlatmamaq olmaz. Fondun nümayəndəliyi Azərbaycanın ən yeni tarixinin həm kədərli, həm də təntənəli məqamları ilə əlaqədar genişmiqyaslı aksiyalara, təşkil etdiyi tədbirlərə Rusiya siyasi elitasının nümayəndələrini də dəvət edir.

Azərbaycan nəşrlərinin Rusiyada geniş yayılmasında da Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi mühüm rol oynamaqdadır. Elə bunun nəticəsidir ki, məşhur Rusiya Dövlət Kitabxanası (keçmiş Lenin adına kitabxana) Heydər Əliyev Fondunun nəşr etdirdiyi Azərbaycan kitabları ilə zənginləşib. Fondun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva kitabxanaya Azərbaycan dilində xeyli kitab hədiyyə edib. Bu kitablar Şərq ədəbiyyatı salonundakı xüsusi Azərbaycan nəşrləri sərgisinə əlavə olunub. Rusiya Dövlət Kitabxanasının direktorluğu isə bildirib ki, bu, çox fərəhli hadisədir və şübhəsiz, iki ölkə arasında mədəni əlaqələrin möhkəmlənməsində mühüm rol oynayacaq. Təşəkkür əlaməti olaraq V.Fyodorov Leyla Əliyevaya Avropada ən böyük, dünyada isə ABŞ Konqresinin kitabxanasından sonra ikinci sayılan Rusiya Dövlət Kitabxanası haqqındakı nəşri hədiyyə edib.

Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin sifarişi ilə əfsanəvi Azərbaycan geoloqu, Sibir neftinin ilk kəşfiyyatçısı Fərman Salmanovun büstünün hazırlanması da Azərbaycanın təbliği baxımından böyük əhəmiyyətə malikdir. Büst üzərində tanınmış heykəltaraş Y.Neyman çalışıb. O, ümummilli lider Heydər Əliyevin Sankt-Peterburqdakı Qoroxovaya küçəsi, 6 nömrəli evin (ulu öndər 1949-1950-ci illərdə burada oxumuşdur) fasadında qoyulmuş barelyefinin müəllifidir. Leyla Əliyevanın Azərbaycanı Rusiya sosiomədəni məkanına gənc və müasir ölkə kimi təqdim edən «Bakı» aylıq jurnalını nəşr etdirməsi də Azərbaycanın təbliğində müstəsna rol oynayır.

Nəfis tərtibatlı «Bakı» jurnalının təqdimat mərasimi mühüm hadisə olmuşdur. Jurnalın baş redaktoru olan Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva bildirib ki, «Bakı» geniş auditoriya üçün nəzərdə tutulub: *«Biz bu jurnal vasitəsilə şəhərimizin bütün gözəlliklərini və hərarətini oxuculara çatdırmağa çalışmışıq. Bakı deyəndə, gözlərimiz önündə mülayim iqlimli, günəşli bir şəhər, onun zəngin mədəniyyəti və qədim tarixi canlanır. Güman edirəm ki, bu jurnal Azərbaycanla Rusiya arasında dostluğun möhkəmlənməsinə, mədəni dialoqun inkişafına kömək edəcəkdir. Ümidvaram ki, xalqların qarşılıqlı sevgisindən, tarixindən və dostluğundan bəhs edən bu jurnalı hamı məmnuniyyətlə oxuyacaqdır. Bu jurnal siyasi nəşr deyil, burada əsasən mədəniyyət, tarix, müxtəlif maraqlı şəxsiyyətlər haqqında söhbət açılır və başlıca vəzifə ondan ibarətdir ki, bu nəşr Azərbaycanı sevən, ölkəmiz haqqında daha çox məlumat əldə etmək istəyən hər kəs üçün maraqlı olsun».*

Həqiqətən də fəaliyyətindən qısa müddət keçməsinə rəğmən, «Bakı» jurnalı Azərbaycan və Rusiya arasında mədəni dialoqun inkişafında mühüm rol oynaya bilib. Artıq «Bakı» jurnalı təkcə Rusiyada yox, bütün MDB məkanında kifayət qədər populyardır. Rusiyada Azərbaycan gəncləri hərəkatının lideri olan Leyla Əliyeva gəncləri RF-in ictimai-siyasi həyatında daha fəal iştirak etməyə, Rusiya cəmiyyətinə daha sıx inteqrasiyaya və bununla bərabər Azərbaycanın milli mədəniyyətinə qayğıkeşliklə yanaşmağa, onu qoruyub saxlamağa və yaymağa da çağırır. Bu mənada, Leyla Əliyevanın Rusiyanın müxtəlif ali məktəblərinin və şəhərlərinin tələbələri olan azərbaycanlı gəncləri ətrafında birləşdirən sima olması tamamilə qanunauyğun haldır. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) sədri

seçilməsini qonşu ölkədə yaşayan azərbaycanlı gənclərin təşkilatlanmasında yeni mərhələnin başlanması kimi də qiymətləndirmək olar. Ümumiyyətlə, bu təşkilat hələ 2007-ci il noyabrın 28-də Leyla Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyində Azərbaycan diasporu və azərbaycanlı gənclərlə görüş təşkil edilən gün özünün sıx birləşmiş bir qurum olduğunu sübut edib.

Həmin görüş aydın şəkildə göstərdi ki, Rusiyada yaşayan gənc azərbaycanlıların birləşdirilməsi təşəbbüsü reallaşmasına ciddi ehtiyac olan ideya və Rusiyada yaşayan hər bir gənc həmvətənimizin arzusudur. Rusiyada yaşayan azərbaycanlı tələbələrin, aspirantların, eləcə də yaşı 16 və daha çox olan adi sakinlərin sayının çoxluğunu nəzərə alsaq, belə bir təşkilatın yaradılmasının zəruri olduğu meydana çıxır. Qeyd olunan məqam fonunda aprelin 18-də Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının təsis konfransının keçirilməsinin də mühüm bir zərurətdən irəli gəldiyi aydınlaşır. Bu təşkilat gənclərin təkcə Moskvada deyil, həm də müxtəlif regionlarda fəaliyyət göstərən təşəbbüs qruplarını özündə sıx birləşdirib. Təsis konfransında çıxış edən Leyla Əliyeva bir sıra mühüm məqamlara toxunaraq qeyd edib ki, bu gün Rusiyanın hər yerində Azərbaycan gənclər klubları açılmışdır: *«Onlar uğurla fəaliyyət göstərir və ölkəmizi ləyaqətlə təmsil edirlər»*.

Leyla Əliyevanın gənc azərbaycanlıları birləşdirməyi və onlara başçılıq etməyi qərara alması onun həm bir şəxsiyyət kimi, həm də öz xalqının övladı kimi yüksək sosial və vətəndaş məsuliyyətindən xəbər verir. Gənclər Fondun və onun Rusiya nümayəndəliyinin bütün təşəbbüslərini dəstəkləməyə və gənclərlə bağlı müxtəlif layihələrdə fəal əməkdaşlıq etməyə hazır olduqlarını bildirirlər. Bununla yanaşı, RAGT-ın nümayəndələri Rusiya tələbələri birliyinə fəal inteqrasiya etməyə çalışır, təhsil aldıqları ali məktəbləri müxtəlif tədbirlərdə

uğurla təmsil edirlər. Digər tərəfdən, fondun nümayəndəliyi Rusiya və Azərbaycanın ali məktəbləri arasında əlaqələrin qurulmasına kömək edir, Rusiya məktəbliləri və tələbələrinin Azərbaycanla və Azərbaycan gənclərinin Rusiya ilə tanışlığı formatında mədəni mübadilə proqramlarının həyata keçirilməsi istiqamətində zəruri addımlar atır. Bütün bunlar həm də Rusiya və Azərbaycan arasında etnik submədəniyyətin məhdudiyyətlər çərçivəsini aradan qaldıran körpünün salınmasında Leyla Əliyevanın əvəzsiz rol oynadığını göstərir. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi ölkəmizin beynəlxalq aləmdə fəal təbliğatçısı olmaqla bərabər, Azərbaycanın xarici siyasətinin təmin edilməsində həqiqətən mühüm diplomatik missiya yerinə yetirir. Özü də Rusiya ilə dostluğu daha da gücləndirən bu missiya iki ölkə arasında münasibətlərin keyfiyyətinə də müsbət mənada ciddi təsir göstərir.

**«Xocalıya ədalət»**

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun, şübhəsiz ki, müstəsna rolu var. Məhz Fondun dəstəyi ilə Xocalı faciəsinin ildönümü 2010-cu ildə artıq dünyanın 100-dən artıq yerində qeyd olundu. Soyqırıma həsr olunmuş silsilə tədbirlər Fondun təmin etdiyi təbliğat materialları əsasında həyata keçirilir. Artıq Fondun gərgin əməyi nəticəsində, əvvəlki illərdən fərqli olaraq, indi dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, nüfuzlu qurumlar bəşəriyyətə qarşı törədilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləyir. Heydər Əliyev Fondu soyqırımı ilə bağlı 100-dək materialın xaricdə sərgisini təşkil edib. Fondun

həyata keçirdiyi «Qarabağ həqiqətləri» silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunan kitab və bukletlər də xaricdə yayımlanır.

İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış «Xocalıya ədalət» kampaniyası ötən dövr ərzində uğurla davam edib və artıq bu aksiyaya dünyanın əksər ölkələrində yüzlərlə könüllü qoşulub. Ümumiyyətlə, İKT-nin Dialoq və Əməkdaşlıq uğrunda Gənclər Forumu da Ermənistanın işğalçı mövqeyinin dünya miqyasında pislənməsi istiqamətində fəal iş aparır. Forum hələ 2007-ci ilin payızında Bakıda «Gənclər sivilizasiyaların alyansına tərəfdardır» təşəbbüsü çərçivəsində təsis edilmiş «Sivilizasiyaların alyansı» Beynəlxalq Gənclər Hərəkatına da müraciət edərək ona tərəfdaşları olan nüfuzlu beynəlxalq təşkilatlar vasitəsilə Ermənistanın həm dinc azərbaycanlıların, həm də öz vətəndaşlarının qanını axıtmış sərsəm rejiminin fitnəkar hərəkətlərini dünya birliyinə çatdırmağı təklif edib. Təklifdə bu fikirlər də yer alıb ki, Dağlıq Qarabağ münaqişəsinə potensial baxımdan sivilizasiyalararası münasibətlərin kəskinləşməsinə gətirib çıxara biləcək bir münaqişə kimi baxılsın. Təklifdə göstərilirdi ki, Ermənistanda hakimiyyətə gəlmiş S.Sarkisyanın bu cür siyasəti dünyanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayan Cənubi Qafqaz regionunda sabitliyin ciddi şəkildə pozulmasına gətirib çıxara bilər.

Onlarca ölkənin gənclər təşkilatlarını birləşdirən İKT-nin Gənclər Forumu İslam Konfransı Təşkilatının affilyasiya edilmiş təsisatı, eləcə də BMT-nin «Sivilizasiyaların alyansı» qurumunun rəsmi tərəfdaşıdır. İKT Gənclər Forumu İdarə Heyətinin 2008-ci ilin aprelində Küveytdə keçirilən 6-cı sessiyasında isə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva Forumun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə birinci baş əlaqələndiricisi seçildi. Bu,

İKT Gənclər Forumunun Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına daha çox diqqət ayırmasında mühüm rol oynadı. Məhz bunun nəticəsi idi ki, həmin il mayın 17-də İstanbulda İKT Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin ikigünlük iclasında Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış «Xocalıya ədalət – Qarabağa azadlıq» kampaniyası İKT ekspertləri tərəfindən dəstəkləndi və 26 fevral – Xocalı Soyqırımı Gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul olundu. Bundan əlavə, Xocalı qətliamının İslam ölkələrində dərsliklərə daxil edilməsi ilə bağlı təklifin də İKT nazirlərinin toplantısına təqdim edilməsi razılaşdırıldı. Ötən ilin iyununda isə İKT-nin üzvü olan ölkələrin xarici işlər nazirlərinin Kampalada (Uqanda) başa çatmış konfransında İKT-nin Gənclər Forumunun sivilizasiyaların alyansı üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın «Xocalıya ədalət – Qarabağa azadlıq» təşəbbüsü təsdiq edildi. Bu barədə İKT Xarici İşlər Nazirlərinin Konfransının 35-ci sessiyasında xüsusi qətnamə qəbul olundu. Qətnamənin xarici işlər nazirləri tərəfindən dəstəklənməsi dünyanın 57 ölkəsində müvafiq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaradılmasına gətirib çıxardı.

Qətnaməyə görə, İKT üzvü olan ölkələrdə humanitar faciələrin qurbanlarının Xatirə Günü təsis edilir. Qətnamədə Xocalı faciəsinin də daxil olduğu bu siyahı təsdiq edilməklə yanaşı, XX əsrdə müsəlman ölkələri xalqlarının məruz qaldığı humanitar fəlakətlər, təcavüzlər və etnik təmizləmələr haqqında düzgün informasiyanın yayılması üçün kampaniyalar keçirilməsi nəzərdə tutulur. Leyla Əliyeva isə onun təşəbbüsünün nüfuzlu beynəlxalq təşkilat tərəfindən bəyənilməsi barədə bunları qeyd edib: *«Bu sənədin qəbul edilməsi Azərbaycan torpaqlarının işğalı faktının beynəlxalq birlik tərəfindən getdikcə daha çox dərk olunmasını və təcavüzkarın mənəvi-siyasi baxımdan daha*

*da təcrid edilməsini əks etdirir. Qətnamə Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqəti İKT üzvü olan ölkələrdə və mədəniyyətlərarası dialoq vasitəsilə qlobal səviyyədə gənc nəslə çatdırmaq üçün imkan yaradır. Qətnamə bu təşəbbüsün həyata keçirilməsində Foruma geniş səlahiyyətlər verir».*

2009-cu ilin mayında isə İKT Xarici İşlər Nazirləri Şurasının Dəməşqdə keçən 36-cı konfransında nazirlər Gənclər Forumu haqqında qəbul etdikləri yekun qətnamədə «Xocalıya ədalət – Qarabağa azadlıq» kampaniyasını tam dəstəkləyərək üzv ölkələri bu kampaniyada fəal iştiraka çağırıblar. 2011-ci ildə isə İslam Konfransı Təşkilatı Parlamentlər İttifaqı (İKT Pİ) Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən «Xocalıya ədalət» beynəlxalq kampaniyasına dəstək olaraq bəyannamə qəbul edib. İKT Parlamentlər İttifaqı Şurasının Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə keçirilən 13-cü sessiyasında Şuraya üzv dövlətlərin qəbul etdikləri Əbu-Dabi Bəyannaməsində Xocalı faciəsini insanlığa qarşı törədilmiş kütləvi cinayət kimi tanımağa çağırılır. Bu, İKT GF-in təşəbbüsü ilə irəli sürülmüş «İKT GF və İKT Pİ arasında əməkdaşlıq haqqında» qətnamənin Şura tərəfindən təsdiqlənməsi nəticəsində baş verib. Qətnamənin 3-cü bəndində qeyd edilib ki, İKT Pİ-yə üzv parlamentlər erməni silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi tanıyır.

Sənəddə üzv dövlətlər qeyd olunan cinayətə milli səviyyədə lazımi qiymət verilməsinə çağırılırlar. İKT Pİ Şurası Leyla xanım Əliyevanın fəaliyyətini yüksək qiymətləndirib və bu rəy qətnamədə öz əksini tapıb. Qətnamədə təşkilata üzv parlamentlərə birbaşa çağırış vardır və bu, öz növbəsində, faciənin milli səviyyədə hüquqi və siyasi tanınması mərhələsini açır. İKT Pİ-nin dünya parlamentlərinin dörddə birini

öz sıralarında cəmləşdirdiyini nəzərə alsaq, mühüm siyasi-hüquqi tərkibə malik «insanlığa qarşı cinayət» ifadəsinin istifadə olunması Xocalı faciəsinin ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin tərkib hissəsi kimi tanınması və cinayəti törədənlərin hüquqi məsuliyyətə cəlb olunması baxımından yeni mərhələdir. Qətnamənin qəbulu ideyası Leyla xanım Əliyevanın «Xocalıya ədalət» kampaniyasının milli koordinatorları ilə görüşündə irəli sürülüb və kampaniyanın fəallarının öz ölkələrinin parlamentləri ilə apardıqları lobbiçilik fəaliyyəti nəticəsində uğurla reallaşdırılıb.

İKT Pİ öz sıralarında 51 üzv dövlətin parlamentini birləşdirir və illik olaraq Şuranın sessiyalarını, iki ildə bir dəfə isə Afrika, Asiya və ərəb bölgəsinin müvafiq ölkələrindən birində konfransın sessiyasını keçirir. Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və hadisənin dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi və mənəvi qiymətləndirilməsinə nail olmağa yönəlmiş «Xocalıya ədalət» beynəlxalq məlumat və təşviqat kampaniyası hazırda dünyanın bir çox ölkəsində yüzlərlə könüllü tərəfindən uğurla həyata keçirilir. Bütün bunlar ulu öndərin adıın daşıyan Fondun onun əməllərini böyük uğurla davam etdirdiyini, Azərbaycanın inkişafına və ölkəmizin dünyada layiqli yerinin daha da möhkəmlənməsinə özünəməxsus töhfələr verdiyini aydın göstərir.

# Yeni hədəf inkişaf etmiş ölkələr sırasına daxil olmaqdır

*«Azərbaycanda iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır. Biz inkişaf etmiş ölkələrin sırasına daxil olmalıyıq və qarşımıza bu məqsəd qoyulubdur. Biz bu məqsədə çatacağıq».*

İlham ƏLİYEV

**Sosial-iqtisadi inkişaf sahəsində müvəffəqiyyətlərlə zəngin tərəqqisini davam etdirən Azərbaycanın artıq bu sferada özünəməxsus cəhətləri ilə seçilən uğurlu bir modelin əsasını qoyduğu beynəlxalq miqyasda da açıq etiraf edilir. İnkişafın Azərbaycan modelinin uğurunu göstərən əsas cəhətlərdən biri ölkənin ümumi daxili məhsulun artım tempinə görə 2005-ci ildən başlayaraq sıçrayışlı dövr yaşaması, bir neçə il ərzində isə qeyd edilən əsas makroiqtisadi göstərici üzrə dünya ölkələrinin reytinq cədvəlinə rəhbərlik etməsi oldu. Hesablamalar göstərir ki, XXI əsrin ilk 10 ili ərzində Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul 7,5 dəfə artıb. Bu isə o deməkdir ki, qeyd olunan müddətdə ölkədə 15,6 faizlik orta illik iqtisadi artım yaşanıb.**

SSRİ-nin tarixin arxivinə qovuşmasından sonra transformasiya prosesi yaşayan ölkələr arasında ümumi daxili məhsulun artım tempinə görə Azərbaycanın yeganə dövlət kimi çıxış etməsi bir daha inkişafın Azərbaycan modelinin hansı möhtəşəm nəticələrə yol açdığını nümayiş etdirir. O da xüsusi olaraq qeyd edilməlidir ki, yeni yüzilin ilk 10 ili ərzində ölkə əhalisinin maddi rifah halının yüksəldilməsinə də böyük diqqət ayrılıb,

orta aylıq əməkhaqqı 7,6 dəfə artıb, işsizlik beş dəfədən çox azaldılıb, yoxsulluq həddi, 2010-cu ilin yekunlarına əsasən, 9 faizə düşüb.

Daha bir mühüm cəhət postsovet ölkələri arasında Azərbaycanın yüksək tərəqqisinin onun bir ictimai-iqtisadi formasiyadan digərinə keçid prosesini daha tez və böyük uğurla başa çatdırması oldu. Bu, artıq bazar iqtisadiyyatı elementlərinin Azərbaycanda tam bərqərar olduğunun, ölkənin iqtisadi inkişafının məhz sözügedən müstəvidə reallaşdığının əsas göstəricisi kimi çıxış edir. Transformasiya prosesinin belə uğurlu yekunu həm də əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən inkişaf strategiyasının nə qədər dəqiq və uzaqgörənliklə hesablanmasının göstəricisi, təntənəsi kimi çıxış edir.

Beləliklə, iqtisadi inkişafında bir çox əsas parametrlər üzrə postsovet ölkələrini qabaqlayan Azərbaycanın iqtisadi sferada keçid prosesini daha tez başa vurması da tamamilə təbii xarakter daşıyır. İqtisadi sahədə keçid dövrünün başa çatmasına toxunarkən Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş mərasimdə çıxışı zamanı bildirmişdir: *«Biz öz iqtisadiyyatımızı inkişaf etdiririk. Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Nəzərə alaq ki, dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Müxtəlif hesablamalara görə, Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıbdır».*

İqtisadi sahədə keçid dövrünün başa çatmasının daha bir mühüm cəhəti onun dünyanı sarsıdan qlobal maliyyə böhranı fonunda özünü göstərməsi oldu. Belə bir şəraitdə iqtisadi sahədə

keçid dövrünü başa vurmaqla Azərbaycan həm də yaratdığı modelin nə dərəcədə effektiv və kənar mənfi təsirlərdən yüksək özünümüdafiə qabiliyyətinə malik olduğunu ortaya qoydu. Ümumiyyətlə, 2008 və 2009-cu illər ərzində özünü daha qabarıq büruzə verən, əvvəl maliyyə, daha sonra isə real sektoru əhatə edən böhrandan ən az təsirlənən və minimal itki ilə çıxmağı bacaran çox azsaylı ölkələrdən biri məhz Azərbaycandır. 2010-cu ildə də müəyyən fəsadlarını göstərən böhran ölkəmizdə, demək olar ki, hiss olunmadı. Bu, bir daha Azərbaycan iqtisadiyyatının dayanıqlığının və özünüinkişaf qabiliyyətinə malik olmasının mühüm göstəricisidir.

Sözügedən böhran isə okeanın o tayında başlasa da, az sonra bütün dünyanı öz cənginə aldı. Belə ki, 2008-ci il sentyabrın 15-i dünya maliyyə bazarında «qara bazar ertəsi» kimi həkk olundu və məhz həmin gün qlobal miqyasda investisiya fondunun nəhəngi sayılan ABŞ-ın «Lehman Brothers» bankının özünü müflis elan etməsi ilə dünyanı lərzəyə salan qlobal maliyyə böhranının başlandığı məlum oldu. «Lehman Brothers»in müflislik barədə elanından dərhal sonra dünyanın ən aparıcı fond birjalarında indekslər sürətlə ucuzlaşmağa başladı. Baş verənlər ABŞ-da ipoteka bazarının çökməsi prosesinə yeni bir təkan verdi. Aşağı faizlərlə kredit verən bütün şirkətlər, demək olar ki, eyni vaxtda zərərə düşdüklərini elan etdilər. Bir sıra ipoteka operatorları isə bazardan çəkildiklərini, digərləri müflis olduqlarını bildirdilər.

Araşdırmalar göstərir ki, ABŞ-da ipotekanın belə geniş vüsət almasına əsas səbəb 2000-2001-ci illərdə informasiya və yüksək texnologiyalar üzrə ixtisaslaşmış şirkətlərin səhmlərinə qoyulan vəsaitlər hesabına maliyyə sisteminin böyük itkilərlə üzləşməsi təkan verib. Belə şirkətlərin səhmlərinin müəyyən müddət üçün ucuzlaşması sonda investorların diqqətini real mülkiyyətə – mənzilə və digər növ daşınmaz əmlak növlərinə yönəltməsilə nəticələndi. Bu şəraitdə bankların müştərilərin

verilən kreditləri nə dərəcədə qaytarmaq imkanına malik olduqlarını araşdırmaması, onların etibarlılıq dərəcəsini yoxlamaması artıq ipoteka bazarında gələcək böhranın əsasını qoyurdu. Əvvəllər banklar ipoteka ilə alınan mənzilin dəyərinin 70 faizindən artığının pulunu verməkdən imtina edirdi. Sonralar isə ipotekaya tələbin artması fonunda banklar mənzillər üçün ilkin ödəniş olaraq 80, az sonra 90, bir qədər keçdikdən sonra isə 100 faizi həcmində kredit verməyə başladılar. Hətta bəzi banklar evin dəyərinin 105-110 faizi həcmində kredit verirdi və əlavə 5-10 faiz mənzili mebellə təmin etməyə hesablanmışdı. Bu, müştəri gətirmək üçün cəlbedici bir metod idi. Sözügedən ipoteka krediti bumu 2006-cı ilə qədər davam etdi. Məhz 2006-cı ildən etibarən məlum oldu ki, müştərilərin heç də hamısı banklardan ipoteka məqsədi ilə aldıqları kreditləri geri qaytarmaq iqtidarında deyil. Elə bu da kredit verən bankların maliyyə sarıdan ciddi problemlərlə üzləşməsinin əsasını qoydu. 2007-ci ildən başlayaraq dünyada yanacaq-enerji daşıyıcılarının və ərzağın qiymətinin sürətli artımı aşağı gəlirli ipoteka borclularının durumunu daha da ağırlaşdırdı. Bu vəziyyətdə banklara ipoteka kreditlərinin ödənilməsi ilə bağlı yaranan problemlərin miqyası təbii olaraq artan xətt üzrə inkişaf etməyə başladı və onların əksəriyyətinin ödəmə qabiliyyətinin olmadığı üzə çıxdı. Yaranmış durumda maliyyə bazarlarında mövqeləri laxlayan bankların getdikcə daha ağır vəziyyətə düşməsi iqtisadi inkişafın əsas əngəlləyici faktoruna çevrilirdi.

«Lehman Brothers»in çöküşü isə ABŞ-ın özündə maliyyə böhranını dərinləşdirməklə yanaşı, onun daha böyük sürətlə dünya iqtisadiyyatına təsir etməsi demək idi. Elə bu səbəbdən «Lehman Brothers»in müflis olduğu gün həm də qlobal maliyyə böhranının başlandığı dövr hesab olunur. «Lehman Brothers»in müflislik barədə elanından dərhal sonra dünyanın ən aparıcı fond birjalarında indekslər sürətlə ucuzlaşdı.

Daha sonra böhranın təsirləri Avropada, MDB-də, digər dünya dövlətlərində hiss edilməyə başlandı. 2008-ci ilin yekunları göstərdi ki, Azərbaycan dünyanın bir çox ölkələrindən fərqli olaraq qlobal maliyyə böhranının təsirlərindən effektiv müdafiə olunan dövlətlər sırasında yer alır. Bunun başlıca səbəblərindən biri də qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək üçün vacib əhəmiyyət daşıyan bir sıra qabaqlayıcı tədbirlər görülməsi idi. Azərbaycanın iri maliyyə ehtiyatlarının olması, banklar və müəssisələrin o qədər də borclanma səviyyəsinə malik olmaması və dövlət tərəfindən bank sistemi ilə bağlı çevik siyasət yeridilməsi böhranın təsirlərinin neytrallaşmasına imkan verdi. Bütün bunlar həm də böhranın özünün zirvə nöqtəsinə çatdığı 2009-cu ildə ölkəmizin iqtisadi sahədə keçid dövrünü başa vurması ilə nəticələndi. Dünyanın əksər ölkələrində ciddi iqtisadi geriləmə qeydə alındığı halda iqtisadi sahədə keçid dövrünü uğurla başa çatdıran Azərbaycanda böhranın pik həddi sayılan 2009-cu ilin yekunları üzrə ümumi daxili məhsulun 9,3 faizlik artımı yaşandı. Bu, bir daha Azərbaycanın iqtisadi inkişaf strategiyasının möhtəşəm uğurundan xəbər verirdi.

Sonrakı dövrdə qazanılan uğurların miqyasının davamlı şəkildə genişləndirilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması ilə yanaşı, milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin daha da yüksəldilməsinə gətirib çıxardı. Bu fonda qeyri-neft sektorunun daha dinamik inkişafı təmin edildi və iqtisadiyyatın diversifikasiyası davam etdirildi. Regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi yeni vüsət aldı, sahibkarlığın dinamik tərəqqisi üçün biznes mühitinin daha da təkmilləşdirilməsi həyata keçirildi. Ümumiyyətlə, Azərbaycan bu gün biznes, investisiya mühitinə görə vəziyyətin ən yaxşı olduğu ölkələr sırasında yer alır. Dövlətin sözügedən sahələrə dəstəyi isə onların dinamizmə əsaslanan inkişafında özünəməxsus vacib rol oynayır. Həmçinin ölkənin enerji,

ərzaq və ekoloji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində kifayət qədər böyük nailiyyətlərə imza atılıb, bu sahədə görülən işlərin miqyası davamlı şəkildə genişlənməkdədir. Ölkənin ixrac potensialının genişləndirilməsi və milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, sosial-yönümlü siyasətin davamlığının təmin edilməsi yaşanan tərəqqiyə mühüm töhfələr verməkdə, bazar iqtisadiyyatı şəraitində Azərbaycanın yeni müvəffəqiyyətlərə imza atmasını şərtləndirməkdədir.

Bütün bunlar qarşıdakı dövr ərzində Azərbaycanın qət edəcəyi iqtisadi tərəqqi yolunun yenə möhtəşəm uğurlarla müşayiət olunacağını, ölkəmizin daha böyük nailiyyətlərə imza atacağını şərtləndirən əsas faktorlar sırasında yer alır. Bunun ən ümdə səbəblərindən biri Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən və ilk növbədə sosialyönümlü problemlərin kompleks həllinə geniş imkanlar açan səmərəli islahatlar, imzalanan mühüm fərman və sərəncamlar, sosial-iqtisadi siyasətin strateji məqsədləri olaraq qarşıya qoyulmuş sərbəst bazar münasibətlərinə əsaslanan çoxşaxəli milli iqtisadiyyatın formalaşdırılması, onun dünya təsərrüfat sisteminə uğurlu inteqrasiyasının təmin olunmasıdır. Eyni zamanda, azad bazar münasibətləri şəraitində Azərbaycan iqtisadiyyatının inkişaf tempinin daha çevik hala gəlməsi üçün qəbul olunan müvafiq dövlət proqramları və onlara əlavələr bu gün paytaxt və regionların tarazlı, davamlı inkişafını, onların potensialının bir-birinə kömək mexanizmi üzərində qurulmasını, qeyri-neft sektorunun daha da möhkəmlənməsini, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılmasını, infrastrukturun yeniləşdirilməsini müvəffəqiyyətlə təmin edib.

Ümumiyyətlə, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində iqtisadi müstəqilliyini davamlı bir formada daim gücləndirən Azərbaycan bu sahədə dayanıqlı və dinamik yüksəlişini təmin edən bir ölkə kimi çıxış edir.

Bu məqsədlə iqtisadiyyatın sahəvi və coğrafi şaxələndirilməsi siyasəti uğurla davam etdirilib və etdirilməkdədir. Eləcə də özəl sahibkarlığın, kiçik və orta biznesin inkişafında keyfiyyətcə yeni mərhələ açılıb, ölkədə rəqabət mühiti, iqtisadiyyatın elmi əsaslar üzərində tərəqqisi təmin olunub, vətəndaşların layiqli həyat səviyyəsinə zəmin verəcək məqbul gəlirləri təmin edən iş yerlərinin açılması iqtisadi inkişafın əsas parametrlərindən birinə çevrilib. Ərzaq təhlükəsizliyinin təminatı sahəsində mühüm nailiyyətlərə imza atılıb, idxaldan asılılıq əhəmiyyətli dərəcədə azaldılıb və yaxın perspektivdə tam aradan qaldırılması nəzərdə tutulur. Bu kontekstdə ixrac potensialı davamlı olaraq genişləndirilir. Bütün bunlara paralel olaraq cəmiyyət, ailə və hər bir vətəndaşın sosial rifahının mütəmadi qaydada yüksəlməsi, insan kapitalının inkişafı əsas diqqət mərkəzində yer alır. Təsadüfi deyil ki, ölkəmizdə insanların fiziki, mənəvi, sosial tələbatlarının təminatının ildən-ilə yaxşılaşması beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir, Azərbaycan insan inkişafı indeksinə görə də dünya üzrə böyük müvəffəqiyyətlərə imza atmış dövlətlərdən biri kimi göstərilir.

Artıq beynəlxalq miqyasda kefiyyətcə yeni bir statusda qəbul olunmağa başlayan Azərbaycan sıçrayışlı inkişaf nəticəsində «aşağı gəlirli ölkələr» sırasından «orta gəlirli ölkələr» sırasına qəbul olunub. Qarşıda duran əsas hədəflərdən biri «orta gəlirli ölkələr» sırasının daha yüksək şkalasına, bunun ardınca «yüksək gəlirli ölkələr» cərgəsinə daxil olmaqdır. «Orta gəlirli ölkələr» qrupunun daha yüksək şkalası adambaşına düşən milli məhsulun 17-18 min ABŞ dollarına çatdırılmasıdır. 2010-cu ilin yekunlarına əsasən isə Azərbaycanda sözügedən səviyyə 10 min dollardan artıqdır. Azərbaycan iqtisadiyyatının ildə təxminən 7-8 faiz artmasının təmin olunması isə reallığa kifayət qədər yaxın olduğundan və bundan əvvəl əldə edilən nəticələr də bunu təsdiq etdiyindən yaxın tezlikdə Azərbaycanın «orta gəlirli ölkələr» sırasının

daha yüksək şkalasında yer alacağı heç bir şübhə doğurmur. BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsində qeyd olunur ki, 1950-ci ildən sonra belə bir inkişafa 13 ölkə nail olub. İndi Azərbaycanın tam imkanı vardır ki, 14-cü dövlət qismində çıxış etsin. Bunun üçün ölkədə hər bir şərait var: ilk növbədə son 10 ildə görülmüş işlər, yaranmış potensial və təcrübə, ən başlıcası, ölkədə uzunmüddətli siyasi sabitlik, siyasi inkişaf və Prezident İlham Əliyevin simasında müasir dünya baxışları olan güclü liderin olması. Bütün bunlar ölkəmizin «yüksək gəlirli ölkələr» cərgəsinə daxil olmaq perspektivinin də elə uzaqda olmadığını deməyə əsas verir.

Qeyd edilənlər bir daha təsdiq edir ki, həyata keçirilən iqtisadi siyasətin mahiyyətində duran əsas məqam xalqın sosial rifahının daha da yaxşılaşdırılması fonunda Azərbaycanın daha qüdrətli bir ölkəyə çevrilməsini təmin etməkdir və bu, Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin əsas məqsədidir. Qazanılan uğurlar, o cümlədən iqtisadi sahədə keçid dövrünün sona yetməsi təbii olaraq Azərbaycanın qarşısında yeni mühüm vəzifələr qoyur. Bu vəzifələrin ən vaciblərindən biri isə Azərbaycanın inkişaf etmiş ölkələrin sırasına daxil olmasının təmin edilməsidir. Bu, cənab İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biridir.

Azərbaycanın əldə etdiyi nailiyyətlər, malik olduğu potensial ölkəmizin iqtisadi inkişaf statusunun dəyişməsinə və onun inkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş dövlətlər kateqoriyasına daxil edilməsinə lazımi imkanlar verir. Digər tərəfdən o da diqqətə alınmalıdır ki, ölkəmizin inkişaf göstəriciləri qeyd edilən dövlətlər sırasına Azərbaycanın daha tez daxil olmasına böyük imkanlar yaradır. Belə ki, inkişaf etmiş ölkələri xarakterizə edən əsas göstəricilər bu gün Azərbaycana da xas olan əsas cizgilər sırasında yer alır. Sadəcə, ölkəmizin həmin göstəricilər üzrə qazandığı nailiyyətlərin miqyasını daha da artırması Azərbaycanın iqtisadi statusunun dəyişməsinə gətirib çıxarmaq iqtidarındadır.

Bilindiyi kimi, inkişaf etmiş ölkələr üçün əsas göstəricilərdən biri əhalinin yüksək həyat səviyyəsidir. Qeyd edilən kateqoriya üzrə hazırda postsovet məkanında ən yüksək göstəricilərdən biri məhz Azərbaycana məxsusdur. Hətta dünyanın nüfuzlu nəşrlərindən hesab edilən «İnternational Living» jurnalı ölkələrin 2009-cu il üçün kateqoriyalar üzrə reytinq göstəricilərinə dair hesabatda Azərbaycanın MDB və region ölkələri arasında ən güclü iqtisadiyyata malik olduğunu və həyat səviyyəsinin MDB-də ən yüksək yerlərdən birində durduğunu bildirib. Jurnalın həyat səviyyəsi, mədəniyyət, iqtisadiyyat, ekologiya, səhiyyə, infrastruktur, ictimai təhlükəsizlik və iqlim sahələri üzrə apardığı araşdırmalar 194 ölkəni əhatə edib və bu sahələr üzrə hər bir ölkə 100 ballıq sistemlə qiymətləndirilib.

İnsan inkişafı indeksi baxımından Azərbaycan yüksək nailiyyətlərin müəllifi kimi çıxış edir. Belə ki, ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində inkişafın mühüm bazası və göstəricisi olan insan kapitalının formalaşdırılmasına hər zaman xüsusi diqqət yetirilir. BMT İnkişaf Proqramının 2010-cu il İnsan İnkişafı Hesabatından da aydın görünür ki, Azərbaycan bu istiqamətdə hətta dünya üzrə qabaqcıl sayılan iki dövləti – Çin və Hindistanı da arxada qoymağa müvəffəq olub. 2010-cu ilin sonunda Bakıda təqdimatı keçirilən hesabat dünyanın 169 ölkəsini əhatə edir. Hesabatdan aydın olur ki, son 5 ildə Azərbaycan insan inkişafı sahəsində ən sürətli irəliləyişə imza atan ölkə kimi çıxış edir və bunun nəticəsidir ki, 2005-ci ildə 101-ci yerdə olan Azərbaycan 2010-cu ildə 67-ci yerə yüksəlib. O da sevindirici haldır ki, Azərbaycan 2000-2010-cu illər arasında postsovet məkanında insan inkişafı indeksinə görə illik 1,77 faiz artım dərəcəsi ilə ən yüksək göstəriciyə nail olub. Nəticədə Azərbaycan «orta insan inkişafı» qrupu ölkələrini tərk edərək «yüksək insan inkişafı» ölkələri kateqoriyasına daxil edilib. Bu, bir daha təsdiq edir ki, inkişaf etmiş ölkələrə xas olan əsas

cəhətlərdən biri kimi ölkəmizdə müasir dövrdə insanlar daha sağlam və uzunömürlü həyat sürür, həmçinin daha yüksək səviyyədə təhsil ala bilir və daha çox məhsul və xidmət növlərindən istifadə etmək imkanına malikdirlər. Beləliklə, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət Azərbaycanın ümumi tərəqqisini daha sürətli hala gətirməklə yanaşı, həm də ölkə vətəndaşlarının həyat səviyyəsinin davamlı olaraq yüksəlməsinə yol açır. Ölkə rəhbərinin dəqiq düşünülmüş iqtisadi siyasəti nəticəsində davamlı xarakterə malik iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanda sosial həyat və iqtisadiyyatın bütün sahələrində böyük nailiyyətlər əldə edilir və bu kontekstdə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılır. Bu isə yaxın perspektivdə Azərbaycanda yoxsulluq probleminin də tamamilə həll ediləcəyini, insanların maddi rifah halının daha da yüksələcəyini bəri başdan qətiyyətlə deməyə əsas verir.

Azərbaycanın insan inkişafı sahəsində qazandığı uğurları şərtləndirən daha bir mühüm məqam ölkənin zəngin resurslarının intellektual potensiala çevrilməsi ilə əlaqədar görülən məqsədyönlü işlərdir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mahiyyətində duran ən önəmli cəhətlərdən biri məhz ölkəmizin mövcud təbii resurslarının intellektual potensiala çevrilməsi prosesini sürətləndirməkdir. Bu məqsədlə son illərdə 1200-dən çox orta məktəb binası tikilib istifadəyə verilib, onların maddi-texniki bazası müasir standartlara uyğun şəkildə qurulub. Eyni zamanda, gənc nəslin intellektual səviyyəsinin artırılması və yeni texnologiyalara yiyələnməsi üçün 2007-2015-ci illəri əhatə edən xüsusi dövlət proqramı çərçivəsində 5000 azərbaycanlı tələbənin dünyanın aparıcı universitetlərində təhsil alması işinə başlanıb. Bu isə Azərbaycan gənclərinin intellektual potensialının daha da gücləndirilməsi, nəticədə ölkəmizin siyasi və iqtisadi sferalarda yeni zirvələri fəth etməsi deməkdir.

Hazırda Azərbaycanda bazar iqtisadiyyatının bəşəri prinsiplər əsasında fəaliyyətinin təmin edilməsi nəticəsində hər bir vətəndaşın ümumi sərvətlərdən bəhrələnməsi, cəmiyyətdə gedən proseslərə inteqrasiyası və fərdi kreativliyi daha da güclənir. Azərbaycanın inkişafının dinamik xarakteri və özünü hər bir fərdin həyatında əks etdirməsi isə bu prosesin daha sürətlə reallaşmasına rəvac verir. Qeyd olunduğu kimi isə, ölkəmizdə insanların fiziki, mənəvi, sosial tələbatlarının təminatının ildən-ilə yaxşılaşması beynəlxalq səviyyədə də açıq etiraf edilir, bu sahədə Azərbaycanın nümunəvi dövlət olduğu vurğulanır. Həyat səviyyəsini xarakterizə edən əsas göstəricilərin inkişaf dinamikasına diqqət yetirməklə də bunun real təsdiqini görmək mümkündür. Son bir neçə ilin təhlili göstərir ki, Azərbaycanda əhalinin adambaşına düşən gəlirlərinin miqdarı, istehlak edilən məhsulların, göstərilən xidmətin həcmi davamlı olaraq artıb, bu zaman keyfiyyət göstəriciləri daha da yaxşılaşıb. Eyni zamanda, mənzillə təminat, kommunal xidmətlərin müxtəlif növləri, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə göstərilən xidmət kəmiyyət və keyfiyyət etibarı ilə əhəmiyyətli dərəcədə yüksəlib.

Bununla yanaşı, məşğulluq səviyyəsinin, əmək şəraitinin yaxşılaşdırılması, insan hüquqlarının müdafiəsi sahəsində də qazanılan uğurların miqyası durmadan genişlənir. Ölkəmizdə insanların sabit, təhlükəsiz şəraitdə yaşaması, maddi gəlirlərinin artması, sosial xidmətlərin yaxşılaşdırılması və digər bu kimi hallar demoqrafik göstəricilərə də müsbət təsir göstərməkdədir. Ötən illərin müqayisəli təhlili göstərir ki, Azərbaycanda həyatın davamlığı sahəsində vəziyyət müsbətə doğru dəyişir və orta yaş həddi daha da artır. Bütün bunlar bir daha dinamik inkişaf edən Azərbaycanın uğurlu tərəqqisinin bilavasitə insanların həyatında da özünü əks etdirdiyini bariz şəkildə nümayiş etdirir. Elə bunun nəticəsidir ki, Azərbaycan insan inkişafı indeksinə görə də dünya üzrə böyük müvəffəqiyyətlərə imza atmış

dövlətlər sırasındadır. Həqiqətən də insan inkişafı indeksini özündə ehtiva edən bütün göstəricilərə, o cümlədən əhalinin savadlılıq səviyyəsinə, uzunömürlüyə, alıcılıq qabiliyyətinin yüksəlməsinə diqqət yetirdikdə ciddi bir tərəqqinin əldə olunmasını görmək mümkündür.

İnkişaf etmiş ölkələr üçün əsas xarakterik cəhətlərdən olan ümumi daxili məhsulun yüksək həcmi sahəsində də Azərbaycan mühüm nailiyyətlərin müəllifi kimi çıxış edir və bu sahədə davamlı yüksəliş nümayiş etdirir. İstehsal, yüksək kapitallaşma, elmtutumlu sahələrin, sənayenin sürətli inkişafı kimi xarakterik cəhətlər baxımından Azərbaycan inkişaf etmiş dövlətlər sırasına daxil olmaq istiqamətində əsaslı uğurlar qazanan dövlətlərdən biridir. Bu kontekstdə o da nəzərə alınmalıdır ki, ərazi bütövlüyünün pozulmasına, təcavüzə məruz qalmasına, 1 milyondan artıq qaçqın və məcburi köçkününün olmasına baxmayaraq Azərbaycan hər hansı xarici yardıma ehtiyac duymur. Əksinə, ölkəmiz tədricən donor dövlətə, beynəlxalq miqyasda aparıcı investorlardan birinə çevrilməkdədir. Azərbaycan həm də o azsaylı ölkələrdəndir ki, enerji, nəqliyyat, ərzaq təhlükəsizliyini uğurla təmin etməyi bacarıb. İqtisadi sferada keçid dövrü başa çatdıqdan sonra sosial-iqtisadi inkişafın yeni mərhələsində Azərbaycan özünün nəqliyyat, enerji, ərzaq və ekoloji təhlükəsizliyinin daha da gücləndirilməsi üçün sistemli tədbirlər həyata keçirməkdə, qətiyyətli addımlar atmaqda davam edir. Bu məqsədlə iqtisadiyyatın diversifikasiyası üçün görülən işlərin miqyası genişləndirilməkdə, innovativ metodlardan istifadə olunmaqda, intensiv üsulların tətbiqinə diqqət daha da atırılmaqdadır. İstər sənaye, istər kənd təsərrüfatı, istərsə də yeni istehsal sahələrinin yaradılması və bu zaman qabaqcıl elmi texnologiyadan istifadəyə xüsusi diqqət yetirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə olunması, həmçinin ölkə daxilində belə elmtutumlu sahələrin yaradılması iqtisadi

inkişafda keyfiyyət amilinin daim ön planda tutulmasını təmin edən əsas cəhətlərdən birinə çevrilib. Bazar iqtisadiyyatı üçün səciyyəvi olaran qanunvericilik bazasının daha təkmil hala gətirilməsi, müəssisələrin təsərrüfat fəaliyyətində sahibkarlıq subyektlərinə geniş imkanlar verilməsi, mülkiyyətin çoxnövlüyünün təminatı, qiymətlərin, eləcə də xarici ticarətin liberallaşdırılmasına yol açan institusional islahatlar yeni inkişaf mərhələsində Azərbaycana növbəti böyük uğurları qazandıracaq müvafiq bazanın formalaşmasında zəruri rol oynayıb və oynamaqdadır. Ölkəmizdə maliyyə və kapitalın azad hərəkəti, qiymətli kağızlar, sığorta, lizinq, fond birjalarının inkişafı, idxal-ixrac əməliyyatlarının genişlənməsi, tədiyə balansında bir qayda olaraq müsbət saldonun qeydə alınması, xarici iqtisadi fəaliyyət prosedurlarının sadələşdirilməsi, qlobal iqtisadiyyatda milli mənafelərin qorunması ilə uğurlu inteqrasiya  və digər amillər Azərbaycanın inkişafını daha da dinamikləşdirən mühüm cəhətlərdir.

İntellektual potensialın formalaşdırılması və inkişafının xüsusi diqqət mərkəzində olması, sosialyönümlü siyasətin prioritet istiqamət təşkil etməsi, şübhəsiz ki, yeni mərhələyə qədəm qoymuş iqtisadi tərəqqinin Azərbaycan xalqının bu sahədə intibahına təsirsiz ötüşməyərək onu daha yüksək hala gətirəcək. Ölkəmizin Baş Qanununda da deyildyi kimi, *«Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir»*. Bütün bunlar Azərbaycana kifayət qədər parlaq gələcək, daha sürətli inkişaf tempi və yeni möhtəşəm uğurlar vəd edir.

Bu uğurlar sırasına Azərbaycanın inkişaf etmiş ölkələr sırasına daxil olması kimi mühüm bir nəticənin də əlavə olunacağı heç bir şübhə doğurmur və perspektivdə bunun yüksək inkişaf etmiş ölkə kateqoriyası ilə əvəzlənəcəyi istiqamətində də müvafiq

addımlar atılması üçün lazımi potensialın ortaya qoyulacağı tam gözləniləndir. Bu, Şərq dünyasında Yaponiyadan sonra ölkəmizin ikinci belə dövlət statusu daşıyacağına da bir əminlik yaradır.

Beləliklə, qeyd edilənlərə əsasən, Azərbaycanın artıq inkişaf etmiş ölkələr kateqoriyasına daxil edilmə perspektivinin yaxın tezlikdə kifayət qədər yüksək olma ehtimalını aşağıdakı meyarlara əsasən qeyd etmək mümkündür: ölkəmizdə ümumi və adambaşına düşən ümumi daxili məhsulun miqdarı, həyat səviyyəsi və standartının yüksək səviyyəsi ilə ifadə olunan sosial-iqtisadi tərəqqi artıq inkişaf etmiş dövlətlərin müvafiq göstəricilərinə olduqca yaxındır və tezliklə onlarla bərabər səviyyədə olacaq; iqtisadi sahədə keçid dövrünü başa vurduqdan sonra Azərbaycan təsərrüfatçılığın bazar iqtisadiyyatı sisteminə uyğun qurulmasını təmin edib və bu, inkişaf etmiş ölkələrə xas olan əsas xüsusiyyətlərdən biridir; bu gün Azərbaycan iqtisadiyyatı inkişafa töhfələr verəcək qanunvericilik tələblərinə uyğun istənilən təşəbbüsə açıqdır, xarici investisiyaların ölkəyə gəlişinə, daxili sərmayələrin miqdarının davamlı artımına hər cür şərait yaradılıb. Artıq ümumi daxili məhsul istehsalında özəl sektorun payı 85 faizi keçir. İstər özəl, istərsə də dövlət istehsalının məcmu həcminin artan xətt üzrə inkişafı ölkə iqtisadiyyatının dinamik inkişafda olduğunu göstərməklə yanaşı, onun yüksək effektivliyinin mühüm göstəricisidir; Azərbaycanda ümumi daxili məhsul istehsalında xidmət sferasının payının sənaye və kənd təsərrüfatına nisbətən sürətli artımı respublikamızı inkişaf etmiş ölkələr kateqoriyasına yaxınlaşdıran daha bir vacib amil kimi çıxış edir; sənayedə emal və material tutumlu sahələrdən yüksək texnologiyalara əsaslanan, elmi-texniki tərəqqinin nailiyyətlərinə söykənən istehsal sferalarına keçid istiqamətində qazanılan nailiyyətlər də Azərbaycanın inkişafında yeni bir mərhələnin təzahürü sayılır. Bu amil məhz inkişaf etmiş ölkələri xarak-

terizə edən əsas xüsusiyyətlərdən biridir; həyata keçirilən məqsədyönlü siyasət nəticəsində kənd təsərrüfatı istehsalında kifayət qədər ciddi uğurlara imza atılıb, ilk növbədə burada istehsalın mexanikləşdirilməsi həyata keçirilib. Görülən digər tədbirlər məhsuldarlığın yüksək səviyyədə olmasına gətirib çıxarmaqdadır. Bunun nəticəsində ölkənin ərzaq tələbatının təminatında yerli istehsalın payı əhəmiyyətli dərəcədə artıb və inkişaf etmiş ölkələrdə olduğu kimi, yaxın tezlikdə bütün əsas kənd təsərrüfatı məhsullarına olan tələbat məhz yerli istehsal hesabına ödəniləcək. Artıq kənd təsərrüfatında strateji sayılan əksər məhsulların yüz faizi yerli istehsalın payına düşür. Həmçinin tələbatdan artıq istehsal olunan məhsullar ixraca yönəlir. Beləliklə, inkişaf etmiş ölkələrin əksəriyyətində olduğu kimi, Azərbaycanda da kənd təsərrüfatının iqtisadiyyatın ixrac sektoruna çevrilməsi prosesi gedir.

Bütün bunlar bir daha tezliklə Azərbaycanın adının inkişaf etmiş ölkələr sırasında hallanacağını istisna etmir. Əslində, artıq bəzi beynəlxalq təşkilatlar Azərbaycanı inkişaf etmiş ölkə qismində qəbul edir. Məsələn, Ümumdünya Ticarət Təşkilatı Azərbaycanın tərəqqi göstəricilərini əsas gətirərək onun məhz inkişaf etmiş ölkə statusunda bu quruma daxil olmasını israr edir. Əldə edilən nailiyyətlər yaxın perspektivdə digər müvafiq beynəlxalq təşkilatlar və iqtisadiyyat institutları tərəfindən də Azərbaycanın analoji statusla qəbul edilməsini istisna etmir. Bundan sonra isə ölkəmizin qarşısında duracaq yeni hədəf yüksək inkişaf etmiş ölkələr sırasına daxil olmaq olacaq ki, bu missyanın da uğurla yerinə yetiriləcəyi heç bir şübhə doğurmur.

# İLHAM ƏLİYEV FENOMENİ:
## uğur rəmzi

*«Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Yəni, əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı».*

İlham ƏLİYEV

**Mürəkkəb və vacib sosial fenomen olan lider faktoru bir çox hallarda bu və ya digər xalqın gələcək taleyinin, keçəcəyi inkişaf yolunun müəyyən edilməsində əsas amilə çevrilir. Şəxsiyyət faktoru ilə üzvi surətdə bağlılığı olan lider amili həm də hər hansı tarixi dövrdə zamanın tələbinə uyğun inkişaf yolunun müəyyən edilməsinə təkan verən ideya və ideologiya daşıyıcısı kimi çıxış edir, konkret məqsədlərin müəyyən olunmasında əsas rol oynayır. Hər bir ekstremal şəraitdə doğru qərarlar qəbul etməyi bacaran, milli maraqları ölkənin tarixi ənənələri ilə uzlaşdırmaq iqtidarında olan lider zərurət olduğu təqdirdə yeni təfəkkür tərzi və formasını yaradan novatorçu kimi də çıxış edir. Bütün bunlar onun təsdiqidir ki, liderin baxışları, xarakteri, motivasiyası bütöv halda götürülmüş bir cəmiyyətin intibahına əhəmiyyətli dərəcədə təsir göstərən əsas faktorlardan biridir.**

Ötən əsrin son dekadasında Sovetlər İttifaqının dağılması və dünyada yeni yaranan, olduqca mürəkkəb dəyərləndirilən bir ictimai-siyasi şəraitdə ikinci dəfə dövlət müstəqilliyini qazanan

Azərbaycanın mövcud inkişaf yolunun müəyyənləşdirilməsində lider amili həlledici rol oynayıb. Ölkəni üzləşdiyi xaosdan, anarxiyadan, yenicə əldə olunan müstəqilliyini itirmək təhlükəsindən xilas edən, onun dinamik inkişaf strategiyasının müəllifi olan ulu öndər Heydər Əliyevin malik olduğu liderlik keyfiyyətləri tarixə adı qızıl hərflərlə həkk olunmuş bu dahi şəxsiyyətin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi müddətdə də idarəçilikdə özünü qabarıq büruzə verərək respublikanı uğurlu intibah yoluna çıxardı. Tarixi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığı Heydər Əliyev fenomeninə Azərbaycan xalqı tərəfindən duyulan sevgini, sonsuz etimadı daha da dərinləşdirdi. Çünki ulu öndərin titanik fəaliyyəti nəticəsində Azərbaycanın yeni tarixi böyük uğurlarla zəngin oldu, eləcə də yaşananlar cəmiyyətin, onun hər bir fərdinin həyatına da müsbət istiqamətdə əhəmiyyətli təsir göstərdi.

Fəaliyyəti ilə tarix yaradan Heydər Əliyev şəxsiyyətinə bu gün təkcə Azərbaycanda yox, onun sərhədlərindən çox-çox kənarda da böyük heyranlıq duyulur, xatirəsi daim böyük hörmət və ehtiramla anılır. Onun böyük müdrikliklə yaratdığı milli dövlətçiliyin müasir modeli öz unikallığı ilə fərqlənməklə yanaşı, Azərbaycanın inkişaf istiqamətlərini də özündə ehtiva edir. Xalqımızın bu dahi oğlunun kifayət qədər böyük uzaqgörənliklə ərsəyə gətirdiyi dövlət quruculuğu strategiyası, həmçinin müəllifi olduğu siyasi-iqtisadi konsepsiya bu gün də Azərbaycanın tərəqqisinə xidmət etməkdədir. Xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ictimai-siyasi həyatın bütün sahələrində sözün əsl mənasında inqilab yaradan ulu öndər ölkənin dinamik tərəqqisində yeni bir tarixi mərhələnin əsasını qoydu.

Zaman və məkanın fövqündə fəaliyyəti ilə dayanmağa qadir olduğunu göstərən, tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin milli mənafelərin

təmininə hesablanmış məqsədyönlü siyasəti coğrafi ölçüləri baxımından kiçik sayılan Azərbaycanın dünyanın siyasi xəritəsində ən nəhəng dövlətlərlə belə müqayisəsinə imkan yaratdı. Bu, Heydər Əliyev idarəçiliyinin, onun liderlik keyfiyyətlərinin möhtəşəm nəticə və təntənələrindən biri kimi çıxış edirdi. Tarixi təcrübə də sübut edir ki, hər hansı dövlətin inkişafını, dünya birliyində öz layiqli yerini tuta bilməsini şərtləndirən əsas amillərdən biri də xalqın özünə lider olaraq seçdiyi şəxsin fərdi keyfiyyətləridir. Çünki dövlətin böyük və ya kiçikliyindən, malik olduğu iqtisadi potensialdan asılı olmayaraq, son nəticədə onun hərtərəfli tərəqqisini müəyyən edən əsas məqamlardan biri məhz lider faktorudur. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, həqiqi dövlət müşaviri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Ramiz Mehdiyevin aşağdakı fikirləri qeyd edilən kontekstdə xüsusi maraq doğurur: *«Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanılmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX–XXI əsrlərin görkəmli siyasətçilərindən biri, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır».* Bu mənada Azərbaycan xalqı da özünü xoşbəxt saya bilər ki, kifayət qədər mürəkkəb və ziddiyyətlərlə dolu dövr kimi xarakterizə edilən XX əsrdə Heydər Əliyev kimi xarizmatik lider ölkəmizə rəhbərlik edib, məhz bu dahi insanın yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində Azərbaycan sürətli, dönməz inkişaf yoluna qədəm qoyub.

Azərbaycanda həqiqi dövlət müstəqilliyinin banisi olan, milli dövlətçiliyin əsasını qoyan, böyük tərəqqiyə hesablanmış inkişaf strategiyasını müəyyənləşdirən, yeni tariximizə dövlət və xalqın xilaskarı kimi daxil olan ümummilli lider

Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin yorulmaz və gərgin fəaliyyəti zamanın yeni çağırışlarına cavab verməklə yanaşı, həm də onun yeni dövrün yeni lideri olduğunu meydana qoyur. İlk növbədə ona görə ki, cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kurs nəticəsində ölkəmizin malik olduğu müasirlik, demokratiklik, hüquqilik, dünyəvilik kimi parametrlər daha da güclənib, yeni dövrün tələblərinə cavab verən sürətli inkişaf təmin olunub. Ulu öndərin idarəçilik ənənələrini özünəməxsus qiymətli əlavələrlə zənginləşdirən Prezident İlham Əliyev əsrimizin praqmatik, rasional, mükəmməl dünyagörüşlü, çevik və təmkinli idarəetmə prinsiplərinə, dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lideri kimi çıxış edir. Məhz xalqının lideri olaraq onun düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb.

Hələ Azərbaycan Prezidenti seçilməzdən öncə ölkədə yaşanan ictimai-siyasi proseslərin içində yer alan bir şəxs olaraq o dövrdən cənab İlham Əliyev öz liderlik keyfiyyətini və yüksək idarəçilik qabiliyyətini bir neçə istiqamətdə əməli işlə göstərmişdi. Azərbaycan iqtisadiyyatının ən mühüm və aparıcı sahəsi sayılan neft sektorunda rəhbər postlardan birində təmsil olunması, həmçinin Avropa Şurası kimi nüfuzlu bir qurumda Azərbaycan nümayəndə heyətinə rəhbərlik etməsi, Milli Məclisin deputatı olaraq uğurlu fəaliyyəti onun liderlik xüsusiyyətlərinin özünü qabarıq formada büruzə verməsi ilə müşayiət olunurdu. Xalqın iradəsi əsasında Azərbaycan Prezidenti seçilməsi cənab İlham Əliyevin liderlik xüsusiyyətlərinin, bu şəxsiyyətin fenomenal qabiliyyətlərinin daha bariz formada üzə çıxmasına yeni imkanlar yaratdı.

Regionda və dünyada baş verən tarixi prosesləri düzgün qiymətləndirən, geosiyasi dəyişikliklərin gedişini xalqın

maraqları çərçivəsinə yönəltməyə qadir olan, bu məqsədlə praqmatik, rasional gedişlər etməyi bacaran, hadisələrin inkişaf axarını qabaqlayan cənab İlham Əliyev ölkəmizin inkişafı, təhlükəsizliyinə nail olmaqla yanaşı, dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirir. Xarizma, yüksək nüfuz, təşkilatçılıq bacarığı, müdriklik, yüksək intellektuallıq, milli-mənəvi dəyərlərin daim uca tutulması, novatorluq, hadisələrə pozitiv təsir, qətiyyətlilik, prinsipiallıq və bu qəbildən olan digər keyfiyyətlər də Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini xarakterizə edən başlıca xüsusiyyətlərdəndir. Fəaliyyəti ilə ölkə cəmiyyətindən getdikcə daha çox dəstək alan, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi vəhdətinə nail olan, müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən cənab İlham Əliyev ulu öndərin layiqli davamçısı olaraq beynəlxalq miqyasda da ölkəmizin yeganə və alternativsiz lideri olaraq qəbul edilir.

Mövcud beynəlxalq dünya nizamında geosiyasi və geoiqtisadi amillərin xüsusi çəkisinin yenidən artan xətt üzrə inkişaf etdiyi müasir dünyamızda cərəyan edən proseslərin inkişaf axarının düzgün müəyyən edilərək onun milli maraqlarla uzlaşdırılması getdikcə daha böyük önəm kəsb edir. Əks halda konkret halda götürülmüş dövlətin, onun maraqlarının, hətta suverenliyinin özünün ciddi təhdidlər altında qalması qaçılmaz olur. Dünyanın real mənzərəsinə nəzər salmaqla buna dair kifayət qədər çoxsaylı misallara rast gəlmək mümkündür. Lakin Azərbaycan o dövlətlər sırasında yer alır ki, geosiyasi cəlbediciliyi olduqca yüksək bir əmsalla qiymətləndirilən regionda mövcudluğuna və zəngin təbii sərvətlərə malik olması amilindən beynəlxalq hüququn daha güclü müstəqil subyektinə çevrilməsi üçün böyük məharətlə faydalanır. Eyni zamanda, ölkəmiz regionda cərəyan edən proseslərin obyekti yox, bir subyekti olaraq onların inkişaf axarının müəyyən edilməsində bu gün əsas

söz sahiblərindən biri kimi çıxış edir. Həmçinin burada Azərbaycanın iştirak və razılığı olmadan hər hansı regional təşəbbüsün, transmilli layihənin reallaşması mümkün deyil.

Ümumiyyətlə, Azərbaycan Prezidentinin xarici siyasətdə milli maraqların təmini baxımından hər zaman qətiyyətli və prinsipial bir mövqe nümayiş etdirməsi, işinə peşəkar yanaşması daim özünü aydın bir formada büruzə verir. Məhz bu peşəkarlığın nəticəsidir ki, Azərbaycan indi dünyanın müxtəlif qütblərində dayanan, bəzən isə bir-birlərinə qarşı barışmaz bir mövqe sərgiləyən dövlətlərlə qarşılıqlı əməkdaşlıq və dostluğa söykənən münasibətlər yarada bilib. Şərqlə Qərb, Şimalla Cənub arasında mərkəzçi mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan həm də burada bir körpü rolunu oynamaqdadır. Bununla Azərbaycan dünyanın bu müxtəlif qütblərində yer alan dövlətlər arasında əlaqələndirici bir missiya yerinə yetirməkdə, eləcə də Avrasiya məkanında mövqelərini daha güclü hala gətirməkdədir.

Azərbaycan Cənubi Qafqazın lideri və bu statusunu yeni nailiyyətlər hesabına getdikcə daha da möhkəmləndirən dövlət olaraq regionda geosiyasi və geoiqtisadi prosesləri milli maraqları istiqamətində yönəltməyi bacarmaqla öz təhlükəsizlik və inkişafını daha sürətli bir hala gətirir. Bu isə, öz növbəsində, Prezident İlham Əliyevin əsl liderə məxsus proseslərin gedişini əvvəlcədən görərək onu qabaqlamaq qabiliyyətinin, müasir dünyanın qloballaşma və yeni geosiyasi reallıqlardan irəli gələn siyasi mənzərəsini düzgün qiymətləndirməyi bacarmasının, hadisələrə müsbət təsirinin, yüksək idarəçilik bacarığının daha bir real göstəricisidir. Sözügedən məqamla əlaqədar ABŞ-ın nüfuzlu politoloqlarından hesab edilən Zbiqnev Bjezinski cənab İlham Əliyevin regional liderlik keyfiyyətlərini önə çəkərək qeyd edir: *«Prezident İlham Əliyev həm Qafqazda, həm də GUAM təşkilatında öz konstruktivliyi ilə seçilir. Mən onu on ildən artıq bir müddətdir ki, tanıyıram. Bu*

*müddət ərzində onun Prezident vəzifəsinə kimi yüksələ bilmək qabiliyyəti mənə yaxşı təəssürat bağışlayır. O, enerjili, ağıllı bir gənc idi. İndi isə o, özünəinamlı, ciddi dövlət adamıdır və Avropanın həmin hissəsində öz mühüm rolu və konstruktiv mövqeyi ilə seçilir».*

Ölkəmizdə Prezident İlham Əliyevin alternativsiz lider və yüksək reytinqinin olmasını şərtləndirən əsas səbəblərdən biri də Azərbaycan dövlət başçısının uğurla yerinə yetirdiyi inteqrativ funksiyadır. Bütün cəmiyyət tərəfindən qəbul edilən milli dəyərlər və ideallar əsasında fərqli maraqların birliyinin formalaşdırılması, bir araya gətirilməsi cənab İlham Əliyevin liderlik xüsusiyyətlərinin vacib bir göstəricisi, eyni zamanda uğurlu idarəçiliyinin parlaq bir təzahürüdür. Danılmaz həqiqətdir ki, milli həmrəylik, milli birlik üçün ölkəmizdə bu gün mövcud olan ictimai-siyasi şəraitin, imkanların reallaşmasına cənab İlham Əliyevin siyasi mövqeyi geniş imkanlar açıb. Bu mənada onu istər 2003, istərsə də 2008-ci illərdə özünə rəhbər, lider seçərkən Azərbaycan xalqı həm də birliyə, həmrəyliyə səs verdiyini aydın dərk edirdi və zaman xalqın müdrikliyini, seçimində yanılmadığını bir daha sübuta yetirdi. Tərəqqi tendensiyasını və ölkə cəmiyyətinin tələbatının ödənilməsini özündə ehtiva edən siyasi-iqtisadi bir kursun işlənib hazırlanması, eyni zamanda böyük bir müvəffəqiyyətlə icraya yönləndirilməsi də cənab İlham Əliyevin daha bir vacib liderlik funksiyasını uğurla reallaşdırmasının möhtəşəm təntənəsi sayıla bilər.

Qarşıya qoyulan hədəf və məqsədlərə çatmaq üçün hansı üsul və metodlardan istifadə ediləcəyinin əvvəlcədən böyük dəqiqliklə hesablanaraq müəyyənləşdirilməsi, innovativ xarakterli təşəbbüskarlığın göstərilməsi, cəmiyyətlə, onun ən müxtəlif təbəqələri ilə sıx əlaqə və görüşlər Prezident İlham Əliyev idarəçiliyinin liderlik elementlərini özündə əks etdirən və geniş ictimaiyyət tərəfindən təqdir olunan idarəçiliyinin

bazisində yer alan başlıca elementlər sırasına daxildir. Bu kontekstdə diqqəti cəlb edən əsas məqamlardan biri ölkə rəhbərinin sadəliyi, alicənablığı, təvazökarlığı, səmimiliyi, nəcibliyi, ziyalılığı, qətiyyətliyi, məqsədə doğru inamla irəliləməsi, insanlara təmənnasız münasibəti və digər yüksək mənəvi keyfiyyətləridir. Ədalətin, qanunun aliliyinin, ölkənin, eləcə də hər bir vətəndaşın təhlükəsizliyinin təminatçısı kimi çıxış edən cənab İlham Əliyevin xalqına, millətinə, vətəninə sonsuz sevgisi də onun fəaliyyətində özünü qabarıq bir formada büruzə verir. Yüksək siyasi peşəkarlıq, qətiyyətlilik, prinsipiallıq, mümkün qərarlar arasında ən doğru olanını görmək və qəbul etmək, intellektlə istedadın yaradıcı sintezinə nail olmaq təcrübəli, peşəkar dövlət adamı kimi formalaşmış Azərbaycan Prezidentinin əsl lider olmasının digər mühüm cəhətləri kimi çıxış edir.

*«Prezident o vaxt sevinir ki, onun xalqı sevinir»* deyən cənab İlham Əliyevin bu sözləri dövlət başçısının xalqa yanaşmasının ən mükəmməl göstəricisi, onun mənsub olduğu xalqa, lideri olduğu cəmiyyətə həssas və yüksək diqqətlə, böyük qayğıkeşliklə yanaşmasının daha bir bariz sübutudur. Bu mənada Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksələn xətt üzrə inkişaf etdirilməsinin, ölkədə yoxsulluq probleminin birdəfəlik həllinə nail olunmasının, insanların layiqli həyat tərzinin təmin edilməsinin, ölkəmizin beynəlxalq hüquq məkanında daha güclü bir mövqeyin sahibi kimi çıxış etməsinin və bu qəbildən olan digər vacib cəhətlərin Prezidentin fəaliyyətində əsas məqsədlər cərgəsində olması tam təbii qarşılanmalıdır. Bunun nəticəsidir ki, müasir Azərbaycanın əsas xarakterik xüsusiyyətlərindən olan sürətli inkişafın ən mühüm cəhətlərindən biri yaşanan tərəqqinin hər bir ölkə vətəndaşının, ailənin həyatında da öz əksini tapmasıdır. Beynəlxalq miqyasda da açıq etiraf olunur ki, ölkəmizdə son bir neçə ildə əhalinin həyat səviyyəsi davamlı olaraq yüksəlib,

insanların maddi gəlirləri mütəmadi artıb. Göstərilən sosial və digər xidmətlər müsbət istiqamətdə əsaslı kəmiyyət və keyfiyyət dəyişikliyinə məruz qalıb.

Bütün bunlar Azərbaycan Prezidentinin həyata keçirdiyi sosial-iqtisadi siyasətin uğurlu nəticələrini konkret misallar əsasında isbata yetirən mühüm faktorlar sırasında yer alır. Lakin Azərbaycan daim irəliyə baxan, inkişaf etmiş ölkələr sırasına daxil olmağı qarşıya əsas məqsədlərdən biri kimi qoyan dövlət olduğundan əldə edilən nəticələrlə kifayətlənmək niyyətində deyil. Yüksək templərlə müşayiət olunan inkişaf dövrünü yaşayan Azərbaycanın əldə etdiyi nailiyyətlər, aparılan daxili və xarici siyasətin gətirdiyi müvəffəqiyyətlər ölkəmizin təkcə mövcud olduğu regionda yox, daha geniş coğrafiyada tələb olunduğu təqdirdə hadisələrin inkişaf istiqamətinə təsir imkanlarını əhəmiyyətli dərəcədə artırıb və artırmaqdadır. Bu kontekstdə Azərbaycanın həyata keçirdiyi müstəqil siyasət milli maraqların qorunmasını təmin edir, xalqın mənafeyi ilə tam uzlaşır. Elə bunun nəticəsidir ki, indi Azərbaycan iqtidarı və xalqı arasında sarsılmaz bir birlik, monolitlik mövcuddur. Əslində, ölkəmizin dinamik inkişafının kökündə dayanan əsas məqamlardan biri elə xalq və iqtidar arasında yaşanan birlik və bu birliyin kifayət qədər möhkəm zəminə söykənməsi, əsaslı bazis üzərində qurulmasıdır. Bu da həm Azərbaycanın tərəqqisinin qarşıdakı dövr ərzində yenə dinamizmə əsaslanacağını, həm də ölkənin zamanın tələblərinə, dövrün çağırışlarına hazır olacağını özündə şərtləndirməkdədir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: *«Həyat yerində durmur, ölkə qarşısında yeni vəzifələr çıxır, yeni çağırışlarla üzləşirik və biz hazır olmalıyıq. Bunu etmək üçün güclü iqtisadiyyat və güclü siyasi sistem olmalıdır. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması prosesi uğurla gedir, xalqla iqtidar arasında birlik vardır. Bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir, əks təqdirdə biz bu inkişafa nail ola bilməzdik».*

Bu gün sadə vətəndaşın qayğıları ilə yaşayan, onu duyan və həlli istiqamətində konrket addımlar atan ölkə Prezidenti bununla həm də insanlar tərəfindən alqışlanaraq təqdir olunan gözəl bir nümunəyə hər zamankı sadiqliyini nümayiş etdirir. Vətəndaş görür ki, onun səsini daim eşidəcək, hüquqlarını müdafiə edəcək  Prezidenti var. Cənab İlham Əliyevin əsas məqsədlərindən biri tutduğu vəzifədən asılı olmayaraq hər bir dövlət məmurunun eyni nümunə sərgiləməsi, vətəndaşa həssas münasibət, insanlara qayğı göstərməsidir. Məhz bu səbəbdən dövlət başçısı xüsusi olaraq vurğulayır ki, bütün vəzifəli şəxslər, məmurlar vətəndaşlara ləyaqətlə xidmət etməli, onlara kömək göstərməli, qayğıları ilə yaşamalıdırlar. Sözügedən prinsip hələ cənab İlham Əliyevin dövlət başçısı seçildiyi ilk günlərdən özünü aydın göstərir. Bu gün də cənab İlham Əliyevin məmurlardan dəyişməz tələbi bütün vəzifəli şəxslərin xalqa ləyaqətlə və layiqli şəkildə xidmət göstərməsi, insanların qayğılarını hiss etmələri, mövcud problemlərinin həlli istiqamətində müvafiq addımlar atmalarıdır. Dövlət başçısının özü isə fəaliyyəti ilə bu fonda artıq olduqca gözəl bir nümunənin müəllifi kimi çıxış edir. Həmçinin daim xalqın xidmətində olan dövlət başçısı hər zaman elə lideri olduğu xalqa arxalandığını böyük qürur hissi ilə bəyan edir və bildirir ki, onun əsas missiyası mənsub olduğu xalqa xidmət etməkdir. Bütün işlərində xalqına arxalanan dövlət başçısı bundan sonra da əsas işinin məhz xalqına xidmət etməkdən ibarət olacağını qürur hissi ilə vurğulayır və göstərilən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi sayəsində Azərbaycanda belə nəhəng miqyaslı işlərin görüldüyünə diqqət çəkir. Bu, həm də cənab İlham Əliyevin xalqına, Azərbaycan insanına nə dərəcədə böyük dəyər verməsinin real təzahürüdür. Bu fonda Mustafa Kamal Atatürkün belə bir məşhur kəlamı yada düşür: *«Lider dediyin hər kim olursa-olsun, insanlara dəyər*

*verməlidir»*. Azərbaycan dövlət başçısının fəaliyyətində, xalqla təmaslarında hər bir insana hər zaman böyük dəyər verməsi həmişə aydın bir formada nəzərə çarpır.

Hər bir azərbaycanlının Prezidenti olaraq cənab İlham Əliyev paytaxtda, eləcə də ölkənin müxtəlif bölgələrində insanlarla təmasa daim xüsusi önəm verir. Bu zaman dövlət başçısını maraqlandıran əsas məsələlərdən biri vətəndaşların arzu və istəklərini dinləməklə yanaşı, ölkədə yaşanan inkişaf, müxtəlif hadisələrə münasibətidir. Bununla yanaşı, bu səpkili görüşlərdə sadə insanların hansı problemlərlə üzləşməsi də dövlət başçısını daim yaxından maraqlandırır. Belə problemlər olduğu təqdirdə onun elə yerindəcə həllinə dair Prezident tərəfindən müvafiq göstərişlərin verilməsi artıq xoş bir ənənə halını alıb. Bu da, öz növbəsində, Azərbaycan Prezidentinə cəmiyyətdə duyulan güvənci, etimadı daha da artırır.

Ölkədə həyata keçirilən islahatlar fonunda insan haqlarının daim ön planda tutulması, vətəndaşların maraqlarının həm siyasi, həm maddi mənada təminatı üçün atılan konkret addımlar ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin xalq tərəfindən daha geniş dəstəklənməsini təmin edən mühüm faktorlardandır. Ümumiyyətlə, Avratlantik məkana inteqrasiya kursu seçən və bu istiqamətdə mühüm nailiyyətlərə imza atmağı bacaran Azərbaycanda demokratik dəyərlərin daha möhkəm özüllər üzərində bərqərar olaraq davamlı inkişafı hər zaman xüsusi diqqət mərkəzində yer alıb. Məhz bu səbəbdəndir ki, ölkəmizdə müasir dünya tələblərinə uyğun demokratiya mühiti formalaşıb və bu mühitin daha zəngin xarakter alması istiqamətində görülən işlərin miqyası daim genişlənir. Azərbaycanda söz və fikir azadlığının, siyasi plüralizmin, çoxpartiyalı sistemin mövcudluğu, vətəndaşların azad seçiminə yüksək şərait yaradılması, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlər, qazanılan digər uğurlar da qeyd olunanların məntiqi nəticəsidir.

Digər tərəfdən, bu, ölkəmizin mövcud inkişaf yolunun nə dərəcədə düzgün olduğunu, yaşanan tərəqqinin demokratiya da daxil olmaqla müxtəlif sferaları özündə ehtiva etdyini aydın nümayiş etdirir. Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi altında bu istiqamətdə görülən işlərin davamlı xarakteri xalq və hakimiyyət arasında birliyi daha da möhkəmləndirməkdə, Azərbaycanda demokratiyanın inkişaf tempini bir qədər də sürətləndirməkdədir. Beləliklə, Azərbaycanda siyasi və iqtisadi inkişafın uğurlu bir vəhdəti formalaşıb və bu, müvəffəqiyyətlərlə zəngin idarəçilik formasının real təzahürünü özündə əks etdirən mühüm məqamlardandır.

Deyilənlərdən aydın görünür ki, Azərbaycan dövlət başçısının rəhbərliyi altında həyata keçirilən siyasət nəticəsində ölkənin kompleks inkişafı təmin olunub, sosial-iqtisadi, siyasi, hüquqi sahədə modern sistem qurulub, cəmiyyətdə demokratik dəyərlər daha geniş miqyasda bərqərar edilib və onların daim təkmilləşdirilməsi prioritet məqsədlərdən biri kimi qarşıya qoyulub. Eyni zamanda, əhalinin maddi rifah halının yüksəldilməsi, sosial müdafiəsinin möhkəmləndirilməsi üçün real resursların dayanıqlı mənbəyi yaradılıb. Siyasi fəaliyyətinin əsas istiqamətlərini milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq, xalq amilinin hakim mövqeyə malik olması, qüdrətli və müasir Azərbaycanın yaradılması, onun dünya birliyində tutduğu layiqli mövqeyin daha da güclənməsi, verilən vədlərə sadiqlik, qarşıya qoyulan məqsədlərə nail olunması, tolerantlıq və bu qəbildən olan digər amillər təşkil edən Prezident İlham Əliyev yeni yüzillikdə ölkəmizin intibahının möhkəm əsaslarını yaradıb.

Bütün bunlar, eyni zamanda, cənab İlham Əliyevin xarizmatik bir lider olaraq ölkəmizə uğurlu inkişaf yolunda yeni müvəffəqiyyətlər qazandırmaqla onu daha işıqlı bir gələcəyə doğru apardığını aydın nümayiş etdirir. Bu missiyanın həyata keçirilməsində Azərbaycan dövlət başçısının alternativi

yoxdur və o, ölkəni yeni qalibiyyətlər və müvəffəqiyyətlərə doğru aparacaq yeganə liderdir. Qeyd edilənlər həm də onun göstəricisdir ki, İlham Əliyev fenomeninin rəhbərlik missiyasını davam etdirməsi həm də Azərbaycan cəmiyyətinin sosial sifarişi olaraq tarixi zərurətdən irəli gəlir. Belə bir zərurətin yaranmasının ən ümdə cəhətlərindən biri isə məhz onun liderlik xüsusiyyətləridir. Akademik Ramiz Mehdiyev «Azərbaycan: qloballaşma dövrünün tələbləri» əsərində Prezident İlham Əliyevin liderlik keyfiyyətlərinə toxunarkən olduqca mühüm məqamlara diqqət çəkərək yazır: *«Faktlardan qaçmaq olmaz və onlar sübut edir ki, İlham Əliyev yeni dövrün siyasətçisidir və özünün də dəfələrlə vurğuladığı kimi, hər bir azərbaycanlının Prezidenti olmaq, tarixin hələ tezliklə başa çatmayacaq mürəkkəb dövründə ölkəyə rəhbərlik etmək üçün bütün zəruri liderlik keyfiyyətlərinə malikdir. İlham Əliyevin dövlət və onun inkişafı barədə baxışları məlumdur. Onun başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatik, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, geniş baxışlara malik siyasətçidir. Azərbaycana məhz belə siyasətçi – amerikalıların işgüzarlığını, britaniyalıların ehtiyatlılığını, almanların dəqiqliyini, habelə məsuliyyətliliyini, azərbaycanlıların açıqlığı, səmimiliyi və tolerantlığını özündə birləşdirən siyasətçi lazımdır».*

Bu gün Azərbaycan özünün böyük bir intibah, inkişaf dövrünü yaşamaqdadır, cəmiyyət həyatının bütün əsas sahələrində möhtəşəm dəyişikliklər yaşanır. Bu dəyişikliklərin, uğurlarla zəngin inkişafın müəllifi Prezident İlham Əliyevdir. Yeniliyin, innovasiyanın tərəfdarı olan, belə təşəbbüslərlə çıxış edən, bu səpkili fikirlərə açıq dəstək verən, tərəqqiyə

xidmət edən yaradıcılığı yüksək qiymətləndirən, mövcud imkanlardan ən müfəssəl şəkildə faydalanan dövlət başçısının fəaliyyəti Azərbaycanın müvəffəqiyyətlərlə dolu inkişaf yolunu müəyyənləşdirir. Doğru zamanda doğru qərarlar verən, real hədəflər seçən, önəmli strateji dəyişikliklərə gətirib çıxaran ideya və planların müəllifi kimi çıxış edən Azərbaycan Prezidenti həm də islahatçı bir lider olaraq çağdaş tariximizin yaradılmasının əsas müəllifi rolundadır.

İndi müstəqil Azərbaycan cənab İlham Əliyevin liderliyi ilə daha xoşbəxt gələcəyinə doğru inamla irəliləməkdədir. Xalqın özünə rəhbər olaraq seçdiyi şəxsin dövlət başçısı kimi ötən müddət ərzində fəaliyyəti qısa zaman kəsiyində Azərbaycanı lider ölkələr cərgəsinə çıxarıb. Bəzi hallarda müəyyən kateqoriyalar üzrə Azərbaycan liderlər siyahısının lideri olaraq dünya tarixinə öz adını həkk etdirib və etdirməkdədir. Bu kontekstdə qarşıdakı dövr ərzində uğurlu inkişaf yolunda cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin hələ bir çox müvəffəqiyyətlərə imza atacağı heç bir şübhə doğurmur. Daim müdrik seçim etməyi bacaran xalqımızın bundan sonra da onu irəliyə doğru aparan liderinə tam dəstək verəcəyi birmənalıdır. Çünki müstəqilliyimizin əbədiliyinin, dövlətin hərtərəfli yüksəlişinin ən etibarlı təminatçısı olan Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, ideyalarını yaşadan və həyata keçirən Prezident İlham Əliyevin ətrafında daha sıx səfərbər olan xalqla onun lideri arasında özünü göstərən birlik sarsılmaz və əbədidir.

## Mündəricat

### I FƏSİL
### Azərbaycanı modern dövlətə çevirən islahatlar

Milli maraqlara söykənən qətiyyətli mövqe.......................11
Güclü dövlətin qüdrətli ordusu........................................52
Uğurlu xarici siyasət strategiyası....................................84
Demokratik hüquqi islahatlara sadiqlik nümunəsi...........122

### II FƏSİL
### Demokratiya yoluna sədaqət

Xalqın azad seçim hüququnun reallaşdırılması...............165
Demokratik parlamentarizm ənənələri inkişaf edir..........195
Vətəndaş cəmiyyətinin qurucusu...................................214
Söz və mətbuat azadlığı demokratikləşmənin
prioritet xəttidir...........................................................233
Dünya azərbaycanlılarını birləşdirən lider......................252

### III FƏSİL
### Yeni hədəflərə doğru

Modernləşmə strategiyası: iqtisadi və
siyasi liberallaşma.........................................................271
Heydər Əliyev ideyalarını layiqincə yaşadan Fond.........289
Yeni hədəf inkişaf etmiş ölkələr sırasına
daxil olmaqdır...............................................................322
İlham Əliyev fenomeni: uğur rəmzi................................337

Kağız formatı 70/100, 1/16,
000 çap vərəqi, 352 səh.
Tiraj: 000 ədəd.
Sifariş: 0000
«OSKAR» NPM-in mətbəəsində ofset üsulu ilə çap olunmuşdur
Bakı, Tbilisi prospekti 3001
Tel: 430 23 10, 430 23 20